*Yüksək təhsilin yeni ünvanı!*

# İLAHİYYAT

*Təsisçi: Azərbaycan İlahiyyat İnstitutu / İyun, 2019-cu il / № 01*



**Baş redaktor:**
*i.f.d.* **Ceyhun Məmmədov**

**Redaktor müavini:**
**Rəhilə Misirxanova**

**Ədəbi redaktor:**
**Rəna Həsrətova**

**Texniki redaktor:**
**Zamin Məmmədov**

**Redaksiya heyəti:**
*i.f.d.* **Aqil Şirinov**
*i.f.d., dos.* **Mübariz Camalov**
*f.f.d.* **Mirniyaz Mürsəlov**
*f.f.d.* **Kövsər Tağıyev**
*i.f.d.* **Elnurə Əzizova**
*f.f.d.* **Əhməd Niyazov**
*f.f.d., dos.* **İlkin Əlimuradov**
*s.f.d.* **Elvüsal Məmmədov**
*f.f.d., dos.* **Anar Qafarov**
*f.f.d., dos.* **Ələddin Məlikov**
*s.f.d.* **Asəf Qənbərov**
*i.f.d. dos.* **Namiq Abuzərov**

# BU SAYIMIZDA


RƏSMİ GUŞƏ
**Prezident İlham Əliyev Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib** ... 4
**Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib** ... 4
**Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı** ... 5
**C.V.Məmmədovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı** ... 5

TARİX YAZANLAR
**Milli Qurtuluşumuzun banisi**
*i.f.d. Ceyhun Məmmədov* ... 6

AZƏRBAYCAN GERÇƏKLİYİ
**Ana dilimiz kimliyimizdir**
*V.Qaradağlı* ... 8

AKTUAL SÖHBƏT
**Fəaliyyətimizdə Azərbaycan xalqının milli və mədəni inkişafına öz töhfəmizi verməyə çalışırıq**
AİI rektoru Ceyhun Məmmədovla müsahibə ... 9

TƏHSİL
**Ali təhsil müəssisələrinin innovativ fəaliyyətinin idarə olunması**
*Zərifə Əliyeva* ... 15

CƏMİYYƏT VƏ DİN
**İslamda insan sağlamlığı**
*M.Məmmədov* ... 17
**Nikahın mahiyyəti və erkən nikaha dini baxış**
*f.f.d. Əhməd Niyazov* ... 20
**İslamda qadına zorakılıq yoxdur**
*f.f.d. Fazil Mustafa* ... 25

BAXIŞ BUCAĞI
**Qlobal əxlaq düşüncəsi fəlsəfi müstəvidə**
*f.f.d., dosent Anar Qafarov* ... 29
**İmmanuel Kantın fəlsəfəsində dinə baxış**
*f.e.d., dosent Ələddin Məlikov* ... 37
**Успех не случаен**
*Шамс Багирова* ... 42

ABİDƏLƏR
**Göbəklitəpə: Dünyanın ən qədim məbədi**
*s.f.d. Asəf Qənbərov* ... 44
**Kəlbəcərdə daşlaşan tariximiz**
*Vəli Yusifoğlu* ... 47
**Maddi-mədəniyyət abidələrimiz milli sərvətimizdir**
*Zahid Rza* ... 50
**Ən qədim inam və iman yerimiz**
*R.İsmayılqızı* ... 54
**Mübarək Əqsa məscidi**
*f.f.d. Elvüsal Məmmədov* ... 56

ARAŞDIRMA
**Tərcümə mətnləri: müqayisəli təhlil**
*Şahin Ələsgərov* ... 58

ƏDƏBİYYAT
**Avtobus oğrusu**
*Elif Yusif* ... 63

TƏDBİRLƏR
**“İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu** ... 67

BÖLGƏLƏRƏ SƏFƏRLƏR
**Tələbələrimiz bölgələrdə**
*Rəhilə Misirxanlı* ... 75
**Abituriyentlərlə görüş** ... 84

XARİCİ SƏFƏRLƏR
**Rusiya Federasiyasına səfər** ... 96

SEMİNARLAR
**Müasir alman cəmiyyətində İslama münasibət** ... 98

XARİCİ QONAQLAR İNSTİTUTUMUZDA
**ABŞ nümayəndə heyətinin üzvləri ilə görüş** ... 99
**Xarici ölkələrin səfirləri İnstitutumuzda**
*Gülnar Quluzadə* ... 100

# Prezident İlham Əliyev Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



Prezident İlham Əliyev Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayının dünya müsəlmanlarının ən əziz ayı olduğu bildirilir. Qeyd edilir ki, oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Qurani-Kərimin nazil olması ilə əlamətdardır. Ramazan Bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.

Vurğulanır ki, Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi kimi bəşəriyyətin mədəni irsinə öz töhfələrini verib, böyük alimlər və mütəfəkkirlər yetişdirib. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıb.

Təbrikdə qeyd edilir ki, bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. “İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram”, - deyə dövlətimizin başçısı bildirir.

# Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan Bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təbrikində deyilir: “Əziz həmvətənlər, Sizi müqəddəs Ramazan Bayramı münasibətilə təbrik edirəm. Bu mənəvi yenilənmə və təmizlənmə bayramında sizə xoşbəxtlik və rifah, saf niyyətlər və xeyirxah işlər arzu edirəm. Allah sizin bütün oruclarınızı və dualarınızı qəbul etsin, Vətənimizə sülh, xoşbəxtlik, xoş günlər və firavanlıq bəxş etsin”.



# Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etmək üçün Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi öz tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaratsın.

**2.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin Azərbaycan İlahiyyat İnstitutunun strukturuna daxil edilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi:

**3.1.** iki ay müddətində Azərbaycan İlahiyyat İnstitutunun nizamnaməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**3.2.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**4.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**4.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**4.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**4.4.** Azərbaycan İlahiyyat İnstitutunun bina ilə təmin edilməsi üçün iki ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**4.5.** Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətinin maliyyələşdirilməsi və texniki təminatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

**4.6.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 9 fevral 2018-ci il.

# C.V.Məmmədovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Valeh oğlu Məmmədov Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilsin.

**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 31 may 2018-ci il.

# Milli Qurtuluşumuzun banisi



***1993-cü ilin yazında Azərbaycan təlatümlü günlər keçirirdi. Azadlığımızı gözü götürməyən qüvvələr müstəqilliyi hələ kövrək olan ölkəmizi hərbi poliqona çevirmişdilər. Bir tərəfdən, Ermənistan qoşunlarının təcavüzü, digər tərəfdən, silahlı qrupların özbaşınalıqları, iqtisadiyyatın iflic vəziyyətə düşməsi, çörək qıtlığı və digər amillər hakimiyyət böhranını təhlükəli həddə çatdırmışdı. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyü ölkəni idarə etməkdə çətinlik çəkirdi. Şəhərlərdə insanlar axşamdan-sübhədək çörək növbəsində durmalı olurdular. Bunlardan da betər işğalçı erməni qoşunlarının ölkəmizin içərilərinə doğru sürətlə irəliləməsi idi. Düşmənlərimiz torpaqlarımızı maneəsiz işğal edir, köməksiz qalmış soydaşlarımız şəhid olur və yaralanıb sıradan çıxırdılar. Ölkənin iqtisadi, ictimai-siyasi və digər sahələrində gərginlik təhlükəli hal almışdı. Gənc dövlətimizin müstəqilliyi tükdən asılı vəziyyətə düşmüşdü. İnsanların gələcəyə olan ümidləri qırılmışdı.***

Belə bir təhlükəli zamanda Gəncədə dislokasiya olunmuş sovet ordu hissələrinin bütün arsenalını ələ keçirmiş Surət Hüseynov hakimiyyətə nəinki tabe olmur, əksinə, dövlət başçılarından istefa vermələrini qətiyyətlə tələb edirdi. Xarici qüvvələrin təsiri altına düşən Surət Hüseynovun hərəkətləri ölkənin müstəqilliyinə qarşı hesablanmışdı. AXC-Müsavat rəhbərliyi Surət Hüseynovu neytrallaşdırmaq məqsədilə “Tufan əməliyyatı” hazırladı. Plana əsasən, Gəncə şəhəri mühasirəyə alınmalı, oradakı qanunsuz silahlı dəstələr zərərsizləşdirilməli və qayda yaradılmalı idi. Milli Təhlükəsizlik nazirinin birinci müavini Sülhəddin Əkbər Gəncədəki qərargahında hadisələrin gedişini izləyir və münaqişəni dinc yolla ni-

zamlamağa çalışırdı. Onların düşündükləri kimi olmadı. Briqada komandiri, polkovnik Surət Hüseynov danışıqlardan imtina etdi və döyüş baş verdi. Hər iki tərəfdən ölənlər və yaralananlar oldu, şəhər təsərrüfatına ciddi ziyan dəydi. Döyüş nəticəsində hökumət qüvvələri məğlub olub geri çəkildilər. Qələbəsindən ruhlanan Surət Hüseynov tabeliyindəki qoşunları zirehli texnikanın müşayiəti ilə Bakı üzərinə hücuma göndərdi. Özbaşınalıq edən surətçilər rayonlara daxil olub, rəhbər vəzifəli şəxsləri döyüb təhqir edir, işdən qovur, öz adamlarını qeyri-qanuni yolla İcra Hakimiyyətinin başçısı təyin edirdilər.

Səbir kasası dolmuş xalq ayağa qalxaraq, ölkəni bəlalardan xilas edəcək yeganə şəxsiyyəti - Heydər Əliyevi hakimiyyətə gəlməyə çağırdı. Xalqın səsinə həmişə səs vermiş dahi rəhbər Bakıya gəldi və vəziyyətlə yerində tanış olmaq üçün bir dəstə jurnalistlə Gəncəyə yollandı. Oradan qayıdan kimi, dərhal gördükləri barədə xalqa geniş məlumat verdi. Bu ərəfədə Surətin hədələrindən qorxuya düşmüş Ali Sovetin Sədri İsa Qəmbər, bir neçə gün sonra Baş nazir Pənah Hüseynov və digərləri istefa verdilər, Xarici İşlər naziri Tofiq Qasımov vəzifəsini “dondurduğunu” bildirdi. Onlardan bir qədər sonra isə Prezident Əbülfəz Elçibəy gizli şəkildə doğulduğu Kələki kəndinə getdi, ölkəni oradan idarə edəcəyini bildirdi.

1993-cü il iyunun 15-də keçirilən iclasda Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Həmin iclası televiziya ilə həyəcanla izləyən xalq, nəhayət, dərindən nəfəs aldı. Hamıda bir məmnunluq və arxayınlıq yarandı ki, bütün dünyanın tanıdığı dahi şəxsiyyət Azərbaycanı düşdüyü təhlükələrdən qurtaracaq. Belə də oldu.

Ümummilli Lider hakimiyyətə ikinci dəfə gəlişi ilə bütün məsuliyyəti öz üzərinə götürdü, cəbhədə atəşkəsin əldə olunmasından istifadə edərək, respublikada ictimai-siyasi sabitliyin bərpasına, kriminogen vəziyyətin aradan qaldırılmasına, vahid komandanlıq altında nizami ordunun yaradılmasına, iqtisadiyyatın dirçəldilməsinə, cəmiyyətin bütün sahələrində islahatların həyata keçirilməsinə nail oldu.

Beləliklə, 15 İyun Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan xalqı bu günü özünün ən böyük bayramlarından biri kimi qeyd edir.

Hər zaman xatırlamalıyıq ki, Heydər Əliyevin son dərəcə ağıllı addımları nəticəsində, Azərbaycanın kövrək müstəqilliyi möhkəmləndi və tarix üçün çox qısa zaman kəsiyində sarsılmaz oldu. Cəmi bir neçə il ərzində müstəqil Azərbaycan Respublikasının ilk Milli Konstitusiyasının qəbul edilməsi, demokratik yolla prezident və bələdiyyə seçkilərinin keçirilməsi, Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, mətbuat üzərindən senzuranın götürülməsi, siyasi plüralizm və çoxpartiyalı sistemin dəstəklənməsi, bütün sahələrdə köklü islahatlar, iqtisadi yüksəliş və bir çox digər məsələlər unudulmaz rəhbərimiz Heydər Əliyevin adı ilə bağlıdır. “Əsrin müqaviləsi”nin bağlanması, Bakı-Tbilisi-Ceyhan Neft Kəmərinin çəkilməsi, Bakı-Tbilisi-Ərzurum Qaz Kəmərinin həyata vəsiqə qazanması, “Böyük İpək Yolu”nun bərpası Ulu Öndərin Azərbaycan xalqı və beynəlxalq ictimaiyyət qarşısında göstərdiyi böyük xidmətlərdəndir.

Biz bu gün fəxrlə deyirik ki, Ümummilli Lider torpağı hər gün işğala məruz qalan, hərc-mərcliyin baş alıb getdiyi, iqtisadiyyatı darmadağın olan, cinayətkar silahlı dəstələrin at oynatdığı bir dövlətə rəhbərlik edərək, onu qısa müddətdə sivil bir dövlətə çevirməyi bacardı. Dahi rəhbər Azərbaycana dövlət müstəqilliyi, azərbaycanlılara azadlıq bəxş etdi; ölkəmizdə insanların firavan yaşamaları üçün lazım olan hər şəraiti yaratdı. Azərbaycan beynəlxalq miqyasda tanınmağa və nüfuz qazanmağa başladı. Qısaca olaraq söyləməliyik ki, Ulu Öndərin geniş fəaliyyətinin çox qısa xülasəsi olan bu yazdıqlarımıza əsasən deyə bilərik ki, Heydər Əliyev əsrinin ən böyük dövlət xadimi və siyasətçisidir.

Dünyanın məşhur dövlət başçıları Heydər Əliyevi əsrin ən istedadlı dövlət və siyasi xadimi kimi yüksək qiymətləndirmişlər. ABŞ-ın keçmiş prezidenti Bill Klinton demişdir: “Azərbaycanın demokratiya və bazar iqtisadiyyatı yolu gedən bir müstəqil dövlət kimi möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və böyük inkişaf əldə olunmasında Prezident Heydər Əliyevin müstəsna rolu vardır”.

Çox yerində deyilmiş bir kəlam var: “Nə qədər ki, müstəqil Azərbaycan Dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır!”.

**Ceyhun Məmmədov**

# Ana dilimiz kimliyimizdir

***1972-ci ilin ortalarında yazıçılardan birinin "Yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız", - deyərək təəccübünü bildirəndə Heydər Əliyev gülümsəyərək, ona belə cavab vermişdi: "Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim Ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız".***

Gəlişigözəl sözlər deyildi. Böyük rəhbərin həmin cavabı ilə Azərbaycan dilinə uzun müddət davam edən soyuq münasibətə birdəfəlik son qoyuldu. Bütün Azərbaycan xalqı üçün qürurverici idi ki, Ümummilli Lider, sözün əsl mənasında, təkzibolunmaz faktlarla səlis və məntiqli danışan alovlu tribun idi.

SSRİ-də onun nitqlərini heyranlıqla dinləyirdilər. Gur səsi, yüksək intonasiyası, rəvan nitqi böyük zalları belə titrədirdi. Kremldə yüksək vəzifədə işləyən ruslar və qeyri-millətlərin nümayəndələri Heydər Əliyevin natiqliyinə həsəd aparırdılar. Onlardan biri etiraf etmişdi ki, Heydər Əliyev rus dilini biz ruslardan yaxşı bilir.

Böyük rəhbər Azərbaycan dilini də incəliklərinə qədər bilirdi. Heydər Əliyev belə hesab edirdi ki, Azərbaycanın milli ruhunun yüksəlişinə təkan verən şərtlərdən biri Ana dilində təhsilin daha da genişləndirilməsidir. Bu prosesin inkişaf etdirilməsi məqsədilə 1969-1982-ci illərdə respublikanın bütün şəhərlərində, kənd və qəsəbələrdə yüzlərlə uşaq bağçası və məktəb tikilib istifadəyə verildi. Ölkədə fəaliyyət göstərən ali məktəblərin sayı bir neçə ildə 12-dən 17-yə çatdırıldı. Ali təhsil alan tələbələrin sayı isə 70 min nəfərdən 100 min nəfərə yüksəldi.

O zaman SSRİ-də dövlət dili yalnız rus dili sayılsa da, Heydər Əliyev ölkə rəhbərləri ilə gərgin danışıqlar apararaq, Azərbaycan dilinin Dövlət dili kimi qəbul edilməsinə nail oldu. 1978-ci ildə çoxlarının müqavimətinə baxmayaraq, Azərbaycan dilinə dövlət dili statusu verildi. 1978-ci il Konstitusiyasında respublikamızda Azərbaycan dili Dövlət dili olaraq təsbit edildi. SSRİ kimi bir imperiyada belə addım görünməmiş hadisə hesab olunurdu.

Həmin dövrdən dilimizin inkişafına xüsusi diqqət yetirildi. Tanınmış dilçi alimlər sanballı elmi-tədqiqat əsərləri yazdılar, dərsliklər, dərs vəsaitləri nəşr olundu, Azərbaycan dilinin tədrisi genişləndirildi. Radioda və televiziyada Ana dilində verilişlər üstünlük təşkil etdi.

Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra, xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev dilin saflığının qorunması və daha da zənginləşdirilməsi məqsədilə bir sıra böyük əhəmiyyətə malik addımlar atdı. Bu gün dahi rəhbərin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Ana dilimizin daha da inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir.

Prezident İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı buna bariz nümunədir. Fərmanda deyilir ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi, az qala, adi hala çevrilmişdir. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularına gətirib çıxarır.

Bəli, bu gün həqiqətən də dilimizin zənginliyi radio və televiziya kanallarında az görünür. Səviyyəsiz verilişlərdə xüsusilə aparıcılar dilimizin qayda-qanunlarını kobud surətdə pozur, bununla da cəmiyyətə zərbə vurmuş olurlar. Onlar nəinki "sözün su kimi lətafəti"ndən istifadə etmir, əksinə, bulaq suyu kimi büllur dilimizi korlayırlar. İş o yerə çatıb ki, dövlətimizin başçısı bu sahədə baş alıb gedən qüsurların və pozuntuların qarşısının alınması üçün xüsusi Fərman imzalamalı olub.

Bəzən telekanallarda dil və ya nitq qüsuru olan aparıcılara rast gəlirik.

Bəziləri də xarici sözləri yersiz işlədərək, guya intellektinin yüksək olduğunu nümayiş etdirir. Xarici dillərdən tərcümə edilən bəzi reklamların mahiyyəti düzgün ifadə edilmir. "Aclıq güc gələndə sən o sən deyilsən" və ya "Acmısan? Dayanma, snikerslə" kimi mücərrəd ifadələr dinləyicidə və ya tamaşaçıda ikrah hissi doğurur. Yüzlərlə belə misal gətirə bilərik.

Dilimiz bizə ulu babalarımızın qoyub getdiyi mirasdır. Biz Ana dilimizin saflığının qeydinə qalmalı, onu gələcək nəsillərə ərməğan etməliyik. Bu, bizim hər birimizin ən müqəddəs borcumuzdur.

**V.Qaradağlı**

# Fəaliyyətimizdə Azərbaycan xalqının milli və mədəni inkişafına öz töhfəmizi verməyə çalışırıq

**Aİİ rektorunun "İlahiyyat" jurnalına verdiyi müsahibəni dərc edirik**



***- Hörmətli Ceyhun Məmmədov, AİI-də bir il ərzində görülən işlər barədə məlumat verməyinizi xahiş edirik...***

- İlk gündən etibarən, İnstitutun fəaliyyətinin qurulması istiqamətində tədbirlərin həyata keçirilməsinə başladıq. Vaxtımızın məhdudluğuna baxmayaraq, dərs ilinin başlanmasına qədər, demək olar, tədrisə aid bir çox məsələləri həll etdik. İyun ayından etibarən, ali təhsil ocağında təhsil standartlarının müəyyənləşdirilməsi, strukturun təşkili, tələbə qəbulu, ilk dərs ilinə hazırlıq, İnstitutun tanıdılması istiqamətində ardıcıl və məqsədyönlü işlər gördük.

Üç ay ərzində Azərbaycan İlahiyyat İnstitutunun çox fərqli, şəffaf, modern, aydın və sağlam təməli quruldu. Kollektivin hər bir üzvünü şəffaf şəkildə müsabiqə yolu ilə seçdik. Bütün əməkdaşlar tutduqları vəzifələri öz qabiliyyətləri, istedadları və peşəkarlıqları ilə qazandılar.

Tədrisin mükəmməl səviyyədə təşkili üçün bütün işlər görülüb. Bir il ərzində ali təhsil ocağını yerli və beynəlxalq aləmdə çox tanıtdıq.

Belə ki, pedaqoji heyətin seçiminə xüsusi diqqətlə yanaşdıq, yeni kadrların işə qəbulunu komissiyaya həvalə etdik. Üç mərhələdə reallaşan seçimin ilkin mərhələsində komissiyaya təqdim edilən tərcümeyi-hallar nəzərdən keçirildi. Bu mərhələdən adlayanlar müsahibəyə çağırıldı, müvəffəqiyyət qazananlar sınaq (demo) dərslərinə cəlb edildilər. Komissiya üzvləri və müəllimlərin iştirakı ilə yekun olaraq işə qəbulla bağlı həlledici qərarlar verildi.

Qeyd edim ki, tədrisin daha da təkmilləşdirilməsi məqsədilə rəhbər şəxslərin də iştirak etdikləri müəllimlərin "Açıq dərs"lərində oturur, tədrisin daha mükəmməl səviyyədə keçirilməsi üçün məsləhətlər veririk.

Azərbaycan İlahiyyat İnstitutuna 2018/2019-cu tədris ilində ilk dəfə tələbə qəbulu həyata keçirildi. Qəbul Dövlət İmtahan Mərkəzinin xətti ilə ödənişsiz əsaslarla III qrup üzrə iki istiqamətdə - İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə baş tutdu. Ötən tədris ilində dövlət sifarişi əsasında qəbul üzrə ayrılmış plan yerləri 100 faiz doldu; İslamşünaslıq ixtisası üzrə 35, Dinşünaslığa isə 25 nəfər olmaqla, ümumilikdə, 60 abituriyent tələbələr sırasına qəbul edildi. Hazırda İnstitutda ümumilikdə 109 gənc təhsil alır.

İnstitutun açılış günü 17 sentyabr 2018-ci il tarixdə baş tutdu. Mərasimdə Azərbaycan Respublikası Prezidenti Administrasiyası Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatı Siyavuş Novruzov, Türkiyə Dəyanət Vəqfi "29 Mayıs" Universiteti İdarə Heyətinin sədri Tayyar Altıkulac, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Fuad Nurullayev, Azərbaycanda fəaliyyət göstərən dini icma rəhbərləri və digər məsul şəxslər iştirak etdilər.

Elə həmin gündən başlayan dərs prosesindən tələbələrimizə övladlarımız kimi yanaşdıq. Hər biri ilə fərdi surətdə çalışaraq, problemlərini dinlədik. Çox şadam ki, bu gün tələbələrimizlə AİI rəhbərliyinin hər bir üzvü arasında çox isti münasibət var, onlar çətinlikləri haqqında çəkinmədən bizə danışa bilirlər.

İnstitutda təhsil tam ödənişsizdir. Tələbələrimizə dövlət tərəfindən xüsusi qayğı göstərilir. Onlar təhsil aldıqları müddətdə dərslik, qida və geyimlə təmin olunurlar. İmkansız 30 tələbəyə Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis etdiyi təqaüd verilir. Qeyd edim ki, təhsil müəssisəsində Ulu Öndər Heydər Əliyev və Şeyxülislam təqaüdləri də təsis edilib.

***- AİI-də İlahiyyat fakültəsi, İslamşünaslıq, Dinşünaslıq, Dillər və ictimai fənlər kafedraları mövcuddur. Təhsil iki istiqamətdə - İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə həyata keçirilir. İslamşünaslıq ixtisası üzrə standartlara İslam dininin teoloji, tarixi, sosioloji, psixoloji və fəlsəfiaspektlərdən öyrənilməsini təmin***

***edən fənlər daxildir. Bu ixtisasın standartlarında ənənəvi İslam elmləri ilə yanaşı, dinləri müxtəlif yönlərdən tədqiq edən Din sosiologiyası, Din psixologiyası, Din fəlsəfəsi, Məzhəblər tarixi, Dinlər tarixi və digər fənlər öz əksini tapıb. İslamşünaslıq ixtisasına yiyələnənlərin həm din xadimi, həm də İslam dini üzrə mütəxəssis kimi fəaliyyət göstərmələri nəzərdə tutulub.***

- İslamşünaslıq kafedrası 13 sentyabr 2018-ci il tarixdə yaradılıb. Kafedra İslamşünaslıq istiqaməti üzrə dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin edir. Həmçinin İnstitutda təhsil alan tələbələrə qeyd olunan fənləri tədris edir: "Qurani-Kərim"; "Qurani-Kərim"in təcvidi və qiraəti; Kəlam; Əqaid; Təsəvvüf; Hədis; Hədis məsələləri; İslam hüququ; Fiqh üsulu; Təfsir; Elmihal; İslam əxlaqı.

İslamşünaslıq kafedrası ali təhsilin bakalavriat pilləsində İslamşünaslıq istiqaməti üzrə dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin edən əsas aparıcı ixtisas kafedralarından biridir. Burada iş Azərbaycan Respublikasının qanunvericiliyi, Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş Əsasnamə və Azərbaycan İlahiyyat İnstitutunun Nizamnaməsi əsasında qurulub. Məqsəd milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan, sosial məsuliyyət anlayışı ilə dini doğru şəkildə insanlara çatdıran, cəmiyyətdə dini terminlərin düzgün anlaşılmasını təmin edən, həmçinin fərdlərin mədəniyyətimizə yadlaşmasının qarşısını alan, digər din və inanc sistemlərinə hörmətlə yanaşan, maarifləndirici elmi tədqiqat fəaliyyətində fəal çalışan, mövhumat və xurafata qarşı dinin prinsiplərini cəmiyyətə təqdim edə bilən mütəxəssislər yetişdirməkdir.

Dinşünaslıq ixtisası üzrə standartların hazırlanmasında Azərbaycan reallıqları nəzərə alınmaqla, Kaliforniya Dövlət Universiteti, Oksford, Kembric, Standford və dünyanın digər aparıcı universitetlərində mövcud olan Dini tədqiqatlar (religious studies) bölmələrinin standartlarından istifadə edilmişdir. Bu standartlara İslam, Yəhudilik, Xristianlıq, Hind-Çin mənşəli dinlər kimi dünyada mövcud olan böyük dinlərin öyrənilməsini nəzərdə tutan fənlər daxil edilib. İstər İslamşünaslıq, istərsə də Dinşünaslıq ixtisaslarının standartlarında Multikulturalizmə giriş, Azərbaycan tarixi, Fəlsəfə, Məntiq, həmçinin Ərəb və İngilis dilləri fənlərinin öyrədilməsi nəzərdə tutulub. İnstitutda gələcəkdə qeyd olunan iki ixtisasdan əlavə, dinşünas-pedaqoqların hazırlanmasını nəzərdə tutan ixtisasın yaradılması da planlaşdırılır.

Dinşünaslıq kafedrası İnstitutda fəaliyyət göstərən əsas tədris-elmi struktur bölmələrindən biridir. Kafedra Azərbaycan İlahiyyat İnstitutu Nizamnaməsinin 5.11.6-cı bəndinə əsasən, İnstitut Elmi Şurasının 13 sentyabr 2018-ci il tarixli iclasının qərarı ilə yaradılmışdır. Dinşünaslıq kafedrası ali təhsilin bakalavr və magistratura təhsili pillələrində əsas aparıcı ixtisas kafedralarından biridir. Gələcək mütəxəssislərin hazırlığında kafedra müxtəlif fənlər üzrə tədris həyata keçirir: Dinlər tarixi; İslam mədəniyyəti tarixi; Müqayisəli dinlər tarixi; İslam tarixi; Din psixologiyası; İslam məzhəbləri tarixi; Müqəddəs mətnlərin hermenevtikası; Elm və din; Müqayisəli teologiya; Mistisizm; Multikulturalizmə giriş; Din fəlsəfəsi; Din sosiologiyası; Əxlaq fəlsəfəsi; Müqəddəs kitabların müqayisəsi; Yeni dini hərəkatlar; Qərbdə İslam tədqiqatları; Sosial elmlərin metodologiyası; Yəhudilik və Xristianlıq; Hind-Çin dinləri.

Tədris olunan fənlər yüksəkixtisaslı mütəxəssislər tərəfindən həyata keçirilir. Keyfiyyəti artırmaq, tədris prosesinin səmərəliliyini yüksəltmək üçün müasir təlimin müxtəlif texniki vasitə və metodlarından istifadə olunur, prosesin təkmilləşdirilməsi istiqamətləri təhsil strategiyasının tələblərinə uyğun seçilir. Kafedra elmi-pedaqoji və elmi kadrların hazırlanması, yenidən hazırlanması, ixtisaslarının artırılması, təhsil alanların elmi-tədqiqat işlərinin təşkili istiqamətlərində fəaliyyət göstərir. Dinşünaslıq kafedrası "Dini mətnlər və tarixi perspektiv çərçivəsində dinlər tarixində radikallıq təzahürləri"; "Dini radikalizmin fəlsəfi və teoloji aspektləri"; "Dini radikalizm sosioloji müstəvidə" adlı tədqiqat işləri üzərində çalışır.

Dillər və ictimai fənlər kafedrası Azərbaycan İlahiyyat İnstitutunun əsas tədris, elmi struktur bölmələrindən biridir. Kafedrada Azərbaycan dili və Nitq mədəniyyəti; Ərəb, Fars və İngilis dilləri; Azərbaycan tarixi; İnformatika və kompüter texnologiyası; Mülki müdafiə; Multikulturalizmə giriş; İslam ölkələri tarixi və coğrafiyası, həmçinin digər fənlər üzrə tədris həyata keçirilir. Kafedranın məqsədi İnstitutun dillər və ictimai fənlər üzrə müvafiq tələblərini yerinə yetirməklə, yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

- ***İnstitutun zəngin xarici əlaqələri oxucularımız üçün də maraqlı olardı...***

- İnstitut fəaliyyətə başladığı ilk gündən xarici əlaqələrin qurulmasına xüsusi önəm verir.

Hədəfimiz tədrisin müasir tələblər səviyyəsində qurulması məqsədilə dünyanın digər qabaqcıl universitetlərinin təcrübəsindən yararlanaraq, İnstitutu beynəlxalq aləmdə nüfuzlu ali təhsil

müəssisələri sırasına çıxarmaqdır.

Bu məqsədlə ilk səfərimiz 21-23 noyabr 2018-ci il tarixdə Rusiya Federasiyası Perm vilayətinin İncəsənət Universitetində keçirilən "Miqrantların adaptasiya problemi və ekstremist ideologiyalara qarşı mübarizə" mövzusuna həsr olunan konfrans çərçivəsində Moskva İslam İnstitutu və Permdə fəaliyyət göstərən ali təhsil müəssisələrinin rəhbərləri ilə görüş oldu.

Türkiyə Respublikasına 16-22 dekabr 2018-ci il tarixdə səfərimiz faydalı və yaddaqalan oldu. Səfər çərçivəsində İstanbul və Ankara şəhərlərində bir sıra universitetlərlə görüşlər keçirdik. Burada həm tədrislə, həm də universitetlərin maddi-texniki bazası ilə tanış olduq.

Növbəti səfərimiz yenidən Rusiya Federasiyasına oldu. Tatarıstan Respublikası Bolqar İslam Akademiyasının 19-20 fevral 2019-cu il tarixdə "Müasir tədris sistemində islamşünaslıq və islam teologiyası: problemlər və perspektivlər" mövzusunda təşkil etdiyi beynəlxalq elmi-praktik konfrans çərçivəsində keçmiş sovet respublikalarının, o cümlədən, Rusiya, Qazaxıstan və Özbəkistanın ali dini təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin qurulması, qarşılıqlı səfərlər və təcrübə mübadiləsi barədə müzakirələr keçirdik.

Uğurlu səfərlərimizdən biri də Malayziya Beynəlxalq İslam Universiteti və Beynəlxalq İslam Təfəkkürü və Sivilizasiyası İnstitutuna ziyarətimiz oldu. Görüşlər zamanı ali təhsil müəssisələri arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi istiqamətində geniş fikir mübadiləsi apardıq.

Sonuncu səfərimiz 20-23 may 2019-cu il tarixdə yenidən Rusiya Federasiyasına gerçəkləşdi. Səfər çərçivəsində Rusiya Milli Kitabxanasını, Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları İnstitutunu ziyarət etdik. İnstitutun direktoru İrina Popova, Rusiya Müsəlmanları Ruhani İdarəsinin, Rusiya Müftilər Şurasının sədri Şeyx Ravil Qaynutdin, Moskva İslam İnstitutunun rektoru Demir Muxetdinov, Bolqar İslam Akademiyasının rektoru Daniyar Abdraxmanovla görüşlər keçirdik.

Səfərlərin nəticəsi olaraq AİI bir çox nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələri imzaladı. Bura Türkiyənin Ankara, İstanbul, Marmara, "29 Mayıs", Kırıkkale universitetləri, Rusiyanın Perm Dövlət İncəsənət İnstitutu, Omsk Dövlət Universiteti, Moskva İslam İnsitutu ilə imzalanan protokollar daxildir.

Bir il müddətində müxtəlif ölkə səfirliklərinin nümayəndələri ilə görüşlərimiz baş tutdu. Sudanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri Abbas Mustafa Əhməd Abdallay; Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Nasir Əbdül Kərim; İndoneziyanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Hüsnan bəy Fanani; Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Erkan Özoral İtaliyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Auqusto Massari; Misir Ərəb Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Adel İbrahim Ahmed İbrahim; Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin sədri Əhməd Sami Elaydi; İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi, Türkiyənin Yunus Emre İnstitutunun rəhbəri dosent Cihan Özdemir; Amerika Sefard Federasiyasının nümayəndə heyəti; Misirin Nahda Universitetinin rektoru Muhəmməd Husam əd-Din, Perm Vilayəti Müsəlman Ruhani İdarəsinin nümayəndəsi, Rusiya Federasiyası Jurnalistlər Birliyinin üzvü; "Искренност" jurnalının Baş redaktoru Səfa Kərimov; İsveçrənin "Friburg" Universitetinin dosenti, İctimai elmlər və dinlərin tədqiqi şöbəsinin Baş müəllimi Ansgar Jödik ilə görüşlərimiz təşkil olundu. Görüşlərdə qarşılıqlı əməkdaşlığın yaradılması, elmi-təcrübi mübadilənin aparılması, birgə beynəlxalq elmi konfransların keçirilməsi və digər məsələlər müzakirə olundu, bir sıra qərarlar qəbul edildi.

- ***Tələbələrinizin inkişafı istiqamətində hansı sosial layihələr həyata keçirirsiniz?***

- İlk gündən etibarən, tələbələrimizin təhsillə bərabər, sosialyönümlü layihələrə, maarifləndirmə tədbirlərinə cəlb olunmasına başladıq, həmçinin bölgələrimizə səfərlər etdik. Bunların hər biri tələbələrimizin daha dərin dini və dünyəvi biliklərə malik olmaları, mənəvi dünyalarının, dünyagörüşlərinin zənginləşdirilmələri və natiq kimi yetişmələrində əhəmiyyət kəsb edir.

Bölgələrimizə səfərlərdə tələbələrimizdə baş verən dəyişikliyin şahidi olduq. Onlar ölkəmizdə fəaliyyət göstərən tarixi-dini abidələr haqqında məlumat əldə edir, bu barədə müzakirələr aparırdılar.

Səfərlərimizə 9 Noyabr - Bayraq Günü Cocuq Mərcanlıya səfərlə başladıq. Yolboyu tələbələrin həyəcanını duyduq. AİI işğaldan azad edilmiş Cocuq Mərcanlıya ilk səfər edən ali təhsil müəssisəsidir. Düşmən tapdağından qurtulmuş ərazimizdə vətəndaşlarla görüşmək qürurverici idi. Balaca şagirdlərin bizi isti münasibətlə, böyük sevgi

ilə qarşılamaları nə tələbələrin, nə də mənim yadımdan çıxır. İnşallah, tezliklə belə səfərlərimizi Qarabağın bütün bölgələrinə edəcəyik.

Cocuq Mərcanlıda Şuşanın Gövhər Ağa məscidinin bənzəri olan ibadət ocağını ziyarət etdik. Mədəniyyət evində əhali ilə görüşdük. Onların sevinclərini duyduq. İllər sonra doğma yurd-yuvalarına qayıtmışdılar. Bu səfər böyük ruh yüksəkliyi və tələbələrimizdə olan Vətən sevgisini daha da alovlandırdı.

Daha sonra, 29 dekabr 2018-ci il tarixdə Qəbələ rayonuna səfər etdik. Qəbələ şəhər məscidi və Qəbələnin Nic qəsəbəsini ziyarət etdik. Qəsəbədə udinlərin yaşayış tərzi ilə tanış olduq. Azsaylı xalqlardan olan udinlərlə tanışlıq tələbələrimizdə ölkəmizdəki multikultural mühit barədə geniş fikir formalaşdırdı.

Tələbələrimizin qış imtahan sessiyasından sonra, 31 yanvar - 2 fevral 2019-cu il tarixdə Şamaxıdakı “Din, mədəniyyət və cəmiyyət” mövzusunda təşkil etdiyimiz “Qış məktəbi” layihəsi gənclərin elmi-dini savadlarının daha da zənginləşdirilməsinə kömək etdi. Layihə çərçivəsində müxtəlif seminarlar, tarixi-dini abidələrimizə ziyarətlər təşkil etdik. Fikrimcə, belə tədbirlər tələbələrin gələcək həyatında öz bəhrəsini verəcək.

Tələbələrimizin bölgələrə növbəti səfəri Qubaya oldu. 31 Mart - Azərbaycanlıların Soyqırımı Günündə Quba Memorial Kompleksini ziyarət etdik. Gənclərimizin vətənpərvər ruhda yetişmələri üçün səylərimizi əsirgəmirik. Onların Bakıda da tarixi-dini abidələrlə tanışlığına şərait yaratdıq. Heydər Məscidini, Avropa, Gürcü və Dağ yəhudilərinin sinaqoqlarını ziyarət etdik.

***- Birillik dövrə nəzər saldıqda, İnstitutun fəaliyyətinin çoxşaxəli olduğunu görürük. Bəs maarifləndirmə istiqamətində hansı işlər görülüb?***

- Aİİ-də ötən dövr ərzində maarifləndirmə istiqamətində xeyli iş görülüb. Keçən ilin iyun ayından etibarən, İnstitutda ictimaiyyət nümayəndələri, elm xadimləri, tədqiqatçıların iştirakı ilə müxtəlif mövzularda elmi seminarlar, görüşlər, “dəyirmi masa”lar təşkil olunub. Cəmiyyətin məlumatlandırılmasına xidmət edən bu tədbirlərdə dinə, dövlət-din münasibətlərinə, Azərbaycanda mövcud olan dini-mənəvi mühitə müxtəlif aspektlərdən yanaşan fərqli mövzular gündəmə gətirilib. Belə ki, bu müddət ərzində Aİİ-də “İslamda qadın”; “Müasir insan və ekzistensial təbəddülatlar”; “Azərbaycanda yəhudilərin həyat tərzi”; “Çoxmilli və çoxkonfessional Azərbaycan xalqının milli birlik ideyalarının formalaşmasında ənənəvi inancların rolu”; “Dindarlıq və vətənpərvərlik”; “Radikalizmlə mübarizənin metodoloji əsasları”; “İslam və incəsənət”; “Mediada dini mövzuların işıqlandırılması”; “Bəhailiyin teoloji əsasları”; “Bədəviliyin sosio-psixoloji analizi”; “Səmavi dinlərdə qurban ibadəti”; “Vicdan məfhumunun islam fəlsəfəsindəki yeri”; “Multikulturalizmin Azərbaycan modeli”; “Sekulyarizasiya prosesi və müasir cəmiyyətdə din”; “Kərbəla hadisəsinə sosio-psixoloji, ədəbi və tarixi baxış”; “Gəncliyn fəlsəfəsi”; “Qafqaz Alban Kilsəsi irsi: tarix və reallıqlar”; “Rusiyada İslam: tarix və reallıqlar”; “Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik”; “Azərbaycan dövlətçilik tarixində din”; “Din, hüquq və əxlaq: müqayisəli təhlil”; “Birinci Dünya müharibədsində Qafqaz müsəlmanlarının müqəddəratı məsələsi”; “Bəşəri inkişafda elmin və təhsilin rolu”; “İslamda yuxu və nəzər anlayışlarına Kvant fizikası perspektivindən baxış”; “Qəzalinin elm və irfan dünyası”; “Multikulturalizm və onun fəlsəfi əsasları”; “Mədəniyyətin müxtəlifliyindən yaranan nisbilik problemi”; “İslam ənənəsində mötədillik”; “Milli-mədəni irsin təbliğ edilməsinin gənc nəslin formalaşmasında rolu”; “İslam mədəniyyətində toxuculuq sənəti”; “Azərbaycanda sufilik”; “Müasir dünyada kamil insan nümunəsi”; “İslam və incəsənət”; “Nitq - fikir və duyğuların təzahürü”; “Ərəb dilini birlikdə öyrənək”; “Hədisləri anlamaq metodları”; “Dini etiqad azadlığı: hüquqi aspektlər”; “İslam arxeologiyası”; “İslamda ebru sənəti”; “Beynəlxalq regional təhlükəsizlik”; “Din və Elm”; “BMT-nin könüllülər proqramı”; “İlahiyyat elmlərinin tədqiqi: Reallıqlar və prespektivlər”; “İslam dininə üçlü yanaşma -mühafizəkarlıq, dünyəvilik və millilik anlayışlarına yeni baxış”; “Beynəlxalq elmi jurnalların tələbləri və elmi məqalələrin yazılma qaydaları”; “İslam əxlaqı və müasir gənclik”; “Etik davranış qaydaları”; “İslamda mənəviyyat”; “Quran mətni islahatçılıq qaynağı kimi”; “Avropada antisemitizm tarixi: antik dövrdən bugünədək” mövzularında onlarca tədbir həyata keçirilib. İctimaiyyət üçün nəzərdə tutulmuş bu tədbirlər silsiləsi davam etdirilir. Həmçinin, elm və ictimai xadimlərin iştirakı ilə ölkəmizin əlamətdar hadisələrinə, beynəlxalq tarixilərə - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə; Müəllimlər Gününə; Azərbaycanın Dövlət Müstəqilliyi Gününə; Bayraq Gününə; Milli Dirçəliş Gününə; ümummilli lider Heydər Əliyevi anım gününə; Beynəlxalq Tərcüməçilər Gününə; Beynəlxalq Psixi Sağlamlıq Gününə; Ümumdünya Müharibə və Münaqişələrdə Ətraf Mühitin İstismarının Qarşısının Alınması Gününə; Dünya Elm Gününə; Sülh və İnkişaf Gününə; Beynəlxalq Tolerantlıq Gününə; Ümumdünya Uşaqlar Gününə; Ümumdünya Qadınlara Qarşı Zorakılığın Aradan Qaldırılması Gününə; Gənclər Gü-

nünə, Beynəlxalq Qadınlar Gününə; 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirlər; "Zamanın idarə olunması"; "Mən və aynamdakı əksim"; "Uğurlu karyeraya gedən yol"; "İnsan niyə tükənir"; "1-0 öndə başlamaq"; "Bozdan-rəngarəngə"; "Sən uğura layiqsən uğur sənsən" və "Uğura gedən qısa yol" mövzularında təlimlər təşkil olunub.

İnstitut birillik fəaliyyəti dövründə müxtəlif mövzulara həsr olunan konfranslar təşkil edib. "Beynəlxalq Ərəb Dili Günü"; "Dilimiz milli-mənəvi sərvətimizdir"; "İslam sivilizasiyası və elm: tarix və müasirlik"; "Heydər Əliyev siyasəti və din təhsili", həmçinin Kırıkkale Universiteti və İnstitutumuzun birgə təşkilatçılığı ilə "Azərbaycan və Türkiyədə din təhsili"; Mənəvi Dəyərlərin Təbliği Fondu ilə Aİİ-nin birgə keçirdikləri "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda konfranslar yüksək səviyyədə təşkil olunub. Bu konfransların əksəriyyətinə aid məqalələr toplusu çapa hazırlanır.

Bizim üçün vacib olan tədbirlərdən biri də 2 may 2019-cu il tarixdə Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində təşkil edilən "İslamafobiyanı dayandırın, dinlərarası maariflənmə ilə stereotipləri aradan qaldırın və kompleks müxtəlifliklər idarə edin" mövzusuna həsr olunan paneldə Azərbaycan İlahiyyat İnstitutunun iştirak etməsi idi. Paneldə Aİİ-ni Elm və innovasiyalar üzrə prorektor Aqil Şirinov təmsil edirdi.

İnstitut, həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkil etdiyi aksiyalara qoşularaq, "Dost xonçası" və "Dost süfrəsi" layihələrində iştirak edib.

Bundan əlavə, İnstitutda müəllimlərin və əməkdaşların iştirakı ilə Azərbaycanın dini-mənəvi dəyərlərinin qorunmasına və inkişafına töhfə olaraq, Aşura günü ilə bağlı qanvermə aksiyası keçirilib.

Aİİ Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası ilə birgə layihə çərçivəsində ümummili lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş diskussiyalar silsiləsi həyata keçirib. Diskussiyalar silsiləsi çərçivəsində "Azərbaycanda dini təhsil: reallıqlar və perspektivlər"; "Heydər Əliyev və multikultural dəyərlər"; "Heydər Əliyev və dövlət-din münasibətləri"; "Heydər Əliyev və milli-mənəvi dəyərlərin qorunması"; "Azərbaycanın İslam həmrəyliyindəki rolu"; "Milli-mənəvi dəyərlərin təcəssümü olan daş kitabələr: dini-tarixi abidələr"; "Dini radikalizmin səbəbləri və doğurduğu nəticələr"; "Milli kimliyimizin formalaşmasında dini dəyərlərin rolu"; "Müasir cəmiyyətdə din"; "Məzhəbçilik İslam dünyasını parçalayan tendensiya kimi"; "İslam mədəniyyətinin inkişafında Azərbaycan alimlərinin rolu" mövzusunda "dəyirmi masa"lar təşkil edilib.

Bütün bunlarla bərabər, Aİİ tələbələrin dünyagörüşünün zənginləşdirilməsi, elmi axtarışlara cəlb edilməsi üçün ölkənin tanınmış simaları - elm xadimləri, ziyalılar ilə görüşlərin təşkilinə də xüsusi önəm verir. Bu məqsədlə Xalq yazıçısı Çingiz Abdullayev və Xalq şairi Nəriman Həsənzadə; BDU-nun professoru Şahlar Əsgərov; millət vəkilləri Aydın Mirzəzadə, Elman Nəsirov, Fazil Mustafa, Qənirə Paşayeva, həmçinin İnstitutda ənənəvi şəkildə keçirilməsi nəzərdə tutulan "Səfir saatları" layihəsi çərçivəsində Fələstinin ölkəmizdəki Səlahiyyətli və Fövqəladə Səfiri Nasir Əbdül Kərim; İndoneziyanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Hüsnan bəy Fanani; Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Erkan Özoral; İtaliyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Auqusto Massari ilə görüşlər keçirilib.

***- Son günlər bölgələrə səfərlərinizin şahidi olduq. Bu səfərlər hansı zərurətdən irəli gəlir?***

- İnstitutun tanıdılması üçün bir çox işlər gördük, bölgələrə səfərlər təşkil etdik. Səfərlərin əsas məqsədi respublikanın bir sıra bölgələrindəki orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri keçirməklə 2019-2020-ci tədris ili üzrə İnstituta fərqlənən və savadlı gənclərin cəlb olunmasıdır. Bugünədək Lənkəran, Gəncə, Bərdə, Ağstafa, Qazax, Qəbələ, Quba və Zaqatala rayonlarında abituriyentlərə İnstitutumuzda onlar üçün yaradılan şəraitlə bağlı ətraflı məlumatlar verdik.

Səfərlər çərçivəsində bölgələrdə bir sıra görüşlər keçirdik. Görüşlər, əsasən, universitetlərdə, kolleclərdə oldu. Məqsədimiz təkcə dünya ölkələrinin universitetləri ilə əlaqələr yaratmaq deyil, həmçinin yerli ali təhsil müəssisələri əməkdaşlığın qurulmasıdır. Görüşlərdə elm və tədqiqat sahəsində ikitərəfli əməkdaşlıq, maraq doğuran mövzularda təcrübədən qarşılıqlı faydalanma, birgə elmi konfrans, seminar, elmi-tədqiqat işləri və mühazirələrin təşkil olunması, iki ali təhsil müəssisəsi arasında müştərək fənlər üzrə müəllim mübadiləsinin formaları, yay məktəbi çərçivəsində ikitərəfli görüşlərin təşkili barədə müzakirələr apardıq.

***- Ötən dövr ərzində mətbuatda, demək olar, vaxtaşırı İnstitut haqqında operativ işıqlandırılmaların şahidi olduq. Media ilə əlaqələr***

***necə quruldu?***

- Qeyd edim ki, İnstitut bütün fəaliyyətini ictimaiyyətə açıq formada təşkil edib. Tədrisə başladıqdan, təxminən, bir ay sonra 24 oktyabr 2019-cu il tarixdə mətbuat konfransı keçirdik. Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov başda olmaqla, ölkənin bir çox tanınmış jurnalistinin qatıldığı tədbirdə Aİİ-nin fəaliyyəti haqqında geniş məlumat verdik. Onlar dərslərdə iştirak etdilər, tədrisin hansı formada aparılmasının canlı şahidi oldular.

Qış imtahan sessiyasında imtahanların gedişatını izləmək üçün jurnalistlərin iştirakını təmin etdik. Yeri gəlmişkən, qeyd edim ki, Aİİ-nin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, İnstitut ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, əməkdaşlarının və təhsilalanların hüquqlarının müdafiəsi, fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın təmini üçün təkliflərin verilməsi məqsədilə İctimai Nəzarət Şurası yaratdıq. İctimai Nəzarət Şurasının tərkibinə Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları Birgə Qrupun üzvü Əliməmməd Nuriyev; təhsil üzrə ekspert, professor Şahlar Əsgərov; təhsil üzrə ekspert Nadir İsrafilov; “Trend” İnformasiya Agentliyi Baş direktorunun korporativ inkişaf üzrə müavini Arzu Nağıyev; “İki sahil” qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə; İctimai Televiziya və Radio Yayımları Şirkətinin İctimai-Siyasi Proqramlar Departamentinin direktoru Anar Yusifoğlu; Modern.az saytının rəhbəri Elşad Eyvazlı; “525-ci qəzet”in müxbiri Sevinc Qarayeva; Azərbaycan İlahiyyat İnstitutunun birinci kurs tələbəsi Fərid Qasımzadə daxil ediliblər.

Yeri gəlmişkən onu da qeyd edim ki, İnstitutun Himayəçilər Şurası da yaradılıb. Şuranın tərkibinə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı; Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi Ərəb filologiyası kafedrasının müdiri, akademik Vasim Məmmədəliyev; AMEA Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva; Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev; Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein; Bakı Şəhəri Dağ Yəhudiləri Dini İcmasının sədri Melih Yevdayev; Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Şahin Bayramov daxil ediliblər.

Şuranın sədri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıdır.

***- Mətbuatda bir il ərzində nəşrlərin çapı ilə bağlı məlumatlar da əldə etdik...***

- Qısa müddət ərzində İnstitutun ildə iki dəfə nəşr olunması nəzərdə tutulmuş “Din araşdırmaları” elmi jurnalı, həmçinin aylıq “İlahiyyatçı” qəzeti çap olundu. Aİİ-nin tanıdılması üçün Azərbaycan dilində kataloq, dörd dildə - Azərbaycan, ingilis, rus və ərəb dillərində buklet və broşürlər hazırlayıb nəşr etdirdik. İnstitutun “Əsasnamələr, qaydalar, təlimatlar və məlumatlar toplusu”nu hazırladıq.

Müəllimlərimiz yeni dərs proqramları və dərsliklərin hazırlanması üzərində çalışırlar. Bütün dərsliklərimizin öz mütəxəssislərimiz tərəfindən hazırlanmasını qərara almışıq.

Gələcəkdə “İlahiyyat nəşrləri” adı altında layihə nəzərdə tutulur ki, buraya müəllimlərimizin və bu sahədə çalışan mütəxəssislərin kitablarının, müxtəlif dillərdən tərcümə olunan əsərlərin nəşri daxildir.

Eyni zamanda, ilahiyyat sahəsindəki problemləri araşdıran və beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirmək istəyirik.

***- Məlumdur ki, İnstituta qəbul edilən hər bir abituriyentin arzusu ali təhsil müəssisəsini bitirdikdən sonra işlə təmin olunmaqdır. Bu istiqamətdə İnstitutda hansı işlər görülür?***

- Aİİ-nin məzunları üçün iş imkanlarının yaradılması da nəzərdə tutulub. Belə ki, onlar dövlət qulluqçusu olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində və digər dövlət qurumlarında işləyə biləcək, elmi-tədqiqat və ali təhsil müəssisələrində tədqiqatçı, pedaqoq, Qafqaz Müsəlmanları İdarəsində isə din xadimi kimi məscidlərdə, ibadət ocaqlarında dini maarifləndirmə işi ilə məşğul olmaq imkanlarına yiyələnəcəklər.

***- İnstitutun gələcək fəaliyyət istiqamətləri, hədəfləri haqqında söyləmək istədikləriniz...***

- Məqsədimiz Azərbaycan xalqının din sahəsində yüksəkixtisaslı kadrlara olan tələbatını beynəlxalq standartlara əsaslanaraq təmin etmək; həm İslam, həm də digər dünya dinləri haqqında dərin biliyə malik, tərəfsiz və bütün konfessiyalara dözümlü yanaşan ilahiyyatçı kadrlar hazırlamaqdır.

İnstitutda tədrisi beynəlxalq standartlara uyğunlaşdırmaq üçün dünya ölkələrində ilahiyyat sahəsində ixtisaslaşmış institut və fakültələrə səfərlər etmək istəyirik. Həmçinin tələbələrimizin intellektual səviyyəsinin, dünyagörüşünün, mənəvi dünyasının zənginləşdirilməsi, onların nitq və polemika qabiliyyətinin, özünüifadə bacarığının, tənqidi təfəkkürün formalaşması istiqamətində bir sıra sosial layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Çalışırıq ki, fəaliyyətimizdə milli, dini və əxlaqi dəyərlərimizi qoruyaq, Azərbaycan xalqının milli və mədəni inkişafına öz töhfəmizi verək.

# Ali təhsil müəssisələrinin innovativ fəaliyyətinin idarə olunması

***Azərbaycanda innovativ inkişaf növünə keçid şəraitində ixtisaslaşmış kadrların çatışmazlığı əsas problemlərdən biri hesab edilir. Bu problemin həllində innovativ fəaliyyətə yönəlmiş ali təhsil müəssisələrinin rolu danılmazdır.***



ZƏRİFƏ ƏLİYEVA,
*Aİİ Tədris şöbəsinin müdiri*

İqtisadiyyatın ehtiyaclarına uyğun olaraq ölkə sənayesinin innovativ inkişafına töhfə vermək, innovativ elmi tədqiqat layihələrinin həyata keçirilməsində fəal iştirak etmək, ciddi (kompleks) elmi-texniki inkişafa diqqət yetirmək ali məktəblərin qarşısında duran prioritet məsələlərdəndir.

Ali təhsil müəssisəsi iqtisadi sistemin ikili subyekti hesab edilir. Belə ki, bir tərəfdən, müəssisənin əsas məqsədi ölkənin mədəni və elmi potensialının qorunub saxlanmasıdırsa, digər tərəfədən, intellektual məhsulların və təhsil sahəsi üzrə xidmətlərin istehsalçısı hesab edilir.

Buna baxmayaraq, əvvəlki illərdəki kimi, ali təhsil ocaqlarının əksəriyyəti hələ də müasir və rəqabətyönümlü bazar iqtisadiyyatı şəraitinə müstəqil şəkildə adaptasiya olunmaq məcburiyyətindədir. Müasir dünyada rəqabətə tab gətirmək üçün isə ilk növbədə, təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına güvənmək lazımdır.

Təhsil xidmətləri bazarında bu gün tələb və təklifin artması təkcə yüksələn rəqabətin nəticəsi deyil, həm də ali təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşməsini və yenilənməsini stimullaşdıracaq yeni, sürətlə inkişaf edən kadr potensialına tələbatın nəticəsidir.

Bu səbəbdən, ölkənin sosial-iqtisadi inkişafının strateji hədəflərindən biri bilik istehsalçısı hesab edilən ali təhsil müəssisələrinin fəaliyyət istiqamətlərinin genişləndirilməsi olmalıdır.

Bununla əlaqəli ali təhsil müəssisələri, sadəcə, innovasiyalara yönəlməməli, öz təhsil, təlim-tədris, elmi tədqiqat fəaliyyətində innovativ yanaşmanı əsas istiqamət kimi götürməlidirlər. Buna, bütün bu fəaliyyəti (təhsil, təlim-tədris, elmi tədqiqat) özündə ehtiva edən innovativ fəaliyyətin inkişafı yolu ilə nail olmaq mümkündür.

***Gəlin, "innovasiya" termininin izahına nəzər salaq. İnnovasiya nədir?***

"İnnovasiya" termini latın dilində "innovato" sözündən olub, "yenilənmə" və "yaxşılaşma" deməkdir. Termin XIX əsrin elmi tədqiqatları zamanı meydana gəlib. "İqtisadi innovasiya" anlayışını geniş ictimaiyyət XX əsrin əvvəllərində Avstriya iqtisadçısı Yozef Şumpeterin "İqtisadi inkişaf nəzəriyyəsi" (1934) əsərindən götürdü.

İnnovasiya - yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsidir.

İnnovasiya - innovasiya fəaliyyətinin son məhsuludur.

İnnovasiya fəaliyyətinin nəticəsi yeni, yaxud təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab edilir. İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq olunmasıdır.

Eyni zamanda, innovasiya bir mədəniyyətin digər mədəniyyətə inteqrasiyası anlamını verir.

İnnovasiyanın məqsədi idarəetmə obyektini dəyişməkdir, yeni elmi, texniki, iqtisadi və sosial effekt əldə etməkdir.

Ali təhsil müəssisəsinin innovativ fəaliyyəti aşağıda qeyd olunan əsas istiqamətləri əhatə edir:

- yeni və ya yeni istehlakçı xüsusiyyətli məhsulların (mal, iş, xidmət) istehsalının hazırlanması və təşkili;
- məhsulların istehsalı, yayılması və istifadəsi üçün yeni metodların tətbiq olunması;
- məhsulların (mal, iş, xidmət) hazırlanması və satışı zamanı struktur, maliyyə və iqtisadi, kadr, informativ və digər innovasiyaların (yeniliklərin) tətbiqi, yaxud mövcud metodların - texnologiyaların modernləşdirilməsi;
- milli və regional innovativ sistemin inkişafı və təkmilləşdirilməsi;
- ali təhsil müəssisəsinin intellektual resurslarının səmərəli və rasional istifadə olunması;
- müxtəlif sahələr üzrə innovativ layihələr irəli sürə (təşəbbüskarlıq) və həyata keçirə biləcək davamlı intellektual poten-

sialın formalaşdırılması;

- elmi-tədqiqat ideyaları və orijinal innovativ layihələrin kommersiyalaşması (ticarəti);

- firma, müştərək (birgə) təşkilatların yaradılması, digər xarici ölkələrin ali təhsil müəssisələri ilə əlaqələrin (əməkdaşlıqların) qurulması vasitəsilə iş yerlərinin, tələbə, magistrant və doktorantların təcrübə bazalarının genişləndirilməsi;

- sahibkarlıq mədəniyyəti səviyyəsinin artırılması, kiçik və orta sahibkarlıq sahəsində yüksəkixtisaslı kadrların hazırlanması.

Təhsil müəssisəsinin özünün innovativ infrastrukturunun yaradılması və regional innovativ infrastrukturun formalaşdırılmasında fəal iştirakı ali təhsil müəssisənin innovativ fəaliyyətinə daxildir.

Ali təhsil müəssisələrində innovativ proseslərin tətbiqi iqtisadiyyatın müxtəlif sahələrində öz imkanlarını uğurla istifadə oluna biləcək fərdi potensialın inkişaf etdirilməsinə yönəlmişdir. Bu da öz növbəsində, bütün ali təhsil sisteminin modernləşdirilməsi, keyfiyyətinin, səmərəliliyinin və əlçatanlılığının təmin olunması üçün bir vasitədir.

Ali təhsil müəssisəsinin uğurlu innovativ fəaliyyəti - onun innovativ infrakstrukturunun (texnopark, biznes-inkubator, innovativ texnoloji mərkəzlər və s.) səmərəli (effektiv) işinin nəticəsidir. Qeyd etmək lazımdır ki, bu gün Azərbaycanda bir çox ali təhsil müəssisələrinin aktiv innovativ inkişafı gedir. İnnovativ nəticələr əldə etmək məqsədilə ali təhsil müəssisələri öz innovativ fəaliyyətində təşkilati, elmi-texnoloji, maliyyə və digər tədbirləri kompleks şəkildə həyata keçirir.

Müasir şəraitdə ali təhsil müəssisələrinin innovativ fəaliyyətinin səmərəliliyi təhsil və texnologiya xidmətləri sahəsində əmək bazarında rəqabət qabiliyyətinə böyük təsir göstərir.

İnnovativ fəaliyyətin əsas məqsədi ali təhsil müəssisəsinin büdcədənkənar maliyyələşdirmə sisteminin inkişafıdır ki, bu da bilavasitə müəssisənin tədris prosesində, elmi tədqiqatların aparılmasında, təhsilin keyfiyyətinin artırılmasında, kadr potensialının qorunmasında, elmi mərkəzlərin və istiqamətlərin yaranmasında böyük rol oynayan maddi-texniki bazanın gücləndirilməsinə təsir edəcək.

Ümumilikdə innovasiya fəaliyyətinin fəallaşdırılmasına aşağıdakı şərtlərin:

- müxtəlif növ regional təhlükələrin mövcudluğu;

- innovasiya və sahibkarlıq potensialının mövcudluğu;

- regionun innovasiya inkişafının qəbul edilmiş ortamüddətli və uzunmüddətli strategiyası;

- səmərəli innovasiya fəaliyyəti üçün hüquqi baza;

- vençur tipli maliyyələşdirmə;

- regional proqramların reallaşdırılmasının innovasiya strukturuna dəstək və yardım;

- innovasiya prosesinin inteqrasiyalaşdırılmış idarəetmə sistemi və s.

Neqativ, yaxud pozitiv təsir etdiyi halda, ali təhsilin innovativ fəaliyyətinin inkişafına isə normativ hüquqi bazanın olmaması, sənayenin texnika və texnologiya sahəsindəki yeniliklərə laqeydliyi, "xammal" iqtisadiyyatının üstünlüyü və bir sıra digər problemlər yol vermir.

Şübhəsiz, bu problemlər ali təhsil müəssisələrinin innovativ fəaliyyətinin inkişafına mənfi təsir göstərir. Bu problemləri aradan qaldırmaq, yaxud təsirini minimuma endirmək məqsədilə bu gün ölkədə uğurlu islahatlar həyata keçirilir.

Bunlara xüsusi iqtisadi zonaların və texnoparkların strukturlarının yaradılmasını, innovasiya fəaliyyəti ilə bağlı bir sıra sənədlərin, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi", Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015- ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"sının hazırlanmasını aid etmək olar.

Nəticədə, təhsil fəaliyyətinin innovativ xarakteri (təbiəti) çox vacibdir, çünki milli innovasiya sisteminin (MİS) formalaşmasında əhəmiyyətli rol oynayır. Bu, aşağıdakı istiqamətlərin inkişafı ilə bağlıdır:

- peşəkar kadrların hazırlanması;

- yeni biliklərin "istehsalı" və yeni texnologiyaların inkişafı və ixtirası;

- innovativ fəaliyyəti dəstəkləyən innovativ infrastrukturun formalaşdırılması;

- regionda və bütövlükdə ölkənin innovasiya siyasətinin yaradılması və həyata keçirilməsində iştirakı;

- ölkənin və regionların elm, sənaye, biznes və hökumət strukturları ilə uzunmüddətli tərəfdaşlığın qurulması;

- regional təhsil müəssisələrinə zəruri tədris-metodiki materialların təqdim edilməsi;

- tədris prosesində innovativ təhsil texnologiyalarının tətbiqi ilə bağlı məsləhətlərin verilməsi.

Beləliklə, innovativ inkişaf yoluna keçid şəraitində müasir iqtisadiyyatın səmərəliliyinin artırılması yalnız yeni məlumatların əldə edilməsi, yayılması və istifadə edilməsi əsasında mümkündür.

Bu problemin həllində, həmçinin əhalinin həyat səviyyəsinin yüksəlməsində və iqtisadiyyatın rəqabətliliyinin təmin edilməsində ali təhsil müəssisələri xüsusi rol oynayır. Məhz bu səbəbdən, ali təhsil müəssisələri fundamental tədqiqatlar aparmaqla yanaşı, elmi tədqiqatlar sayəsində əldə edilən yeni biliklərin praktik həyata keçirilməsinə istiqamətlənməlidir.

Ümumilikdə isə son illərdə ali təhsil müəssisələrinin innovativ fəaliyyəti tədris və elmi fəaliyyətlə yanaşı, əsas fəaliyyət statusunu qazanmış və strateji inkişaf üçün zəruri şərt halına gəlmişdir.

# İSLAMDA İNSAN SAĞLAMLIĞI

***"Sağlam bədəndə sağlam ruh olar", - deyiblər. Allah-Taalanın bəşər övladına bəxş etdiyi müstəsna əhəmiyyətə malik, ən dəyərli nemətlərdən biri də sağlamlıqdır. İnsan normal yaşamaq üçün daim səhhətinin qayğısına qalmalıdır. Bəzən canımızın qədrini ağrıyanda, onu itirmək təhlükəsi ilə üzləşdikdən sonra bilirik.***



İslam müsəlmanlara səhhətlərinin qayğısına qalmağı, bədənlərini təmiz saxlamağı tövsiyə edir. Quran ayələri və Peyğəmbər hədislərində insan həyatının qorunması üçün təmizliyə böyük önəm verilir, sağlam olmaqdan ötrü Allah-Taalanın müəyyənləşdirdiyi qaydalara əməl edilməsinin zəruriliyi bildirilir.

İslamda bütün ibadətlərin əsas şərtlərindən biri təmizlikdir. Müsəlman namaz qılmaq üçün ilk növbədə, bədəninin, geyindiyi paltarın, namaz qıldığı yerin təmizliyinə diqqət yetirməlidir.

Ərəblər əvvəlki dövrlərdə xəstəlikdən qorunmaq üçün bəzən yanlış üsullardan istifadə edirdilər. Belə ki, ilan çalmış insanı yatmağa qoymur, qorxmuş adama isti su içirdir, hətta xəstə insanları şəfa tapmaq məqsədilə kahinlərin və sehrbazların yanına aparırdılar. İslam meydana gəldikdən sonra, müsəlmanlara maariflənməyi, savadlarını artırmağı, təcrübəyə əsaslanmayan bütün tibbi müalicə üsullarından imtina etməyi məsləhət gördü. İnsanın sağlamlığı məsələsinə İslamın böyük önəm verdiyinə diqqət cəlb etmək məqsədilə Məhəmməd (s) Peyğəmbər buyurur: "Həqiqətən, Allah dərd göndəribsə, onun əlacını da göndərib, hər bir xəstəlik üçün dərman da təyin edib. Buna görə də müalicə olunun, haram buyurulmuşlardan istifadə etməyin" (Əbu Davud).

Həzrət İmam Əlidən (ə) nəql olunan bir rəvayətdə isə deyilir: yoxsulluq bəladır, bundan da böyük bəla xəstələnməkdir. Xəstələnməkdən də böyük bəla qəlbin (ruhun) xəstəliyidir. Malın çoxluğu nemətdir. Bundan da üstün nemət cansağlığıdır. Ondan da üstün nemət qəlbin pəhrizkarlığıdır".

## QURAN AYƏLƏRİ İNSAN SAĞLAMLIĞI HAQQINDA

Quran ayələrində İslamın təmizliyə böyük önəm verdiyi, Allah-Taalanın pak insanları sevdiyi bildirilir: "Allah (günahından) tövbə edənləri (təmiz və) pak olanları sevər!" ("əl-Bəqərə" surəsi, 222). Digər bir Quran ayəsində isə "Allah pak olanları sevər!" ("ət-Tövbə" surəsi, 108) buyurulur.

İnsan daim öz sağlamlığının qayğısına qalmalı, xəstəliklərdən qorunmalı, hər hansı bir bəlaya düçar olduqda Yaradandan yardım istəməlidir. İslama görə, insanlara şəfa verən, onları xəstəliklərdən qoruyan Ulu Tanrıdır. Həkimlər xəstələrin sağalmasında yalnız vasitəçidirlər. "Qurani-Kərim"də İbrahim (s) Peyğəmbərin bu həqiqəti insanlara çatdırmaq məqsədilə bütlərə sitayiş edən müşriklərə "Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir" ("əş-Şuəra" surəsi, 80) dediyi bildirilir.

Digər bir ayədə isə Quranın möminlər üçün şəfa və mərhəmət verən mənbə olduğu bildirilir: "Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik" ("əl-İsra" surəsi, 82).

Quranda insanın xəstəliyə düçar olması, başına müsibət gəlməsi onun etdiyi əməllərlə, işlətdiyi günahlarla da əlaqələndirilir: "Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatındandır!" ("əş-Şuəra" surəsi, 30).

Burada bir məsələni də unutmam olmaz ki, günahsız insanın da xəstələnməsi və müsibətə uğraması mümkündür. Ayəni ümumiləşdirmək, bütün insanlara şamil etmək yanlış olardı. Ayə ümumi xəbərdarlıq və insanları günahlardan, laqeydlikdən çəkindirmək məqsədi daşıyır. Bunu da nəzərə almaq lazımdır ki, bir çox hallarda insanlar məişət qaydalarına əməl etmədikdə,

özlərini istidən və soyuqdan qorumadıqda da xəstəliyə tutulurlar.

Qeyd edək ki, insanların xəstəliyə yoluxmasında onların ilahi qanunları pozması da böyük rol oynayır. İnsan xoşbəxt və sağlam həyat sürmək üçün Allah-Taalanın müəyyənləşdirdiyi qaydalara əməl etməlidir. Bütün əmr və qadağalarda əsas məqsəd insanın xoşbəxt olmasıdır. Allah-Taala bizi xəstəliklərdən qoruyur, insan sağlamlığı üçün zərərli olan əməllərdən uzaq durmağa çağırır. Bunun üçün insan Allaha şükür etməli, Onu sevməli və sağlam həyat tərzi keçirməlidir.

## HƏDİSLƏRDƏ İNSAN SAĞLAMLIĞI

Məhəmməd (s) Peyğəmbər İslam meydana gəldiyi gündən etibarən, müsəlmanlara səhhətlərinin qayğısına qalmağı tövsiyə edib. Məşhur hədis kitablarının böyük əksəriyyətində Peyğəmbərin (s) tibb və insan sağlamlığı ilə bağlı hədislərini əhatə edən “Tibbi-nəbəvi” (Peyğəmbər tibbi) adlı xüsusi bölmələr vardır. Məhəmməd (s) Peyğəmbər İslamın təmizliyə böyük önəm verdiyinə diqqəti çəkmək məqsədilə “Təmizlik imanın yarısıdır” (Müslim) buyurub. Digər bir hədisdə isə deyib: “Allah təmizdir, təmizliyi sevir, ətrafınızı təmiz saxlayın” (ibn Macə).

Məhəmməd (s) Peyğəmbər hədislərinin birində insanların çoxunun sağlamlıqlarını qorumadıqlarını və səhhətlərinə biganə yanaşdıqlarını qeyd edib: “İnsanların çoxu həyatda iki amilə laqeyd olurlar: bunlardan biri sağlamlıq, digəri isə asudə vaxtdır” (Buxari). Həmçinin Məhəmməd (s) Peyğəmbər Qiyamət günü insanların sağlamlıqlarını qorumaları ilə bağlı sorğu-suala tutulacaqlarını bəyan edib: “Qiyamət günü Allah bəndəsi həyatını necəsürdüyü, biliyini necə tətbiq etdiyi, var-dövlətini hansı yolla qazandığı və nəyə xərclədiyi, öz sağlamlığını necə qoruduğu barədə sorğu-suala çəkilməyincə yerindən tərpənməyəcək” (Tirmizi).

İnsanın xəstələnməsinə səbəb ola biləcək amillərin aradan qaldırılması ilə bağlı Məhəmməd (s) Peyğəmbərin bir sıra hədisləri mövcuddur. Hədislərin birində buyurur: “Yemək yediyiniz və su içdiyiniz qabların ağzını açıq saxlamayın” (Müslim). Başqa bir hədisdə isə deyir: “Hər bir müsəlmanın yeddi gündə bir dəfə yuyunması Allahın onun üzərində haqqıdır” (Müslim).

## İSLAMDA XƏSTƏ İNSANLARA MÜNASİBƏT

İslamda xəstə insanlara maddi və mənəvi yardım etmək, onlara qayğı ilə yanaşmaq vacib sayılır. Peyğəmbər (s) hədislərində müsəlmanlara xəstə insanları ziyarət etmək, onlara qayğı göstərmək tövsiyə olunur: “Hər bir müsəlmanın üzərində üç haqqı vardır: bunlar xəstəyə baş çəkmək, dəfndə iştirak etmək və asqırana rəhmət diləməkdir” (Buxari).

İslam xəstə, könlüqırıq insanlarla xoş rəftar etməyi, onlara mümkün köməkliyin göstərilməsinin vacib olduğunu bəyan edir. Allahın göndərdiyi peyğəmbərlərin yolu ilə gedən, özü üçün İslamı həyat tərzi seçən hər bir şəxs onun əmr və qadağalarına tabe olmalıdır. Həmin əmrlərə riayət etməklə insanlar özləri üçün xoşbəxt həyatı təmin edə bilərlər.

Bu da həqiqətdir ki, istənilən insan xəstələnməkdən sığortalanmayıb və bunu hər bir kəs həyatında nəzərə almalıdır. Odur ki, xəstə insanlarla xoş rəftar etmək bütün hallarda Allah-Taalanın bəşər övladına tövsiyəsidir. Xəstələri ələ salmaq, onları təhqir etmək Allah qarşısında ən böyük günahlardandır.

Yeri gəlmişkən, qeyd edək ki, İslamda insanlara kinayə etmək, onları lağa qoymaq, etinasız yanaşmaq, şərəf və ləyaqətinə toxunmaq Allaha xoş getməyən əməl sayılır. İslama görə, bütün müsəlmanlar qardaşdır; onlar istər sağlam, istərsə də xəstə ikən qarşılıqlı münasibətlərdə diqqətli olmalıdırlar. “Qurani-Kərim”də buyurulur: “Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar (lağa qoyulanlar) o birilərindən (lağa qoyanlardan Allah yanında) daha yaxşı olsunlar. Qadınlar da bir-birinə rişxənd etməsinlər. Bəlkə onlar (rişxənd olunanlar) o birilərindən (rişxənd edənlərdən) daha yaxşıdırlar. Bir-birinizə tənə etməyin (ayıb tutmayın) və bir-birinizi pis ləqəblərlə (ey kafir, ey fasiq, ey münafiq və s.) çağırmayın. İman gətirdikdən sonra fasiq adını qazanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlərdir (özlərinə zülm edənlərdir!)” (“əl-Hucurat” surəsi, 11).

## HƏKİMLƏRİN XƏSTƏLƏRƏ MÜNASİBƏTİ

İslama əsasən, insan ona bəxş edilən bütün nemətlərə görə Allah-Taalaya şükür etməli, həyatını və digərləri ilə münasibətlərini Onun müəyyənləşdirdiyi qaydalara uyğun qurmalıdır. Əgər insan həyatda sağlam və xoşbəxt olmaq istəyirsə, “Qurani-Kərim”in tövsiyələrini yerinə yetirməli və ilahi qadağaları pozmaqdan çəkinməlidir.

Təbii ki, xəstəliyə düçar olmuş insan daim narahatlıq və iztirab içində həyat sürür. Ona elə gəlir ki, o, dünyanın ən bədbəxt insanıdır və həyatının son günlərini yaşayır, artıq ömür sürmək onun üçün mənasını itirib. Bu bədbin düşüncələrlə özündə ümidsiz əhval-ruhiyyə yaradır.

Xəstə insanların nikbin əhval-ruhiyyədə olmaları, ruh düşkünlüyünə qapılmamaları üçün həkimlər əllərindən gələni etməli, onların müalicə-

sində, yenidən sağlam həyata qayıtmalarında böyük rol oynamalıdırlar. Həkimlər səylə çalışıb, ilk növbədə, onları ruh düşkünlüyündən xilas etməlidirlər.

Xəstələrin şəfa tapmasına səbəb ola biləcək əsas amillərdən biri də onların insanpərvər mühitlə əhatə olunmalarıdır. İslam insanlardan, xüsusilə, həkimlərdən xəstələrə diqqət və qayğı ilə yanaşmağı, müalicə edərkən ehtiyatlı olmağı, onların etimadını qazanmağı və şəfanı Allah-Taalanın verdiyini unutmamağı tövsiyə edir.



İslamda insanların yaşadıqları hər bir ərazidə onların tələbatını ödəyəcək sayda həkimlərin fəaliyyət göstərməsi əsas vəzifələrdən hesab olunur. Məhəmməd (s) Peyğəmbər bir çox hədislərində insanlara sağlamlığını qorunması və xəstələrlə münasibətə xüsusi diqqət yetirməsi barədə dəyərli tövsiyələr verib. O, təbabəti bilməyən insanlara həkimlik etməməyi məsləhət görüb və onları bilmədiklərini öz üzərlərinə götürməkdən çəkindirib: "Kim biliyi olmadan həkimlik etməyə çalışarsa, biliksizliyi ucbatından yaranan zərəri ödəməlidir" (ibn Macə).

## İSLAM ALİMLƏRİ VƏ TİBB

İslam elmin inkişafına böyük önəm verir, müsəlmanları onun sirlərinə yiyələnməyə, xüsusilə də tibb sahəsini öyrənməyə çağırır.

İslamda Tibb elmi Quran ayələri və Peyğəmbər (s) hədisləri əsasında təşəkkül taparaq meydana gəlib və inkişaf edib. Peyğəmbərin (s) insan sağlamlığı ilə bağlı hədislərini dərindən araşdıran İslam alimləri Tibb elmində böyük uğurlar qazanıblar. Nəticədə, İslam aləmində bir çox tibb alimləri yetişib, tibb müəssisələri fəaliyyət göstərib.

Bəzi mənbələrdə İslamda ilk tibb mərkəzinin Məhəmməd (s) Peyğəmbərin Xəndək döyüşü zamanı yaralıların müalicəsi üçün yaratdığı kiçik tibb məntəqəsi olduğu bildirilir. Peyğəmbər bir qadını bu yerə təhkim edərək, ona yaralılara ilk tibbi yardım göstərməyi tapşırıb. Bəzi rəvayətlərdə bu qadının adının Rafizə Əsləmiyyə olduğu söylənilir.

Sonrakı dövrlərdə İslam dünyasında ibn Sina, ibn Nəfis və Razi kimi böyük tibb alimləri yetişib. Dünya Tibb elminin inkişafında bu alimlərin müstəsna xidmətləri olub və onlar sağlamlığa dair bir çox məşhur əsərlərin müəllifləridir. İbn Sinanın "əl-Qanun fi-t-tibb" əsəri Tibb elmi sahəsində yazılmış ilk ensiklopedik əsər sayılır.

Məqalədə insan sağlamlığının qorunması ilə bağlı ayə və hədislərin bir qismi barədə söz açdıq. Qeyd olunan Quran ayələri və hədislər İslamın insan sağlamlığının qorunmasına böyük önəm verdiyini göstərir. Müsəlmanlar daim sağlamlıqlarının qayğısına qalmalı, xəstəliklərdən qorunmalı, Tanrının bəşər övladına bəxş etdiyi ən dəyərli nemətin cansağlığı olduğunu unutmamalıdırlar.

**M.Məmmədov**

# NİKAHIN MAHİYYƏTİ və ERKƏN NİKAHA DİNİ BAXIŞ

*Nizami Gəncəvi: "Nikah ki birliyin əsas şərtidir, Onunla nəsillər inkişaf edir".*

İstər din, istərsə də hüquq sistemləri nikahı əhəmiyyətli hesab etmişdir. Buna görə bəşər tarixində ailə həmişə dövlətin xüsusi himayəsində olduğu üçün analıq, atalıq və uşaqlıq qanunla mühafizə edilmiş, nikah və ailə münasibətləri hüquqi baxımdan tənzimlənmişdir. Dini baxımdan, bəzi dinlərdə ona sırf ibadət kimi, bəzən də hüquq sistemlərində olduğu kimi, sırf ikitərəfli bir müqavilə (əqd) kimi baxılmışdır. İslam hüququna gəldikdə isə bu səpkidə hər iki əsasa dəlalət edən mülahizələrə rast gəlmək mümkündür. Mahiyyət kimi nikahın ibadətdən ibarət olduğunu düşünənlər kimi, onun hüquqi əqddən başqa heç nəyi ifadə etmədiyini söyləyənlər də mövcuddur. Bu mülahizələrin hansı əsaslara görə söylənildiyini ayrı-ayrılıqda aşağıda göstərilən qaydada verə bilərik.

**I. İslamda nikahın mahiyyəti**

Nikah əqdini ibadət hesab edənlərin mülahizələri bir neçə amilə söykənir. Bunların istinadları bəzi ayə və hədislərdir. Bəzi alimlər işi fəlsəfi baxımdan izah edərək bu nəticəni çıxarırlar: müsəlman ailədə tərəflərdən birinin dindən çıxması ilə nikahın birbaşa xitamı məsələsi nikahın dini xüsusiyyət daşıdığını və ibadətə olan yaxınlığını kifayət qədər hiss etdirir. İşi hüquq fəlsəfəsi baxımından analiz edən Tahir ibn Aşur (v. 1973) bu barədə belə demişdir: "İslam nikah əqdinə fəzilətlərin əsası kimi baxmışdır.



*f.f.d.* ƏHMƏD NİYAZOV,
*AİĪ İslamşünaslıq kafedrasının müdiri*

Nikahda, sanki məhrəm zövqləri unutduracaq qədər dini cəhəti üstün tutmuş, həmçinin tərəflərin hörmət və ehtiram prinsiplərini uca tutmaları istənmişdir. Uca Allahın bir ayəsi bu mövzuda diqqəti cəlb edir: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir" ("Rum", 30/21). Buradan da məlum olur ki, əqd bir şəkildən ibarət görünsə də, ifadə etdiyi məna baxımından, kişinin qadınla ömür boyu ortaq yaşama arzusunun və ona olan məhəbbətində səmimi olduğuna dair həmişə xoş niyyət təzahür etdirməsi üçün bağlanan müqavilədir".

Qeyd edək ki, nikahın ibadət xarakterli olduğu qeyd edilən alimlər üçün əsas məxəz "Qurani-Kərim" ayələridir. Bu kimi nümunələri aşağıdakı şəkildə sadalamaq olar: "Qurani-Kərim", təqribən, yüzə yaxın ayədə ailə hüququ ilə bağlı məsələlərə toxunmaqla yanaşı, bəzi məqamlarda onun adi bir əqd sayılmadığını, həmçinin nikahın əhəmiyyətinin fərqində olmaq lazım gəldiyini ictimaiyyətə bildirir. "Nisa" surəsində bu haqda belə deyilir: "Bir-birinizə qaynayıb-qarışdınız və onlar sizdən sağlam təminat aldılar" ("Nisa" 4/41). Bu ayə göstərir ki, nikah əqdi ər-arvad arasında sadə bir sözləşmə müqaviləsi deyil, eyni zamanda, çox böyük məsuliyyəti olan əhd-peymandır. Yəni evlənən tərəflərin, əsasən, əqddən sonra riayət edəcəkləri bir əhdnamədir.

"Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtilə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər" ("Bəqərə", 2/217.)

Bəzi üləmaya görə, bu ayənin İslam fiqhində hökmlərə təsiri böyükdür. Belə ki, ayənin ifadə etdiyi mənaya görə, Allaha imanetmənin əsas şərti səhih bir imandır. İmanı tam olmayanın nə ibadəti, nə də əməli səhih olar. İmanına şirk qarışdıran kəsin nikahı da səhih olmaz. Evlənmə əsnasında ərə gedərkən istər qadın, istərsə də kişi üçün bu ölçü əsasdır.

Məlumdur ki, müsəlman bir qadının qeyri-müsəlman bir kişiyə ərə getməsi qadağandır. Quranda bu haqda belə deyilir: "Möminlərin, həmçinin sizdən əvvəl kitab veril-

mişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və ismətli (özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan) qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır" ("Maidə" 5/5) ayəsidir. Ayənin dəlalət etdiyi mənaya görə, müsəlman kişilərə əhli-kitabın qadınları halaldırsa, müsəlman qadınlara onların kişiləri ilə evlənmə haram olacaqdır. Digər ayəyə ("Bəqərə" 2/221) görə, müsəlman kişi, həm də qadınlar müşriklərlə qətiyyən evlənə bilməzlər. Müşrik Allahdan başqa saxta ilahlara tapınan, Allaha şərik qoşan deməkdir. Bu səbəbdən, din fərqi nikaha əngəl bir vəziyyətdir. Əgər başqa dində olanlar İslamı qəbul edərlərsə, maneə də aradan qalxar.

Evli ikən ər-arvaddan biri dinini dəyişdirib İslamdan çıxarsa, bu hal məhkəmə qərarına ehtiyac olmadan nikahın xitamına gətirər. İmanına şirk qarışdıran bir kəsin nikahı batil olur. Belə bir kəsin əks-cinsdən biri ilə ömür boyu yaşama arzusunu ibadətniyyətli təməllər təşkil etməyəcək. İslam nöqteyi-nəzərincə evlilik sədəqə savabından ibarətdir. Allahın elçisi əleyhissalam belə demişdidr: "Sizin evliliyinizdə sədəqə savabı vardır".

"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı oddan qoruyun" ("Təhrim", 6/66) ayəsi ətrafında mülahizələrə görə qurulacaq ailədə əxlaqi normaların dini dəyərlər ətrafında yüksəlməsini tövsiyə edir. Qadın və kişini dünyada xoşbəxt, axirətdə əbədi səadət sahibi edəcək yeganə vasitə iman və ibadət daxilində qurulan həyat tərzidir ki, bu, İslam normasıdır. Dini, milli və tarixi keçmişinə bağlı bir nəsil yetişdirmək, ancaq bu tərz əsaslara bağlı ailə qurmaqla mümkündür. Ailədə bu kimi dəyərləri qorumaq, ancaq "Qurani-Kərim"in yuxarıda qeyd edilən tövsiyəsi ilə olar ki, Həzrət Peyğəmbərin "Qadınlarla dörd şey üçün evlənin: malı, soyu, gözəlliyi və dindarlığı üçün. Sən dindar olanı şeç, xoşbəxt ol" hədisi bilavasitə bu amala xidmət edən meyardır. Ailədə doğulan uşaqların gözəl əxlaq sahibi olmasını arzu edən kəs, əlbəttə ki, elə əxlaq sahibi ana axtarmalıdır ki, ədəb və əxlaq nümunəli, ailənin hər cür problemini həll etməyə hazır olsun. Necə ki, "Qurani-Kərim" buna işarə edərək, "Onlar sizin, siz də onların libasısınız (bir-birinizə həddindən artıq yaxınsınız)" ("Bəqərə" 2/187). Qadın və kişinin ailədə bir-birinə olan ünsiyyət ölçüsü bu ayədə qeyd edilmişdir.

Hədisi-şəriflərə istinad edən alimlər bu barədə mövzu ilə bağlı aşağıdakı rəvayətin eyni əsasa dəlalət etdiyini bildirirlər. Hədis belədir: "Bu nikahı ətrafa xəbər verin. Onu məscidlərdə bağlayın və kəbin mərasimində dəflər çalın". Rəvayət haqqında ibn Həcər Asqalani öz fikrini belə iza edir: "Nikahın məscid içində bağlanması və xüsusilə də bunun cümə günü yerinə yetirilməsi müstəhəbdir və bu onun ibadət cəhətini gücləndirir". Hədisin məzmununa münasibət bildirən Seyid Sabiq onun "...nikahı məscidlərdə bağlayın..." hissəsinə görüş bildirərkən, məqsədin, əsasən, "məscid"dən ibarət olduğu, həmçinin nikahın elanı və yayılmasında məscidin rolundan bəhs edərək belə demişdir: "Şübhəsiz ki, nikahın məsciddə bağlanması onun elanı və yayılması baxımından ən ideal yoldur. Məscidlər insanların toplaşdığı yerdir. Xüsusilə də ilk əsrlərdə məscidlər müsəlmanların toplanma mərkəzləri (idarə) hökmündə idi". Nikahla bağlı bu hədisdə sadə bir əqddə rastlaşılmayan bəzi xüsusiyyətlərin olduğu qeyd edilmişdir. Bəzi hədisi-şəriflərdə də Həzrət Peyğəmbər əleyhissalam nikahı, xüsusilə bir Peyğəmbər sünnəsi kimi adlandırmış və nikahdan imtina edənlərin, yaxud üz çevirənlərin sünnədənkənar bir iş tutduğunu demişdir. Hədis belədir: "Nikah mənim sünnəmdir. Bundan uzaqlaşan məndən deyil. Evlənin, uşaq sahibi olun. Mən qiyamət günündə ümmətimin çoxluğu ilə iftixar edəcəyəm", - söyləmişdir.

"Sizdən birinizin evliliyində sədəqə savabı vardır" hədisi-şərifi də nikahın ibadətxarakterli olduğuna işarə sayılır. Bu mövzuda həmfikir olan alimlərə görə, insanın yaradılış səbəbi olan ibadət insan həyatının hamısına şamil edilmiş bir düsturdur. İslam əsaslarına görə, təyin edilən və qurulan evlilik də ibadət xarakterlidir. Nikah əqdi ilə nəfsi haramlardan qorunmaq və nəsli davam etdirmək kimi bir çox ictimai mənafeyə xidmət edən amillər həyatda öz əksini tapmış olur.

Bəzi şafei alimlərə görə, nikah ticarət kimi dünyəvi və sıravi işlərdən olub, ibadət mahiyyəti daşımır. Müsəlmanlar kimi qeyri-müsəlman olanların belə bağladıqları nikah İslam hüququnda qanuni əsası olan bir müqavilədir. Əgər nikah ibadət olsa idi, onda müsəlmanlar xaricində heç kimin nikahı keçərli deyildi. Onlara görə evlilik intim arzuların təminindən ibarətdir. İbadət isə Uca Allah üçün hər hansı bir iş görmək və ya əməl etməkdən ibarətdir. Buna görə Allah üçün çalışmaq öz nəfsi üçün iş görməkdən daha fəzilətlidir.

İmam Şafeiyə görə, boş vaxtı ibadətə həsr etmək və elmlə məşğul olmaq evlənməkdən daha üstündür. Əgər evlilik daha üstün olsaydı, bunu tərk etmək öyülməzdi. Allah "Ali İmran" surəsinin

39-cu ayəsində Yəhya əleyhissalamı tərifləyərək, onu "nəfsinə hakim və əməlisalehlər zümrəsindən biri" buyuraraq, evlənmə imkanı olduğu halda, qadınlardan uzaq durduğuna işarə edir. Şafeilərə görə, bu mövzuda "Nisa" surəsinin 24-cü "Haram olanlar xaricindəki qadınlar namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal buyuruldu" ayəsi digər bir dəlildir. Bir şeyin halallığı onun mübah olması deməkdir. Halal və mübah terminləri sinonimlərdən ibarətdir. Buna görə evlilik - yemək, içmək, ticarətlə məşğul olmaq kimi mübahlıq hökmü daşıyan feillərdəndir.

Onu da qeyd etmək lazımdır ki, nikahın həm də ibadətdən ibarət olduğunu müdafiə edənlər şafei alimlərinin bu görüşlərini tənqid edərək söyləmişlər ki, nikah əqdinin qeyri-müsəlmanlar üçün də hüquqi bir zəmin təşkil etməsi tamamilə dünyəvi xarakter daşıyan ictimai asayişin təmini üçündür. Bunun ibadətlə belə müqayisəsi düzgün nəticə verməyə bilər. İş görmək, əməl etmək kimi amillərdə əsas meyar niyyətdir və onun savab dərəcəsi niyyətlə ölçülür. Bu baxımdan, fərdin sədəqəyi-cariyəsi, yəni yol çəkmək, məktəb, xəstəxana, yaxud məscid inşası kimi insanların ümumi mənfəəti üçün çalışması iman və niyyət atributları baxımından müxtəlifdir. Belə ki, Həzrət Peyğəmbər əleyhissalam buyurur: "Ölən insan oğlunun bütün əməllərinin savabı kəsilər. Üç şey bundan istisna təşkil edir: səddəqəyi-cariyə, istifadə edilən elm, valideynə dua edən xeyirli övlad". Hədisi-şərifdən başa düşülür ki, dünyəvi-xarakterli olsa da, möminin (niyyətə bağlı) işləri həm də ibadət hökmü daşıyır.

Ər-arvadın hər ikisi mürtədlik yolunu seçərsə və ya birlikdə İslamı qəbul edərsə, "Nikahları davam edər", - deyənlər olsa da, əksər üləmanın fikrincə (başda İmam Züfər olmaqla), onların nikahlarının fasid olacağı və yeni bir əqdə ehtiyac duyulacağı fikrindədir.

Ər-arvaddan biri digərindən əvvəl müsəlman olarsa, onların nikah əqdi bütün alimlərə görə, fasid olacağı üləma arasında "icma" meydana gətirmişdir.

İslam mədəni hüququnda nikahın əqdlərindən birinin digərindən fərqli cəhəti onun dindəki hökmü ilə əlaqədardır ki, bu da nikah üçün spesifik bir mahiyyətdir. Əqdlərdən fərqli olaraq, müctəhid alimlər evlənən tərəflərin hal və vəziyyətinə görə, "fərzi-kifayə", "sünnə", "mübah", "vacib", "məkruh", "haram" kimi vəsflərlə nikahı hökmə bağlamışlar. Qeyd etmək lazımdır ki, bu hökmlər müsəlman fərd üçün tamamilə dini xarakter daşıyır və bu hal müsəlmanın, adətən, təqva baxımından riayət edəcəyi və buna görə Allah dərgahında fəzilət və savabının artdığını güman etdiyi haldır. Bunları daha geniş sadalasaq, aşağıdakı kimi göstərmək olar:

**a) "Fərzi-kifayə"**

İslama görə, evlilik hökm baxımından "fərzi-kifayə" hesab edilir. İctimaiyyətin gələcəyini nəzərə alaraq, insan nəslinin davam etməsi məqsədi ilə evlənmək ictimai bir məsuliyyət sayılmış, bəzi fərdlər tərəfindən bunun yerinə yetirilməsi ictimaiyyət üçün kifayət hesab edilmişdir.

**b) Sünnə**

Zinaya düşmə təhlükəsi olmayan və cinsi cəhətdən iradə sahibi üçün evlilik sünnə əməldir.

**c) "Mübah"**

Qocalıq və bədəndəki hər hansı bir qüsur, yaxud xəstəlik səbəbindən, intim gücünü itirən kəslər üçün evlənmək mübahdır.

**ç) "Vacib"**

Evlənmədiyi təqdirdə, zinayadüşmə qorxusu olan kəslərin evlənməsi vacibdir.

**d) "Məkruh"**

Həyat yoldaşına əziyyət və ya haqsızlıq kimi evlilik hüququna riayət edə bilməyəcəyi ehtimalı olan kəslərin evlənməsi məkruhdur.

**e) "Haram"**

Evlənəcəyi təqdirdə, zülm edəcəyi qəti surətdə bilinən kəslərin evlənməsi dində haramdır.

Böyük hənəfi alim ibn Hümama görə, nikah ibadətə daha yaxındır. Onun nəzərində evlənmək sırf ibadət etmək niyyəti ilə subay qalmaqdan daha üstün və fəzilətli hesab edilir.

İbn Abidin isə bu barədə belə nəql edir: "Bizə görə Hz. Adəm dövründən bu günə kimi qanuni şəkildə davam edib gələn cənnətdə də davam edəcək olan nikahla imandan başqa ibadət yoxdur".

Qeyd edək ki, əlbəttə, kəbin mərasimi mücərrəd əqd şərtləri daşımır. Təfərrüatından xəbərdar olan din adamı nikahbağlama anında tərəflərə nikahın mahiyyətini, onun ictimai-sosial məsuliyyətini, eyni zamanda, tərəflərin bir-birlərinə qarşı hüquqlarını və buna riayət baxımından, Allah nəzərində nə dərəcədə məsul olduğunu başa salmalıdır. Yəni işin dini təməli baxımından müqəddəsliyini anladaraq, əhval-ruhiyyə ilə birləşən qadın və kişinin öz keflərinə xatir boşana bilməyəcəklərini, əgər boşanarlarsa, günah görmüş olacaqları haqda onlara geniş məlumat verir.

Evliliklərini müqəddəs bir zəmində qurduqlarına inanan kəslərlə belə bir əhvali-ruhiyyədən məhrum ər-arvadın ailə anlayışının eyni olması da mümkün deyildir.

Nikah ictimai-sosial əhəmiyyəti olan bir müəssisədir. Yuxarıda sadalanan bütün qeydlər onun məhz ictimai

əsaslarını təşkil edir ki, bu da ər-arvad arasındakı mənəvi dəyərləri gücləndirən, ömür boyu birlikdə yaşama arzusunu qoruyub saxlayan sirlərdir.

Nikahın sosial cəhətinə gəldikdə, şafei üləma başda olmaqla, bəzi alimlərə görə bu, qadın və kişilər arasında müəyyən şərtlər və qaydalar daxilində nikahın bağlanmasından, yəni hüquqi bir prosedurdan ibarətdir. Hüquqi əsaslara bağlı bir əqd də məlumdur ki, bəzi şərtlərin yerinə yetirilməsi ilə meydana gəlir. Yəni əqdin tamamlanması ilə nikah da tamamlanır. Sosial baxımdan, bir nikah mərasimi meydana gəlmiş, qadınla-kişi ər-arvad elan edilmiş və ailənin təməli atılmış olur. Belə bir mərasim üçün lazım olan qaydalar, bir hüquq sistemi kimi, dinlərin də tələb etdiyi bəzi şərtlərdən ibarətdir. Bunlar nikah əqdinin tərəfləri, şahidlik (elan) və sairdir.

**II. Erkən nikaha dini baxış**

Klassik İslam hüquq düşüncəsində nikahın yazılı isbatına dair hər hansı bir rəsmi qeydiyyatdan danışmaq çətindir. Nikahın bağlanmasında belə bir amilin irəli sürülməsinin qeyri-mümkünlüyü o dövr üçün səciyyəvi xarakter daşıyır. XVI əsrə qədər davam edən bu halın bəzi müsəlman ölkələrində bundan sonra dövlətin nəzarətinə verilməsi əsas hesab edilmişdir; məsələn: Osmanlı Dövlətində nikah mərasimi bu əsrlərə qədər iki şahidin müşayiəti ilə yerinə yetirilirdi. Tətbiq edilən bu üsulun müqabilində Ebus-Süud Əfəndinin (v.1574) təsiri ilə dövlətin müdaxiləsindən bəhs olunaraq, həm yaş həddi, həm də qeydiyyat şərtinin əsas gətirildiyi qeyd edilir. Belə ki, nikah mərasiminin yerinə yetirilməsində dövlətin izinnamə üsulu tətbiq edilmişdir. İzinnamə məhkəmə tərəfindən evlənəcək qadın və kişi arasında evlənmə şərtlərinə uyğun olması haqqında, bir növ, icazə sənədi idi. Bu icazə əldə edildikdən sonra, səlahiyyətli şəxs onların nikahını bağlaya bilərdi. İzinnamənin ən böyük əhəmiyyəti qadın və kişi arasında məhkəməyə olan ehtiyac idi. Belə bir sənəd əsasında bağlanmayan (qeyri-rəsmi) evliliklər hər hansı bir hüquqi məsələdə məhkəməyə müraciətdən məhrum idi.

1917-ci il Osmanlı Hüquq Ailə Qərarnaməsi qəbul olunduqda, bu məsələ daha da rəsmiləşdirilərək, bağlanan nikah tənzimlənməsinin 37-ci maddəsində aşağıdakı şəkildə qanuniləşdirildi: "Nikah əqdi əsnasında nişanlılardan birinin qeydiyyatda olduğu yerin səlahiyyətli nümayəndəsi əqdnaməni tənzim və təscil edir". Adıkeçən "Ailə Qərarnaməsi"ndə dövlətin hüquq nizamına uyğun olmayan evlənmələr rədd edilməmişdir, ancaq dövlət nəzarəti xaricində bağlanan nikah mərasimindəki tərəfləri və iştirakçı şəxsləri cinayət məsuliyyətinə cəlb edərək, onlara müxtəlif müddətlər ərzində azadlıqdan məhrumetmə cəzası (həbs) müəyyənləşdirilmişdir. Qeyd edək ki, bu kimi misalları tarixdə əksər müsəlman dövlətlər üçün demək mümkündür.

Ümumiyyətlə, İslamda evlilik yaşı hicri II əsrdən bəri mübahisə obyektinə çevrilmişdir. Əvvəlcə qeyd edək ki, tarixdə erkən nikaha icazə verilməsi, ancaq yorum və ictihadla bağlı fərdi görüşlərə bağlı məsələdir. Hər bir halda, azyaşlıların evlənmə əhliyyətinin olm aması və onun ata tərəfindən evləndirilə biləcəyi rəyi "Talaq" surəsinin 4-cü ayəsinin təfsirinə fərqli yanaşmalardan ortaya çıxmışdır. Əslində, bu işdə, üəmaya görə, bir az da örfün təsirinin müşahidə edilməsi xüsusi qeyd olunacaq bir məsələdir. Ayə belədir: "(Yaşa dolmaqla) heyzdən kəsilmiş qadınlarınız (onların gözləmə müddəti) barədə şübhə etsəniz (bilin ki), onların və həmçinin heyz görməmiş olanların gözləmə müddəti üç aydır (bu müddət başa çatdıqdan sonra başqası ilə evlənə bilərlər). Hamilə qadınların gözləmə müddəti isə onlar bari-həmlini yərə qoyduqda başa çatır. Kim Allahdan qorxsa, Allah onun işini (dünya və axirətdə) asan edər" ayəsinin buna dəlalət etdiyi qeyd olunmuşdur.

Ayədə keçən (وَاللَّائِي لَمْ يَحِضْنَ) – (həmçinin heyz görməmiş olanların) buna (yaşları münasib olmadığı üçün) hələ heyz görməmiş olanların (heyz görməmiş gənc övrətlərinizin) mənası verilmiş olsa da, ayənin Quranla təfsiri möhtəvasında izahını verən alimlərin daha doğru qənaətdə olduqlarını görmək mümkündür.

Hər şeydən əvvəl qeyd edək ki, ayədə üç qrup qadından bəhs edilir adətdən kəsilən - yaşlı; heç adət görməyən - xəstə və hamilə olan qadınlar. Evli qadının boşandığı əsnada heyz görməməsi bir çox hallarda ola bilər. Qadınlarda adətin kəsilməsi, yaxud görülməməsi halları psixoloji, patoloji və ya fizioloji səbəblərdən də mümkün ikən, bunun, sadəcə, azyaşlılara şamil edilməsi qənaətbəxş deyil. Məhəmməd Əsəd yazdığı təfsirində ay halı görməyəndən məqsədin "yəni, hər hansı bir fizioloji qüsur səbəbindən heç ay halı görməyən" kimi izahını vermişdir. Məşhur təfsir alimi Hamdi Yazır "Haqq dini Quran dili" adlı təfsirində bundan məqsədin yaş həddini 17 olaraq göstərmiş və "Heyz görməmiş olanları, büluğ yaşının ən üstü olanı on yeddi yaşını keçmiş, nəticədə, yaş etibarilə büluğa çatmış olduqları halda adət görməyənləri əhatə edir", - demişdir. Bu fikirdə olan bir çox fiqh üləması da görmək mümkündür ki,

onlara görə, həddi-büluğa çatdığı halda, adət görməmək hamiləlik üçün də əngəldir. Ayədə sıralamanın buna görə olduğu daha məqsədəuyğun görünür: yaşlılıq səbəbindən heyz görməyənlər, heç heyz görməyənlər və hamilə qadınlar.

Hicri II əsrdən ibn Şübrümə (v.144/761) Osman əl-Bətti (v.143/760) kimi müctəhidlər azyaşlıların istər özləri, istərsə də valideyni və ya qəyyumu tərəfindən evləndirilmələrinin caiz və mötəbər ola bilməyəcəyini düşünürdülər. Bu, hazırda üləma tərəfindən də dəstəklənən əsas -müfta bih görüşüdür. Həmçinin başda Məhəmməd Cavad Mağniyyə kimi Cəfəri məzhəbinin əksər üləması da bu görüşdə olub, nəfəqə və mehr kimi mali-təsərrüflərin meydana gəldiyi nikah əqdində qadının hürr iradəsindən məhrum ola bilməyəcəyini qeyd edrilər. Onlara görə, azyaşlıların evləndirilməsi məkruh hesab edilmiş, əgər bu cür nikah baş tutarsa, qadınla cinsi yaxınlıq haram hökmü daşıyır. Belə bir hal da meydana gələrsə, həmin kişi və qadın bir-birlərinə əbədi haram olar.

İslamda erkən nikahı qadağan edən əsas Quran ayəsi isə “Nisa” surəsinin 5-ci ayəsi hesab edilir. Ayədə deyilir: “Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını (həddi-büluğa çatdıqlarını) hiss etsəniz, mallarını özlərinə qaytarın...”. Məhəmməd Kərim Bakuvi buna belə bir yorum gətirir: “Yetimlərin ağıllarını yoxlayıb, baxıb görün, mallarını idarə etməyə ağılları nə səviyyədədir? Nə zaman ki, həddi-büluğa çatdılar, əgər yetimlərin öz mallarını gözəl şəkildə idarə etmələri və ticarət yollarına agah olmaları sizə aydın olsa, o zaman onlara öz mallarını verin”.

Ayədən belə başa düşülür ki, evlənmə əhliyyəti müəyyən yaş dövrünə bağlanmışdır.

Tərəflərin şəxsən nikah əqdini yerinə yetirmələrinin etibar edildiyi yaş həddi onların rüşd dövrüdür. Quran himayəsi və əli altında yetimləri olana müraciətlə onlara, ancaq ağıl-baliğ olduqdan sonra, rüşdünü isbat etdikləri zaman yetimlərə atalarından qalan mallarının təhvil veriləcəyini, həddi-büluğun kifayət etməyib, rüşdlərinin təyin edilməsini məsləhət bilir ki, bu da ayədə nikah yaşı kimi qeyd olunur.

Eyni zamanda, “Bəqərə” surəsinin 232-ci ayəsində qadının hürr iradəsi ilə bağlı belə deyilir: “Boşanmış qadınların gözləmə müddətləri bitərkən aralarında barışıq və yaxşılıqla yaşamağa razılıq olduğu zaman onların təkrar öz ərlərinə nikah edilməsinə mane olmayın!”. Ayədən çıxan hökm üləma tərəfindən boşanmış dullara şamil edilsə də, ayə bizə iddətini gözləmiş qadının evlənməsindən bəhs edir. Mövzu haqqında hədislərə gəlincə, onları belə sadalamaq mümkündür:

**a)** “Dul özü haqqında qəyyumdan daha çox haqq sahibidir. Bakirənin isə razılığı alınar”;

**b)** Ənsardan Xidamənin qızı Həzrət Xədicəyə gələrək şikayət etdi və “Atam etibarını artırmaq üçün məni qardaşıoğluna verdi, ancaq mən bunu istəmirəm”, - dedi. Həzrəti Aişə “Rəsulullah (a.s.) gələnə kimi gözlə”, - dedi. Rəsulullah (a.s.) gələndə, Hz. Aişə işi ona xəbər verdi. Rəsulullah (a.s.) dərhal qızın atasını çağıraraq evlənmə səlahiyyətini qıza verdi. Bunun üzərinə Hansa Rəsulullaha (a.s.) belə dedi: “Ya Rəsulullah! Mən atamın bağladığı bu nikahı qəbul edirəm, ancaq ataların, qızların evlilikdə belə bir səlahiyyətinin olmadığını bildirmək istədim”.

Qeyd edək ki, Əbu Hənifəyə görə, büluğ yaşına gəlmiş bir qızı heç kəs məcburən evləndirə bilməz. Qızın razılığı alınmadan bağlanan nikah hökmsürdür. Rəsulullah “Açıqca icazəsi alınmadan dul qadın, razılığı anlaşılmadan bakirə qız evləndirilə bilməz”, - buyurmuş, “Onun razı olması necə bilinər?” sualına da “Sükutu ilə”, - cavabını vermişdir. İmam Malik və İmam Şafeiyə görə, büluğ çağına gəlmiş olsa da, qız və qadınlar vəlilərinin icazəsi olmadan təkbaşına iradə bəyanları ilə evlənə bilməzlər.

Nəticə olaraq qeyd edək ki, istər azyaşlıların, istərsə də müəyyən patoloji xəstəliklər səbəbindən heyz görməyənlər kimi izah edilsin, “Qurani-Kərim” qızların və oğlanların evlilikləri əsnasında büluğla birlikdə rüşd şərtini irəli sürür. Müasir İslam alimlərnin də dediyinə görə, evlilik və nikahın feli nəticələri olan, ictimai funksiyanın heç biri azyaşlıların evləndirilməsində əldə edilə bilməz. Belə bir evlilik gərəksiz və faydasız olduğu üçün gələcəkdə xoşagəlməz sürprizlərə səbəb ola bilər.

Digər bir cəhəti də unutmayaq ki, nikah “Qurani-Kərim”də “Nisa” surəsinin 21-ci ayəsinə görə, kişi ilə qadın arasında möhkəm əhd və peymandır. Bir-birinə verilmiş məsuliyyətli və ağır bir sözdür. Ayədə deyilir: “Siz onu (mehri) necə geri ala bilərsiniz ki, (vaxtilə) bir-birinizlə yaxınlıq etmişdiniz və onlar (qadınlarınız) sizdən möhkəm əhd-peyman almışdılar”. Nikah ilə meydana gələn ictimai məsuliyyət, ancaq onun çiyinlərində hiss edilə biləcək gücə və bu məsuliyyəti dərk edəcək dərrakəyə malik gəncləri gözləyir ki, müəyyən yaş dövrünü tamamlamamış azyaşlıların bunun öhdəsindən gəlməsi mümkünsüzdür.

# İslamda qadına zorakılıq yoxdur

*İslam dininin yayıldığı arealda qadınların hüquqsuz, təhsilsiz və ikinci növ vətəndaş durumunu müşahidə etdikcə, bunun qadınlara ən ciddi şəxsiyyət olma imkanı qazandırmış bir dinlə əlaqəsi mövzusuna tez-tez baş vurmaq zərurəti yaranır. Maraqlıdır ki, qadının etibarsızlığının ilkin faktı da məhz dini rəvayətlərə dayandırıldığından, bu toplumun ən dərin qatlarında inandırıcılıq dəyəri qazanır, qadının öncədən ən böyük günah sahibi yarlığına məğlub olmasına imkan yaradır. Halbuki, "Ta Ha" surəsinin 20-ci ayəsində vurğulanır ki, Adəmi Həvva deyil, məhz şeytan aldadıb. Quranı bilməyənlər isə bu əməli Həvvaya yönəldərək, qadınların aşağılanması üçün ilkin dini əsas yarada bilmişlər.*



*f.f.d.* **FAZİL MUSTAFA,**
*millət vəkili*

Ağıl sahiblərinə sirr deyil ki, Quranın insana münasibəti cinsiyyət üzərindən deyil, şəxsiyyət üzərindəndir. Allah insanlar arasındakı üstünlüyü kiminsə kişi və ya qadın olması ilə deyil, Ona olan münasibətinə görə dəyərləndirir. "Qurani-Kərim"ə nəzər salanda insanlar arasında birinin digərindən üstünlüyünün rəddini "Nisa" surəsinin 32-ci ayəsində Allah belə anladır: "Allahın birinizi digərinizdən üstün tutduğu şeyi arzulamayın. Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payları vardır...". Buradan da anlaşıldığı kimi, İslamda qadınla-kişinin cəmiyyətdə yeri bərabər olmalıdır: "Məhz onlar yaxşı işlər görmək üçün bir-biri ilə yarışar və bu işlərdə öncə gedərlər" ("Muminun" surəsi, 61). "Ali- İmran" surəsinin 195-ci ayəsində isə "İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram..." kəlamı ilə cinsiyyət fərqindən deyil, əməl fərqindən bəhs edilir.

İslamda qadına verilən dəyər, ilk öncə, "Rum" surəsinin 21-ci ayəsindəki tanıtımla başlayır: "Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir". Məhz burada işarə edilən sevgi və mərhəmətin unudulması ilə qadının hüquq və azadlıqları da unudulmağa məhkum edilmişdir. İslamda qadın və kişi arasında hüquqi bərabərlik ilk dəfə din gələndən sonra, Quran ayələri Peyğəmbər tərəfindən cəmiyyətə çatdırıldıqdan sonra göründü. Qədim ərəb adət-ənənələrindən fərqli olaraq, qadın şəxsiyyəti və sosial statusu hüquqi müəyyənlik qazandı. "Qurani-Kərim"in ayrıca surələrində, onun bir sıra ayələrində konkret olaraq bunun dəqiq çərçivəsi cızıldı. Qadınlarla bağlı ayrıca "Nisa" surəsi nazil oldu. "Nur" surəsində xeyli ayə qadınların hüquqi vəziyyətini izah etdi. Bunların hamısı bütövlükdə qadına yeni bir obraz, yeni bir şəxsiyyət qazandırdı, qadın hüquqlarının sabitləşməsinə gətirib çıxardı.

Qadının aşağılandığı bir cəmiyyətdə İslam peyğəmbəri xanımı ilə atla yarışdı, Hüdeybiyyədə xanımı Ümmü Sələmənin məsləhəti ilə hərəkət etdi, bununla da qadının statusunun qaldırılmasının praktik yollarını miras qoydu. Ardınca bir qadın ikinci xəlifə Ömərlə mübahisə edərək, Quran ayələrinə əsaslanmaqla onu susdurdu və bu da qadının bərabərhüquqlu mübahisə və müzakirə tərəfdarı olduğunu göstərdi.

Birinci növbədə, qadının hüquqları nikahla - daimi, qalıcı bir əqd əsasında tənzimlənməyə başlandı. Nikahdan başqa da qadının mülkiyyət hüququ tanınmağa başlandı. Boşandıqdan sonra qadının miras hüququ tanındı, halbuki islamaqədərki dövrdə qadınlar ən çox bundan əziyyət çəkirdilər. Nikahın müqəddəs elan olunması, tərəflər arasında müqaviləyə əsaslanması, nikah pozulduqda isə nikahdan sonra qadının hüquqlarının qorunması institutunu İslam gətirdi.

Qadının, demək olar ki, fiziki göstəricilərinə görə kişi ilə bərabərliyi tam şəkildə qəbul olunmasa da, hüquqi olaraq bərabərliyin əsasları yaradılmış oldu. Burada bərabərlik anlayışına qarşı "Qurani-Kərim"də yer alan "iki qadının şahidliyinin bir kişinin şahidliyinə bərabər tutulması" qoyulmağa başlandı və bunu diskriminasiya kimi qiymətləndirənlər də tapıldı. Amma mahiyyət tamamilə fərqli idi. Bu məhdudlaşdırmada qadının bütövlükdə cə-



miyyət həyatına qatılma imkanları nəzərə alınırdı. Yəni qadın övlad böyütdüyünə görə, yaxud da müəyyən fiziki vəziyyətinə görə, bir çox hallarda cəmiyyət həyatına fəal qatılmaq imkanı əldə etmir. Ona görə də bu amillər nəzərə alınır və bunun hüquqi məhdudlaşdırma kimi anlaşılması qüsurlu sayılmalıdır.

Amma bütövlükdə qadının ictimai həyatda rolu barədə, onun hüquqlarının tanınması istiqamətində İslam ilk dəfə olaraq ənənəvi tayfa qaydalarından fərqli yol izlədi, yeni hüquqlar ortaya qoydu və qadının şərti boşanma imkanını tanıdı. Yəni nikah müqaviləyə əsaslanırsa, o zaman qadın öz boşanma haqqını burada qeyd edərək, gələcəkdə qarşılaşdığı vəziyyətdən çıxış yolu əldə edə bilər. Digər tərəfdən, ailənin dolanışığının məsuliyyətini daşıdığına görə, kişiyə boşanma hüququ öncəliklə tanınsa da, qadına aldığı mehri geri vermək şərti ilə, hakimin qərarına əsasən boşanmaq imkanı tanınmış oldu. Təsadüfi deyildir ki, "Bəqərə" surəsinin 141-ci ayəsinə görə, boşanan qadınlara ödəmənin edilməsi imanlı insanların vəzifəsi olaraq görülmüşdür. Əvvəlki adətlərdə təkcə kişinin boşanma hüququ vardı və bu prosesin başlanması da məhz kişinin iradəsindən asılı idi.

İslamdanöncəki dövrdə ərəblərdə qız uşaqlarının diri-diri torpağa basdırılması ənənəsi vardı. Bu, gələcəyin qadınının qətliamı idi. Bu cinsə mənsub insanın yaşamaq hüququ şəxsi istəklərə bağlı idi. İslamın gəlişi ilə bu vəhşi adət aradan qaldırıldı. Digər tərəfdən, qadınların hər hansı bir şəkildə zorakılıqdan qorunma imkanları məhdud idi; məsələn: Hz. Xədicə dul qalandan sonra, Hz. Məhəmmədə evlilik təklif etdi. Onu müəyyən dərəcədə himayəsində olan işçi kimi qəbul edirdi. Sonradan onunla ailə həyatı qurması, üzərində bir kişi himayəsinin olması zərurətindən doğurdu. Toplumda tam müstəqil şəkildə özünün iqtisadi hüquqlarını həyata keçirməkdə çətinliklər yaşayırdı. Təbii ki, o dövrdə müşriklərin ailələrində nüfuzlu qadınlar vardı, müəyyən proseslərə təsir edən, hətta müsəlmanlarla başabaş mübarizə aparmağa, həvəsləndirici və dinamik işlər görməyə hazır qadınlar vardı. Bunların bütövlükdə hüquqi baxımdan tənzimlənən statuslara sahib olduğu söylənə bilməzdi.

Həmin dövrdə Azərbaycanda İslam yox idi, bəzi bölgələrdə xristianlığın bir qolu var idi, digər bölgələrdə başqa dinlərin təzahürləri vardı, əsasən də Zərdüşt inancı ilə bağlı dini hərəkatlar mövcud idi. Özünə görə şahın xanımı və ya kənizi saraydaxili mühitdə hansısa aparıcı rol ala bilirdi. Söhbət mülkiyyət, vərəsəlik, boşanma hüququndan gedirsə, bu zaman qadın tam hüquqsuz vəziyyətdə idi. Avropada, ABŞ-da da vəziyyət bu gün şişirdildiyi kimi deyil. Jorj Sandın əsərləri ilə tanış olmaq yetərlidir ki, qadının hüquqsuzluğunun mənzərəsini dəqiq müşahidə edəsən. O, kişi adı ilə qadın hüquqlarını qoruyan əsərləri əbəs yerə yazmırdı.

Məhz İslam gələndən sonra, qadın haqlarını qalıcı bir hüquq normaları ilə tanıdı. Qadın mülkiyyət hüququ əldə etməyə, miras hüququndan faydalanmağa başladı. Qadının əvvəlki vaxtlarda hər hansı bir şəkildə miras hüququ yox idi, İslam bunu təsbit etdi. Miras hüququ və iqtisadi azadlığı əldə edəndən sonra, qadın daha çox müstəqillik əldə etdi.

Qadının geyimi ilə bağlı bəzən çox iradlar bildirilir ki, İslam gələndən sonra qadını qapatdı və müəyyən dərəcədə hüquqlarını məhdudlaşdırdı. Bu, əslində, qadını qorumaq məqsədilə nəzərdə tutulan bir

addım idi. Müəyyən dərəcədə açıq formada geyinən qadınların daha çox təcavüzə uğramaq, təzyiqə məruz qalmaq təhlükəsi vardı. Örtünmə məsələsi də bununla bağlı idi. Amma İslamın əsas prinsiplərindən birinin "Dində zorakılıq yoxdur!" ehkamından qaynaqlandığı nəzərə alınarsa, bunun zorla tətbiqinin İslamla əlaqəsi olmadığı özlüyündən anlaşılar.

Bəzən də İslamla bağlı söhbət düşəndə qadının döyülməsi məsələsinin Quranda nəzərdə tutulduğuna işarə edilir. İslamda qadına qarşı şiddət yoxdur. İslam qadının bütövlükdə hüququnu təmin edən bir əxlaq modeli olaraq gəldi və ona şəxsiyyət qazandırdı. Diqqət yetirin: Xədicənin vəfat etmiş ərindən qalan var-dövləti var idi. Ərindən qalan var-dövlət onun tərəfindən idarə olunurdu. Başqa bir seçim olmadığına görə, ərinin nə mülkü var idisə, Xədicəyə qalmışdı. Bir çox hallarda ailə üzvləri, bacı-qardaşlar miras uğrunda mübarizə edirdilər, valideyn öldükdən sonra kim güclü idisə, daha çox miras sahibi də o olurdu. Əksər kişi cinsinə mənsub adamlar miras sahibi olurdular. İslam bunu müəyyən qaydaya saldı. Hər kəs mirasdan lazımi səviyyədə faydalanmaq imkanı əldə etdi.

Qadınlara da şərtli boşanma hüququnun verilməsi müəyyən dərəcədə qadının imkanlarını genişləndirdi. Yəni harada fiziki təzyiqə məruzqalma hadisəsi var idisə orada qadının xilasolma, qurtulma imkanı var idi. Bu, indiki dövr üçün adi görünə bilər, amma o dövr üçün böyük bir inqilabi dəyişiklik idi.

İslam, əslində, qadının şəxsiyyətinə ilk növbədə, hüququla təminat verilən yerini bildirdi. Yerini göstərdi və bu hüququdan necə istifadə etməyi, artıq özünün öhdəsinə buraxdı. Dinin təməl prinsiplərinə, dinə uyğun olmayan məhdudlaşdırmaya qadın sonralar məruz qaldı. Qadının hüquqsuzluğu bilavasitə İslam dini ilə bağlı deyildi, İslam dininin tətbiqi ilə bağlı idi.

Müəyyən dərəcədə hədislərin özündə, hətta istinad edirdilər ki, Peyğəmbərimiz tərəfindən deyilir ki, guya cəhənnəmin böyük əksəriyyəti qadınlardan ibarət olacaq. Bu, absurd bir şeydir. Peyğəmbərin bunu deməsi mümkün deyil. Cəhənnəmin kimlərdən ibarət olmasını öncədən söyləmək belə məntiqə uymur. Uydurmalar kifayət qədər çox idi.

Təsəvvür edin ki, Peyğəmbərin yanında olan adamlarla bağlı hədislər çox azdır. Ona görə bu məsələlərdə ziddiyyətlər mövcuddur. Bütünlükdə Peyğəmbərin özünün sünnətinə görə, İslamda qadına münasibət əsas götürülür. İslam Peyğəmbərinin Xədicəyə olan münasibəti, ona olan sevgisi, onunla olan davranışı, öz qadın kölələrinə qarşı davranışı, onları azadetmə istiqamətində atdığı addımlar, qadına heç vaxt şiddət tətbiq etməməsi - bunlar hamısı, əslində, İslamın təmiz tətbiqinin örnəkləridir.

Qadınla-kişinin cəzası arasında fərqlər də səbəbsiz deyildir. Fiziki imkanların fərqliliyinə görə ədalətli bir formada tətbiqi nəzərdə tutulur. Mahiyyətcə zina bir tənbeh tədbirindən başqa, həm də müəyyən dərəcədə cəmiyyətdə yayılmaması üçün, əxlaq modelinin qorunub-saxlanması üçün vacib tətbiq olunan qaydalardan biridir. Daşlanma yoxdur İslamda, tətbiq olunmayıb. İslamda Nəsiminin dərisinin soyulması kimi hadisələrini heç bir hüquqi əsası yoxdur.

Bu gün İŞİD-in və başqalarının etdikləri, qadınların satılması, onlara işgəncə verilməsi kimi məsələlər də belədir. Namaz qılmayanın öldürülməsi, yaxud cəmiyyətdən təcrid olunması deyilən bir şey də İslamda qətiyyən yoxdur və bunlar özbaşınalıqdan, zorakılıqdan, qabalıqdan başqa bir şey deyil.

Bu, anormallıqlar, vəhşiliklər yalnız İŞİD-lə də məhdudlaşmır. Əfqanıstanda "Taliban" da budda abidələrini uçurdu. Məktəbə gedən qızların xeyli hissəsini öldürürlər. Uşaqlarını məktəbə qoymamaq üçün valideynlərinə qarşı terror təşkil edirlər. Somalidə İslam qruplaşması artezian qazan, susuz insanlara su verənlərə hücum edir. Kənardan gələnləri, xeyirxah insanları öldürürlər ki, niyə bizim müsəlmanlara su verirsiniz? Bu, mahiyyətcə İslamla əlaqəsi olmayan siyasi hərəkatlardır. Siyasi hərəkatların arxasında bəlli xarici güclərdən başqa, həm də cahillik elementləri durur. Təhsilsiz, bilgisiz İslamın görüntüsü bu kimi vəhşiliklərdir.

Quranda nə deyilir? "Ey Məhəmməd, öyrən və öyrət!"; yaxud Quranın ilk endirilmiş ayəsi nə deyir? "Rəbbinin adı ilə oxu!". "Oxu" deyəndə həm də anlayaraq oxumaqdan söhbət gedir. Hər bir şey anlamaq üzərində qurulub. Azərbaycan toplumunda da vaxtilə belə olub. Şeyx Nəsrullahın ölü diriltdiyi bir məmləkətdə olduğumuzu unutmamalıyıq; yaxud Molla İbrahimxəlil kimyagərin misi qızıla çevirmə ideyasını gerçəkləşdirdiyi cəmiyyət olduğumuzu unutmayaq. Hansı toplumda bu hərəkətləri etsələr, hökmən gülüb keçərlər. Bu, cahilliklə bağlı olan məsələdir. Təhsilsiz bir cəmiyyətin problemi, müəyyən dərəcədə İslamı yanlış anlaması, İslamda olan ayələrin məcazi mənasına və ya əsas mahiyyətinə məhəl qoymadan özünün istədiyi kimi yorumlayaraq belə addımı atması ilə sıx bağlıdır.

İndi siz diqqət edin, İslam dünyasında Peyğəmbərdən böyük şəxsiyyət olmayıb. O da hamı kimi vəfat edib. Quran

təlqin edir ki, Allah qatında ən üstün olanınız ən təqvalı olandır. O halda bu qədər imtiyazlı insanlar haradan çıxıb ortaya? Peyğəmbər nəslindən gəldiyini iddia edib, onun adı ilə spekulyasiya edən minlərlə insan haradan çıxıb? Qadınları ikinci növ insan kimi görməyə alışmış düşüncələr necə formalaşıb?

Həcclə bağlı məsələdə də diqqət edirsinizsə, səmimi dindarlarla yanaşı, qeyri-səmimi hacıxanımlar, hacılar da var. Bunların hamısı İslamı hərfən uyğulayan, hərfən anlayan və ancaq Quranı bu başdan-o başa oxuyub mənasını başa düşmədən bitirən insan tipləridir. Səmimi və anlaqlı insan üçün Quranın hər bir ayəsində bir hikmət var, insana mənəvi rəhbər olan bir yol var. Burada insanın bir əxlaq modeli var, doğru yaşam forması var. Bu yaşam formasını "Quranda bu cürdür, Allahın verdiyi hökm var və ona əməl edən məhkum insan var" kimi anlamaqdan başqa hansı izah ola bilər? Bir çox hallarda isə insanlar Allahın yerinə özləri hökm verirlər. Quranda nə qədər haram deyilən şeylər var? Çox az və cüzi. Amma indi araşdırsan, bu qədər haram sayılan silsilədən dəhşətə gələrsən. Bunlar tətbiqatda İslamın siyasiləşməsindən doğan təzahürlərdir. Qadına da bunlar tətbiq olunanda oxumamış, cahil, nadan bir vəziyyətdə qalırıq. Halbuki, məsələn, dövrün ən aydın xanımları kimlər olublar? Həzrət Xədicə, Həzrət Aişə olub. Bəzən cəmiyyətdə Həzrət Peyğəmbərin xanımına qarşı düzgün mövqedə olmayan insanlarla rastlaşırıq. Halbuki onlar bilmirlər ki, Həzrət Aişə savadlı, prosesləri dəqiq izləyən, hətta lazım olanda sərkərdə kimi döyüşə qatılan bir şəxsiyyətdir. Onu aşağılayanlar İslamı doğru anlamırlar. Hansı ölkədə olması fərq etmir. Biliksiz insanların zehniyyəti hər yerdə eynidir. Ona görə İslam yanlış tətbiq olunanda bir qorxu dininə çevrilir. Əxlaq dini artıq arxada qalır, qorxu dininə çevrilir. Ən başlıcası da qadını qorxunun içinə əsrlərdir həbs edən bir zehniyyətin dini İslam ola bilməz!

Allah Quranda iman gətirənlər üçün iki nümunəvi qadından bəhs edir. Bunlardan biri Hz.Məryəm, digəri isə Fironun xanımıdır. Hər ikisinin yüksək əxlaqından bəhs etmək, Hz. Məryəmi "bütün aləmlərdən üstün tutulduğunu" bəyan etmək təsadüfi sayıla bilməz. Bununla qadın obrazının ucalığına işarə edilir və onun diskriminasiyasının yolverlməzliyi xatırladılır.

Bu gün Azərbaycanda da müasir hüquq qadınlara hüquq bərabərliyini tanısa da, qadının azadlığı qarşısında maneələr formasını dəyişmiş kimi görünsə də, mahiyyətcə düşüncələrdə ciddi dəyişikliklər baş verməmişdir. Onminlərlə qız uşağının "istənilməyən varlıq" kimi ana bətnində kurtaş yolu ilə məhv edilməsi özlüyündə bu cəhalətin nə qədər geniş vüsət aldığından xəbər verir. Buna görə də qadın azadlığının məhdudlaşdırılmasının, qadınların aşağılanmasının İslamla əlaqələndirilməsinin yanlışlığına qarşı düşünən insanların fikir bildirməsi, dəlillərlə təkzib etməsi bütün İslam arealında qadın şəxsiyyətinin yenidən layiq olduğu uca dəyəri qazanmasına imkan yaradacaqdır.

# Qlobal əxlaq düşüncəsi fəlsəfi müstəvidə



*f.f.d., dosent*
**ANAR QAFAROV,**
*AİI-nin müəllimi*

**GİRİŞ**

Son dövrlərdə texnologiya sahəsindəki innovasiya və inkişaf cəmiyyətdə rabitə vasitələrinin müxtəlifləşməsi və yayılması kimi bir çox dəyişikliyə yol açıb. Bundan asılı olaraq insanların əvvəlki dövrlərlə müqayisədə, bir-birindən daha çox məlumat bazasına malik olmaları onların qarşılıqlı təsir altında qalmalarına səbəb olub. Bu təsir cəmiyyətin ən mühüm ünsürü olan fərddən başlayıb ailəyə, oradan da daha geniş cəmiyyətlərə sirayət edib. Cəmiyyət və insan arasında yaranan belə bir sosial-psixoloji vəziyyət və təsirlənmə dünyanın müxətlif bölgələrində getdikcə ortaq həyat tərzinin ortaya çıxdığını və təkistiqamətli bir prosesə daxil olduğunu göstərir.

Bəşəriyyət dünyanı bir vəhdət halında dərk etməyə başlayır. Millətlər və mədəniyyətlər bir-birlərinə daha da çox yaxınlaşmağa başlayıb. Bəşəri idrakın problemlərə bu aspektən baxması əqli fəaliyyətin geniş perspektiv qazanması kimi izah edilə bilər. Elm, texnologiya, ticarət və rabitə artıq müəyyən dövlətlərin sərhədlərini aşaraq, beynəlmiləl fəaliyyətlər halına gəlib. Məhz belə bir əqli fəaliyyətlə bəşəri problemlərin ifadəsi və həll yolları da universal və qlobal mahiyyət qazanmağa başlayıb. Belə ki, bugün siyasi, sosial və iqtisadi cəhətdən bəşəriyyətin məruz qaldığı müxtəlif problemlərin artıq "qloballaşma" anlayışı müstəvisində mübahisə və müzakirə edildiyinin şahidi oluruq.

Bütün bunlar hər şeydən əvvəl qloballaşma məfhumu üzərində düşünməyə və geniş müzakirələrə şərait yaradır. Hətta qlobal münasibətlərin davam etdirilməsi üçün ortaq dilə (ingilis dili) də təbii olaraq ehtiyac hiss edilir.

Dünyanın müxətlif ölkələrində ortaya çıxan oxşar etik problemlər qlobal əxlaq böhranından bəhs edilməsinə səbəb olur. Belə ki, cəmiyyətin ən əhəmiyyətli hissəsi və nüvəsi olan ailə qurumunun zədələnməsi, narkotik vasitələrdən istifadənin artması, siyasi əxlaqın pozulması və s. kimi mühim problemlərin cəmiyyətlərin yerli məsələsi olma sərhədini aşıb universal mahiyyətə bürünməsi əxlaqın da bəzi məsələlərlə yanaşı qlobal müstəvidə tədqiq edilərək problemlərinin ortaya qoyulmasına yol açır, bəşəriyyətin qlobal əxlaq böhranı yaşadığı kimi iddiaları gündəmə gətirir. Bu mənada, bəzi mütəfəkkirlər dünyanın müştərək əxlaq problemlərinin həll yolunun ancaq bütün bəşəriyyətin ortaq dəyərlərini bir vəhdət şəklində müzakirə etməkdə olduğunu qeyd edirlər. Dünyada mövcud olan əxlaqi problemlərin həll yollunun ortaq dəyərlərdə olduğunun iddia edən İsveçrəli teoloq Hans Künqün qlobal əxlaq konsepsiyası qeyd etdiyimiz iddialar çərçivəsində diqqətəlayiq bir nümunədir. Elə məhz bu məqalənin əsas mövzusu da Hans Künqün təşəbbüsü ilə 1993-cü ildə Dünya Dinləri Parlamenti tərəfindən qəbul edilən "Qlobal Əxlaq Bəyannaməsi" ilə əsas modusları ortaya qoyulan "qlobal əxlaq düşüncəsidir". Bu düşüncə dünyadakı əxlaqi problemlərin universal əxlaq prinsipləri ilə həll edilməsinin mümkünlüyünü irəli sürür. Lakin məsələnin əvvəlcə terminoloji müstəvidə ələ alınması onun bir düşüncə tərzi olaraq daha dərindən anlaşılmasına səbəb olacaqdır.

**"Qlobal əxlaq" termini**

Qlobal əxlaq termini ingilis dilindəki "global ethic" termininin Azərbaycan dilindəki qarşılığı olub, qlobal əxlaq düşüncəsinin əsasını təşkil edir. Bu terminin alman dilindəki qarşılığı "weltethos" terminidir. "Dünya əxlaqı" mənasına gələn "weltethos" əslində qlobal əxlaq düşüncəsini formalaşdırır. Belə ki, bu termin 1928-ci ildə Katolik din adamı Hans Künq tərəfindən əvvəlcə konfranslarda, sonradan isə onun "Projekt weltethos" adlı kitabında yer alıb. Qeyd etmək lazımdır ki, bu termin Künqdən əvvəl də mövcud idi, amma onun əxlaq anlayışında xüsusi məna daşıyırdı.

Künq "Projekt weltethos" kitabında qeyd edilən terminin dəqiq tərifini ortaya qoymaqla yanaşı, alman dilində "dünya" mənasını daşıyan "welt" sözü ilə yunan dilində "əxlaqi davranışlar" mənasına gələn "ethos" termini birləşdirilərək universal bir əxlaq anlayışını ifadə etməyə çalışdı (H. Künq "The History, Significance and Method of the Declortion Toward a Global Ethic" A Global Ethic and Global Responsibilities: Two Declarations, London: SCM Press LTD, 1998, 57-58).1 Hətta H. Künq 1991-ci ildə bu kitabı ingilis dilinə tərcümə edəndə "weltet-

hos" termininin ingilis dilindəki eynimənalı termini tapmaqda çətinlik çəkdiyi də qeyd olunur. "Ethos" termininin qarşılığı olaraq, ingilis dilində istifadə edilən "ethics" sözü "ethos" kimi etik davranışları deyil, bu davranışlara dair fəlsəfi və teoloji təlimləri ifadə edir. Məhz buna görə də Künq "ethics" termininin yerinə "ethic" terminindən istifadə etməyi üstün tutub. Beləliklə, "ethic" "global" sözü ilə birlikdə işlədilərək, "qlobal əxlaq" termininin ortaya çıxmasına səbəb olub. Bəzən bu anlayış özünü terminoloji müstəvidə "world ethic" şəklində də ifadə edib.

Qlobal əxlaq termini Künq tərəfindən Dünya Dinləri Parlamentində qəbul edilən "Qlobal Əxlaq Bəyannaməsi"ndə bağlayıcı dəyərlər, dəyişdirilə bilməyən prinsiplər və fərdi davranışlar mövzusunda əsaslı bir uzlaşma şəklində tərif edilib. "A Global ethic for global Politics and Economics" adlı əsərində qlobal əxlaqa ehkam müstəvisindəki müxtəlifliyə rəğmən, bütün dinlər tərəfindən qəbul edilən və inanmayanları da əhatə edən bağlayıcı dəyərlər, stabil kriteryalar və əsas davranışlar üzərində əsaslı uzlaşmadır-şəklində tərif verib. Qlobal əxlaq məsələsində Künqün məşhur davamcısı olan, eyni zamanda, universal əxlaq bəyannaməsinin müəllifi olan katolik dünyasının təmsilçisi, dinlərarası dialoq professoru Leonard Svidler də qlobal əxlaqa dair yeni bir tərif ortaya qoyub. Qlobal əxlaq bir çox terminlərlə bilavasitə əlaqəlidir. Yuxarıda da qeyd edildiyi kimi, həm "weltethos", həm də "global ethic" terminlərini Künqdən əvvəl də istifadə edənlər olub. Künq ondan əvvəl bu terminlərdən istifadə edənlərdən müəyyən qədər fərqlənir. Buna Künqün məhz özü də diqqət çəkir. Belə ki, o, Max Huber və Alfons Auer kimi mütəfəkkirlərin "weltethos" terminini ondan əvvəl istifadə etdiklərini bildirərək, onların bu terminlə müxtəlif din və ideologiyaya sahib insanların müştərək bir əxlaq prinsipi üzərində uzlaşmalarını ifadə etdiklərini dilə gətirir. Halbuki bu məna Künqün qlobal əxlaq termininə verdiyi anlamı tam ehtiva etmir. Huberə görə, qlobal hüquqi idarəetmənin qlobal əxlaqa nisbətlə reallaşması daha çox mümkündür. Auer də əsərlərinin birində Xristian teologiyası çərçivəsində "weltethos" terminindən istifadə edib, hətta onun tələbələri Künqün bu termini Auerdən aldığını iddia edirlər. Burada bir amil nəzərdən qaçıb. Belə ki, Auerdən fərqli olaraq, Künq bu termini qlobal siyasət, qlobal iqtisadiyyat və din qaynaqlı universal bir bəşəriyyət əxlaqı çərçivəsində tərif edərək, onun mahiyyətini daha da zənginləşdirib. Burada təkrar qeyd etmək vacibdir ki, "global ethics" termini Künqün "qlobal əxlaq" konsepsiyası ilə qarışdırılmamalıdır. Azərbaycan dilinə "qlobal əxlaq" şəklində tərcümə edilən "global ethics" bütün bəşəriyyətin yaxşılığı nəzərdə tutularaq, formalaşdırılan əxlaqi hökm və tövsiyələr sistemidir. Bundan əlavə, bu termin qloballaşma ilə əlaqəsi aspektindən "xüsusilə, qlobal problemləri diqqət mərkəzinə alan əxlaq çalışması" olaraq da tərif edilə bilər. "Global ethics" qlobal problemlərin təhdidinə qarşı insanın dəyərinin və bioloji varlığının mühafizəsi məqsədinə xidmət edən bir anlayışdır. Bəşəriyyətə bir ideal kimi ön planda yer verən bu anlayışın humanist bir mahiyyət daşıdığını deyə bilərik. Bu mənada, insan səhhətinə zərər verən ekoloji problemlərin də qlobal əxlaqın əsas mövzuları arasında yer alması təsadüfi deyil. İnsanların həyatını mühafizə etmək məqsədilə müharibə əleyhdarlığı, bitkilər və heyvanlar aləmini qoruma istiqamətində ekoloji şüur formalaşdırma cəhdləri, yerlilərin və köçəri olan insanların hüquqlarını dilə gətirən demoqrafik əxlaqa dair məsələlərin müzakirəsi, iqtisadiyyat və texnologiya ilə əlaqədar əxlaqi problemlərlə maraqlanma "qlobal ethics" tədqiqatları çərçivəsində dəyərləndirilən məsələlərdir. "Global ethics"ə dair ədəbiyyat, yaxud mənbələrə nəzər salanda, "insan hüquqları", "ətraf mühit hüququ" və "qadın hüquqları" kimi üç məsələyə toxunan əxlaq əsərlərinin ümumi qlobal əxlaq (global ethics) araşdırmaları çərçivəsində dəyərləndirildiyinin şahidi oluruq. Qloballaşmanın yol açdığı və onunla paralel universal mahiyyətli problemlərlə maraqlanan "global ethics" (qlobal əxlaq) bütün bəşəriyyətin universal dəyər və normalarının axtarışında olmaqla yanaşı, qlobal məsuliyyət düşüncəsi üzərində də ciddi şəkildə durur.

İngilis dilində "global ethic" termini ilə ifadə edilən qlobal əxlaq eynilə "global ethics" kimi qlobal problemlərə evristik əxlaq təklifləri ilə çıxış edir. "Global ethic" termini ilə ifadə edilən qlobal əxlaq "global ethics"dən fərqli olaraq dini mahiyyətdədir. Bunu "global ethic"in tərifindən də görmək mümkündür. Belə ki, bu tərifə görə qlobal əxlaq (global ethic) bilavasitə din ilə bağlıdır. Digər tərəfdən, burada qlobal əxlaqı ifadə etmək üçün "global ethics" yerinə "global ethic" terminindən istifadə edilməsi də təsadüfi bir hal kimi qiymətləndirilməməlidir. Bu mənada, "global ethic" (qlobal əxlaq) müəyyən davranış qəliblərini, dəyişməsi mümkünsüz olan prinsipləri və bağlayıcı dəyərləri ifadə olunur. Yəni bu kateqoriyadakı qlobal əxlaq qlobal problemlərin həlli isitiqamətində üzərində uzlaşma tələb olunan bəzi dəyərlər və qaydaların ortaya qoyulması hədəf alınır. "Global ethics" termini ilə ifadə edilən qlobal əxlaqın isə qlobal problemlərin həlli istiqamətində ortaq bir resept ortaya qoymaq kimi bir hədəfi yoxdur. Bu mənada, əxlaq qlobal problemlərə diqqət çəkərək, hər fərdin bu problemlər qarşısında nə kimi məsuliyyət daşıdığını və hansı vəzifələrə sahib olduğunu müzakirə edir. Beləliklə, "global ethics" "global ethic"dən fərqli olaraq, hər hansı bir hədəfi olmayıb, sadə-

cə, fərdlərə və cəmiyyətə bir ideya və baxış bucağı təqdim edir. Bundan əlavə, "global ethics" "global ethic" kimi müəyyən insanlar və quruplar tərəfindən mənimsənilərək tanınmış bir hərəkat deyildir.

Bu izahlardan sonra qeyd etməliyik ki, "global ethic" termini Künqdən əvvəl istifadə edilsə də, məzmun etibarilə "global ethics" çərçivəsində dəyərləndirilib. Yəni bu istiqamətdə ortaya qoyulan əsərlərdə "global ethic" ilə "global ethics" terminlərinə dair yuxarıda qeyd etdiyimiz mahiyyət fərqliliyi nəzərə alınmayıb və "ethic" ilə "ethics" bir-birinin yerinə işlədilib. Bu gün də əksər əsərlərdə bu iki terminin bir-birinin yerinə işlədildiyinin şahidi oluruq. Bunu metodik bir səhv kimi dəyərləndirmək doğru olmaz. İki termin arasında fərqlilik, demək olar ki, məhz Künqün qlobal əxlaq anlayışında qarşımıza çıxır və o, mühüm nöqtələrdə bu iki termin arasında fərqliliyə diqqət çəkir. Bu kimi fərqliliklərlə yanaşı, iki termin arasında ortaq cəhətlərin olduğu da məlumdur; məsələn: dünya əxlaqının insan hüquqlarının bərpası ilə təmin ediləcəyi düşüncəsi "global ethics" çərçivəsindəki əsərlərə məxsus bir cəhət kimi dəyərləndirilir. "Global ethic"i insan hüquqlarına diqqət çəkməsi kimi cəhətləri ilə "global ethics"ə daxil etmək olar.

Qlobal əxlaqa dair terminlərdən biri də evristik əxlaqdır (universal ethic/s). Evristik və ya universal əxlaq "global ethics" kimi qlobal problemlərlə əlaqədar hər hansı bir düşüncə ortaya qoymayıb, ümumiyyətlə, bütün bəşəriyyəti əhatə edəcək mahiyyətdə bəzi əxlaqi prinsiplərin mövcud olduğunu irəli sürür. Bu mənada, "global ethic" çərçivəsindəki qlobal əxlaqın sahəsi daha dardır. Belə ki, global əxlaqın (global ethic) əsas tezisini insanların təbii hüquq düşüncəsi kimi bəzi apriori prinsiplərə malik olmadığı düşüncəsindən hərəkətlə cəmiyyətdəki əxlaqi problemlərin həlli istiqamətində "dini prinsiplər üzərində uzlaşma" düşüncəsi təşkil edir. Beləliklə, universal olma baxımından, "global əxlaq - global ethic" termini ilə evristik, yaxud universal əxlaq-universal ethic termini arasında oxşarlıq olsa da, mahiyyət cəhətdən fərqlidirlər. Digər tərəfdən, qlobal termini elmi mübahisələri olan yeni bir termindir və o, universal termini ilə eyni məna daşımır. Başqa tərəfdən, qloballaşma termininin müsbət və mənfi mənalar çərçivəsində dəyərləndirilməsi, bu anlayışın ideologiya olduğu şəklindəki düşüncələri nəzərə alsaq, onun universal termini ilə mahiyyətcə fərqliliyini daha təfərrüatlı anlamış olarıq.

Dini və ənənəvi müxtəlifliyi aşan etik standartların mövcudluğunu sorğuya çəkən əsərlərdə tez-tez istifadə edilən "müştərək əxlaq" mənasına gələn "common morality" termini qlobal əxlaqla ortaq nöqtələri olmaqla yanaşı, onunla eyni şeyi ifadə etmir. Belə ki, qlobal əxlaq müştərək zəmini dini prinsiplərdə görür. Buradan onun "müştərək əxlaq"dan (common morality) daha dar bir çərçivəyə malik olduğunu qeyd edə bilərik. Əxlaqi prinsiplərin hər kəsi əhatə edəcək bir sferaya malik olduğu düşüncəsini qəbul etməsi faktı nəzərə alınarsa, bu terminin "ortaq əxlaq" termini ilə müəyyən dərəcədə eyni müstəvidə dəyərləndirilməsi mümkündür.

**Qlobal əxlaq düşüncəsini ortaya çıxaran faktorlar**

Qloballaşma ingilis dilinə "globalization" kimi tərcümə olunur. Bu termindən ilk dəfə Marshall McLuhan (1911-1980) tərəfindən 1962-ci ildə nəşr etdiyi kitabında istifadə edilib. Kitabda "global village" (qlobal kənd) şəklində ifadə olunan bu terminə (yəni "global" termininə) sonradan - 1970-ci ildə Vebsterin "Oxford English" və "Larousse French" lüğətlərində də yer verilmişdir. Terminin bir məfhum kimi istifadə olunması isə 1980-ci ilə təsadüf edir. Buradan belə nəticəyə gəlmək olar ki, "qlobal" məfhumu yeni bir məfhumdur.

Qloballaşma terminoloji olaraq, "bütünün əhatə olunması", "bütövləşmə" kimi mənaları ifadə edir. Bu anlayışa, yəni qloballaşmaya qarşı olan müsbət və mənfi baxışlar məfhumun tərifinə də xüsusilə təsir edir. Buna görə də qloballaşma haqqındakı təriflərin qloballaşmağa dair düşüncələrin sayı ilə düz mütənasib olduğunu demək mümkündür. Haqqında danışılan məfhumun formalaşdığı dövrün tarixi xüsusiyyətlərin və qloballaşmağa verilən təriflərdə vurğulanan ortaq cəhətlərin qeyd edilməsinin qloballaşma məfhumunun mahiyyətinin ortaya qoyulması aspektindən əhəmiyyətli olacağını qeyd etmək istəyirik. Bu çərçivədə deyilməlidir ki, İkinci Dünya müharibəsindən sonra iqtisadiyyat, texnologiya və siyasət kimi sahələrdə baş verən inkişaflar, bunların cəmiyyətlərin mədəniyyəti ilə bağlı nəticələri qloballaşmanın zəminini təşkil edir. Beynəlxalq şirkətlərin çoxalması, istehsalatçılıq və ticarət əlaqələrinin bir cəmiyyətin və dövlətin sərhədlərini aşaraq, daha geniş sferaya malik olması kimi faktlar qloballaşmanın iqtisadi səbəb və nəticələri kimi göstərilə bilər. İqtisadiyyat sahəsindəki inkişafın siyasəti öz təsiri altına alması faktı isə siyasətin də qloballama çərçivəsindəki müzakirələrə mövzu olmasına yol açıb. Bunun nəticəsində də milli dövlət anlayışı, milli diskriminasiya kimi anlayışlar əvvəlkinə nisbətən daha az əhəmiyyət kəsb edir. Bunların yerinə daha çox "dünya vətəndaşlığı" kimi anlayışlar səslənməyə başlanıb.

Qloballaşma müstəvisində qeyd olunan məsələlərdən biri də texnoloji innovasiya və inkişafdır. Belə ki, bu inkişaf sayəsində rabitə vasitələrinin geniş vüsət alması və insanlar arasında getdikcə ucuz vasitələrin olması, bundan qaynaqlanaraq, bəşəri münasibətlərin daha geniş sferaya malik olması - buna dünyanın kiçilməsi də deyə bilərik - bütün bəşəriyyət üçün onları daha sıx

münasibətlərə sövq edən qlobal şərait yaradır. Beləliklə, demək olar ki, qloballaşma müxtəlif din, dil və ənənəyə mənsub olan insanlar arasında qarşılıqlı əlaqələrin və təsirlənmələrin getdikcə artmasına zəmin yaratır.

Bəşər aləmi bir-birinin oxşar və fərqli cəhətlərinin fərqində olur ki, bu hal inkişaf etmək istəyən fərd və cəmiyyətlər üçün əhəmiyyətli xammaldır. Belə bir şəraitdə sahib olduğun dəyərlərlə yanaşı, yiyələnmək istədiyin dəyərlər arasındakı ortaq və fərqli cəhətləri görmək, onları analiz və sintez etmək mümkündür. Məsələyə bu aspektdən baxdığımızda, qloballaşma ingilis sosioloqu Roland Robertsonun da haqlı olaraq ifadə etdiyi kimi, yerli dəyərləri canlandıran və onlara evristik keyfiyyət qazandıran bir prosesdir. Glocalization termini ilə də ifadə edilən bu proses2 sayəsində insanlar dünyanı bir vəhdət şəklində dərketmə, gələcəyini təhdid edən problemlərin ortadan qaldırılması isitqamətində qlobal həll yolları haqqında düşünmə fürsəti qazanır. Əlbəttə ki, bu gün İraq, Livan, Suriya və dünyanın digər müxtəlif yerlərindəki problemlərin köklü və sağlam şəkildə həll olunması istiqamətində yuxarıda qeyd edilən imkanların nə qədər doğru istiqamətdə dəyərləndirilməsi mübahisəli bir məsələdir. Məsələyə bu hadisələr prizmasından nəzər salanda, bu gün qloballaşmanın, sözün əsl mənasında, olub-olmadığı da mübahisə edilə bilər. Burada "sözün əsl mənası" deyəndə qloballaşmanın mahiyyəti ilə əlaqədar yuxarıda Roland Robertsondan iqtibasla ifadə etdiyim fikirlərin reallaşmasını nəzərdə tuturuq. Ümumiyyətlə, bu gün tez-tez vurğulanan qloballaşma tablosu, sanki daha çox bir siyasi-coğrafi mühitə məxsus dəyərlərin hakim olması cəhdini əks etdirir. Nəticə etibarilə qloballaşma adı altında bizə təqdim edilən bu tablo daha çox qərbləşmə və ya avropalaşmaqdan xəbər verir. Bu iki məfhum arasındakı fərq analiz edilmədiyi üçün bu gün qloballaşmanın bir ideologiyaya xidmət edib-etmədiyi, onun müsbət və mənfi cəhətləri üzərində fikir birliyi yoxdur. Qloballaşmanı təbii proses olaraq deyil, bir qrupa məxsus hərəkat, ideologiya kimi dəyərləndirənlər məsələyə mənfi aspektdən baxırlar. Onlara görə, qloballaşma kapitalist güclərin dünyada yeni adı və imperializmin yeni şəklidir. Qloballaşma beynəlmiləl sərmayənin dünyanı ələ keçirərək, mədəniyyəti və insanları homogenləşdirməsi ideyasının pərdələnmiş halıdır. Qloballaşma məfhumuna bağlı belə dəyərləndirmələri bəzi alimlər məfhumun monoformalaşdırıcı bir anlayışı ehtiva etdiyi düşüncəsinə götürərək, məfhumun, ümumiyyətlə, mənfi mahiyyət daşıdığı anlayışına səbəb olub. Buna görə də evristik əxlaq müstəvisindəki müzakirələrin "qloballaşma" yerinə "universallaşma (evristik olma)" termini kontekstində aparılmasının daha doğru olacağı bildirilir.

Qloballaşma çərçivəsində yuxarıda qeyd olunan fikirlərin tam əksini iddia edənlər isə qloballaşma prosesinin insan hüquqlarına və demokratiyaya riayət edən yeni dünyəvi sistemin qurulacağını bildirirlər.

Qloballaşma kapitalizmin inkişafına və rabitə vasitələrinin inkişaf etməsinə paralel olaraq, cəmiyyətin iqtisadi, siyasi mədəniyyət müstəvisində çoxcəhətli olaraq iç-içə keçməsi və dünyanın bir yerində baş verən hadisələrin, verilən qərarların və göstərilən fəaliyyətin məhəllə sərhədlərini aşaraq cəmiyyətə təsir etməsi hadisəsidir. Bu tərif məzmun etibarilə qloballaşmanın dünyanın hər bir bölgəsinin qlobal olaraq, yayılmış ictimai birliyə qoşulduğu iddiasını daşıyır. Bu mənada, haqqında söhbət gedən "qlobal əxlaq" məfhumu diqqət veriləsi bir məsələdir. Qlobal əxlaq düşüncəsini ortaya atan Hans Künq qloballaşmanın avantajları və dezavantajları olan bir proses olduğunu qeyd edir. Bu proses yaxşı təhlil edilib qiymətləndirilir və onun nəzarət altına alınması, bəşəriyyətə faydalı olması mümkündür.

Bu sahədəki başqa bir mütəxəssis olan Leonard Swidler XXI əsrin qloballaşma əsri olduğunu vurğulayaraq, nəticədə, ədalət prinsipinə əsaslanan, sülh və azğınlıqların hüquqlarını təmin edən bir şüurun formalaşacağı tezisini irəli sürür. İnsanın varlığını davam etdirməsi üçün qlobal şüura malik olması zəruridir.

Qloballaşmanın mədəniyyətlər üzərindəki təsirini homogen və heterogen terminləri çərçivəsində dəyərləndirmək olar. Belə ki, qloballaşmada bir tərəfdən, müxtəliflik ortadan qaldırmağa cəhd edilir və bu yolla bir dünya mədəniyyəti qurmaq hədəflənir. Digər tərəfdən, bu prosesdə ənənəvi, etnik və dini kimliklər yenidən canlandırılmağa cəhd edilir ki, bu da onun heterogen xarakterə malik olduğunu göstərir. Bu mənada, "glocalization" termini qloballaşmanın hər iki xarakterini özündə ehtiva edən ən uyğun ifadədir ki, bunu yuxarıda da qeyd etmişdik. Məsələyə xülasə şəklində izah gətirsək

Qloballaşmanın ənənə və mədəniyyətlər üzərindəki təsirini nəzərə alaraq, Künq qlobal əxlaq konsepsiyasında dinin universal əxlaq prinsipləri aspektindən çıxış edir. Ona görə qlobal əxlaq konsepsiyasının reallaşmasının yolu məsələnin dinlərin ortaq dəyərləri prizmasından dəyərləndirilməsindən keçir. Əlbəttə ki, qloballaşma dini bir hərəkat deyil. Qloballaşma özünəməxsus bir din, insan və kainat modelinə malik olan mədəni bir hərəkatdır. Onun din ilə münasibəti və dinə təsiri mövzusunda da bir çox görüş və yanaşma tərzi mövcuddur. Bəzilərinə görə, qloballaşma qərbmənşəli olub, xristian missionerlərinin fəaliyyəti üçün geniş fürsətlər təmin edir. Bununla yanaşı, bəzi alimlərə görə, qloballaşma, ümumiyyətlə, universal dinlərin təbliği üçün geniş imkanlar yaradır. Hər şeydən əvvəl, dinin təqdim etdiyi dünyagörüşü və ictimai mühit

ilə qloballaşma bilavasitə əlaqədardır. Buna görə də bu sahədəki mütəxəssislərdən biri olan Peter Beyer əsərlərində qloballaşma şəraitində, xüsusilə, dinin əhəmiyyətindən bəhs edir. Ona görə, qloballaşma dində özəlləşməyə səbəb olmaqla yanaşı, dinin xalq kütləsi üzərindəki təsirinin yenilənməsinə zəmin hazırlayır. Qlobal əxlaq düşüncəsini mənimsəyən alimlərin bu çərçivədəki etik normların bağlayıcılığını din vasitəsilə təmin etməyə çalışmaları onların da Beyerin bu istiqamətdəki düşüncələrini mənimsədiklərini göstərir.

Bu mahiyyətdəki əhəmiyyətli düşüncələri ilə tanınan Riçard Falk da qloballaşmadan doğan problemlərin mahiyyət etibarilə dini olduğunu qeyd edir. Onun irəli sürdüyü tezisə görə tavandan qloballaşmanın qarşısında yer alan zəmindən qloballaşmanın dərnəkləri və beynəlxalq şəbəkələri əsasən mənəvi qaynaqlardan bəslənirlər. Belə ki, qlobal problemlərin aradan qaldırılması istiqamətindəki humanist həll yolları irəli sürmə cəhdləri istər-istəməz dinə müraciət etməyi labüd edir. Hətta dini referanslardan məhrum olan həll yollarının təsiretmə gücü çox zəif, ya da heç olmayacaqdır. Bu anlayışı mənimsəyən Künq də qlobal postmodern dövrü din əsri olaraq görür. Belə ki, qloballaşmanın mənfi nəticələri universal bir əxlaq ehtiyacını ortaya çıxarır. Belə bir əxlaqın isə yalnız dinlər vasitəsilə ortaya qoyulması mümkündür.

Bütün bu görüşlər, əslində, qloballaşmanın ciddi əxlaqi problemlər doğurduğundan və doğura biləcəyindən xəbər verir. Bunu nəzərə alsaq, qloballaşmanı iki aspektən incələmək olar. Bu aspektləri suallarla ifadə etsək, belə deyərik: qloballaşma müəyyən etik dəyərləri ehtiva edirmi, yeni etik dəyərlər ortaya qoyma potensialına malikdirmi?

Digər aspekti isə bu suallarla dilə gətirmək mümkündür.

Bu gün dünyada qloballaşdığı iddia edilən ölkələrin əxlaqi dəyərlər cəhətindən vəziyyəti necədir və həmin ölkələrdə hansı etik problemlər mövcuddur?

Tavandan qloballaşmanı təşkil edən sosial qurumların, dərnəklərin müdafiəçisi olduqları insan hüquqları, ətraf mühitin qorunması kimi dəyərlər qloballaşmanın dəyərlər sferasının əhatəsindədir. Dəyərlərin nisbi olduğu görüşünü postmodern düşüncənin əsas xüsusiyyəti olduğunu irəli sürən bəzi sosioloqlar qloballaşmanın heç bir dəyərinin ortaq prinsip halına gətirməyən bir proses və hadisə olduğunu qeyd edirlər.

Ziqmunt Baumana görə, qloballaşmada daim dəyişikliklər mövcud olduğu üçün cəmiyyətdə bir etimadsızlıq doğurur. Belə bir hal əxlaqa geri dönməyi labüd edir. Yəni qloballaşma dövrü bir çox etik problemləri də arxasından gətirir. Belə bir halda, yeni etik bir sistemə ehtiyac duyulur; məsələn: texnologiyanın inkişafının üstün cəhətləri ilə yanaşı, mənfi cəhətləri də vardır ki, bunlardan biri ətraf mühitin çirklənməsi və s. kimi problemlərdir. Bu vəziyyət ətraf mühitə qarşı diqqətli olmaq kimi bir ehtiyacı doğurur. Bu sahədə fəaliyyət göstərən alimlərə görə, bu ehtiyacı qloballaşma təmin edə bilər. O, əxlaqi potensiala malik bir prosesdir. Qeyd etmək lazımdır ki, belə düşünən alimlərdən biri Ricard Falk qloballaşmanın bu cəhətinin aşağıdan qloballaşma olaraq ifadə etdiyi formanın daxilində mümkünlüyünü qeyd edir. Ətraf mühitin qorunması, qadınların hüququ, ictimai ədalət kimi məsələlərlə maraqlanan vətəndaş cəmiyyətlərinin beynəlxalq səviyyədə inkişafını ifadə edən aşağıdan qloballaşma onun mühüm etik imkanlara sahib olduğunu və bu istiqamətdəki problemlərin həlli üçün gözəl fürsətlər təmin edə biləcəyini göstərir.

Qloballaşan ölkələrdə etik problemlərin olub-olmadığı məsələsinə gəlincə, bu məsələdə dəhşətli statik nəticələrin ortaya çıxdığını görürük. Bu vəziyyəti Lesli Lipsonun sözləri ilə ifadə etsək, demək olar: “Bu əsrdə insan mədəniyyətin əxlaqsız cəhətini gizlədə bilmir”. Doğrudan da bu gün qlobal dünyada sənayesi inkişaf etmiş ölkələrin dünya sərvətinin 85 faizinə sahib olması və bu səbəblə ədalətsiz gəlir bölgüsünün mövcudluğu, 400 milyard insanın hədsiz kök olması, 800 milyondan çox insanın isə kifayət qədər qidalana bilməmə səbəbindən müxtəlif xəstəliklərlə mübarizə aparması, ailələrin dağılması, dünyaya gələn uşaqların üçdəbirinin qeyri-qanuni olması, ətraf mühitin, ekologiyanın çirklənməsi, narkotik vasitələrdən istifadənin artması və digər faktlar qloballaşma prosesində böyük problemlərin mövcudluğundan xəbər verir.

Nəticə etibarilə qloballaşma geniş müzakirələri özündə ehtiva edən bir məfhumdur. Qloballaşma elmi, texniki, iqtisadi və siyasi tərəqqidə, buna bağlı olaraq beynəlxalq münasibətlərdə və eyni zamanda, mədəniyyətlərarası dialoq, qarşılıqlı təsirlənmələrdə özünü büruzə verir. Bu prosesin din və əxlaq üzərində də təsiri labüddür. Qloballaşma dini düşüncələr sferasında bəzi problemlərin ortaya çıxmasına səbəb olsa da, dinin bəşəriyyətin gündəmində yenidən canlanmasına da imkan yaratmışdır. Belə ki, yuxarıda qeyd edildiyi kimi, bu prosesdə əxlaqi problemlərin mövcudluğu bu kimi halların ortadan qaldırılması üçün dini mahiyyət daşıyan dəyərlər üzərində geniş müzakirələrin, düşüncələrin ortaya çıxmasına səbəb olub.

**Qlobal əxlaq düşüncəsinin mahiyyəti**

Məqalənin əvvəlində qeyd edildi ki, qlobal əxlaq düşüncəsi ilk dəfə Hans Künqün “Qlobal Əxlaq Bəyannaməsi” ilə bir düşüncə və tezis kimi formalaşıb. Dini və əxlaqi bir mahiyyət daşıyan bu düşüncənin əsasını “insanlıq” prinsipi təşkil edir. Bu prinsip qeyd edilən Bəyannamədə “hər bir insanla insan kimi davranılmalıdır” şəklində ifadə edilir.

Bu prinsipə görə, yaş, cinsiyyət, bədən və zehin qabiliyyəti, din, dil, siyasi görüş, milli və ictimai mənsubiyyətdən asılı olmayaraq, hər bir insan toxunulmazdır. Qlobal əxlaqın digər dörd qanun maddəsi də bu əsas ilkəni mərkəzə alır. Deməli, "hər insanla insan kimi davranılmalıdır" prinsipinin qlobal əxlaqın özəyini təşkil etdiyi deyilə bilər.

Qlobal əxlaq insanın dəyərinin mühafizə olunmasını hər şeydən əvvəl fərdlər və dövlətlər müstəvisində reallaşdırmağa cəhd edir. Buna görə də deklarasiyada həm fərdin, həm də dövlətin insanın dəyərinə hörmət etmək və onun qorunmasına təminat vermək məcburiyyətində olduğu bildirilir. Bu prinsip mahiyyət etibarilə insanın siyasətdə, iqtisadiyyatda, kütləvi informasiya vasitələrində əşya kimi istismar olunmasını qəbul etmir. Belə ki, dövlət, cəmiyyət, ordu və digər güc strukturu insana hörmət prinsipinin fövqündə yer ala bilməz.

Qlobal əxlaqın humanist prinsipi olaraq ifadə edilən bu prinsipi nəzərə alınarsa, elə məhz bu düşüncə qlobal əxlaq anlayışının evristik cəhətini göstərir. Belə bir anlayış inanmayanlar üçün də əhəmiyyətli məna kəsb edən bir düşüncədir. Elə məhz "Qlobal Əxlaq Bəyannaməsi"nin dindarlar tərəfindən ortaya çıxarılmasına, xüsusilə də dindarlara xitab edən bir mətn olsa da, belə bir əxlaqı reallaşdırmağa inanan və inanmayan bütün insanlara təklif edilir. Bu tərz yuxarıda qeyd olunan "insanlıq prinsipi"nə də uyğun gəlir.

"Qlobal Əxlaq Bəyannaməsi"nə görə, "insanlıq" normasının qaynağı dinlərdir. Dini və əxlaqi ənənələrdə "hər insana insan kimi davranmaq"ın vacibliyi məsələsinə toxunulub.

"Qlobal Əxlaq Bəyannaməsi"nə görə, "insanlıq" normalarının əsasını dinlər təşkil edir. Dini düşüncədə insan kainatın ən seçilmiş varlığı olduğu üçün Tanrıya gedən yol, insanlara bu dünyada cənnət yaşatmaqdan keçər. Qlobal əxlaq da dinlərdə ortaq olan bu normanı əsas şərt kimi götürmüşdür. Bu şərtə görə, bu ölçüyə uymayan dini bir norma belə, etik qəbul oluna bilməz.

Qlobal əxlaq düşüncəsində "insanlıq" kriteriyası heç bir istisna qəbul etməyən, dinlərin və əxlaqi ənənələrin üstündə yer alan mütləq bir prinsip kimi görünür. Künq bu prinsipi dinlərin etik normları üçün bir süzgəc kimi istifadə etməklə yanaşı, onu dinlər üçün bir doğruluq kriteriyası da olaraq qəbul edir. Bu anlayışa görə, dinlərin haqlılığı və yaxşılığı insanlıq kriteriyasına əsaslanmasına bağlıdır. Künq bu humanist kriteriyaya "universal əxlaqi kriteriya" adını verir.

Qloballaşmadan irəli gələn əxlaqi problemlərlə maraqlanan qlobal əxlaq düşüncəsinə görə, ənənəvi əxlaq anlayışları insanın yaxşılığını diqqət mərkəzinə alıb. Əsas olan bəşəriyyətin yaxşılığıdır. Buna görə də qlobal əxlaq ənənəvi əxlaqdan fərqli olaraq, bəşəriyyətin yaxşılığını özünə hədəf seçib. Əslində, burada qlobal əxlaq düşüncəsinin bu fikirləri ilə müəyyən mənada razılaşmaq olmaz. Əflatundan Aristotelə, oradan da Kindi, Fərabi, ibn Sina, Bəhmənyar, Tusi və digər mütəfəkkirlərin ənənəvi əxlaqın nəzəri əsaslarını təşkil edən konsepsiyalarında əxlaqi problemlərin həllini fərdin özünütərbiyəsində və bu yolla fərdi yaxşılığında olduğunu qeyd etmələri, əslində, ilk baxışda insanın yaxşılığı kimi başa düşülsə də, bu, bəşəriyyətin yaxşılığını nəzərdənkənar tutma kimi qiymətləndirilməməlidir. Hər şeydən əvvəl insan ayrı-ayrılıqda fərd olaraq, cəmiyyət adlanan bir vəhdəti təşkil edir. Bu vəhdətin sağlam və yaxşı olması onu təşkil edən ünsürlərin sağlam və yaxşı olmasına bağlıdırsa, onda burada biz məsələni, sadəcə, fərdin yaxşı olması ilə məhdudlaşdıra bilmərik. Yəni bu düşüncənin arxasından gətirdiyi başqa hədəf var ki, o da yaxşı və ya Fərabinin dili ilə desək, ərdəmli, yaxud fəzilətli bir cəmiyyət qurmaqdır. Belə bir cəmiyyəti qurma hədəfi elə məhz "yaxşı insanlıq" hədəfini reallaşdırmaq deməkdir. Bütün bunlar nəzərə alınarsa, Künqün məsələni bir aspektdən dəyərləndirdiyi görünür.

Qlobal əxlaqın insanın dəyərini mühüm bir kriteriya kimi qəbul etməsi onun, bir növ, insan hüquqları olduğu iddiasını doğurur. Belə iddiaçılardan olan tanınmış ilahiyyatçı Deyvid Holinbah insan hüquqları düşüncəsinin çox mühüm bir məsələ olduğunu deyib, insana bu dərəcədə əhəmiyyət verməyən dinlərin dəyişməyə məruz qalacaqlarını qeyd edir. İnsanın çox dəyərli olduğu düşüncəsinin arxasında İsanın Tanrının təcəssümü olması hadisəsinin dayandığını göstərən alimlər buna inanmayanların insanın çox dəyərli olduğu fikrini çətinliklə qəbul edə biləcəklərini bildirirlər. Məsələyə bu cəhətdən baxan bəzi alimlər onun ehtiva etdiyi insanlıq anlayışı ilə bütün dinləri əhatələdiyinin mümkünsüz olacağını irəli sürürlər.

Bu çərçivədəki başqa bir tənqid insanlıq anlayışının nisbi olub, cəmiyyətlərə görə dəyişdiyi istiqamətindədir. Buna görə də insanlıq anlayışı nisbi bir anlayışdır; məsələn: hindistanlı kənd adamı üçün gündə 3 dəfə balıq yeyən bir dul kasıb olduğuna görə, xəstəsini müayinə və müalicə etməyən bir həkimdən daha çox qınanmağa layiqdir. Bu misal cəmiyyətlərə görə, əxlaqi dəyərlərin dəyişdiyini ortaya qoyan gözəl bir nümunədir. Ümumiyyətlə, bu əxlaqi dəyərlərin nisbi olması qədim yunan filosoflarından Orta əsr İslam filosoflarına qədər məlum bir reallıqdır. Bu cəhət nəzərə alınanda, obyektiv bir insanlıq anlayışından bəhs etmək mümkünsüzdür və qlobal əxlaq kifayət qədər evristik kriteriya ortaya qoya bilməyib. Bundan əlavə, dünyadakı insanların qlobal əxlaqın ortaya qoyduğu bu ideal insanlıq kriteriyası ilə razılaşmaması və bütün həyatında kriteriya mərkəzli qurmaması da mümkündür. Mənfəətpərəst olan, kollektivlik və müştərəklik düşüncəsinə malik olmayan insan üçün "in-

sanlıq" prinsipi heç bir şey ifadə etməyəcəkdir.

Qlobal əxlaq "İnsan Hüquqları Universal Bəyannaməsi" kimi toxunulmaz hüquqları bildirməklə kifayətlənmir. Din və vicdan hürriyyətinin təminat altına alınmasının vacibliyi məsələsini ələ alan Bəyannamə bu hüquqları təminat altına alan qanunların bütün insanları əhatə edəcək əxlaqi dəyər, inanc və normaların yerini ala bilməyəcəyini irəli sürür. Buna görə də qlobal əxlaq toxunulmaz hüquqları ortaya qoymaqla kifayətlənməyib, dinlərarası etik məcburiyyəti də formalaşdırmağa çalışır. Qısası, Bəyannamə insan hüquqları ilə yanaşı, əxlaqi bir mahiyyət də daşıyır.

Qlobal əxlaq insan hüquqlarına toxunduğuna görə tənqid edilib. Bəzi mütəfəkkirlərə görə, bu, avropalı bir tərz və gedişatdır. Xüsusilə, Şərq dinlərinin təəssübkeşləri "insanlıq" kriteriyasını xristianlıqdan təsirlənmiş Avropa humanizminin bir nəticəsi olduğuna görə tənqid etmişlər; məsələn: Louisville Universitetinin dini araşdırmalar bölümündəki tədqiqatçı müsəlman alim Riffat Hassan 1948-ci il "İnsan Hüquqları Universal Bəyannaməsi"nin dini insan hüquqlarının qaynağı olaraq görmədiyini və burada insan hüquqları mövzusunda sekulyar tərzin üstünlük təşkil etdiyini qeyd edir. Nəticə etibarilə buradakı humanizm sekulyar bir humanizmdir.

Qlobal əxlaq bəyannaməsi "insanlıq" kriteriyasının dinlərin ortaq cəhətini təşkil etdiyini qeyd edərək, bunun "qızıl qayda" (golden rule) olduğunu vurğulayır. Bu qayda özünü Bəyannamədə "Özünə rəva görmədiyini başqalarına rəva bilmə" qaydası ilə ifadə edir.

İngilis dilində "qızıl" (golden) sözü əvvəllər "ən kamil, əhəmiyyətli və qiymətli" kimi mənalara gəlirdi. Bu baxımdan, "qızıl qayda" ifadəsindəki "qızıl" sözü "çox dəyərli və qiymətli qayda"nı ifadə etmək üçün istifadə edilib. Bu ifadə Mattada keçən "İnsanların sizinlə necə davranmasını istəyirsinizsə, siz də onlarla elə davranın", çünki "Müqəddəs Qanunun və peyğəmbərlərin sizə söylədiyi budur" əmri "qızıl qayda" olaraq adlandırılması ilə yayılıb.

"Qızıl qayda" ifadəsi ilk dəfə Mattada Hz. İsadan çox əvvəl fərqli formalarda qeyd olunmuşdur. Bu ifadənin ən qədim forması Konfutsi tərəfindən deyilən "Sənə qarşı edilməsini istəmədiyin şeyi başqalarına qarşı etmə!" ifadəsidir. "Qızıl qayda"ya oxşar ifadələr, eyni zamanda, Sokrat, Əflatun, Aristotel, Diogenli Laertus və Epiktetos tərəfindən də dilə gətirilib.

"Qlobal Əxlaq Bəyannaməsi"ndə "qızıl qayda" humanist şərti izah edən və tərif edən etik bir norma kimi qəbul edilib. Deklarasiyada insanlığın dini və əxlaqi ənənələrində 1 000 il bundan əvvəl mövcud olan və mühafizə edilən bir norma faktından hərəkətlə, "qızıl qayda"nın mütləq bir kriteriya olmasının vacibliyi məsələsi qeyd olunur. Bu norma ailə, cəmiyyət, irqlər, millətlər və dinlər üçün dəyişdirilməsi mümkün olmayan bir ölçüdür.

"Qızıl qayda"nın iki cəhəti var. Birincisi, "Sənə qarşı edilməsini istədiyin şeyi başqalarına qarşı et!", ikinci cəhəti "Sənə qarşı edilməsini istəmədiyin şeyi başqalarına qarşı etmə!" şəklində özünü ifadə edir. Bu qaydanın birinci tərəfində sövqedici, ikinci tərəfi isə dəfedici bir keyfiyyət daşıyır. Bununla yanaşı, bu iki ifadə arasında heç bir fərqin olmadığını iddia edənlər də var.

Qlobal əxlaq düşüncəsinin əsas modusunu dünya dinlərində mövcud olan əxlaqi normların üzərində ən alt səviyyədə fikir yekdilliyinin təmin olunmasının mümkünlüyü fikri təşkil edir.

"Qızıl qayda" bir çox dünya dinlərində və əxlaq ənənələrində mövcud olduğuna görə əsas norma kimi ortaya qoyulmuşdur. Yəni bu norma qlobal əxlaq düşüncəsində yeni bir ifadə olaraq deyil, dünya din və ənənələrində mövcud olan bir normanın yenidən gündəmə gətirilməsi ilə qlobal əxlaq düşüncəsində yer almışdır. Elə məhz buna görə də qlobal əxlaqa dair mənbələrdə imkan ölçüsündə bu qaydanın və normanın müxtəlif dinlərdəki ifadə şəkillərinə yer verilmişdir. Bununla da qlobal əxlaq yeni əxlaqi prinsiplər ortaya qoymayıb, ənənəmizdə mövcud olanları bizə xatırlatmaqdadır ki, Künq də bunu xüsusilə qeyd edir.

Xristianlıqdan əvvəl və sonra çox işlədilməsi səbəbindən "qızıl qayda" bir ədalət norması və hər kəs tərəfindən qəbul edilən əxlaqi prinsip halına gəlmişdir. Yunan aləmi üçün bu qayda nə edilməsinin vacibliyini, nə edilməməsinin vacibliyini ifadə edir. Buna görə də bu qayda antik dövrdə, sadəcə, bir prinsip ikən Hz. İsadan sonra daha geniş bir sferanı əhatə edərək, evristik olmanın şərti halına gəlmişdir.

"Qızıl qayda" ilə bağlı müxtəlif izahlar ortaya qoyulmuşdur. Bəzilərinə görə, bu qayda yalnız yol rəhbəri ikən, bəzilərinə görə, əxlaq ilə ifadə edilmək istənilən hər şeyi əhatə edən əsas düstur və hətta tamamilə əxlaqi bir sistemdir. Yenə bəzilərinə görə, bu qayda mükəmməl bir dünya üçün hər kəsin izləməsi zəruri olan əhəmiyyətli bir yol rəhbəri, davranış norması, bəzilərinə görə, paradokslar və səhv anlayışlara yol açan absurd düşüncədən başqa bir şey deyildir.

Görkəmli alman filosofu İmanuil Kant da etika konsepsiyasında insanı mərkəzə alan və "qızıl qayda" ilə örtüşən fikirlərə yer verir. Bu qayda Hans Künqün də qeyd etdiyi kimi, "qızıl qayda"nın modernləşdirilmiş, rasional hala gətirilmiş və sekulyarlaşmış bir şəklidir. Kantın ortaya qoyduğu bu qayda insanın bütün davranışları üçün əxlaqiliyin kriteriyasını təşkil edir. Belə ki, bir davranışın əxlaqi olduğunu göstərən şey həmin davranışın arxasında duran prinsipin evristik bir mahiyyət daşımasıdır. Evristik və ya ümumi bir qayda halına gətirilməsi mümkün olmayan davranış əxlaqi və ya etik ola bilməz.

Kantın düşüncəsində əxlaqiliyin kriteriyası olan bu prinsipin ən mühüm xüsusiyyəti onun qeyd-şərtsiz olmasıdır. Bütün normaları şərtli və şərtsiz şəklində iki kateqoriyaya ayıran Kant qeyd edir ki, əgər bir hərəkət başqa bir şeyə vasitə olması baxımından həyata keçirilirsə, belə bir hərəkət, yaxud davranış əxlaqi ola bilməz. Filosofa görə, etik normalar hər hansı bir şərtə bağlı olmayan, yalnız qaydaya uyğun olduğu üçün reallaşdırılması tələb olunan prinsiplərdir. Buradan hərəkətlə qeyd edilməlidir ki, ancaq qanunauyğun olan və hər hansı bir səbəbdən edilməyən davranışlar əxlaqidir.

Kantın bu fikirlərinə diqqətlə nəzər salanda məlum olur ki, qlobal əxlaq düşüncəsindəki "qızıl qayda" Kantın əxlaq konsepsiyasında irəli sürdüyü fikirlərlə uyğunluq təşkil edir. Belə ki, "Özünə rəva bilmədiyini başqalarına rəva bilmə" kriteriyası Kantın evristik bir norma olub-olmama kriteriyası ilə eyni mahiyyət daşıyır. Hər iki anlayışda mahiyyətı insanın özünü başqalarının yerinə qoyma kimi bir prinsip mövcuddur. Burada mən və başqası deyə kəskin bir ayırım yoxdur. Fərd üçün etik baxımdan uyğun görülən davranış modelləri cəmiyyətin əsasını təşkil edən digər fərdlər üçün də nəzərdə tutulur və yalnız digər fərdləri də nəzərə alan davranışlar əxlaqi ola bilər. Həm qlobal əxlaq, həm də Kantın əxlaq anlayışında yer alan bu düşüncə mahiyyətcə evristik bir əxlaq anlayışının mümkünlüyünü göstərir.

Həm "qızıl qayda", həm də şərtəsizlik kriteriyası müstəvisində qlobal əxlaq düşüncəsi ilə Kantın əxlaq konsepsiyası arasında oxşarlığa rəğmən, əxlaqi davranışlar kriteriya olaraq qoyulan şərtsizlik məsələsində iki əxlaq konsepsiyası arasında müəyyən fərqliliklər də mövcuddur. Belə ki, Kant əxlaqi davranışlara şərtsiz bir şəkildə riayət etmə məsələsini praktik ağla aid edərkən, qlobal əxlaq düşüncəsi bunu dinə aid edir. Yəni qlobal əxlaq düşüncəsi şərtsizliyin kriteriya olduğu əxlaqi davranışların ortaya qoyulmasının ancaq din vasitəsilə mümkün olacağını irəli sürür.

"Qızıl qayda" fərdi dəyərləndirmədən müştərək əxlaqi normlar çıxarması baxımından tənqid edilmişdir. Belə ki, yuxarıda da qeyd edildiyi kimi, "qızıl qayda"ya görə, insan özünə rəva bildiyini başqasına da rəva bilər. Lakin insanlar arasındakı ümid və tələbatların fərqli olduğu reallığı da nəzərdən kənar tutulmamalıdır; məsələn: bir kimsə malının qorunmasını istəyərkən, başqa bir kimsə şiddətli bir şəkildə ehtiyac olmasına baxmayaraq, malının başqasına (ehtiyacı olan bir kimsəyə) verilməsini istəməz. Diqqət edilərsə, hər iki nümunədə malın verilməməsi kimi bir hal mövcuddur. Bu nümunələrdən birincisinə görə malın verilməməsi əxlaqi baxımdan qınanan bir davranış ikən, digər nümunəyə görə, malın verilməməsi qeyri-əxlaqi bir hal olaraq dəyərləndirilməməlidir. Yəni nəticə etibarilə eyni hal (malın verilməməsi) həm əxlaqi, həm də qeyri-əxlaqidir. Bəzi alimlərə görə, məhz belə bir hal əxlaq çərçivəsində fikir qarışıqlığına yol açır. Alimlər bu baxımdan "qızıl qayda"nın konkret hadisələr qarşısında kafi olmadığını qeyd edirlər. Buna görə də bəzi alimlər "qızıl qayda", yaxud qlobal əxlaq hərəkatının reallaşdırılma ehtimalı olmayan, qlobal əxlaq hərəkatının həyata keçirilməsi çox da mümkün olmayan və utopik bir təşəbbüs olduğu fikrini irəli sürmüşlər.

**Nəticə**

Qlobal əxlaq mahiyyət baxımından, din ilə əlaqədar olmaqla yanaşı, həm də bir din deyildir. "Qlobal Əxlaq Bəyannaməsi"ndə qeyd olunan "qlobal əxlaq" ilə nəzərdə tutulan amil nə yeni bir dünya ideologiyası, nə də vahid bir dünya dini deyildir. Bu düşüncədə dinlərin bir-birinə hökm etməsi deyə bir məfhum də yoxdur. Bütün bunlar qlobal əxlaqın bir din olmadığını göstərir. Qlobal əxlaq bütün dinləri ortaq əxlaqi prinsiplərdə bir yerə gətirməyi hədəf alır. Qeyd edilməlidir ki, qlobal əxlaq bir din olmadığı kimi, "Qlobal Əxlaq Bəyannaməsi" də dini bir Bəyannamə deyildir. Digər tərəfdən, bu Bəyannamə digər dinlərə alternativ olaraq yazılmış Bəyannamə deyildir. Qlobal əxlaq nə Tövratın, nə İncilin, nə də Quranın alternativi olma məqsədi güdmür. İlahi dinlər dərin və ətraflı bir əxlaq sistemi ortaya qoyarkən, qlobal əxlaq minimum uzlaşma məqsədi güdür ki, "Qlobal Əxlaq Bəyannaməsi"nin təsisçisi olan Künq də eyni fikirləri dilə gətirir.

Qlobal əxlaq düşüncəsi inanan və inanmayan hər kəsə xitabedici mahiyyətdədir. Elə məhz buna görə də onun nəzəri əsasını təşkil edən "Qlobal Əxlaq Bəyannaməsi"ndə dini üslubundan istifadə edilmir. Qlobal əxlaq müxtəlif din mənsubları arasında deyil, bütün bəşəriyyət arasında dialoqu təmin edərək, əxlaqi məsələlər üzərində uzlaşmağı hədəfləyir. Bu düşüncədə bütün bəşəriyyət üçün zəruri olan dəyər insanlıq dəyəridir. İnsanlıq kriteriyası qlobal əxlaqın irəli sürdüyü bütün prinsiplərin əsas mahiyyətini təşkil edir. İnsana verilən dəyər özünü "qızıl qayda" şəklində ifadə olunan bu sözlərdə yatır: "Özünə rəva bilmədiyini başqalarına rəva bilmə".

Ortaya çıxdığı tarixdən bəri bu qlobal əxlaq düşüncəsinə qarşı bəzi tənqidlər də olmuşdur. Bu düşüncənin müəyyən Qərb zümrəsinə aid olduğu istiqamətində iddialar olsa da, məsələnin dərinliyinə vardıqda, qlobal əxlaq düşüncəsinin bu gün modernləşmə və qloballaşma şəraitində aktual olan əxlaq problemlərinə müəyyən qədər həll yolu gətirəcəyi məqsədi daşıdığını görürük. Bu hədəfdə müəyyən bir zümrənin əxlaqi problemlərini deyil, bütün bəşəriyyəti narahat edən əxlaqi problemlərin həlli nəzərdə tutulur ki, bu da ancaq insanlar arasında ayrı-seçkilik etmədən onların ortaq əxlaqi anlayışlarda vəhdət təşkil etməsi ilə mümkündür.

# İMMANUEL KANTIN FƏLSƏFƏSİNDƏ DİNƏ BAXIŞ

***İmmanuel Kant və onun fəlsəfi görüşlərinə ümumi baxış***

Böyük alman filosofu İmmanuel Kant 23 aprel 1724-cü ildə indiki Almaniyanın, o zamanlar Şərqi Prusiyanın Köniqsberq (indiki Kalininqrad) şəhərində anadan olmuş və 1804-cü il fevral ayının 12-də vəfat etmişdir.

Onun atası dünyasını tez dəyişmiş, anası tərəfindən təlim və tərbiyə edilmişdir. İ.Kant imanlı şəxs olmuşdur. O, anasının nəzarəti altında on üç yaşınadək dini iclaslarda iştirak etmişdir. On dörd yaşında kilsəni tərk etsə də, Allahı heç zaman unutmamışdır. Kant həmişə anasını hörmətlə yad edirdi. Öz nəfs və əxlaqının paklanmasında anasının rolundan danışırdı.

Alimin elmi yolu göstərir ki, məktəbdə icbari şəkildə əməl etdiyi məzhəb adət və ayinlərinə qarşı həmişə etirazla çıxış etmişdir.

İ.Kant on dörd yaşından universitetdə təhsil almağa başlayır. İlk olaraq fizikanı öyrənmiş, həmçinin fizikada yüksək bacarığa sahib olmuşdur. Tənqidəqədərki dövrdə (1770-ci ilədək) İ.Kant "Nebulyar" kosmoqonik hipotezi yaratmışdır. Bu hipotezə görə, planet sistemi ilkin "dumanlıq"dan yaranmış və təkamül etmişdir. Sonralar İ.Kantın fərziyyəsinə oxşar nəzəriyyə irəli sürmüş "Laplas" hipotezi daha sonralar "Kant-Laplas nəzəriyyəsi" kimi tanınmışdır.

1740-cı ildə doğulduğu şəhərdə universitetə daxil olur və təhsilində müxtəlif mövzuları seçir. Məntiq və fövqəltəbii elmlər müəllimi olan Martin Knutzenin onun üzərində daha çox təsiri olmuşdur. O, Knutzen Volfun şagirdi olmuşdur. Təbii elmlərə daha çox meyli olmuş, Fəlsəfə ilə birlikdə Fizika, Astronomiya və Riyaziyyatı da tədris etmişdir. İ.Kant Knutzenin kitabxanasından istifadəetmə icazəsi almışdı və onu İ.Nyuton fizikasını mənimsəməyə meyilləndirmişdi. Buna görə İ.Kantın ilk əsərləri təbii elmlər sahəsində olmuşdur.



*f.e.d., dosent*
**ƏLƏDDİN MƏLİKOV,**
*AMEA Elm Tarixi İnstitutu Elmşünaslıq və elmin sosial problemləri şöbəsinin baş elmi işçisi,*
*Azərbaycan İlahiyyat İnstitutunun müəllimi*

İ.Kant 1755-ci ildə doktor elmi dərəcəsini əxz edir və dosent olaraq işləməyə icazə alır. 1770-ci ildə Məntiq və fövqəltəbii elmlər üzrə Köniqsberq Universitetində müəllimliyə seçilir. Onun dosentlik dərəcəsi 1755-ci ildən 1775-ci ilədək davam edir. İ.Kantın bu on beş ilini, adətən, ilk tənqid dövrü də adlandırırlar. O, bu dövrdə bir çox müxtəlif mövzular barəsində tənqidi münazirələr etmişdir. Müxtəlif zamanlarda yalnız Məntiq, Fövqəltəbii və əxlaq elminin tədrisi ilə deyil, həmçinin Fizika, Riyaziyyat, Coğrafiya, Antropologiya, Tərbiyə elmi və mineralogiya haqqında da münazirələr edirdi.

İ.Kantın həyatı akademik olmuşdur. Onun həyatı, həmçinin həmişə eynitərzli olub. Heç bir hadisə həyatını öz axarından çıxara bilməmişdir. Halbuki İ.Kant müharibələr və inqilablar dövründə yaşamışdır. Olduqca dəqiq insan olmuşdur. Ömrünün qalan hissəsini də Köniqsberq Universitetində keçirmişdir. 1755-ci ildən məvacib almadan on beş il müddətində orada müəllimlik etmişdir.

Alimin şəxsi həyatı ziddiyyətli və diqqətçəkici olmuşdur. Gəzinti və səyahətlər barəsində olan kitablara böyük maraq göstərsə də, heç vaxt uzağa səfər etməmişdir. Həyatı boyu yalnız bir dəfə öz şəhərindən yaxın kəndlərin birinə getmişdir.

İ.Kant insanlarla danışmaqdan, onlarla ünsiyyət yaratmaqdan həzz alırdı. Qeyd edək ki, ömrünün sonunadək evlənməmişdir. Alim çox səciyyəvi əxlaqi xüsusiyyətlərə malik olan şəxsiyyət idi.

İ.Kant dini mövzuları əxlaq yolu ilə təhlil edirdi. O deyir: "Əxlaqi təcrübə Allahın həqiqi düşüncəsini əks etdirir. Allahın varlığına olan yəqinliyimiz daha çox praktikidir". Həmçinin əlavə edir: "Bütün fəlsəfi məktəblərdə vacib varlığa çatmaq üçün əqli və fəlsəfi yol yoxdur. Əlbəttə, onun batil edilməsinə də əqli sübut yoxdur. Qnoseoloqlar və epistemoloqların zəifliyinin səbəblərindən biri budur ki, fəlsəfənin bünövrəsini möhkəmləndirən məntiq idi. Həmin məntiq uzun illərdən sonra dəqiqliyini və qətiliyini

itirdi. Bu səbəbdən irəli gedərək bəyan edirdi ki, köhnə məntiq, yəni deduksiya heç bir məchulun kəşfində alimlərə kömək etməmişdir. Fikir və elmi məktəblərin yaranmasında onun heç bir rolu olmamışdır.

R.Dekart (1596-1650) "Metod haqqında düşüncə" kitabında ağıldan düzgün və doğru istifadə etməklə, həqiqətə çatmağın yeni metodlarını göstərmişdir. Frensis Bekon (1561-1626) induksiya metodu və elmi fəaliyyət prosesinin məntiqi sistemləşdirilməsinin əsasını qoymaqla, kilsənin qəbul etdiyi Aristotelin deduksiya məntiqi ilə üzbəüz dayandı. Nəticədə, İ.Kant Allahın varlığının isbatının məsuliyyətini fəlsəfə və ağılın üzərindən götürdü. O, bəyan edirdi ki, metafizik idrakın yükü ağlın dözə biləcəyi yükdən ağırdır. Həmçinin klassik metafizik bəhsləri praktik ağlın ixtiyarına qoydu və insanın azadlıq məsələsini, nəfsın təkliyi və Allahın varlığını əxlaqi qanunların əsaslarından hesab edərək, onun etika elmi çərçivəsində araşdırıla biləcəyini irəli sürdü.

"Biz Allahın varlığını ontoloji sübut, yəni zatı cəhətdən vacib olan bir varlığı, yaxud da cosmoloji sübut (ilk səbəb), ya da əbədi həqiqətdən sübutla isbat etmək istədiyimiz zaman, bunların nümunəsiz fərziyyələr olduğunu başa düşürük. Ruh və Allah anlayışları nizamverici və analitik anlayışlardır. Tərkibi anlayışlar deyil".

Belə ki, bu deyilənləri nəzərə aldığımız zaman nəzəri ağıl yolu ilə iman sahəsinə daxil olub, fəlsəfədə dini təlimlərin əql yolu ilə müdafiəsini təşkil edə bilmərik. Dini mətnlər üzərində düşünməklə ağlın ayə və rəvayətlərdə fəlsəfi və elmi biliyin vasitəsi olmadığını anlaya bilərik. Həmçinin Quranda varlıq aləmini fəlsəfi və elmi yollarla tanıt-




dırmağın imkansız olduğunu düşünə bilərik.

İ.Kant da xalis zəkanın tənqidi kitabında, xalis zəkanın mütləq həqiqətə çatmaqda aciz olduğu nəticəyə varmışdır.

Alim təbii ilahiyyatı müdafiə etmək istəyir. Təbii ilahiyyat əqli ilahiyyatın bir formasıdır. Rasional ilahiyyat vəhydən ayrı şəkildə Allahın varlığını isbat edir. Con Lokka (1632-1704) görə, ilahiyyatın elmi forması da mövcuddur. İ.Kant həqiqətdə səbəbiyyət və təbii ilahiyyatı müdafiə etmək istəyirdi, amma tam müdafiə edə bilmirdi. O, 1770-ci ildən öncə, Allahın qəti zəruri varlıq olduğunu nizam-intizam arqumenti, yaxud Allahın isbatını Allahın qəti zəruri varlıq olduğu ilə sübut edirdi. Amma sonradan onda dəyişiklik baş verir. Daha doğrusu, onda üç böhran yaranır: təbii ilahiyyat (empirizm) böhranı, skeptisizm böhranı və bunlardan da daha mühüm utilitarizm böhranı. Bunların hamısı D.Yumdan qaynaqlanır. Yalnız bu, aydınfikirlilikdir ki, D.Yum tərəfindən xülasə edilməmiş fikir və bünövrəsi olmamışdır. Amma digər üç böhran (səbəbiyyət, təbii ilahiyyat və skeptisizm) D.Yumla əlaqədardır. İ.Kant köklü bünövrə yaratmalı olduğu qənaətinə gəlir. İ.Kantın böyüklüyü də elə bundadır.

### *İ.Kant fəlsəfəsi iki cərəyanı birləşdirən fəlsəfə kimi*

Qərb fəlsəfəsində İ.Kant fəlsəfəsi rasional və empirik fəlsəfələrin kəsişmə nöqtəsi heab edilir. İ.Kanta görə, insanın beyni zaman və məkana sahib olan amilləri dərk etməyə qadirdir. Buna uyğun olaraq, insan idrakı yalnız xarici hadisələri (fenomenləri) dərk edə bilər. Bu səbəbdən, insan idrakı Allah, insan ixtiyarı, nəfsin təkliyi və bu kimi anlayışları ikitərəfli və bərabərsübutlu anlayışlar kimi görür. Bu məsələlərdə zəka öz təbiəti etibarılə antinomikdir. Yəni həm qəbulu, həm də inkarı üçün sübut irəli sürülə bildiyinə görə, onların isbatı xalis zəka ilə mümkün deyil. Belə həqiqətləri praktik zəka, yaxud da etka ilə isbat etmək mümkündür.

İ.Kant özünün fəlsəfi baxışlarının əsasını və düşüncələrinin qaydası üzərində bir fəlsəfi sistem yaratmağa çalışmışdır. Onun fəlsəfəsi epistemologiya, ümumi mənada təbiətdənkənar etika fəlsəfəsi, estetika, incəsənət fəlsəfəsi, din fəlsəfəsi, elm fəlsəfəsi, təlim, tərbiyə, siyasi fəlsəfəyə və bəzi fəlsəfi bəhsləri ehtiva edir.

Məlumdur ki, İ.Kant xüsu-

si mənada İlahi məqsədləri əldə etmək, yəni Allahın varlığı, nəfsin təkliyi və ixtiyar kimi həqiqətlərin isbatı üçün əqli dəlillərdən istifadəni mümkünsüz hesab etdi. Bununla yanaşı o, Allaha, axirətdə nəfsin əbədiliyinə və həmçinin iradənin azadlıq və ixtiyarına inanmış, bunu öz əxlaq fəlsəfəsində əqli anlayışlarla isbat etmişdir. Buradan da əxlaq fəlsəfəsindən dini əxz etmişdir. Buna görə onun dini baxış və düşüncəsi əxlaq fəlsəfəsi ilə sıx bağlıdır. Əxlaq fəlsəfəsi yaxınlığı onun epistemologiya ilə tanışlığından asılıdır və bunun nəticəsində yaranmışdır.

### *İ.Kantın nəzərində dinin mənası*

İ.Kant özünü dindar və xristian hesab edir. Alimin fikrincə, dinin əxlaqdan substansion fərqi yoxdur. Demək olar ki, din elə həmin əxlaqdır ki, xüsusi baxışla nəzərdə tutulmuşdur. İ.Kant əxlaqın dinin özü olması məfhumunda israr edir. Dinlə fərqliliyi ilə müxaliflik edir. Əxlaqın dinin özüolmanın şərt və mənası ondan ibarətdir ki, fərd özündən başqa mənbə və müraciət edilən amili olmamalı, daxili ağıl iradəsinə əsasən əmr qəbul etməməlidir. Buna görə İ.Kantın "Din yalnız ağlın çərçivəsində" adlı kitabında ilk sözü bundan ibarətdir: Əxlaq insandan qaynaqlanan təsəvvür olduğuna görə muxtardır. Muxtar olduğuna görə, özünü mütləq qanunlarda ağlın hökmünə borclu edir. Öz vəzifəsi ilə tanış olmaq üçün özündən başqa kənarda olan varlığın təsəvvürünə ehtiyacı yoxdur. Həmçinin öz vəzifəsinə əməl etməkdən ötrü özündən başqa əxlaqi qanunlarda məqsədə ehtiyacı yoxdur... Buna görə əxlaqın öz-özlüyündə heç zaman dinə ehtiyacı yoxdur və həmin xalis ağıl ona kifayət edir".

Göründüyü kimi, İ.Kant din və imanı əxlaqın əsası deyil, onun meyvəsi hesab edir. Dindarlığın gözəlliyini həmin əxlaqda görür. Alim əxlaqı Allahı xaricdən əmr vermir. Onun Allahdan təsəvvürü buna görə digər dinlərin Allahdan təsəvvürlərindən ümumi və əsaslı şəkildə fərqlənir.

İ.Kant Allah barəsində xarici təsəvvürü insan sifətlərinin və nəfsinin Allahla deduksiyası (müqayisəsi) deməkdir. Allahın qüdrətli, rəhbər, bağışlayan və d. olmasını düşünmək İ.Kantın əxlaqı və dini ilə ziddiyyət təşkil edir. Buna görə də İ.Kantın dindarlığında vəhyin, dinin müdaxiləsinin və mahiyyətinin elə də önəmi yoxdur. İ.Kant təbii dinə, yəni insan ağlı ilə dərk olunan dinə vəhy və təbiətdən kənar qüvvələr tərəfindən nazil olan dindən daha çox əhəmiyyət verir.

İ.Kant təfsirdən istifadə edir ki, xristianlığın əsası ilə uyğun gəlsin. O, əbədi günah, Allahın İsada təcəssümü, İsanın fəda olmasını və digər anlayışları əxlaqi və insanın təbii idrakına uyğun təfsir edir. İ.Kantın təsəvvüründə təbii ağla uyğun gəlməyən möcüzəyə yer yoxdur. Onun inancına görə, ürəkdə əxlaqi qanunun varlığı ilə Allahın təsdiqi üçün möcüzəyə ehtiyac qalmır. Həmçinin onun nəzərində dini şüarların, ibadətlər və müxtəlif duaların əhəmiyyəti yoxdur. Buna görə onun həyatını qələmə alan dostu R.B.Yaxman barəsində belə yazır:

"Ya dərindən mütədəyyin idi ki, hər cür dini mərasim və zahiri adətlərdən kənar gəzirdi, ömrünün sonunda da heç vaxt kilsəyə ibadət üçün getmədi".

İ.Kant müxtəlif saylı dinlərə inanmır, dini zati cəhətdən bir hesab edir. Müxtəlif saylı məzhəblərin müxtəlif adət və şüarlarını qeyri-zati və qeyri-dini hesab edir. Bu, dinə zidd olmaq demək deyil. İ.Kantın din və dindarlıq barəsində təsəvvürü barəsində bir-iki nöqtədə qeyd etmişdir. Bunlardan ən məşhuru belədir:

"Mən imana yol açmaq üçün bu mövzuda idrakı kənara qoymağı lazım bildim".

Bu ifadə ilə onun məqsədi bundan ibarətdir ki, şüuru fenomen aləmi ilə məhdudlaşdırmaq nəzəri ağlı yüksək dəyanət məqsədinə, yəni Allah, nəfs və ixtiyara çatmaqdan çəkindirməklə bu həqiqətlərə iman yolunu praktik ağıl və əxlaqi vicdanın zəmanəti ilə açsın.

Digər mühüm mübahisəli məsələlərdən biri də İ.Kantın nəzəri ağıl anlayışları ilə metafizikanı isbat və ona daxil olmağın qeyri-mümkün olduğuna inanması ilə xüsusi mənada, ilahiyyata və teologiya elminə xidmət etməsidir. Bəziləri bunu onun teologiya elminə xidməti, bəziləri isə teologiya elminə vurulan ən ağır zərbə hesab edir. Onun özü bu barədə belə yazır:

"Amma bu xidməti, yəni fəlsəfənin teologiyaya tutduğu iradları əhəmiyyətsiz hesab etmək olmaz. Çünki teologiyanı qəti qərar verənlərdən azad etmişəm...".

### *İ.Kantın nəzərində dinin imanla fərqliliyi*

İ.Kant dinlə-iman arasında fərq qoymuşdur. O yazır: "Yalnız bir doğru din vardır. Amma iman müxtəlif növlərə sahib ola bilər... Buna görə əgər bir şəxsin bu, yaxud başqa imana (Yəhudilik, İslam, Xristianlıq ...) sahib olmasını demək yerinə, onun bu dinə, yaxud o dinə sahib olmasını demək daha yaxşıdır". Bu fərq İ.Kantın doğru dinlə əxlaq dininin təfsirindən irəli gəlir ki, onun iddiasına görə, din birdən artıq ola bilməz. İmanlar isə tarixi həqiqətlərlə qarışdığından, müxtəlif şəkillərə sahib ol bilər. Bu tarixi imanlar nə qədər əxlaqi qa-

nunlara yaxın olarsa, doğru dinə daha da yaxın olacaq.

İ.Kant kilsənin xüsusi imanları ilə saf din imanları arasında da fərq qoyur. Təmiz imanlar praktik ağlın istəklərindən qaynaqlanır. Xüsusi imanlar isə tarixi kilsə yolu ilə qazanılmış arzuların təcəllisidir. İ.Kantın inancına görə, kilsə tarixi hadisələrin təsiri ilə müxtəlif şəkil dəyişmələrinə uğradığından, kilsə imanlarının bir-biri ilə olan fərqini göstərir. Eyni halda İ.Kant qeyd edir ki, bu dinlər əsl arzularına düzgün yanaşdıqca, saf dini imanların vəhdətini yarada bilərlər.

### *İ.Kanta görə, zəkanın imanla nisbəti*

Nəzəri ağıl kateqoriyalara və anlayışlara sahib olduğundan, yalnız təcrübə sahəsində işlədilir. Təbiətdənkənar hadisələrin isbat və yaxud inkar edilməsində ümumi şəkildə acizdir. Buna görə İ.Kant nəzəri zəka sahəsində düşünməmişdir. O, insanın Allahın varlıq və sifətlərinin, nəfsin və hər növ qeyri-təcrübi işlərin isbat və inkar edilməsində acizliyini isbat etməyə çalışmışdır. İnsan vücud və yoxluq barəsində mətləb irəli srə bilməz. Varlıq və yoxluq illüziya anlayışlarındandır ki, yalnız təcrübə sahəsində işlədilir. Əgər nəzəri ağıl öz anlayışlarını vücud və yoxluq kimi qeyri-təcrübi işlərdən əldə edərsə, çaşqınlığa düçar olacaqdır. Praktik zəka sahəsində yazır: praktik zəka Allahın və nəfsin varlığını, onun əbədiliyini isbat etməyə qadirdir. Həmçinin din sahəsində "Din yalnız əqlin çərçivəsində" kitabında praktik zəka ilə imanın tam həmahəngliyini qeyd etmişdir.

İ.Kant Allah barəsində hər növ nəzəri biliyi inkar etdiyi halda, heç bir əqli ilahiyyatı qəbul edə bilməz. Yalnız o, əxlaqla məhdudlaşmış ilahiyyatı qəbul edə bilər. Alim, həmçinin belə yazır: "Biz Allah barəsində heç bir iddia irəli sürə bilmərik". İ.Kant əxlaq barəsində zati sübuta inanır.

Biz Müqəddəs Kitabın məzmununu yalnız o zaman mötəbər vəhy kimi qəbul edə bilərik ki, onun əxlaqi təlimin düzgünlüyünü öncədən tamamilə əqli dəlillər əsasında tanıdığımız qaydalarla həmahəng olsun. Bu o deməkdir ki, Müqəddəs Kitabı kodlarla təfsir etməliyik, məntiqi və lüğəvi deyil. Buna görə özümüzün praktik əqlimz yalnız dini etiqad və əməl əsasında mötəbərdir. Bu halda dini iddialar onlarla məhdudlaşmalıdır ki, xalis əql çərçivəsində özümüzün əxlaqi sübutlara uyğun olsun. Mən ilk başda borcum olan işi İlahi əmr kimi qəbul etməzdən öncə bilməliyəm. Buna görə əxlaqın heç vaxt dinə ehtiyacı yoxdur. Xalis praktik əqlin özünün bərəkəti ilə kifayətlənir. Allah və Onun iradəsini təsəvvür etmədən əxlaqın zəruri iddialarını duyğu ilə əlaqələndirmək çox çətindir. Biz yalnız əqllə inana bilərik ki, inanclı olmağımız üçün bir əxlaqi təklif varımızdır. Yəni bütün təklifimizi Allahın əmri kimi tələqqi etməli və biz bu əməli özümüzün əxlaqi əzm və niyyətimizə ruh-can vermək üçün yerinə yetiririk. Buna görə əxlaqi dinin əsas xüsusiyyətləri sabit əqaid və məzhəbi mənsəblər deyil. Bu insani təklifləri İlahi fərman kimi, qəlbi meyillərlə yerinə yetirməkdir, yəni imandır.

### *İ.Kantın baxışının dəyərləndirilməsi*

İ.Kant özünün fəlsəfi qanunları əsasında nəzəri ağlın metafizik məsələlərə daxil ola bilməməsi nəticəsinə gəlir. Əxlaq praktik əqli din və imanı icazəli, qanuni hesab edir. Təbii olaraq onun əsaslarına edilən hər hansı irad və problem onu fəlsəfi nizamnanə problemi ilə üzləşdirir. Onun əxlaqi qanununun əsaslarından biri olan Allahın əmrlərinin ardınca getməsi insanın ixtiyar sahibi olması ilə uyğunluq təşkil etmir. Belə əqidə düzgün deyildir. Əgər İ.Kantın inandığı kimi, Allah sonsuz ağıllı varlıqdır. Bu halda, əgər insanın ağlı ixtiyar vasitəsilə belə nəticəyə gəlsə ki, İlahi qanunların ardınca gedilməsi insan üçün daha xeyirlidir, bu zaman tabeçilik ardınca getmək, insanın ixtiyar sahibi olması ilə daha uyğundur. Buna görə, Allahın ehkamları və qanunlarına tam şəkildə riayət etmək insanın özünün ixtiyar sahibi olması ilə mütənasibdir.

İ.Kant inanır ki, dinin gözəlliyi əxlaqdır. Bu inanc bizi ibadəti və məzhəbi əməlləri inka etməyimizi zəruri etmir. Onlar əxlaq hədəflərinə mane olmamaqla yanaşı, əksinə, onların daha çox həyata keçməsi üçün metodlardır. Əgər İ.Kantın nəzərinə görə, əxlaqi kamala çatma zəruri və lazımdırsa, əgər hiddi meyillər buna maneədirsə, gərək buna nail olmanın yollarını da irəli sürərdi. Belə fikrin irəli sürülməməsi İ.Kantın əxlaq qanununun naqisliyini göstərir.

Qeyd edək ki, din əxlaqi hədəflərin həyata keçməsi və maddi meyillərə qələbə çalmaq üçün bir çox yollar irəli sürmüşdür.

Özünün qeyd etdiyinə əsasən, İ.Kant ilk dəfə D.Yumun xəbərdarlığı sayəsində qəflət yuxusundan oyanmışdır. İ.Kant zəmanəsinin metafizikasını D.Yumun fəlsəfəsi vasitəsilə şübhələrə cavabında gördüyündən, yeni fikir irəli sürmüşdür ki, nəzəri ağıl yalnız fenomenləri idrakda, yəni təbiət aləmi ilə məkan və zaman daxilindəki işlərə aid olunur və metafizikanı dərk etməkdə acizdir. İslam fəlsəfəsi bu şübhə ilə birbaşa üzbəüz qaldığından, İ.Kantın bu

barədə cavablarını dəqiqliklə yoxlamalı və müəyyənləşdirməlidir. Bəzi müasirlərin bu cavabları və həll yollarını qəti və qəbul olunan hesab etdikləri kimi, daha İslam fəlsəfəsinin əsaslarına uyğun D.Yumun fəlsəfəsinin bu şübhələrinə digər həll yolları irəli sürmək olmazmi? Yaxud İ.Kantın keçdiyi mərhələdən ayrı yol mümkün və faydalıdırmı? Nəticədə bunu qeyd etmək mümkündür: İ.Kant praktiki olaraq dinlə-əxlaqı birləşdirdi. G.V.F.Hegel (1770-1831) isə Allahı bəşəri varlıqla müttəhid etdi.

İman müxtəlif tərəflərə malikdir. Bunlardan biri iman, digəri isə idrakdır. Biz idrak həmçinin digər tərəflərdən özümüzü məhrum etməməliyik. Əgər Allah sonsuz əqlə və xeyirxahlığa sahibdirsə, insanların hidayəti, mütləq kamal və xeyirə çatması üçün vəhy yolu ilə din çərçivəsində müxtəlif əmrlər nazil etmişdir. Bu halda onlar daha çox xeyir kəsb etmək məqsədilə dini öyrənməyə çalışmalıdırlar ki, onun əmrlərini başa düşsünlər və onlara mükəmməl şəkildə əməl etsinlər. Onların heç biri boş və mənasız yerə əmr edilməmişdir. Buna görə bizim dinin bir tərəfini götürüb, digərini kodla təfsir etməyimizə haqqımız yoxdur. Yaxud məhdud əqlimizi əsas götürüb, bəzi əmrləri qəbul edib, bəzilərini isə inkar edə bilmərik. Əgər belə olarsa, məhdud əqli götürüb, hədsiz və sonsuz əqli kənara qoyuuq. Bu da düzgün deyildir. Dini iman çərçivəsinə, onu isə əxlaq çərçivəsinə salıb, yaxud bəzilərini görməzlikdən gəlib, kodla təfsir etməyimiz düzgün deyil.

İ.Kantın dini təfəkküründə mühüm və diqqət olunası məqamlardan biri də onun çox şiddətlə və fövqəladə şəkildə daxili tərəflərə, intuisiyaya, vicdanın zaminliyinə, qəlbi və şəxsi istəyə, əxlaqi və daxili stimullara təkid etməsidir. Dinə inanan şəxslər üçün bunların əhəmiyyəti gizli deyildir. Bu əhəmiyyət İ.Kantın və onun ardıcıllarının əql və əqli anlayışlara, sübutlara etiraz və iradlarının yaranmasına səbəb olmuşdur. Nəzəri əqlə yer vermək bu tərəflərin olmaması və inkarı deməkdir. Belə məqamlar dindarlara kifayət qədər baha başa gəlir.

Öncə də qeyd edildiyi kimi, İ.Kantın dini kateqoriyalar barəsində fikir cərəyanının nişanələrindən biri din və dəyanət sahələrində əql və fəlsəfnin alçaldılması, ürfani, əxlaqi və axirəti cəhətlərin, həmçinin dünyəvi, ictimai, din fiqhi tərəflərin əhəmiyyətsiz hesab olunması, bir növ, zəmanəmizin əşəri təfəkkürünə qayıdış deməkdir. Belə cərəyanla mübarizə üçün qəti həll yolu vardır ki, bu da İslam fəlsəfəsinə müraciətdir.

# Успех не случаен

***Успех не случаен. Это тяжелая работа, упорство, обучение, учеба, жертва и, самое главное, любовь к тому, что вы делаете или учитесь делать. Чтобы быть успешным нужно иметь искреннюю жажду успеха и быть требовательным к себе.***

Быть по-настоящему успешным означает, что вы должны вкладывать необходимое время, усилия и работу.

все преуспевающие люди имеют мечты и твердо уверены, что эти мечты, в конце концов, осуществятся. Они без устали трудятся и никогда просто так не сдаются. Мечты человека и решимость их осуществить являются источником окончательного успеха.

Цели - Сильные мечты способствуют формированию определенной цели, и тем самым способствуют ее успешному осуществлению.

Достижение цели - это только мгновенное изменение. Достижение цели только меняет вашу жизнь на данный момент. Мы думаем, что должны изменить наши результаты, но результаты не проблема. Что нам действительно нужно изменить, так это системы, которые вызывают эти результаты. Когда вы решаете проблемы на уровне результатов, вы решаете их только временно. Чтобы стать лучше, нужно решать проблемы на системном уровне. Зафиксируйте входы, а выходы исправятся сами.

Представьте, что у вас грязная комната, и вы поставили перед собой цель убрать ее. Если вы приведете в порядок, то у вас будет чистая комната - пока. Но если вы сохраняете те же самые неаккуратные привычки, которые привели к появлению грязной комнаты, то вскоре вы будете смотреть на новую кучу беспорядка и надеяться на очередной всплеск мотивации. Вы



**ШАМС БАГИРОВА,**
***главный специалист по международным отношениям АИТ***

остаетесь в погоне за тем же результатом, потому что никогда не меняли систему, стоящую за ним. Вы лечили симптом без устранения причины.

Ничто из этого не говорит о том, что цели бесполезны. Однако я обнаружил, что цели хороши для планирования вашего прогресса, а системы хороши для реального прогресса.

Цели могут обеспечить направление и даже подтолкнуть вас вперед в краткосрочной перспективе, но в конечном итоге хорошо продуманная система всегда победит. Наличие системы - вот что важно. Вовлеченность в процесс - вот что делает разницу. Цели хороши для определения направления, но системы лучше всего подходят для прогресса. Горстка проблем возникает, когда вы тратите слишком много времени на размышления о своих целях и недостаточно времени на разработку своих систем.

Победители и проигравшие имеют одинаковые цели. Мы концентрируемся на людях, которые в итоге побеждают - выживших - и ошибочно полагаем, что амбициозные цели привели к их успеху, при этом упуская из виду всех людей, которые преследовали ту же цель, но не достигли успеха.

Каждый олимпиец хочет завоевать золотую медаль. Каждый кандидат хочет получить работу. И если успешные и неудачные люди разделяют одни и те же цели, то цель не может заключаться в том, что отличает победителей от проигравших.

Планы - если есть мечта, но нет плана, то это только утопия, пустые мечтания. Ясная цель и подробнейший план являются важной составляющей на пути к успеху.

Однако то, что большинству людей трудно, - это заставить себя делать работу. И это потому, что у них нет плана. У них нет четкого способа выполнить работу, которая им понятна, и в результате их усилия беспорядочные и случайные. Они не определили точных шагов, которые они должны предпринять, чтобы достичь своей цели. Неудивительно, что они терпят неудачу.

Создайте осязаемые, конкретные методы, которым вы будете следовать по мере продвижения к своим целям, пока не создадите систему успеха, которая будет работать на вас.

Успешные находят что-то, что работает, они остаются с этим и продолжают повторять и совершенствовать процесс.

Их поэтапный подход - это то, что отделяет их от неудачных. Достижение успеха требует особого видения и четких шагов для выполнения задач. Неоднозначный план или рабочий процесс не приводит к выполнению того, что вы хотите. После того, как вы определились с лучшим и наиболее эффективным способом выполнения действий, вы сможете позволить вещам происходить автоматически и продолжать дело, направленное на построение вашего успеха.

Действия - всегда надо приложить усилия для претворения своей мечты в реальность. Мечта является мотивацией, но ее можно осуществить только при помощи действия. Нужно лишь определить мечты, время и план выполнения своей цели и перейти к решительным действиям.

Создавайте системы для достижения успеха. Хотя поначалу разработка хороших привычек и систем может быть медленной и сложной, а когда они станут привычными, вы будете делать это быстро и автоматически.

Изучите, что делают другие люди. Будь то кто-то, кем вы восхищаетесь, наставник или кто-то очень успешный, на кого вы смотрите - узнайте, как они работают.

Никто не любит признавать, что все может развалиться. Но это важный шаг в процессе создания систем, которые ведут к успеху. Когда мы готовимся к худшему, мы можем предотвратить это. Прорабатывайте сценарии и устанавливайте системы, чтобы избежать проблем. Если случится непредвиденный кризис, вы можете сосредоточиться на нем, вместо того, чтобы постоянно тушить небольшие, которых можно избежать.

Убеждение - наши поступки обусловлены убеждениями, они же дают нам мужество перед лицом возникающих трудностей. Победители всегда сохраняют твердую уверенность в неизбежности своей победы. Когда человек верит в собственную силу, опираясь на свои убеждения, тогда может усердно работать. Убеждения катализатор успеха. Если человек хочет добиться успеха, сначала ему необходимо думать о том, что все сложится удачно. Уверенность в обязательной победе будет стимулировать вас, заставлять пробовать различные методы и пути к достижению успеха. Если поставлена высокая цель и есть воля к неустанной борьбе ради этой цели, то вы обладаете великой силой, которая может сдвинуть горы и засыпать море.

Старательность - первая ступень к успеху. Чем больше мечта, тем больше трудностей, но и тем выше достижения.

Скажи себе “Сегодня я хочу сделать то, чего другие не хотят делать, завтра я достигну того, чего другие не добьются!”

# GÖBƏKLİTƏPƏ: DÜNYANIN ƏN QƏDİM MƏBƏDİ



*s.f.d.* **ASƏF QƏNBƏROV,**
*Azərbaycan İlahiyyat İnstitutunun müəllimi*

Göbəklitəpə Məbəd Kompleksi Türkiyə ərazisində yerləşən Şanlı Urfanın 15 kilometrliyində aparılan arxeoloji qazıntılar nəticəsində aşkar edilib. On iki min il bundan əvvəl bu kəşf tədqiqatçıları heyrətə saldı və bu günədək insanlıq tarixinin sosial-mədəni təkamülü haqqında irəli sürü-



lən bəzi fikirləri yenidən gözdən keçirməyə səbəb oldu.

Arxeoloji qazıntılar zamanı Neolit dövrünə (e.ə. 9600-7300) aid olduğu ehtimal edilən Göbəklitəpə bir təpə üzərində inşa edilmiş çox sayda dairəvi şəkildə olan daş tikililərdən ibarətdir. 1995-ci ildə alman arxeoloqu prof. Klaus Şmit (Klaus Schmidt) tərəfindən Alman Arxeologiya İnstitutunun dəstəyi ilə aparılan qazıntılar nəticəsində əldə edilən məlumatlara görə, bu tikililərdən məskən (yaşamaq) məqsədilə istifadə edilməmişdir. Göbəklitəpədə üstüaçıq olan bu daş tikililərin 6 ədədi aşkarlanıb, ancaq bunların sayının 20 ədəd olduğu müəyyənləşdirilib. Bütün bu tikililərin, sadəcə, dini ayinlərin keçirilməsi məqsədi ilə inşa edildiyi məlumdur və bunlar dünyanın ilk məbədləridir. Daş dövrünə aid olan bu məbədlərin konstruksiyasında ortaq bir xüsusiyyət diqqəti cəlb edir: "T" formasında sütunlar ilə əhatə edilmiş məbədlərin mərkəzində iki böyük "T" formasında sütun qarşılıqlı şəkildə yerləşdirilib.

Arxeoloqlar hündürlüyü 3-6 metr aralığında olan bu "T" formasındakı sütunların insan simvolları (heykəl) olduğunu düşünürlər. Bunun səbəbi "T" formalı sütunların üzərində görünən qol və əl təsvirləridir. Prof. Şmit bu sütunların insan simvolları olduğuna görə, insanları bir yerə toplama (ictimailəşdirmə) funksiyasını yerinə yetirdiyini düşünür. Həmçinin ətrafda yerləşən sütunların üzərində oyulmuş heyvan təsvirləri və mücərrəd simvollar da vardır.

Öküz, vəhşi donuz, tülkü, ilan, durna, ördəklər ən çox həkk olunmuş heyvan təsvirləridir. Daşlar üzərində oyulmuş bu heyvan təsvirlərinin yanında başqa heyvan qabartmalarına da rast gəlinir. Bunlardan biri də "T" formalı sütunun yan tərəfindən aşağı enən şəkildə təsvir edilən aslan qabartmasıdır.



Göbəklitəpənin əsas simvolu olan "T" formalı sütunların ağırlığı 40-60 ton arasında dəyişir. İbtidai daş alətlərin istifadə edildiyi bir dövrdə belə ağır sütunların necə daşındığı hələ ki dəqiq cavablandırılmayıb. İnsanların ovçuluq-yığıcılıq icmasında yaşadığı, daimi məskənləşmə və





əkinçiliyin inkişaf etmədiyi 12 min il öncəki dövrdə bu sütunların mükəmməl konstruksiyası və bunların daşınması çoxlu insanın bir yerdə çalışmasına və əməkdaşlığına işarə edir. Göbəklitəpə məbədi inşa edildiyi tarixdən, təxminən, 1000 il sonra torpaq və daşlarla tamamilə örtülüb insanların bir şamana tabe olduğunu və buradakı ictimai strukturun şamanizmdən qaynaqlandığı fikrini irəli sürürlər. Cavab nə olursa-olsun, Göbəklitəpənin bu zamanda inşa edilməsi insanların indiyə qədər təxmin olunandan daha öncə ictimailəşdiyini (cəmiyyət halında yaşamalarını) açıq şəkildə göstərir.

***Göbəklitəpənin tarixə gətirdiyi yenilik nədir?***

I Göbəklitəpə Simpoziumunda (2012) Neolit dövrünün arxeologiyası sahəsində mütəxəssis olan prof. Trevor Vatkins (Trevor Watkins) bunları qeyd edib:

"İndiyə qədər arxeoloqlar neolitik inqilabın əkinçiliyin başlanğıcı və insanların daimi oturaq həyata keçməsi ilə başlandığını təxmin edirdilər. Bu, XIX əsrdə baş verən sənaye inqilabına bərabər sayılırdı. Yəni iqtisadi dəyişiklik cəmiyyətin sosial-mədəni transformasiyasına səbəb olmuşdu. Bunun kimi mədəni-dini inkişafın əkinçilik və daimi oturaq həyata keçməkdən sonra inkişaf etdiyi düşünülürdü. Göbəklitəpə bunun belə olmadığını göstərdi. Bu fikri artıq dəyişdirməliyik".

Əvvəllər ictimai-mədəni təkamülün iqtisadi dəyişmələr nəticəsində yarandığı düşünülürdü. Göbəklitəpə məbədi göstərdi ki, insanlar əkinçiliyə və daimi oturaq həyata keçməzdən çox əvvəl iyerarxik cəmiyyət halında təşkilatlanıb, dini fikirlərə malik olub və özlərinə dini məqsədlə tikililər inşa ediblər.



və bu tikililərin hansı səbəbdən inşa olunduğunun cavabı hələ də tapılmayıb.

Göbəklitəpənin kimlər tərəfindən yaradıldığı dəqiq bilinmir. Bəzi arxeoloqlar bu

Prof. Klaus Şmit Göbəklitəpə simvolizmini izah edərkən qeyd edir ki, "T" formalı (insana işarə edən) sütunların



*Şəkildə quşların arxasında başsız insan qabartması görünür*

mərkəzdə yerləşdirilməsi "getdikcə təbiətdə insanın üstünlüyünü və digər canlılar arasında hakim duruma gəldiyini" göstərir.[4] Yəni bu, bir insan kültünün (insanın ucaldılması) başlanğıcıdır.

"Sapiens" kitabının müəllifi N.Y. Harrari Göbəklitəpənin çox mühüm dini-sosial nəticələrinin olduğunu irəli sürür:

"Göbəklitəpənin ovçu və yığıcılar tərəfindən inşa edildiyinə şübhə yoxdur... Beləliklə, bu insanların bacarıq və mədəniyyətlərinin təxmin ediləndən çox daha mürəkkəb və mütərəqqi olduğu fikri ortaya çıxdı... Göbəklitəpə sütunlarının inşa edilməsinin yeganə yolu fərqli qruplara, qəbilələrə mənsub olan minlərlə ovçu və yığıcının uzun zaman əməkdaşlıq etməsidir. Sadəcə, inkişaf etmiş dini və ideoloji sistem bu cür bir çalışmanı mümkün hala gətirə bilərdi".[5]

Buradan çıxan nəticə odur ki, fərqli qruplar və qəbilələr ortaq dini inamlar-ayinlər vasitəsilə birləşməyə və daha çox əməkdaşlıq etməyə başlayıblar. İnsanların böyük cəmiyyətlər halına gəlməsi dini inancların inteqrasiyaedici funksiyası nəticəsində baş verib.

***Göbəklitəpəni inşa edənlər nəyə inanırdılar?***

Göbəklitəpədə ortaya çıxan simvollar Prehistorik dövrün dini inancları və dini həyatın ibtidai şəkilləri haqqında bizə nə öyrədir? "T" formalı sütunlar tanrılara, yoxsa insanlara işarə edir? Prof. K.Şmit bunların insanın simvollaşdırılmış təsəvvürü olduğunu vurğulayır. Bəlkə də Göbəklitəpədə tanrı ideyası belə, hələ yaranmamışdı. Belə ki, ən qədim ibtidai dinlərdən hesab edilən animizm və totemizmdə hər hansı bir tanrı ideyası yoxdur. Göbəklitəpədə müəyyən simvollar sistemi mövcuddur, amma bunu hələ ki, təyin etmək çox çətindir.

Qeyd edilməlidir ki, inamlardan fərqli olaraq, Göbəklitəpədə yerinə yetirilən dini ayinlər haqqında nisbətən bəzi faktlar artıq məlumdur: tədqiqatçılara görə, Göbəklitəpə dəfn mərasimlərinin yerinə yetirildiyi məbəddir.

Harran Universitetinin dosenti, Göbəklitəpə qazıntılarında iştirak edən arxeoloq Cahit Kürkçüoğlu Göbəklitəpədə ölüləri məzara gömmək adətinin hələ yaranmadığını, ölülərin Günəşə verilməsi (qoyulması) və vəhşi quşlar tərəfindən yeyildiyinin məlum olduğunu bildirir. Bu şəkildə ölü ruhların səmaya yüksəldiyinə inanıldığı təxmin olunur. Sütunların üzərində vəhşi quşların ölüləri yemələrinin təsvir olunması bu fikri dəstəkləyir. C. Kürkçüoğlu digər bir arxeoloji məkan olan Çatalhöyükdə (Türkiyədə aşkar edilən, 9 min il əvvələ aid olan yaşayış məskəni) "ölüləri Günəşə gömmək" ayininin mövcud olduğunu qeyd edir.[6]

Göbəklitəpə Misir ehramlarından tam 7 min il öncəyə aiddir. Bu fakt belə, Göbəklitəpənin dünyanın ən böyük tarixi abidələrindən biri olduğunu göstərir. Sadəcə, çaxmaqdaşlarının istifadə edilməsi ilə düzəldilən böyük sütunlar və onların daşınması, yerləşdirilməsi, sütunlar üzərindəki mükəmməl heyvan qabartmaları, həmçinin məbədin memari konsturksiyası bu insanların memarlıq və incəsənət bacarıqlarının üstünlüyünü göstərir, tədqiqatçıları heyrətə salmaqda davam edir. Şübhə yoxdur ki, Göbəklitəpə qazıntıları davam etdikcə, daha yeni tapıntılar ortaya çıxacaq, bu mükəmməl ustaların dini inamları və sosial həyatı haqqında daha aydın biliklər aşkarlanacaqdır.

# Kəlbəcərdə daşlaşan tariximiz...

**Kəlbəcər rayonu dəniz səviyyəsindən 1500-3800 metr yüksəklikdə, Tərtər çayı vadisində, Kiçik Qafqaz dağlarında yerləşir. Rayon zəngin flora və faunaya malik əsl təbiət muzeyidir. Əsrarəngiz gözəlliyə malik olan bu qədim tarixi məkan turizm üçün də çox cazibədardır. Yaşıl meşələr, yüz illərlə insan ayağı dəyməyən məkanlar, ilk insan yaşayış yerləri olan mağaralar, daş kitabələr, daş üzərində şəkillər, rəmzlər və işarələr buranın zəngin tarixindən xəbər verir.**

Kəlbəcər inzibati rayon kimi 8 avqust 1930-cu ildə yaradılmışdır. Ərazisi 3054 kvadratkilometrdir. Rayona bir şəhər, bir şəhər tipli qəsəbə (İstisu) və 128 kənd daxildir. Dəlidağ, Keyti, Murovdağ, Kəpəz, Şərgi Göyçəgölü, Göyçənin Mıxtökən, Qarabağ yaylasının bir hissəsi Kəlbəcərin təbii sərhədlərini təşkil edir. Ən yüksək zirvəsi olan Camışdağın (Murov dağının zirvəsi) hündürlüyü 3724 metrdir.

Rayon çoxlu təbii faydalı qazıntılarla, o cümlədən, qızıl, civə və qiymətli tikinti materialları (tuf, perlit, obsidan, travertin, və s.) ilə zəngindir. Ərazisində yüzlərlə şəfalı bulaq var. Kəlbəcərin 280 min hektar ərazisini meşələr təşkil edir. Bütün bunlarla bərabər rayon ərazisində saysız-hesabsız tarixi abidələr çox dəyərlidir.

Kəlbəcər rayonu ərazisində, Tərtər çayının sol sahilində yerləşən, xalq arasında "Xotavəng" və ya "Xudavəng", yəni "Tanrı məbədi" adlandırılan monastır kompleksi Qafqaz Albaniyası dağıldıqdan sonra (IX əsrdə) Qarabağın dağlıq hissəsində yaranmış Xaçın Alban knyazlığının dini mərkəzi olmuşdur. Kompleksdə alban yepiskopunun iqamətgahı olmuş və dini maarif mərkəzi fəaliyyət göstərmişdir. Arxeoloji tədqiqatların nəticələri göstərir ki, monastırın əsası VI-VII əsrlərdə qoyulmuşdur. Mehranilər sülaləsindən olan Xaçın knyazı Həsən Cəlalın oğlu Vaxtanq kompleksin ərazisində geniş tikinti işləri aparmış, Arzu xatun isə 1214-cü ildə əri Vaxtanqın və iki oğlunun xatirəsinə kompleksdə kilsə tikdirmişdir. Kilsənin şərq fasadında daş üzərində knyaz Vaxtanqın, cənub fasadında isə Arzu xatunun iki oğlunun təsvirləri həkk olunmuşdur. Alban knyazı tərəfindən inşa edilmiş baş kilsə memarlıq xüsusiyyətlərinə görə erməni və gürcü xalqlarının kilsələrindən tamamilə fərqlənir.



**VƏLİ YUSİFOĞLU,**
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı***

Vəngli kəndində Xaçın çayının sol sahilində dağın üstündə ucaldılmış məşhur Qandzasar (Gəncəsər) monastırı Qafqaz Albaniyası xristian memarlığının ən görkəmli abidələrindən biridir. Monastırın divarında daş üzərindəki epiqrafik yazıda bildirilir: "Yüksək və böyük Arsax ölkəsinin hökmdarı, geniş vilayətin çarı, Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu Həsən Cəlal Dövlə və anası Xorişə Xatun tərəfindən 1216-1238-ci illərdə inşa edilmişdir".

Albaniyada I əsrin ortalarında hakimiyyətə gəlmiş Çar I Vaçaqanın nəslindən olan Arşakilər sülaləsinin hökmdarları "arşaxilər", VI əsrdən VIII əsrin əvvəlinədək hakimiyyətdə olmuş Mehranilər sülaləsinin hökmdarları isə "aranşax" adlandırılmışlar. 1261-ci ildə monqol-tatar işğalçıları tərəfindən İranın Qəzvin şəhərində qətlə yetirilmiş Həsən Cəlal Dövlənin cənazəsini oğlu knyaz Atabəy Qandsazar monastırına gətirərək burada dəfn etmişdir. Bu monastır 1511-ci ildən 1836-cı ilədək, yəni Rusiya Sinodunun (ölkənin ruhani idarəsi) rəsmi qərarı ilə Alban kilsəsi ləğv edilənədək alban xristianlarının iqamətgahı olmuşdur. Həsən Cəlalın nəslindən olan bir çox alban din xadimləri bu monastır kompleksinin ərazisində dəfn edilmişlər. Hündür qala divarları ilə əhatə olunmuş Qandzasar kompleksinə alban xristian memarlığı üslubunda inşa edilmiş baş kilsə, ona bitişik dörd maili dam örtüyündə yüksələn monastır binası və qala divarlarına içəri tərəfdən hörülmüş tikililər daxildir.

Monastır kompleksinin memarlıq üslubu, heykəltəraşlıq nümunələri və diofizit xarakterli elementlər bu abidənin çoxəsrlik ənənələri olan Qafqaz Albaniyası memarlığına aid olduğunu təsdiq edir. Uzun müddət yerli xristianların iqamətgahı olmuş monastır dinin " baş xəzinəsi" mənasında Gəncəsər adlanmışdır.

## "XUDAVƏNG" MƏBƏDİ

Azərbaycan Albaniyası memarlığının möhtəşəm nümunələrindən biri də "Xudavəng" monastır kompleksidir. Ağdərə-Kəlbəcər magistral yolunun üstündəki Bağlıpəyə kəndindən aşağı, Kəlbəcər rayonunun 29 kilometrliyində yerləşən bu qədim Alban məbəd kompleksi VI-VII əsrlərdə inşa olunmuşdur. Məbədin ilkin tikintisinin məhz bu dövrə aid olması buradakı qazıntılar zamanı aşkara çıxarılmış saxsı məmulatların və daş kitabələrin öyrənilməsi nəticəsində aşkarlanmışdır. Sonrakı dönəmlərdə məbəd bir neçə dəfə təmir edilərək ona əlavələr olunmuş, nəhayət, Xaçın knyazı Həsən Cəlal (1215-1261) məbəddə əsaslı bərpa işləri görmüşdür. Bəzi məlumatlara görə, Həsən Cəlalın həyat yoldaşı Minə Xatun burada dəfn olunmuşdur.

Ümumilikdə, kompleksə doqquz tikili daxildir: 1. Qədim kilsə. 2. Kiçik birnefli Müqəddəs Məryəm ana bazilikası. 3. Arzu xatın məbədi. 4. Həsən Cəlal məbədi. 5. Müqəddəs Qriqoris məbədi. 6. Arzu xatın məbədinə əlavə edilmiş zal. 7. Zəng qülləsi. 8. Məktəb binası. 9. Qalereya.

Bu tikililərdən beşi əsas, digərləri köməkçi xarakteri daşıyır. Məbəd kompleksinə daxil olan bu abidələrin heç də hamısı dövrümüzədək yaxşı vəziyyətdə çatmamış, yaşca daha qədim olanları aşınmaya məruz qalmış və nisbətən uçmuşdur.

Binaların inşası zamanı, əsasən, yerli qara bazalt daşdan, bişmiş kərpicdən və əhəng məhlulundan istifadə edilmişdir. Damları isə kirəmit və səliqə ilə kəsilmiş daşlarla örtülmüşdür. Maraqlısı odur ki, üstü günbəz kimi inşa edilmiş binaların tikintisində ağac materialından istifadə olunmuşdur. Məbəd binalarında pəncərə oyuqları da mövcuddur. Həmin oyuqların yuxarı hissəsi nalşəkilli formada düzəldilmişdir.

Monastıra daxil olan tikililərin divarlarında yağlı boya ilə çəkilmiş çoxlu şəkillər və yazılar həkk edilmişdir. Kompleksin ətrafı digər alban monastırlarında olduğu kimi möhkəm divarlarla əhatələnmişdir.

Kompleksə daxil olan Arzu Xatun kilsəsi öz monumentallığı ilə seçilir. Bu məbəd 1214-cü ildə Alban knyazı Vaxtanqın xanımı Arzu Xatun Arcruni tərəfindən ərinin və iki oğlunun xatirəsinə inşa etdirilmişdir.

Düzbucaqlı şəklində inşa edilmiş kilsənin qapısının hər iki tərəfində xırda otaqlar vardır. Binanın mərkəzində böyük alın hissənin üstündə qübbə ucaldılmış, qübbənin üstü isə konusvari damla örtülmüşdür. Kilsənin fasadı səliqə ilə yonulmuş daşla üzlənmiş, daşların üstündə qabartma və oyma şəklində çox incə naxışlar işlənmişdir. Məbədin şərq fasadında daş üzərində Vaxtanqın, cənub fasadında isə Arzu Xatunun və iki oğlunun təsvirləri həkk edilmişdir.

Torpaqlarımız işğal edildikdən sonra "Xudavəng" məbədi də dəfələrlə ermənilərin təcavüzünə məruz qalmışdır. Düşmənlərimiz abidədəki Alban kilsəsinə aid xaç və yazıları balta ilə çaparaq yox etmiş, beləliklə, tarixi saxtalaşdırmağa çalışmışlar. Onlar öz məkrli təbliğatlarında bu məbədini erməni kilsəsi kimi təqdim edir, xalqımızın maddi-mədəni irsini özününküləşdirirlər.

## "GƏNCƏSƏR" MƏBƏDİ

"Gəncəsər" keçmiş Ağdərə rayonunun Vəngli kəndində, Xaçın çayının sol sahilində yerləşən XIII əsr xristian Alban monastırıdır. Orta əsrlərdə monastır Alban kilsələrinin mərkəzi iqamətgahı olmuşdur.

Məbəd Gəncədağ dağında tikilmiş və adını da buradan almışdır. Dağın adı isə ərəb dilindəki kənisə - "məbəd" və Azərbaycan dilindəki "dağ" sözündəndir. Kənisə sözünün ərəb dilində olması orada ərəblərin yaşaması ilə əlaqədar deyil. Bu, o deməkdir ki, XII əsrdə Azərbaycan dilində kənisə (kənsə, gənzə) sözü vardı və Azərbaycan dilindən həmin söz dağın adına keçmişdir.

Kənisə - "məbəd" sözü respublikamızda Kənzə, Kənzəçay (Ordubad rayonu), Kənizədağ (əslində Kənisədağ) İsmayıllı rayonunda və başqa toponimlərdə qalmışdır.

Bu məbəd Artsax hökmdarı Həsən Cəlal və oğlu tərəfindən 1216-1265-ci illərdə tikilmişdir. Monastırın özündə saxlanan epiqrafikanın köməyilə məlum olur ki, indiki, mövcud məbədin tikintisinə Həsənin atası Vaxtanqın vəsiyyəti ilə 1216-cı ildə başlanmışdır. Bu məbəd 1511-ci ildən 1836-cı ilədək, yəni Rusiya Provaslav Kilsəsi Sinodunun rəsmi qərarı ilə Alban kilsəsi ləğv edilənədək diofizit alban xristianlarının iqamətgahı olmuşdur. Həsən Cəlalın nəslindən zamanında tanınmış bir çox alban din xadimləri bu məbəd kompleksinin ərazisində dəfn edilmişlər. Həsən Cəlalın qəbrinin üstündə belə bir yazı var: "Ulu knyaz Cəlal öz valideyninin vəsiyyətini yerinə yetirərək 665-ci ildə (1216-cı ildə) bu gözəl və daş kilsəni tikdi və onu bütün mümkün şəkillərlə (bəzəklərlə) dövrələyərək 687-ci ildə (1238-ci il) özünün və arvadı Məmkanın iradəsi ilə onu bitirdi". Monastrın daxilində, kupelin altındakı yazı və Kirakos Qandzaketsinin məlumatı da bunu təsdiq edir.

1240-cı ildə tikilmiş abidə pak edilmişdir (müqəddəs su səpilmişdir):

Yazıya görə: "Bu kilsə 689-cu ildə (1240) Alban Katolikosu Ter-Nersesin patriarxlığı dövründə pak edilib".

Həsən Cəlalın arvadı Məmkan bu kilsənin darvazaları yanında gözəl bir qavit tikdirmiş-

dir. Əvvəlcə "Gəncəsər" Cəlali knyazlarının, alban katalikosları və Xaçının mühüm şəxslərinin dəfn edildiyi yer olmuşdur. Orada alban katalikoslarının iqamətgahları, vardapetlər məktəbi, əlyazmaların saxlandığı kitabxana və s. da yerləşmişdir.

Qəbirüstü abidələrin üzərindəki bəzi yazılar: "Bu 1102-ci (1653) il Alban katalikosu Qriqorinin qəbridir". "Bu Cəlal Dolanın nəslindən olan 1149-cu il (1700) alban katalikosu Yereminin qəbridir". "Bu alban katalikosu Yesaynın qəbridir... 1177 (1728)" maraq doğurur.

XVII əsrin sonunda da yerli əhali "Gəncəsər"i alban məbədi adlandırırdı. Ruhani Apav monastrın damını bərpa edib orada belə bir yazı qoymuşdur: "... Aqvan Gəncəsərin müqəddəs taxtında bizim saf niyyətlə verilmiş vəsaitlərimizdən istifadə edib kilsələrin damlarını və dağılmış divarlarını tikdilər".

"Gəncəsər" və onun camaatının, XIII əsr Alban kilsəsinin sonrakı tarixini öyrənmək üçün çox mühüm sənəddir. Abidədə bir çox elementlər var ki, bunlar da XIII əsrdə Alban katolikosluğunun başqa kilsələrə tabe olmaq istəməməsini bir daha təsdiq edir.

Məbəd kompleksinin memarlıq planlaşdırma və kompozisiya həlli, heykəltəraşlıq nümunələri və diofizit xarakterli elementləri onun çoxəsrlik ənənələri olan Azərbaycan Albaniyası memarlığına aid olduğunu təkzibolunmaz faktlarla təsdiq edir.

"Gəncəsər" məbədinin Orta əsrlərdə xüsusi mülkləri vardı. Bu mülklərdə yerləşən kəndlərin əhalisi məbədə sahib idi. 1825-ci ilə aid arxiv sənədlərində göstərilir ki, 4 ailədən ibarət Ballıqaya və 55 ailədən ibarət Vəngli kəndlərinin istifadə etdiyi torpaqlar "Gəncəsər mülkü", həm də Güzlək və Dizak adlanır. Sənəddə qeyd olunur ki, Ballıqayanın əhalisi yerli türklərdir (azərbaycanlılardır), amma Vənglidə az sayda ermənilər də yaşayır, onları məbədin kahini Sərkis xarici ölkələrdən gətirmişdir.

**Tarixi-dini abidələri**

Alban məbədi (500-cü il) - Həsənriz kəndi

Alban məbədi (1283-cü il) - Həsənriz kəndi

Alban məbədi (V-IX əsrlər) - Vəng kəndi

Alban kilsəsi (V-VII əsrlər) - Çərəkdar kəndi

Alban məbədi (614-cü il) - Kolataq kəndi

Müqəddəs Yaqub kilsəsi (635-ci il) - Kolataq kəndi

Alban məbədi (672-ci il) - Qocaqot kəndi

Alban məbədi (698-ci il) - Qocaqot kəndi

Alban məbədi (713-cü il) - Dəstəgir kəndi

Alban məbədi (718-ci il) - Qasapet kəndi

Kilsə (1894-cü il) - Qasapet kəndi

Kilsə (1898-ci il) - Maqadiz kəndi

Kilsə (1668-ci il) - Dovşanlı kəndi

Kilsə (XVII əsr) - Dəvədaşı (Poqosoqomer) kəndi

Qırmızı məbəd (XVII əsr) - Qozlu kəndi

Urek məbədi (1279-cü il) - Talış kəndi

Alban kilsəsi (VIII-IX əsrlər) - Tərtər çayının Bulanıq çayı ilə qovşağında

Alban məbədi (X əsr) - Çormanlı (Qarnakar) kəndi

Alban kilsəsi (XI əsr) - Çormanlı (Qarnakar) kəndi

Kilsə (1883-cü il) - Maxrataq kəndi

Məbəd (1881-ci il) - Maxrataq kəndi

Məbəd - Maxrataq kəndi

Məbəd - Şaplar kəndi

Məbəd - Şaplar kəndi

Məbəd (XIII əsr)- Vəngli kəndi

Məbəd - Kiçan kəndi

Məbəd (1251-ci il)- Smakaok kəndi

Alban məbədi (XII əsr) - Çıldıran kəndi

Qırmızı məbəd (XIII əsr) - Çıldıran kəndi

"Xatırvank" məbədi (1204-cü il) - Qozlu kəndi

Məscid (XIX əsr)

Məscid (XVIII-XIX əsrlər) - Başlıbel kəndi

Məscid (XIX əsr) - Otaqlı kəndi

**Ziyarətgahları**

Qəbiristanlar (3 ədəd) orta əsrlər - Qasapet kəndindən 5-6 km. aralı.

Qoç daşlar piri - Əsir kəndi yaxınlığında.

Seyid Əsədullahın ziyarətgahı (XIX əsr) - Söyüdlü yaylağı.

Seyid Bağır ağanın ocağı - Başlıbel kəndi.

Seyid Əliabbas ağa ziyarətgahı - Başlıbel kəndi.

Seyid Əhməd ağa ocağı.

**Tarixi memarlıq abidələri**

Dovşanlı nekropolu (Son Tunc, İlk Dəmir dövrü) - Araçadzor kəndi.

Balıqaya nekropolu (Son Tunc, İlk Dəmir dövrü) - Sırxavənd kəndi

Daş qoç fiqurları - ərəb yazısı ilə (XIX əsr) - Zar kəndi.

Daş qoç fiqurları - ərəb yazısı ilə (XIX əsr) - Zar kəndi.

Daş qoç fiqurları - ərəb yazısı ilə (XIX əsr) - Zar kəndi.

Daş qoç fiqurları - ərəb yazısı ilə (XIX əsr) - Zar kəndi.

Daş at fiquru - Zəylik kəndi.

Celabert qalası - Qasapet kəndi.

Lök qalası (VII-VIII əsrlər) - Qanlıkənd kəndi.

Uluxan qalası (VII-IX əsrlər) - Qaracanlı kəndi.

Qalaboynu qalası (VIII-IX əsrlər) - Qalaboynu kəndi.

Comərd qalası (VIII-IX əsrlər) - Comərd kəndi.

Keşikçi qalası (VIII-IX əsrlər) - Qamışlı kəndi.

Urud abidələrinin xronoloji sayı (1478-1610) - Zar, Zəylik, Keştək kəndləri.

Tağlı daş körpü (XIX əsr) - Soyuqbulaq kəndi.

# Maddi-mədəniyyət abidələrimiz tariximiz, milli sərvətimizidir

*"Biz tarixi keçmişimizə nəzər salarkən ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla - yaradılan hər şeylə fəxr edir və bunları yaradanları daim xatırlayırıq".*

HEYDƏR ƏLİYEV

Qədim tarixə, zəngin mədəniyyətə, ulu keçmişə malik olan Azərbaycan çox haqlı olaraq, bəşər mədəniyyəti və mənəviyyatının beşiyi hesab edilir.

Avropa və Asiyanın ayrıcında yerləşən, əlverişli təbii coğrafi şəraiti, zəngin təbiəti və iqlimi, münbit torpağı, yeraltı-yerüstü sərvətləri, mağaraları, əlçatmaz, ünyetməz qayaları, bolsulu çayları, sıx ormanları, yaşıl yaylaqları, bərəkətli, geniş çöl və düzənlikləri olan Ana Yurdumuz dünyada qədim insanların ilk məskənlərindən biri hesab olunur. Nəzərə alsaq ki, bəşər tarixi insan cəmiyyətinin təşəkkülü ilə başlayır, o zaman qürurla deyə bilərik ki, bu qədim diyar arası kəsilmədən, daim, milyon illərlə əsl yaşayış məskəni olub, tarixi inkişafın bütün mərhələlərini addım-addım keçərək yaşayıb. Buna Azərbaycan ərazisində olan arxeoloji, geoloji, tarixi və memarlıq abidələri, qədim yaşayış yerləri bilavasitə şahidlik edir. Bəşər tarixinin sübhçağına aid edilən Azıx, Daşsalahlı, Qazma, Damcılı, Damlama, Tağlar mağaralarında yaşayanlar; Möminə xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələrini inşa edənlər; Qobustanda, Gəmiqayada, Kəlbəcərdə, Qalacıqda sal qayaların üstündə rəsm çəkənlər; Kültəpədə, Göytəpədə dünyanın əvəzsiz maddi mədəniyyətini yaradanlar; Tanrının və tarixin nişanəsi olan bu ulu və müqəddəs varlıqlar bizim əcdadlarımızdır deyərək, öyünməyə haqqımız vardır.



**ZAHİD RZA,**
*"Həsən bəy Zərdabi" mükafatı laureatı*

Hələ eramızdan əvvəl III minillikdə burada qəbilə birləşmələri formalaşıb, e.ə. I minillikdə isə ilk qurumlar yaranıb. E.ə. IX əsrdə Azərbaycan dövlətçiliyi bərqərar olub.

Azərbaycan bəşər mədəniyyətinə Zərdüşt, Dədə Qorqud, Nizami, Əcəmi, N.Tusi, Füzuli, Nəsimi kimi ölməz dühalar, mütəfəkkirlər bəxş edib.

Şərqin ilk Tibb Universiteti (IX əsr), dünyada ilk musiqi notu, ilk optik gözlüklər məhz bu torpaqda ulularımızın fitri istedadı və zəkası ilə yaradılıb. Dünya mədəniyyət xəzinəsinin ən qiymətli incilərindən olan Möminə xatın, sirli-sehrli Qız qalası, Şirvanşahlar sarayı, zaman-zaman Vətənin şanlı əsgərinə çevrilərək, Dərbənd qala divarları, "Gələrsən-görərsən", Əlincə, Əsgəran, Şuşa, Bəzz qalaları, Qarabağlar türbəsi zamanın sərt sınaqlarından alnıaçıq, üzüağ çıxaraq, bu günümüzə qədər gəlib çıxıb. Bu torpaq dünyanın Cazibə qanununu Nyutondan bir neçə yüz il əvvəl kəşf edən, Amerika qitəsinin mövcudluğunu Kolumbdan 500 il əvvəl söyləyən Nəsrəddin Tusinin doğma vətənidir. Sələfləri qədim Naxçıvandan pərvazlanan Tusi Evklid həndəsəsinin səhvlərini isbat etmiş, bunun nəticəsində isə uzun yüzilliklərdən sonra, Lobaçevskinin qeyri-Evklid həndəsəsi Tusinin nəzəriyyələri əsasında yaranıbdesək, heç də yanılmarıq.

Bəli, Orta əsrlərin Avropasında qəddar, savadsız, hətta imza atmağı bacarmayıb, əvəzində xaç şəkli çəkən feodal hökmdarları ilə eyni zamanda yaşayıb, bir əlində qılınc ucsuz-bucaqsız imperiya yaradan, o biri əlində qələmlə könülləri fəth edən Cahanşah Həqiqilərin, Şah İsmayıl Xətailərin Vətənidir Azərbaycan!

İndi Azərbaycanın bir zamanlar dünyanın mənəvi, intellektual, hətta coğrafi mərkəzi olmasını cəsarətlə, çəkinmədən söyləyə bilərik. Odlar Yurdunun ayrılmaz bir parçası olan Naxçıvanda Nuhun gəmisinin tarixin qan yadda-

şına əbədi həkk olunmasını, artıq dünya alimləri təsdiq etməyə başlayıblar.

Dünyadakı 12 iqlim tipindən 9-u Azərbaycandadır. Məhz bu faktın özü sübut edir ki, ulu təbiət, Uca Tanrı Azərbaycandan heç nəyini əsirgəməyib.

Bu gün III minillikdə, XXI əsrdə xalqımızın özü üçün kiçik bir dünyası vardır. Bu da müstəqil, azad, suveren Azərbaycandır!

"Vətən haradan başlanır?!" sualına bir an belə fikirləşmədən doğulduğumuz, boya-başa çatdığımız, beşiyimizin yırğalandığı, nənnimizin asıldığı, qolumuzun qüvvəti, dizimizin təpəri, gözümüzün ziyası, babalarımızm oylağı, analarımızın isməti, xoş günümüz, həm də gələcək məzarımız olan yurd yerlərimizdən, burada minillərin arxasından gələcəyə doğru qürurla boylanan tarixi abidələrimizdən, müqəddəs ziyarətgahlarımızdan", - deyə cavab verməliyik.

Azərbaycanın tarixində xüsusi yeri olan Naxçıvan qədim abidələrlə zəngindir. Bu diyarda hər daşın, hər qayanın altında Azərbaycan xalqının zəngin keçmişini, mədəniyyətini, adət-ənənələrini özündə yaşadan abidələr yatır. Məmləkətimizin ayrılmaz bir parçası olan bu diyarda ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, möhtəşəm qala divarlarına, qayaüstü rəsmlərə, ən mükəmməl memarlıq incilərinə rast gəlmək olar.

Naxçıvanda 1 162 tarixi-mədəniyyət abidəsi mövcuddur ki, onların da 58-i dünyaəhəmiyyətli sayılır. Qazma, Əshabi-Kəhf, Kilid mağaralarında Daş dövrü mədəniyyətinin izləri aşkar olunub. Eramızdan əvvəl IV minilliyin sonu və II minilliyin əvvəllərində Naxçıvan ərazisində Oğlanqala, Qarabağlar, Çalxanqala, Govurqala kimi qala-şəhər yaşayış məntəqələri salınıb. Gəmiqaya rəsmləri tipli təsviri sənət abidələri Naxçıvanın qədim tayfalarının həyat tərzini, dini-ideoloji dünyagörüşünü əks etdirir. Əshabi-Kəhf mağarası "Qurani-Kərim"in Kəhf surəsindəki mağara olduğu ehtimal edilir.

Qayaüstü təsvirlərin qeydə alındığı Gəmiqaya abidəsi Azərbaycanın ən qədim dövr incəsənətinin, mənəvi və maddi mədəniyyətinin ensiklopediyasıdır. Naxçıvan ərazisində mövcud olan tarixi abidələrdən Qazma mağarası, Kilit mağarası, Oğlanqala, I Kültəpə, II Kültəpə, Şahtaxtı, Qızılburun, Quyulu dağ, Möminə xatın, Qarabağlar, Yusif Küseyiroğlu və Gülüstan türbələri, Əlincə qalası, Qədim qala, tarixi təbiət abidələrindən Əshabi-Kəhf, Haçadağ, Duzdağ, Babək qalası, Dəvəboynu və başqa yüzlərlə abidə keçmişimizi bugünə daşıyan, maddi və milli sərvətlərimizdir.

Naxçıvanın daha bir möhtəşəm abidəsi memar Əcəminin şah əsəri olan Möminə xatun türbəsidir. Türbə təkcə Azərbaycanda deyil, İslam dünyasında ən uca və incəkompozisiyalı abidələrdən sayılır. O, 1186-cı ildə Azərbaycan Atabəylər Dövlətinin banisi Şəmsəddin Eldəgizin xanımı Möminə xatunun qəbirüstü məqbərəsi kimi ucaldılıb. El arasında bu türbəyə "Atabəy günbəzi" də deyilir.

Memar Əcəmiyə aid daha bir tarixi memarlıq abidəsi Yusif ibn Küseyr türbəsidir. 1162-ci ildə inşa edilən türbə xalq arasında ata-baba türbəsi adlanır. Abidənin gövdəsində kufi xətlə Qurandan ayələr yazılıb.

Orta əsr Naxçıvan memarlığının ən qiymətli yadigarlarından biri də Qarabağlar türbəsidir. Qarabağlar abidəkompleksinə Türbə, Qoşaminarə və bu iki abidənin arasında yerləşən ibadətxana binasının qalıqları daxildir. Qoşa minarələrin XII əsrin axırlarında və ya XIII əsrin əvvəllərində tikildiyi güman edilir. Türbənin fasad bəzəyi təkrarlanan "Allah" sözlərindən yığılıb.

Qarabağlar Türbə Kompleksi dünya mədəniyyət xəzinəsinin nadir incilərindən, türk-islam maddi-mənəvi mədəniyyətinin ən gözəl nümunələrindən biridir. Bu memarlıq kompleksindəki Qoşaminarə XII əsrin sonu XIII əsrin əvvəllərində, türbə isə XIV əsrdə inşa olunub. İndiyə kimi ən böyük ensiklopediyalardan tutmuş, məşhur memarlıq mütəxəssislərinə qədər bu kompleksə aid olan Quti xatunun şərəfinə tikilmiş türbə geniş araşdırılıb. Qoşaminarənin isə yalnız adı çəkilib. Bir də onun tikinti texnikası, memarlıq xüsusiyyətləri barədə deyilib, yazılıb. Ancaq bu Qoşaminarənin daxil olduğu dini tikili hansı vəzifələri həyata keçirib, burada daha nələr olub? Bax, bu suallara geniş və ətraflı məlumat verilməyib.

Hələ XVII əsrdə Övliya Çələbi Qarabağlarda 40 minarəli came məscid olduğunu qeyd edib. İndi yalnız qoşa minarəsi qalan həmin dini tikili came məscid olub və iri yaşayış məntəqələrində fəaliyyət göstərərək dövlət idarəsi və kütləvi ibadət yeri kimi tanınıb. Onlar cəmiyyətdə ictimai-siyasi, iqtisadi məsələlərin həll olunmasında, mədəni-maarif işinin aparılmasında dövlətin köməkçisi olublar. Hökmlər, fitvalar, və s. sənədlər əhaliyə məhz came məscidlərin minbərlərindən bildirilirdi. Akademik Bartold yazır ki, "came məscidlər ancaq ibadət yeri olmayıb, eyni zamanda, dövlət yığıncaqlarının və ictimaiyyətin toplanış yeri idi. Orada dövlət xəzinəsi saxlanılır, müəllimlər mühazirə oxuyur, dərs keçir, məhkəmə qurulur və ictimai işlər aparılır-

dı".

Came məscidlərdə təşkil olunan məktəblərdə oğlan uşaqları dini və dünyəvi ibtidai təhsilə yiyələnirdilər. XII əsrin sonu XIII əsrin əvvəllərində tikilmiş Qarabağlar came məscidi məhz o illərdə ibadətgah olmaqla yanaşı, əhalinin dini, hüquqi, sosial, iqtisadi, ideoloji, ailə-məişət məsələlərinin müzakirə edildiyi dövlət idarəsi olub.

Qoşaminarəli came məscidin yanında XIV əsrdə Hülakilər dövlətinin banisi Hülaki xanın xanımı Quti xatunun şərəfinə türbə inşa olunmuşdur. 1332-1337-ci illərdə tikilmiş bu memarlıq abidəsinin memar Əhməd Əyyub oğlu Əli Hafız Naxçıvani olmuşdur.

Hülakilər zamanında Qarabağlar Azərbaycanın əsas mədəni-mənəvi, ictimai-siyasi mərkəzlərindən biri olmuşdur. Böyük bir imperiyanın yaradıcısı, qüdrətli bir dövlətin banisi Elxani hökmdarı Hülakü xanın oğlu Abaqa xanın xanımı, həmin dövlətin idarəçiliyində fəal rolu olmuş Quti (Qoday xatun) xatunun şərəfinə tikilən məqbərə məhz bu qədim oğuz-türk yurdu Qarabağlardadır.

Türbə yeraltı və yerüstü hissədən ibarətdir. Yeraltı hissədə sərdabə yerləşib. Türbə bütöv qaya üzərində tikilib.

İsa Əzimbəyli Məddah yazır: "Müsəlmanların əqidəsinə görə insan su, od, torpaq, külək kimi 4 ünsürdən əmələ gəldiyi üçün türbədəki 4 açarım buna işarədir". O həmçinin bunların "4 ərəb xəlifəsinə-Ömərə, Osmana, Əbübəkirə və Əliyə işarə" olduğunu da qeyd edir. Türbədəki kitabələri Ə.Ələsgərzadə də oxumuş və bu barədə "Nizami dövrü Azərbaycan arxitektura abidələri" kitabında (M-B-1947) məlumat verib. Əsas yazılar 10, 9, 8, 7 və 6-cı silindrlərdə olan Quran ayə və surələrindən ibarətdir. Qalan silindrdəki yazılar ovulub tökülüb. Mütəxəssis oxuduqları yazıların Quranın 67 surəsinin 1-6 ayələrindən götürüldüyünü deyirlər. Türbənin üzərindəki yazılar belədir: "Bağışlayan və mərhəmətli Allahın adı ilə (başlayıram). Varlıq aləmi onun qüdrət əlində olan Allah mübarəkdir. O hər bir şeyə qadirdir. O sizin hamınızın gözəl əməl sahibi olduğunu yoxlamaqdan ötrü, ölüm və dirilik məsələsini qoymuşdur. O, əziz və günahları bağışlayandır. O, yeddi göyü təbəqəbətəbəqə yaratdı. Allahın yaratdığında heç bir fərq görə bilməzsən. Gözünü dolandır, bax Aya, bir nöqsan görə bilərsənmi? Sonra gözünü iki dəfə dolandır, gözünü uzaqlara dikərək dolan o, (göz) yorular. Artıq dünyanın səmalarını çıraqlarla zinətləndirdik və onları (çıraqları) şeytanları qovmaq üçün yaratdıq onları (şeytanları) yanar od əzabı ilə cəzalandırdıq. Öz Allahına inanmayanlar üçün cəhənnəm əzabı var, onları gələcək gözləyir..."

Alimlərin, yaşlı adamların dediklərinə görə Qarabağlar türbəsinin sərdabəsində olan meyiti 1939-40-cı illərdə gizli şəkildə Moskvaya aparıblar və ondan bir daha xəbər, məlumat alınmayıb.

Tanınmış memar Cəfər Qiyasi Qarabağlar türbəsi haqqında yazıb: "Azərbaycanın orta əsr xatirə memarlığının geniş yayılmış tipi qülləvari türbələridir. Belə "qülləvari türbələr" adlandırılan xatirə tikililəri əsasən oğuz türklərinin yaşadığı Anadolu, Azərbaycan və Xorasanda lokallaşıb. Bunun ən monumental örnəklərindən biri XIV yüzlikdə Qarabağlarda ucaldılmışdır".

Naxçıvanın diqqət çəkən memarlıq abidələrindən biri də Ordubad şəhərinin mərkəzində XIV əsrə aid Buzxana abidəsidir. Bina boyük otaqdan, 36 pillədən və buz saxlanılan zirzəmidən ibarətdir. Binanın hündürlüyü 11 metr, divarlarının qalınlığı isə 80 santimetrdir. Qış aylarında zirzəmiyə su vurularaq buz halına salınır, yay aylarında isə yerli əhalinin ərzaq məhsulları və azuqələrini saxlamaq üçün istifadə edilirmiş.

XVIII əsrə aid tarixi abidələrdən biri sayılan və Naxçıvanın əzəmətli tikililərindən hesab edilən Xan sarayı şəhərin qonaqlarının maraqla ziyarət etdikləri məkanlardandır. Sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərlinin tikdirdiyi ehtimal edilir. Abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olub. Hazırda bu sarayda Naxçıvan Xalça Muzeyi yerləşir.

XVIII əsrə aid Şərq hamamı da Naxçıvanın dövlət tərəfindən qorunan tarixi-memarlıq abidəsidir. Bu memarlıq kompleksi vaxtilə Naxçıvan şəhərinin mərkəzindən keçən Bazar çayının yaxınlığında inşa edilib.

Bu gün Naxçıvanda yerləşən tarix və mədəniyyət abidələrinin qorunması ilə yanaşı, onların bərpası da diqqət mərkəzində saxlanılır. Son illər Möminə xatun Türbəsi, Qarabağlar Memarlıq Kompleksi konservasiya edilib, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılıb, Yusif Küseyiroğlu və Nuh türbələri, İmamzadə, Buzxana, Came məscidi, Zaviyyə mədrəsəsi, İsmayılxan hamamı, Xan Sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Ordubaddakı Aza körpüsü, Qeysəriyyə və digər tarixi abidələr əsaslı bərpa olunub. Qədim qoç heykəllərini qorumaq, bu nadir nümunələri öyrənmək və təbliğ etmək məqsədilə Naxçıvan şəhərində Açıq Səma Altında

Muzey yaradılıb.

Ümummilli lider Heydər Əliyev Naxçıvanın tarixi abidələrini tarixin canlı şahidi, əsrlərin, qərinələrin ünvanı, qan yaddaşımız adlandıraraq deyirdi: "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünyamiqyaslı tarix-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir".

Azərbaycanın hər bölgəsində yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Azıx mağarasından tapılmış və Azıxantrop adlandırılan qədim insanın çənə sümüyü Azərbaycanın dünyada ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustanda aşkar edilmiş yaşayış məskənləri bu ərazidə ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Azərbaycanda Manna, daha sonralar cənubda Atropatena dövlətlərinin yaranması ilə bağlı şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilib. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borularla çəkilmiş su kəməri, Dəmirqapı keçidində daşdan tikilmiş müdafiə sistemi, Çıraqqala, Ləkit kəndindəki dairəvi xristian məbədi və digər yerlər şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Ümumiyyətlə, İslamdan əvvəl və sonra ölkəmizin ərazisində qiymətli abidələr inşa olunub. Orta əsrlərə aid abidələr - Möminə xatın, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, İrəvan qalası, Şah Abbas məscidi, Şəki xan sarayı, Rəcəb Paşa məscidi, Xudəfərin körpüsü, Şuşa şəhərinin abidələri və s. nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir.

Təəssüflə qeyd etməliyik ki, ərazimizin 20 faizini işğal etmiş Ermənistan hərbi birləşmələri Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağdakı milli-mədəniyyət abidələrimizi qəddarcasına uçurub-dağıdıb. Hərbi təcavüz nəticəsində, ilk insan məskənlərindən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hal-hazırda hərbi məqsədlərlə istifadə edilərək qəsdən məhv olunur.

Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz isə sıradan çıxarılır. İşğal zonalarında maddi-mədəniyyət yadigarlarımızın dağıdılması prosesi indi də davam edir. İşğalçılar kurqanları dağıdır, qarət etdikləri tapıntıları Ermənistana daşıyırlar. Qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi qalıb. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisəsi də düşmən tapdağı altındadır. Ümumiyyətlə, işğal altında olan ərazilərimizdə xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizminin təcavüzünə məruz qalıb.

Bu gün tarixi abidələrimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük işlər həyata keçirirlər. Ölkə başçısının diqqət və qayğısı sayəsində respublikamızda tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində bir sıra layihələr icra olunur. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Bu sahədə beynəlxalq təşkilatlarla da əlaqələr uğurla inkişaf edir. 2000-ci ildə İçərişəhər Qız Qalası və Şirvanşahlar Sarayı ilə birlikdə, 2007-ci ildə Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Hazırda digər tarixi yerlər və abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində işlər davam etdirilir.

***Təsadüfi deyil ki, iyunun 30-dan iyulun 10-dək Bakıda UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası keçiriləcək. Mötəbər tədbir çərçivəsində iyunun 24-də Azərbaycan Memarlıq və İnşaat Universitetində "Dünya irsi. Gənc Peşəkarlar Forumu"nun açılış mərasimi keçirilib.***

***Bu gözəl, kiçik dünyamızı-can Azərbaycanımızı, babalarımızın ulu hikmətindən, Fizulunun, "şəbi-hicran"ından, Nəsiminin "məndə sığar iki cahan"ından, Əcəminin "biz gəldi-gedərik, sən yaşa, dünya" hikmətindən yaranan tarixi abidələrimizin hər parçasını qorumaq, onları tanımaq, tanıtmaq və gələcək nəsillərə çatdırmaq üçün bu əvəzsiz inciləri əzizləməli və keşiyində durmalıyıq.***

# Ən qədim inam və iman yerimiz

***Yüzillər boyu əcdadlarımızın iman gətirdikləri və ziyarət etdikləri "Əshabi-Kəhf" Culfa rayonunda yaşı məlum olmayan böyük bir mağaradır. Bu müqəddəs məkan Zəngəzur dağ silsiləsinin suayrıcındakı Aracı yüksəkliyindən cənub-qərbə ayrılan Dibəkli qolunun Qırxlardağ şaxəsinin qərb istiqamətində yerləşir.***

Mağara Saltaq kəndi yaxınlığında nadir obyektdir. Girişi qayalar arxasında gizlənmiş dar dərənin axırında yerləşir. İçərisinin hündürlüyü 5 metrdən artıq olan mağara zalının sahəsi 10 metrlərlə ölçülür və divarlarını həm təbiətin, həm də insan əlinin açdığı böyük oyuqlar bəzəyir. Şərqin ən qədim və və müqəddəs sitayiş yeri olub, qədim insanların buradan sığınacaq kimi istifadəetmə tarixi isə ibtidai icma quruluşu dövrünə gedib çıxır.

Eyniadlı yerin Kiçik Asiya, Fələstin, o cümlədən, İtaliya ərazisində olması haqqında qədim dini və bədii ədəbiyyatlarda bəzi rəvayətlər və məlumatlar vardır. Quranın

Naxçıvan ərazisində yayılmış rəvayət də təqribən, eyni məzmunludur. Rəvayətdə deyilir ki, həmin adamlar və it Dağ Yanus padşahın zülmkarlığına üsyan edərək qaçıb, bu mağaraya pənah gətirmişlər. Onlar Allahın himayəsi ilə burada bir neçə yüzillik yuxuya getmişlər. Ayılıb ətraflarında olan yad adamlar və mühit gördüklərindən rəncidə düşərək, Allah-Taaladan onları qeybə çəkməyi xahiş etmişlər. Böyük Yaradan mağara adamlarının səsini eşidərək, onları əbədi qeybə çəkmişdir.

Həmin vaxtdan mağara insanların ən mötəbər inanc yerlərindən biri kimi məşhur-



məşhur mağaralarından biri olan bu qədim abidə, eyni zamanda, Azərbaycanın ən böyük piridir. Adı ərəb dilindən götürülüb və tərcüməsi "mağara insanları" mənasını verir. Onun adı, hətta müqəddəs "Qurani-Kərim"in "Əl-Kəhf" surəsində xatırlanır.

Tədqiqatlar göstərir ki, hələ ziyarətgah kimi tanınmamış bu mağara yüzillər ondan əvvəl qədim türklərin yaşayış

"Əl-Kəhf" ("Mağara") surəsində əksini tapmış rəvayətə görə, Allaha sidq-ürəkdən inanan gənclər zülmkarların təqiblərindən və ədalətsizliklərindən yaxa qurtarmaq üçün bir itlə birlikdə bu mağarada gizlənmişlər. Allah onları yatırtmış, bir neçə yüz ildən sonra oyatmış, lakin gənclər özlərinə yad dünyanı görüb, yenidən əbədi yuxuya getmişlər.

laşmışdır. Hətta Yaxın Şərq ölkələrindən inanclı şəxslər buraya ziyarətə gəliblər.

Keçən əsrin 20-ci illərində Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra, bolşevik rejimi ziyarətgahı "bağlamağa" çalışdı. Hökumətin təzyiqi ilə ziyarətə gəlmək qadağan olundu. Ancaq dövlətin yasaqlarına baxmayaraq, xalq öz dini məbədini hər vaxt zi-

yarət edirdi.

...Yusif İlyasov tanınmış el ağsaqqalı, geniş dünyagörüşlü və inanclı adam idi. Kənd Sovetinin sədr müavini işləyirdi. Yetmişinci illərdə iki dəfə "Əshabi-Kəhf"ə ziyarətə getdi. Yusif əmi hər dəfə ziyarətdən qayıdanda yeni təəssüratlarını həvəslə danışardı. Ata-anası hələ uşaq yaşlarında bir dəfə pay-piyada onu da özləri ilə ziyarətə aparmışdılar. O, bu abidə-mağara haqqında xeyli məlumatlı idi.

Qeyd edək ki, ulu öndərimiz Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələnə qədər bu ziyarətgaha gedən yol olduqca bərbad vəziyyətdə idi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tapşırığı və himayəsi ilə 1998-ci ildə burada abadlıq-bərpa işləri aparılmış, zəvvarlar üçün normal şəraiti yaradılmış, yardımçı otaqlar inşa edilmiş, 13 kilometr məsafədə rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuş, digər abadlıq işləri görülmüşdür.

## "Qurani-Kərim"də "Əshabi-Kəhf" haqqında

Müqəddəs "Qurani-Kərim"in bu məsələ ilə birbaşa bağlı olan surəsi "Əl-Kəhf" surəsidir. Qeyd etdiyimiz kimi, dünyanın bir sıra bölgələrində "Əshabi-Kəhf" adı ilə tanınan mağaralar vardır ki, onların da "Qurani-Kərim"də adı keçən mağara olduğu iddia edilir. Mağaranın yerləşdiyi yerin xüsusiyyətləri Müqəddəs "Qurani-Kərim"in "Əl-Kəhf" surəsinin 17-ci ayəsində belə açıqlanır: "Baxsaydın, günəşin mağaranın sağ tərəfindən doğub meyil etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın genişcə bir yerində olduqlarını görərdin".

Mağaranın içərisinə girəcəkdən baxarkən, girişdən sağ və sol nəzərdə tutulur, məhz Culfadakı "Əshabi-Kəhf"də



içəri girən (baxan) adamın sağı (bu nisbətdə mağaranın sağ tərəfi) gündoğana düşür. Müqəddəs "Qurani-Kərim"dəki bu fikirlər mağaranın Culfada olmasını sübut edən amillərdən biridir. "Beləcə, insanları onlardan xəbərdar etdik ki, Allahın vədinin haqq olduğunu, qiyamətin şübhə götürməz olduğunu bilsinlər. Bu sırada onlar aralarında "Əshabi-Kəhf"in vəziyyətini araşdırırdılar. Dedilər ki, "Üzərlərinə bir bina tikin. Rəbbləri onları daha yaxşı bilir". Onların vəziyyətinə vaqif olanlar isə "Bizlər kəsinliklə onların yan başlarında bir məscid tikəcəyik" dedilər". Culfada yerləşən "Əshabi-Kəhf"dəki indiki məscid də qeyb olanların yaxınlığındadır.

## Mağaranın qədimliyi haqqında

Mağaranın quruluşu, təbii coğrafi şəraiti ilə tanışlıq buranın ilkin yaşayış məskənlərindən biri olmasını söyləməyə imkan verir. Mağarada qışın soyuğundan, yayın istisindən qorunmaq üçün hər cür şərait var. Son illərə qədər mağaranın girəcəyindən çıxan bulaq içməli suyu tam təmin edə bilirdi. İndi isə bulaq quruyub. Mağaradakı təbii sığınacaqlar ayrı-ayrı otaqları xatırladır. Uzun illər yandırılmış tonqalların təsirindən divarlar xeyli qaralmışdır. Buranın təbii girişi çox çətin keçilə bilən, sürüşkən qayadan ibarətdir ki, bu da mağaradakıları düşmənlərin və vəhşi heyvanların hücumundan qoruyurdu. Ərazi bütövlükdə qayalar və daşlardan ibarətdir, o cümlədən, burada çoxlu ağac və kollar da vardır. Buradakı yaşıllıq yüz illər əvvəl "Cənnət bağı" adlandırılıb.

## "Əshabi-Kəhf" indiki günlərdə

Bu gün "Əshabi-Kəhf ziyarətgahı" dini-mədəni abidə kompleksi Azərbaycanda tanınmış dini turizm obyektidir. Hər gün yüzlərlə insan bu ocağa gələrək ziyarət edir, Allah yolunda qurbanlar kəsilir. İlin hansı dövründə olursan-ol, burada əcnəbi turistlərə rast gəlmək mümkündür. Son illərdə "Əshabi-Kəhf"də iki dəfə abadlıq, bərpa işləri aparılıb, zəvvarlar üçün rahatlıq yaradılıb. 2007-ci ildə aparılan quruculuq işləri daha da genişləndirilib, ziyarətgahda



**RƏHİLƏ İSMAYILQIZI,**
*Aİİ-nin əməkdaşı*

köşklər memarlıq baxımından fərqlənən tikililərlə əvəz olunub. Ziyarətgahın ərazisində "Qonaq evi", "Bələdçi otağı" və hədiyyələr mağazası fəaliyyət göstərir. Azərbaycanın bölgələrindən və Yaxın Şərqin müsəlman ölkələrindən bu dini ocağa gələn inanclı zəvvarların sayı ildən-ilə artır. Kompleks bu gün zəvvarlıq mərkəzinə çevrilib.

# Mübarək Əqsa məscidi

*Əqsa məscidi İslam dünyasının müqəddəs tikililərindən olub, ilk qibləgah sayılır.*

*Ümumi məlumat. Məscid qədim şəhərlərdən Qüdsün cənub-şərqində, düzbucaqlı formasında divarla əhatələnmiş ərazidə yerləşir. Məscidin yerləşdiyi ərazi, təxminən, 144 donundur (1 donun = 910 m2). Ərazidə Qübbeyi-Səxra, Əqsa məscidi, Qibli məscidi və 200-dək digər tarixi abidə mövcuddur. Məscidin özü Muriya təpəsində yerləşir. Qübbeyi-Səxra məscidi isə ərazinin həm mərkəzində, həm də ən hündür yerində yerləşir.*



f.f.d. ELVÜSAL MƏMMƏDOV

Əqsa məscidinin sahə ölçüləri cənubdan 281, şimaldan 318, şərqdən 462, qərbdən isə 491 metr olub, bu qədim ərazinin altıdabirini təşkil edir. Tarix boyu bir neçə dəfə genişləndirilən Haram və Peyğəmbər məscidlərindən fərqli olaraq, Əqsa məscidinin sahə ölçüləri onun tikilməsindən sonra heç dəyişməyib. Məscidin 14 qapısı vardır ki, Səlahəddin Əyyubinin Qüdsü azad etməsindən sonra bu qapıların bir neçəsi ləğv olunub. Ehtimallara görə, belə qapıların sayı 4-5 olmuşdur. Onlara şərqdəki "Rəhmət", cənubdakı "Münfərid", "Müzdəvic" və "Süləsi" qapıları daxildir. Hələ də istifadə edilən qapılara gəlincə, onların sayı 10-dur. Bunlar "Məğaribə" (Peyğəmbər qapısı), "Silsilə" (Davud qapısı), "Mütəvəzza" (və ya "Məthərə"), "Qəttanin", "Hədid", "Nazir" və "Qəvanimə" (yaxud "əl-Xəlil") qapılarıdır. Bu qapılar məscidin qərb tərəfində yerləşir. "İtəm" (Şərəfülənbiya), "Hitta" və "Əsba" qapıları isə məscidin şimal tərəfindədir. Məscidin dörd minarəsi vardır. Birinci minarə məsciddən cənub-qərbdə yerləşir və "Məğaribə qapısı" adlanır; ikincisi, "Silsilə" qapısının yaxınlığında, məscidin qərb istiqamətində yerləşən "Silsilə qapısı" minarəsidir. "Qəvanimə qapısı" minarəsi adlandırılan üçüncü minarə məscidin şimal-qərb istiqamətində yerləşir. Dördüncü minarə isə məsciddən şimalda yerləşən "Əsbat qapısı" minarəsidir.

Əqsa adının etimologiyası. Əqsa məscidi "Qurani-Kərim"də bildirildiyi kimi, Allahın bu mübarək əraziyə verdiyi addır: "Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlik və əcaiblikləri) göstərmək üçün bəndəsini (Məhəmməd Peyğəmbəri) bir gecə (Məkkədəki) "əl-Haram" məscidindən ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) əl-Əqsa məscidinə aparan Allah pak və müqəddəsdir!" ("əl-İsra", 1).

Ərəb dilində "əl-əqsa" sözünün mənası "ən uzaq" deməkdir. "Ən uzaq məscid" mənasını verən Əqsa məscidi ona görə bu cür adlandırılıb ki, Məkkədəki Haram və Mədinədəki Peyğəmbər məscidlərindən uzaqda yerləşir. Hədislərdə məscidin adı "Beytülməqdis" kimidir; məsələn: İmam Əhməd Ənəs ibn Malikə istinadən rəvayət edir ki, Allahın rəsulu deyib: "Mənə Büraq gətirildi. (O), rəngi ağ, uzunqulaqdan uca, qatırdan alçaq, ayağını gördüyü yerə qoyan minik heyvanı idi. Məni Beytülməqdisə çatana qədər apardı. Onu peyğəmbərlərin öz miniklərini bağladıqları halqaya bağladım. Məscidə daxil olub, iki rükət namaz qıldım. Sonra çıxdım. Cəbrayıl (Ona salam olsun!) mənə içərisində şərab və süd olan iki qab gətirdi. Süd olan qabı seçdim. Cəbrayıl dedi: "Fitrəti seçdin!". Sonra dünya səmasına qalxdıq...".

Tarixi mənbələr göstərir ki, Qüds ərazisi vaxtilə "İliya" adı ilə də tanınırmış.

**Sahəsi.** Əqsa məscidinin ərazisi, təxminən, 144 donumdur. Məscidin yerləşdiyi ərazi Qüdsün divarlar arasında qalan hissəsinin altıdabirini əmələ gətirir. Məscidin ərazi tərəfləri qeyri-bərabər dördbucaqlı şəklindədir. Bu dördbucaqlının qərb tərəfi 491, şərq tərəfi 462, şimal tərəfi 310, cənub tərəfi isə 281 metrdir. Buraya daxil olan şəxs hər bir yerdə - ağacların və qübbələrin altında, daş döşənmiş ərazidə, portiklərin yanında, Qübbeyi-Səxra və Qibli məscidlərində namaz qıla bilər, qıldığı hər bir namaz adi yerdə qılınan namazdan daha savablıdır. Səhabələrdən Əbu Zər belə rəvayət edir: "Peyğəmbərin yanında idik. Onunla hansının - Peyğəmbər məscidi, yoxsa Beytülməqdisin daha üstün olduğunu müzakirə edirdik. Peyğəmbər buyurdu: "Mənim məscidimdə qılınan bir namaz orada qılınan dörd namazdan üstündür. (Ancaq) ora nə gözəl namazgahdır!".

**İnşası.** Əqsa məscidi dünyada ikinci məsciddir. Əbu Zər əl-Ğifari belə rəvayət edir: “Allahın rəsulundan (s) soruşdum: “Yer üzündə tikilmiş ilk məscid hansıdır?”. “Haram məscidi”, - deyə cavab verdi. “Sonra hansı tikilib?” - deyə soruşdum. Peyğəmbər “Əqsa məscidi”, - dedi. “(Tikilmələri) arasında neçə (il) vardır?” - deyə soruşduqda “40 il” deyə cavab verdi” (Buxari).

Ehtimal olunur ki, məscidi Həzrəti Adəm tikmişdir. Belə ki, Haram məscidinin özülünü qoyduqdan 40 il sonra, Allahın əmri ilə Əqsa məscidinin də hüdudlarını müəyyənləşdirmişdir.

Dini mənbələrə görə, eramızdan 2000 il əvvəl İbrahim Peyğəmbər Əqsa məscidini təmir etmişdir. Ondan sonra bu işi oğulları İshaq və Yaqub davam etdirmişlər. Eramızdan, təxminən, 1000 il əvvəl Süleyman Peyğəmbər məscidi yenidən bərpa etmişdir. Abdullah ibn Əmrə istinadən rəvayət edilir ki, Peyğəmbər deyib: “Süleyman Peyğəmbər Beytülməqdisi təmir etdikdən sonra, Allahdan üç şey diləmişdir: a) güclü hakimiyyət; b) özündən qeyrisinə verilməyəcək səltənət; c) bu məscidə namaz qılmaq üçün gələnlərin oradan anadangəlmə məsum - günahlardan təmizlənərək çıxmaları”. (Peyğəmbər dedi:) “İkisi ona verildi. Ümid edirəm ki, üçüncüsü də verilmiş olsun” (ibn Macə, Nəsai, Əhməd).

Müsəlmanlar Qüdsü fəth etdiklərində Xəlifə Ömər Əqsa məscidinin bir hissəsi olaraq, Qibli məscidini inşa etdirdi. Əməvilərin hakimiyyəti illərində isə Qübbeyi-Səxra məscidi tikdirildi, Qibli məscidi isə yenidən təmir edildi. Əqsa məscidinin bugünkü formaya düşməsi üçün aparılan işlər 30 il (685-715) çəkmişdir.

**Müsəlmanlara görə Əqsa məscidinin müqəddəsliyi.** İslam etiqadına görə, Əqsa məscidi müqəddəsdir və Məhəmməd Peyğəmbərdən əvvəlki peyğəmbərlərin qibləgahı olmuşdur. Allahdan Məkkə şəhərinin qibləgah seçilməsi əmri gələnədək Peyğəmbər də üzünü buraya tutaraq namaz qılmışdır. Əqsa məscidinin əhəmiyyəti İsra və Merac hadisələrindən sonra daha da artmışdır. Belə ki, Peyğəmbər Haram məscidindən Əqsa məscidinə aparılmış (İsra), orada peyğəmbərlərə namaz qıldırmış, oradan da göyə qaldırılmışdır (Merac).

Əqsa məscidi İslam dünyasında ziyarət olunası üçüncü məsciddir. Peyğəmbər yalnız üç məscidi - Haram, Əqsa və Peyğəmbər məscidlərini ziyarət məqsədilə yola çıxmağı buyurub: “(Ziyarət məqsədilə) yalnız üç məscidə: Haram, bu, (Peyğəmbər məscidi) və Əqsa məscidlərinə səyahət edilə bilər”.

Ümmi-Sələmə belə rəvayət edir: “Peyğəmbərin (s) belə dediyini eşitdim: “Kim Əqsa məscidindən Haram məscidinə Həcc və Ümrə edərsə, keçmiş və gələcək günahları bağışlanar” (Əbu Davud).

Əqsa məscidində qılınan namaz başqa məscidlərdə qılınan beş yüz namaza bərabərdir. Peyğəmbər (s) deyib: “Haram məscidində qılınan namaz yüz min namaza, mənim məscidimdə qılınan namaz min namaza, Beytülməqdisdə qılınan namaz isə beş yüz namaza bərabərdir”.

Bu, həmin məsciddir ki, Peyğəmbər (s) səhabələrinə onun yaxınlığında qalıb-yaşamağı əmr etmişdir. İmam Əhməd özünün “Müsnəd” əsərində Züləsabidən belə rəvayət edir: “Soruşdum: “Ey Allahın rəsulu, əgər səndən sonra (haradasa) məskən salmalı olsaq (qalmaq üçün), haranı əmr edirsən?”. Dedi: “Beytülməqdisə get...”.

Bütün bu deyilənlər Əqsa məscidinin məqamını, İslamla bağlılığını göstərir. Bir sözlə, o, mübarək ərazidə mübarək məsciddir.

Əqsa məscidi ərazisində yerləşən mühüm tikililər. Əqsa məscidinin yerləşdiyi ərazidə sayı 200-ə çatan tarixi abidə - məscidlər, qübbələr, portiklər, mehrablar, minbərlər, minarələr, quyular və s. vardır. Bu tikililərin ən mühümlərinə daxildir:

**Qübbeyi-Səxra məscidi.** Qübbəsi qızıl təbəqədən ibarət tikilidir. Azacıq qərbə olmaqla, Əqsa məscidinə nisbətən ərazinin mərkəzində yerləşib. Bu qübbə bütün məscidi əhatə edir və müsəlman memarlığının ən qədim möhtəşəm nümunəsi hesab olunur. “Səxra” sözü məscidin içərisində yerləşən və üzərindən Peyğəmbərin göyə ucaldığı (Merac etdiyi) qaya parçasının (ərəb.: əs-səxra) adından götürülmüşdür. Bu qaya məscidin döşəməsində ən hündür yerdir. Qaya çoxlarının da zənn etdiyi kimi, asılı vəziyyətdə deyildir. Onun aşağısında kiçik mağara yerləşir. Bu məscid hələ də qadınların namaz qıldıqları yerdir.

**Qibli məscidi** - Əqsa məscidindən qiblə istiqamətində yerləşir. Bu səbəbdən, Qibli (ərəb dilində “əl-qibli” sözü “qibləyə aid” deməkdir) adlandırılıb. O, qübbəsi qurğuşunrəngli tikilidir. Bura Əqsa məscidinin kişilərin namaz qıldığı əsas hissəsi olub, imamın namaz qıldığı yerdir. Bu məscid hicri 15-ci ildə (637) İslam orduları Qüdsü fəth etdiyi zaman Raşidi xəlifəsi Ömər ibn Xəttabın namaz qıldığı yerdə tikilib. Məscidin inşasına Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvanın zamanında başlanmış, oğlu Vəlid ibn Əbdülməlikin dövründə başa çatmışdır.

**Mərvani namazgahı** - cənub-şərq istiqamətində olmaqla, Əqsa məscidinin zirzəmisində yerləşir.

**Əqsayi-qədim** (qədim əqsa) Qibli məscidinin altında yerləşir. Əməvilər tərəfindən inşa edilmiş bu tikilidən xəlifələr cənub tərəfdən Əqsa məscidindən kənarda yerləşən əməvi saraylarından məscidə daxil olurdular.

**Büraq məscidi.** Büraq divarının yanında yerləşir.

Bununla yanaşı, Əqsa məscidinin yanından çoxlu tarixi yollar keçir; Əşrəfiyyə mədrəsəsi, ətrafında isə başqa mədrəsələr yerləşir. Ərazidə tarixi

# Tərcümə mətnləri: müqayisəli təhlil

Məşhur lətifələrin birində deyilir ki, seminariya tələbəsinə "İncil"də işlənən, latın dilində olan bu cümləni tərcümə etmək tapşırılır: "Spiritus quidem promptus est, caro autem infirma". Tələbə onu "Spirt yaxşıdır, amma ət iylənib" kimi tərcümə edir. Hərfi mənada cümlənin tərcüməsi düzgün verilib. Yəni bütün sözlər tərcümə olunan mənada işlənir. Cümlənin ifadə etdiyi əsas məna isə tamamilə fərqlidir: "Ruhu cavan qalsa da, bədəni zəifdir".

Məhz bu səbəbdən, orijinaldan tərcümə zamanı problemlər üzə çıxarsa, əsərin digər dillərə tərcümə olunmuş variantlarından istifadə edilməsi məqsədəuyğundur. Tərcümə mətnlərinin müqayisəli təhlili seçim etmək, onlardan hansının orijinala daha yaxın olduğunu üzə çıxarmağa imkanı verir. Həmçinin çətinliklərlə üzləşdiyimiz zaman kömək üçün məhz hansı varianta müraciət edəcəyimizə istiqamətləndirir.

Qeyd edilən fikirləri "Albalı bağı" pyesinin (Anton Çexov) müxtəlif dillərə tərcümə olunmuş mətnindən bəzi hissələri təhlil etməklə aydınlaşdıraq:

"Не плачь, говорит, мужичок, до свадьбы заживет...";

"Don't cry, little peasant," she said, "it will heal in time for your wedding" (Ann Dunnigan);

"Don't cry, little peasant," says she, "it will be well in time for your wedding day" (Constance Garnett);

"Don't cry, little muzhik," she said, "it'll get well in time for your wedding" (Kathleen Mary Cook and Ivy Litvinov);



**ŞAHİN ƏLƏSGƏROV,**
*Aİİ-nin xarici əlaqələr üzrə mütəxəssisi*

"Ağlama, kəndçi balası", - dedi, - "toya qədər yaxşı olar" (N.Rəfibəyli);

''Ağlama köylücük'' demişti; ''evleninceye kadar geçer...'' (Ataol Behramoğlu);

"لا تبكي أيها الفلاح الصغير، ستشفى قبل الزواج" (أبو بكر يوسف)

Lopaxin uşaqlıqda atası tərəfindən döyülən vaxt ona arxa durmuş Ranevskayanın sözlərini yada salır. Bəs nəyə görə iki tərcüməçi "little peasant" birləşməsindən istifadə edib? Orijinal mətndə daha sonra yazılır: "Мужичок... Отец мой, правда, мужик был, а я вот в белой жилетке, желтых башмаках". Atası vaxtilə təhkimli kəndli olduğu halda o, indi tacir kimi tanınırdı. Buradan aydın olur ki, "мужик" və "мужичок" sözləri "мужчина" sözünün kiçiltmə variantı (little man) deyil. "Kəndli övladı" mənasında işlənən bu sözün ən düzgün tərcüməsi elə "little peasant"dır.

Qeyd edilən söz ingilis dilinə üçüncü tərcümədə "muzhik" kimi ifadə olunub. Yəni "j" səsi "zh" səsi ilə əvəz edilib. "Muzhik" sözünə dair heç bir izah verilmədiyindən, ingilisdilli oxucu mütləq lüğətə müraciət etməli olacaq.

Azərbaycan və türk dillərində müvafiq olaraq, "kəndçi balası" və "köylücük" ifadələri orijinala yaxındır. Ərəb dilində olan "الفلاح الصغير" ("kiçik kəndli") birləşməsi isə ingilis dilində olan I və II tərcümə ilə üst-üstə düşür.

Azərbaycan dilində "Toya qədər yaxşı olar" cümləsi ingilis dilindəki II və III tərcümələrə uyğundur.

"Очень уж ты нежная, Дуняша. И одеваешься, как барышня, и прическа тоже. Так нельзя. Надо себя помнить";

"You're much too delicate, Dunyasha. You dress like a lady, and do your hair like one, too. It's not right. You should know your place" (Ann Dunnigan);

"You're a spoilt soft creature, Dunyasha. And dressed like a lady too, and your hair done up. That's not the thing. One must know one's place" (Constance Garnett);

"You are too delicate, Dunyasha, that's wrong with you. You dress like a young lady, and look the way your hair's done up. That won't

do. One must remember one's station" (Kathleen Mary Cook and Ivy Litvinov);

"Sən çox nərmənaziksən, Dunyaşa, lap xanım qızlar kimi geyinirsən, saçını da elə hey darayırsan. Bu cür yaraşmaz, gərək öz yerini biləsən" (N.Rəfibəyli);

"Pek çıtkırıldım olmuşsun. Giyimin küçük hanım giyimi. Saçın başın desen, öyle. Olmaz. İnsan kendini bilmeli" (Ataol Behramoğlu);

"يا لك من رقيقة يا دونياشا
و تلبسين ثيابا كثياب السيدة.
وتسريحتك أيضا. لا يصح. ينبغي
أن تذكري من أنت" (أبو بكر يوسف)

Qeyd olunan hissədə Lopaxin Ranevskayanın qulluqçusu Dunyaşaya müraciət edir. "Нежная" sözünün ingilis dilinə olan ikinci tərcüməsində "tender", "gentle", "delicate", "fragile" və "soft" sözlərinin heç birindən istifadə edilməmiş, bunların əvəzinə, pyesin məzmununa uyğun olaraq "spoilt soft creature" ("ərköyün zərif məxluq") birləşməsi verilmişdir. Lopaxin Dunyaşanın özünü qulluqçu kimi deyil, xanım kimi aparmasına irad tutur. Buna görə də ingilis dilinə olan digər iki tərcümədə "нежная" sözü "too delicate" ("olduqca incə, zərif, aristokratik") kimi tərcümə edilmişdir.

Məlum hissələrin Azərbaycan, türk və ərəb dillərinə olan tərcüməsi dəqiq verilmişdir.

"Albalı bağı" pyesində saysız-hesabsız frazeoloji birləşmələrdən də istifadə edilib. Semantik zənginliyi, obrazlılığı və lakonikliyi baxımdan frazeolji birləşmələr dildə mühüm yer tutur. Bu birləşmələrin istənilən dilə tərcüməsi zamanı çətinliklər meydana çıxır.

"Экая проврва!";

"Greedy fellow!" (Ann Dunnigan);

"What a glutton!" (Constance Garnett);

"What a gobbler!" (Kathleen Mary Cook and Ivy Litvinov);

"Acgözlüyə bax a!" (N.Rəfibəyli);

"Ne işkembe!" (Ataol Behramoğlu);

"يا سلام! " (أبو بكر يوسف)

"Экая проврва" frazeoloji birləşməsi ingilis dilinə yalnız bir variantda düzgün tərcümə olunub: "What a glutton!". En Danniqanın istifadə etdiyi "greedy fellow" birləşməsi konkret tərcümə olmasa da, obrazın xarakterini tam aça bilir. Söhbət Pişkinin davranışından gedir. Həbləri alıb ovcuna səpir, üfləyir, ağzına qoyur və üstündən kvas içir. Üçüncü tərcümənin ("What a gobbler!") ümumi məzmunla yaxından-uzaqdan bağlılığı yoxdur, çünki "gobbler" "hindtoyuğu" deməkdir. Frazeoloji birləşmənin türk dilinə tərcüməsində "işkembe" sözündən istifadə olunub. Bu isə "qarından hazırlanmış yemək" mənasını verir. Ərəb dilində isə "Aman Allah!" mənası verən nidasından "يا سلام" istifadə edilib. Ən dəqiq tərcümə Azərbaycan dilinə olunmuşdur.

"Со свиным рылом в калашный ряд…";

"Like a pig in a pastry shop…" (Ann Dunnigan);

"Like a pig in a bun shop…" (Constance Garnett);

"A silk purse out of a sow's ear…" (Kathleen Mary Cook and Ivy Litvinov);

"Amma donuzun burnunu, quyruğunu kəssən, yenə adı donuzdur" (N.Rəfibəyli);

"Gelgelelim, altın palan da vursan eşek yine eşektir…";

"من خفير إلى أمير" (أبو بكر يوسف)

Tərcüməçilərin bəziləri qeyd olunan məsəlin tərcüməsinə qismən yaxın gəlmişlər. Burada, xüsusilə ingilis dilində olan III tərcüməni və türk dilinə olan tərcüməni göstərmək olar. "A silk purse out of a sow's ear" ("Donuz qulağından ipək çanta tikməzlər") və "Altın palan da vursan eşek yine eşektir" məsəlləri müvafiq olaraq ingilis və türk dillərində işlənir. Pyesin qəhrəmanlarından olan Lopaxinin özü haqqında dediyi sözlərdən məlum olur ki, o, ağ jilet və sarı çəkmə geyinməsinə baxmayaraq, elə təhkimli kəndli balası olmaqda davam edir. Məsəlin ərəb dilinə "من خفير إلى أمير" ("qarovulçudan krala") kimi tərcüməsi tamamilə fərqli məna verir. Digər tərcümələr isə hərfi xarakter daşıyır.

Qeyd etməliyik ki, tərcüməçi, ilk növbədə, əsərin orijinalına müraciət etməli, lazım gəldikdə isə onun digər dillərdə olan variantlarından da istifadə etməlidir. Xüsusilə də dini, tarixi, məhəlli xa-

rakterli əhvalatların, həmçinin milli adət-ənənələrlə bağlı materialların tərcüməsi zamanı bu metoddan istifadə əsərin düzgün dərk olunmasına kömək edir.

Tərcümə sənəti dünya mədəniyyəti incilərinin yayılmasına xidmət edir. Aleksandr Sergeyeviç Puşkin tərcüməçiləri əbəs yerə “mədəniyyətin poçt atları” adlandırmırdı.

Orta əsr ərəb ədəbi tənqidçilərindən olan Cahiz tərcümənin bir sənət kimi mövcud olmadığını iddia etsə də, ərəb dilində elə həmin dövrə aid saysız-hesabsız tərcümə nümunələrinə rast gəlirik.

Birinci və II Abbasilər dövründə böyük tərcümə irsi yaranmışdı. Bərməkilər sülaləsinin hakimiyyəti zamanı “Min bir gecə” nağıllarının, “Kəlilə və Dimnə”nin ərəb dilinə tərcümə edilməsi buna əyani sübutdur.

Qonşu müsəlman ölkələri ədəbiyyatının və yunan elmi-mədəni irsinin ərəb dilinə tərcüməsi əl-Xarəzmi, Əhməd ibn Məhəmməd əl-Fərqani, Cəfər ibn Məhəmməd əl-Bəlxi, əl-Fəzl ibn Hatəm ət-Təbrizi, Əbu Bəkr Zəkəriyyə ər-Razi, əl-Kindi Yaqub ibn İshaq və Əbu Nəsr əl-Fərabi kimi alimlərin adları ilə bağlıdır.

Alman dilçi alimi Vilhelm fon Humbolt istənilən növ tərcüməni həlli mümkün olmayan məsələnin yoluna qoyulması üçün edilən cəhd kimi qiymətləndirir.

Ən çətin tərcümə bədii, fəlsəfi və dini mətnlərin tərcüməsi hesab edilir. Bəzən ayrı-ayrı sözlərdə elə dərin məna ifadə olunur ki, tərcüməçi əsərin tərcüməsi əvəzinə, yeni əsər yaratmaq məcburiyyətində qalır. Bədii əsərlərin ikinci dildən tərcüməsi zamanı isə çətinlik ikiqat artır. Çətinliklər də öz növbəsində, səhvlərə gətirib çıxarır.

Mixail Lukoninin “Приду к тебе” ("سأعود إليك") şeirinin Yusif Əbdüləziz Əli tərəfindən ərəb dilinə tərcüməsində ayrı-ayrı səhvlərə rast gəlinir. Rus ədəbiyyatında hərbi-vətənpərvərlik mövzusundan söhbət açarkən Mixail Lukoninin yaradıcılığını xüsusilə qeyd etmək lazımdır. “Приду к тебе” şeiri əsgərin anasına müraciətidir.

Misal olaraq şeirdən bir parça götürək, onu ərəb və ingilis dillərində olan tərcümələri ilə müqayisə edək. Qeyd edək ki, şeir ərəb dilinə məhz ingilis dilindən tərcümə edilmişdir:

Ты думаешь:
Принесу с собой
Усталое тело своё.
Сумею ли быть тогда с тобой
Целый день вдвоём?
Захочу рассказать о смертном дожде,
Как горела трава,
А ты -
и ты жила в беде,
Тебе не нужны слова.
Про то, как чудом выжил, начну,
Как смерть меня обожгла.
А ты -
ты в ночь роковую одну
Волгу переплыла.
Спеть попрошу,
а ты сама
Забыла, как поют...

"أنت تظن
أنني سأعود
مرهقاً ومنهكاً،
مذهولاً من فظائع الحرب،
متلهفاً لأن أحكي
عن الجحيم الملتهب،
عن القذارة والألم والدم.
ألذي سوف أقوله
-كما لو كان حقي–
هو عن الموت المتفشّي و المتزايد.
لكنك ذات ليلة حالكة
سبحتَ عبر نهر "الفولجا" إلى الحياة.
لقد نِلْتَ نصيبَكَ من الأيام القاسية،
بسبب العهود التي تراعيها "!

Şeirin ərəb dilinə tərcüməsini orijinalı ilə müqayisə etməzdən öncə, onu ingilis dilindəki variantı ilə tutuşduraq:

You think
I’ll come back
Weary and spent,
obsessed with the horrors of war,
eager to tell
of the burning hell,
of dirt, and pain, and gore
That I’ll speak,
As if it were my right,
Of Death waxing rife.
But you yourself one shuttered night
The Volga swam to life.
You had your share
Of evil days,
For words what do you care!

Müqayisə göstərir ki, ərəb dilinə tərcümə şeirin ingilis variantına uyğun gəldiyi halda, ingilis dilinə tərcümə aşağıda göstərilən və tərcümə zamanı buraxılmış bəzi misraları çıxmaq şərti ilə orijinalla adekvatdır:

Сумею ли быть тогда с тобой
целый день вдвоем?

və

Спеть попрошу,
а ты сама забыла, как поют.

Lakin şeirin rus dilində olan orijinalının ərəb dilinə tərcüməsi ilə müqayisəsi zamanı uyğunsuzluqlar üzə çıxır. Ərəb dilində feillər şəxslər üzrə təsriflənərkən istər

keçmiş, istərsə də indiki-gələcək zamanda ikinci şəxs qadın cinsinə müraciəti göstərən konkret qrammatik formadan istifadə edilir. İngilis dilində belə forma mövcud deyil. Buna görə də “You think” cümləsi ərəb dilinə “أنتَ تظن” kimi, yəni kişi cinsində tərcümə edilib. Əslində, “Sən düşünürsən” dedikdə, müəllif ananın fikirləşdiyini nəzərdə tutur. Bu səbəbdən, ərəb dilində bu cümlə “أنتِ تظنين” şəklində olmalıdır. Belə hal sonrakı misralarda, feil keçmiş zamanda işlənəndə belə nəzərə çarpır:

а ты, ты в ночь роковую одну
Волгу переплыла.

لكنك ذات ليلة حالكة
سبحتَ عبر نهر "الفولجا" إلى الحياة

Göründüyü kimi, “ты переплыла” (“سبحتِ”) “ты переплыл” (“سبحتَ”) kimi tərcümə edilib. Səbəb isə odur ki, ingilis variantı olan “you swam” həm kişi, həm də qadın cinsini bildirir. Həmçinin “И ты жила в беде” ifadəsi ingilis dilinə “You had your share of evil days” şəklində tərcümə edildiyindən, ərəb dilində olan variantda səhvə gətirib.

“لقد نِلْتَ نصيبَكَ من الأيام القاسية”

cümləsində feil və bitişən əvəzliyin hərəkəsi “kəsrə” əvəzinə, “fəthə” olub. Şeirin əsas məğzini əsgərin anaya müraciəti təşkil etsə də, səhvlər nəticəsində müraciət, sanki hansısa bir kişiyə olunub. Bundan əlavə, “Спеть попрошу, а ты сама забыла, как поют” sətri ümumiyyətlə, tərcümə edilməyib. Qeyd edək ki, “забыла” feili özü də



müraciətin kimə edildiyini bildirir.

Şeirin başqa bir parçasını müqayisə edək:

Но лучше прийти
с пустым рукавом,
чем с пустой душой.

Yet better to come
with an empty sleeve
than with an empty soul!

مع ذلك، فإنه من الأفضل
أن تاتي بيد فارغة
على أن تعود بروح خاوية!

“Пустой рукав” ingilis dilinə “an empty sleeve”, ərəb dilinə isə “كم فارغ” əvəzinə “يد فارغة” (“пустая рука”) kimi tərcümə olunub.

İngilis dilindən ərəb dilinə tərcümə olunmuş rus ədəbiyyatı nümunələrində bəzən əsər qəhrəmanının xarakterinin açılmasında mühüm rol oynayan müəyyən söz və ifadələr buraxılır; məsələn: Vladimir Boqomolovun “Kruqom lödi” (“Adam içində”) hekayəsində (ingilis dilindən tərcümə edən: Əli Uveydə əl-Azuri) qəhrəmanın geyimi belə təsvir olunur:

“Одета бедно, ... на голове серый обтерханный платок”;

"ملابسها رثة،...وعلى رأسها منديل رمادي اللون"

Tərcümə zamanı “обтерханный” sözü buraxılıb.

Anton Çexovun “Отец” (“Ata”) hekayəsində (ingilis dilindən tərcümə edən: Hissa İbrahim əl-Əmmar) belə bir cümlə var:

“Отец снял свои неуклюжие, бурые, очевидно чужие сапоги и стал примеривать новую обувь”;

"خلع الأب حذاءه المستعمل البالي وجرب الحذاء الجديد"

Bu cümlədə “очевидно чужие” birləşməsi tərcümə edilməyib.

Eyni hekayədə:

“ - Да, наш Саша хороший человек, - сказал Борис.

- Великолепнейший! Все вы у меня золото: и ты, и Гриша, и Саша, и Соня”;

" -أجل إنه طيب. قال بورنكا

-رائعون! أنتم جميعا ذهبٌ أصلي."



Birinci sətirdə “Саша” adı tərcümə olunmayıb. İkinci sətirdə isə “великолепнейший” sözü ərəb dilinə cəm şəklində tərcümə edilib. Bundan başqa, “Борис” adı heç bir əsas olmadan “Боренька” şəklində tərcümə edilib. “И ты, и Гриша, и Саша, и Соня” sözləri isə ümumiyyətlə, buraxılıb.

Eyni hekayədə:

“Он и по-французски, и по-немецки говорит”

"إنه يجيد الفرنسية والإنجليزية"

“По-немецки” sözü “по-английски” kimi tərcümə edilib. Burada qeyd etmək yerinə düşər ki, o vaxtlar aristokratlar arasında fransız və alman dilləri ingilis dili ilə müqayisədə daha geniş yayılmışdı.

Analoji qüsurlara orijinalı ingilis dilində olub, rus dilindən Azərbaycan dilinə tərcümə edilən əsərlərdə də rast gəlmək mümkündür. Nümunə olaraq Aqata Kristinin “Qatardakı qız” hekayəsini (rus dilindən tərcümə edən: Məhəmməd Salur) nəzər yetirək. Məsələ budur ki, hekayə rus dilinə bir neçə dəfə tərcümə olunub. Bu tərcümələrin bəzilərində isə aşkar səhvlər vardır. Azərbaycan dilinə tərcümə zamanı məhz rus dilində olan səhv variantlardan birinə istinad edilib. Nümunələrə baxaq:

“Yes. That is, if there is a suitable boat”;

“Да. То есть если найду подходящее судно (ingilis dilindən tərcümə edən: Pavel Rubtsov);

“Да. Для этого, кажется, нужна хорошая лодка (ingilis dilindən tərcümə edən: O. Batanova);

“Bəli. Deyəsən, bunun üçün yaxşı qayıq lazımdır (rus dilindən tərcümə edən: Məhəmməd Salur);

İngilis dilində “boat” sözünün həm “gəmi”, həm də “qayıq” mənaları vardır. Lakin əsərin qəhrəmanı Corc Roulend Britaniyadan Avstraliyaya qədər olan məsafəni qayıqla səyahət edə bilməzdi. Məhz bu üzdən Azərbaycan dilinə tərcümə zamanı da eyni səhvə yol verilib. Digər bir nümunəyə baxaq:

“Perth - too far away - Putney Bridge - too near;

“Перт - слишком далеко. Путни-Бридж - слишком близко (Павел Рубтсов);

“Персия - слишком далеко, мост Патни - слишком близко (О.Батанова);

“İran çox uzaqdır. Patni körpüsü isə hədsiz yaxındır”.

Pert - Qərbi Avstraliya ştatının paytaxtıdır. O.Batanovanın tərcüməsində isə İran kimi göstərilib. Qeyd etməliyik ki, Corc Roulend Britaniya koloniyalarından birinə getmək istəyir. İran isə heç vaxt İngiltərənin koloniyası olmayıb.

Göstərilən misallardan belə nəticəyə gəlmək olar ki, istər ikinci dildən, istərsə də orijinaldan tərcümə edən şəxs yalnız tərcümə etdiyi dili deyil, o dildə danışan xalqın və o dilin istifadə edildiyi ölkənin tarix, coğrafiya və mədəniyyətini də bilməlidir. Həmçinin Maksim Qorkinin təbirincə desək, tərcüməçi əsərlərini tərcümə etdiyi müəllifin, heç olmasa, qələmindən çıxan ən məşhur nümunələrlə yaxından tanış olmalıdır ki, onun yaradıcılıq ruhunu qavraya bilsin.

# Avtobus oğrusu

*- Cənab hakim! Bu söhbətlərin indi heç bir mənası yoxdur. Hamısı vaxt itkisidir. Əgər hər şeyi olduğu kimi etiraf etmişəmsə, şahidləri dinləməyin nə mənası var? Axı onlar sizə mənim danışdıqlarımdan artıq bir şey deməyəcəklər. Bu qədər rəsmiyyətə nə ehtiyac var? Mən hələ də həbsxanadayam, bu artıq beşinci məhkəmədir, irəliyə doğru isə bir addım belə atmamışıq...*

Cənab hakim! Bir Allah şahiddir ki, məhkəməni tənqid etmək niyyətim yoxdur. Sadəcə, sizin vaxtınıza qənaət etmək istəyirəm. Xahiş edirəm, cənab hakim, əllərinizdən öpürəm, imkan verin, sözümü axıra çatdırım! Axı təqsirləndirilən şəxs mənəm, həbsxanaya salınan da, ailəsi dağılan da, uşaqları yetim qalan da mənəm. Arxayın olun, məni müdafiə edən vəkilə heç nə olmaz. Əksinə, o, hələ mükafatını da alacaq. Anam hər zaman sevə-sevə gəzdirdiyi qızıl boyunbağını satdı. Satdı ki, vəkilin pulunun bir hissəsini ödəsin... Yox, yox, mən vəkili günahlandırmaq niyyətində deyiləm. Rəhmətlik atamın ruhuna and olsun, belə şey ağlıma da gəlməyib. Onun məsləhətlərini qiymətləndirirəm. Amma siz Allah, icazə verin, vəkildən qabaq çıxış eləyim. Səbəbini də az öncə dedim axı - təqsirkar mən, həbsxanaya gedən mən, ailəsi dağılan, uşaqları yetim qalan da mənəm!..

Çox sağ olun, cənab hakim, Allah ömrünüzü uzun etsin! Arxayın ola bilərsiniz, fikrimi qısa çatdırmağa çalışacağam.

Cənab hakim, görün, avtobus oğurlamaq heç ağla gələn şeydir? Özü də ağzına qədər adamla dolu avtobusu?! Yəni mən dəliyə oxşayıram? Yox, əgər sağlam olduğuma dair şübhəniz varsa, onda məni həkimə göndərin! İstəyirsiz, iş yoldaşlarımdan, çayxana dostlarımdan soruşun, onlar sizə deyə bilərlər: bütün Bəbuş-Şəriyyə rayonunda mənim kimi kart oynayan yoxdur. Sizcə, belə adam dəli ola bilər? Yox, ağlım başımdadır. Amma cənab prokuror məni sərnişinlə dolu avtobusu oğurlamaqda ittiham edir, özü də bunu elə yangı ilə izah eləyir ki, kənardan baxan onun mənimlə çoxdan qan düşməni olduğunu fikirləşər.



**İHSAN ABDUL-QUDDUS,**
*Misir yazıçısı*

Cənab prokuror! Bəlkə, sizi əsəbiləşdirmişəm, ya xətrinizə dəyəsi söz-zad demişəm? Əgər elədirsə, deyin, cənab prokuror!

Bağışlayın məni, cənab hakim! Mən sizi də, burada əyləşənləri də yormaq istəməzdim. Məsələ bundadır ki, ilk dəfədir mühakimə olunuram, indiyədək məhkəmə üzü görmədiyimdən, nəyi necə demək lazım olduğunu dəqiq bilmirəm. Dediklərim sizi qıcıqlandırmasın, cənab hakim! Bir şeyi nəzərinizə çatdırmaq istərdim, prokuror avtobus oğurluğunda məni ittiham etdikdə, fikirləşməyib ki, axı avtobusu oğurlamaq mənim nəyimə lazımdır? Əvvəla, oğurlamamışam, əgər elə olsaydı belə, neyləyəcəkdim o avtobusla?.

Prokuror iddia edir ki, avtobusu sonradan hissələrə bölüb, Vıkələt əl-Bələh rayonunda yerləşən, nimdaş malların bol olduğu mağazalara satmaq üçün oğurlamışam. Tutaq ki, bu, belədir. Bəs sərnişinlər necə olsun? Sərnişinləri deyirəm, cənab hakim! Onları da bazarda satacaqdım? Adamı dəli olmaq həddinə çatdırırlar. Mən dəli deyildim, amma inşaallah, burdan sağ-salamat çıxsam, yüz faiz dəli olacağam. Təbii ki, burdan çıxıb-çıxmamağım da sizin ədalətinizə bağlıdır.

Cənab hakim, icazə verin, sizə hər şeyi olduğu kimi danışım. Mənim qanundan elə də başım çıxmır, amma bu dünyada ədalət olduğuna zərrə qədər də şübhəm yoxdur. Ədalətin təcəlli edəcəyi barədə ürəyim rahatdır...

Oldu, cənab hakim, çalışacağam ki, qısa danışım. Beş il bundan öncə Ratibə ilə ailə həyatı qurdum...

Xahiş edirəm, cənab hakim, xahiş edirəm, ayaqlarınızın altından öpüm, qoyun sözümü axıra çatdırım! Mövzudan kənara çıxmıram, cənab hakim, hər şey Ratibənin üzündən oldu, baş verənlərin səbəbkarı odur. Allah onun günahından keçsin!

Cənab hakim, Ratibə yetim böyümüşdü. O, Bəbuş-Şəriyyə rayonunda Dərviş məhəlləsində bizim evimizlə üzbəüz evdə xalası ilə birgə yaşayırdı. Yaşda məndən çox balaca idi. Aramızda on beş il fərq varıydı. Mən Ratibəyə vurulanda onun heç doqquz yaşı yox idi. O, ne-

cə gözəl idi! Sarışın saçları vardı. Bəbuş-Şəriyyədə sarışınsaçlı qız nadir tapılır. Əri olmamışdan öncə mən ona qardaşlıq elədim, hətta deyərdim ki, atası oldum. Hər axşam işdən evə qayıdanda anama gətirdiklərimin eynisini Ratibə ilə xalasına da gətirirdim. Evimizə neçə dənə çörək, nə qədər xurma alırdımsa, o qədər də onlara alırdım. Tez-tez Ratibəni ağ bulkaya qonaq edirdim - onu çox xoşlayırdı. Anam da Ratibəni çox istəyirdi, mənə arvad, ona gəlin olacağı günü səbirsizliklə gözləyirdi...

Baş üstə, cənab hakim! Artıq mətləbə keçirəm... Beləliklə, aradan illər keçdi və Ratibə on altı yaşına gəlib çatdı. Allah üzümə baxdı, həmin vaxt özümə nəqliyyat şirkətlərinin birində iş tapa bildim. Hər gün Qahirədən Səidə yük maşını ilə gedib-qayıdırdım. Şirkətin ofisi əl-Əzhər küçəsində yerləşir. Nə başınızı ağrıdım, Ratibə ilə evləndik. O, xalası ilə birgə bizim evə köçdü. Biz o qədər xoşbəxt idik ki, hələ də Bəbuş-Şəriyyədəki qonşularımız bu haqda danışırlar. O vaxtlar çox adam məni bədxərclikdə qınayırdı. Əslində, o insanlar başa düşmürdülər ki, sağa-sola xərclədiyim pullar sahib olduğum xoşbəxtliyin, sevginin heç bir faizini belə qarşılaya bilməz, cənab hakim!

Ratibə ilə iki övladımız dünyaya gəldi - Fətullah və Zəhra. Anamın duaları sayəsində Allah mənə işimin öhdəsindən layiqincə gəlmək üçün güc verdi və tezliklə ən yaxşı yük maşını sürücüsü kimi tanınmağa başladım. Məni "Usta Fəhmi" deyə çağırırdılar. Həqiqətən də bu ada layiq idim: işlədiyim bu neçə ildə nə xəbərdarlıq, nə də töhmət almışam. Şəxsi işimə baxıb buna əmin ola bilərsiniz. Bir dəfə də olsun, işimdə ləngimə, gecikmə olmayıb. İşçilər arasında dəqiqliyimlə seçilirdim; məsələn: elə olub ki, müdirim saat üçdə əl-Minyə şəhərinə getməyimi əmr eləyib. Mən də ona demişəm ki, bu, mümkün deyil. O isə israrla yenə deyib: "Usta Fəhmi, müştəri yükün saat üçdə çatdırılmasını istəyir". Onda cavab vermişəm: "Cənab Munir, yük saat dördün yarısı müştəriyə çatdırılacaq". Müdirim razılaşıb, çünki bilir, mən sözü düz adamam. Dəqiqliyim müştərilərə də yaxşı bəlli idi. Ona görə də, yüklərini məhz mənim çatdırmağımı tələb edirdilər. Hər daşımada iki funt qazanırdım, sonra isə Allaha min şükür, günə üç funt oldu. Bu da ayda təxminən səksən funt demək idi.

Beləcə, sakit həyat yaşayırdıq, o vaxtadək Ratibə qəflətən xəstələndi. Əslində, güclü və sağlam qadın idi. Amma neyləmək olar? Görünür, Allah belə buyurmuşdu. Ondan sonra ağır həyat başladı. Cənab hakim, bayaq dedim axı, Ratibə üçün mən təkcə ər yox, həm də qardaş, ata idim. Məndən savayı ona baxası kimsə yox idi. Xalası da, elə anam da yaşlı qadınlardır. Nə isə, oldum xəstəyəbaxan. İşdən məzuniyyət götürüb günlərlə ona qulluq etməyə başladım. Ən məşhur həkimləri çağırtdırdım. Hər gəlişə görə həkimlərə iki, bəzən isə dörd funt verirdim. Konsilium on funta başa gəldi. Qəpik-qəpik yığdığımız pullar xərclənib getdi. Əşi, cəhənnəm olsun pullar! Söhbət əziz bir insanın sağlamlığından gedirsə, pulun nə önəmi var axı?!

Oldu, cənab hakim! Bu dəqiqə mətləbə keçirəm... İnanın mənə, ağlamağımda məqsəd ürəyinizdə mərhəmət oyatmaq deyil. Bağışlayın, cənab hakim! Mərhum arvadımı yada salanda məni istər-istəməz ağlamaq tutur...

Allah həkimlərin də günahından keçsin, cənab hakim! Onlar dedilər ki, xəstə dərhal əməliyyat olunmalıdır. Ona görə də əl-Ağuza rayonundakı xeyriyyə cəmiyyətinin xəstəxanasına göndərdilər. Orada arvadımı birinci dərəcəli palataya yerləşdirdim. Balalarımın canına and olsun, cənab hakim, Ratibəni ikinci, ya üçüncü dərəcəli palataya yerləşdirmək heç ağlıma da gəlmədi. Hərçənd ki, o, mənə yalvarırdı: "Fəhmi, onsuz da indiyə kimi çox pul xərcləmisən. Nə olar, məni ucuz palataya keçir, pulları boş yerə xərcləmə!". Yaxşı palatada qalması üçün məcbur olub borc pul götürdüm. Məgər o, cənab Munirin arvadından əskik qadın idi? Amma müdirin arvadı da pis insan deyil... Yeri gəlmişkən, mənim hələ şirkətə əlli funt borcum da qalıb.

Hər səhər xəstəxanaya gedir, axşamadək yanında oturub, üzündə son həyat əlamətlərinin dəqiqəbədəqiqə necə yox olduğunu öz gözlərimlə görürdüm. Hərdən gözlərini açıb deyirdi: "Fəhmi, çıx get işə!". Mən isə hər dəfə cavab verirdim: "İndi əsas sənin sağlamlığındır. Sən bircə ayağa qalx, hər şey yenidən öz yoluna düşər".

İşə çıxmağa məcbur oldum. Əlbəttə, səbəb pul idi, cənab hakim! Ratibəni yenidən sağlam həyata qaytarmaq üçün çoxlu pul lazım idi: müalicə bir yandan, xəstəxanada izafi xərclər digər yandan.

...Səhər tezdən şirkətin ofisinə getdim, yük maşınını götürüb Bəni Süveyf əyalətinə yollandım. Heç yerdə ləngimədən geriyə - xəstəxanaya qayıtdım. Xəstəxananın feldşeri cənab Mahmudla razılaşdım. O, Ratibənin yanındakı skamyada yatıb gecələməyə icazə verdi. Uzaq səfərlərdən imtina etdim, daha Bəni Süveyfə getmədim. Bu müddət ərzində gərginliyimin son həddə çatmasına baxmayaraq, bir dəfə də olsun, yol hərəkəti qaydalarını pozmadım, yükün çatdırılmasında gecikmə olmadı. Hamı üçün yenə də usta Fəhmi olaraq qaldım.

Avtobus oğurluğunda ittiham olunduğum günə qədər hər şey bayaqdan danışdığım kimi gedirdi. Mən avtobus oğrusuyam! Gör, bu ağla batan şeydir?!..

Hadisə belə olmuşdu. Səhər tezdən xəstəxanadan çıxıb şirkətin ofisinə getdim. Elə ofisə

təzə çatmışdım, feldşer Mahmud zəng vurub dedi ki, tez xəstəxanaya qayıdım, Ratibənin halı pisləşib və məni görmək istəyir.

Heç kimdən icazə almadan ofisdən güllə kimi çıxdım və əl-Əzhər küçəsi boyu qaçmağa başladım. Nəfəsimi dərmədən, dəli kimi qaçırdım. Qaça-qaça beynimdə vaxtı ölçüb-biçirdim, axı mən vaxt məsələsində çox dəqiq idim: əl-Atəbə əl-Xadra meydanına qədər on dəqiqəlik piyada yol idi, orada isə altı saylı avtobusa minib gedə bilərdim. Həmin avtobus hər on dəqiqədən bir gəlir, meydanı dövrə vuraraq yoluna davam edirdi. Amma tərslikdən avtobus da həmin gün gecikirdi.

Xahiş edirəm, cənab hakim! Bir anlıq mənim vəziyyətimi təsəvvür eləyin!

Hamımız bilirik ki, avtobuslar son dayanacaqda gəlib dayanır və on dəqiqə intervalla yola düşürlər. Hər halda, qəzetlərdə belə yazılır. Bu dəfə dayanacaq bomboş idi. "Bir az səbr elə, Fəhmi", - deyə özümü sakitləşdirməyə çalışıb avtobusu gözləyən adamlara yaxınlaşdım...

Soruşursunuz ki, niyə taksi tutmadım? Axı qəpiyi qəpiyə calayıb arvadını müalicə etməyə çalışan adam taksiyə necə minsin?! Üstəlik, bir gün əvvəl borc götürdüyüm pulun hamısını xəstəxana xərclərini ödəmək üçün sərf eləmişdim.

On dəqiqə keçdi. Narahat halda yerimdə var-gəl edirdim. Səbrim o qədər daralmışdı ki, avtobusu gözləmədən durub xəstəxanaya qaçmaq istəyirdim. "Bəlkə, avtobus gələnə kimi özümü ora çatdıra bilərəm fikirləşdim, sonra da səbirli olmaq lazımdır, usta, səbir elə", - deyib özümə təskinlik verdim.

On dəqiqə də keçəndən sonra, nəhayət, avtobus gəlib çıxdı. Sərnişinlər tökülüşdülər, bir neçə saniyəyə avtobus yenidən ağzına kimi doldu. O qədər sıxlıq idi ki, içəri keçə bilməyib, qapıdan sallandım. Sürücü də bu zaman avtobusu işlək qoyub harasa yoxa çıxdı. Beş dəqiqə keçdi, gəlib çıxmadı.

Bir azdan konduktor göründü. "Niyə getmirik?" - deyə ondan soruşanda qəzəbli baxışlarla məni süzüb, "Səbir elə, ay insan, səbir elə", - dedi və üzünü çevirib getdi. Arxasınca qışqırdım: "Sürücü hanı?". Sərnişinlərdən kimsə onun əvəzindən cavab verdi: "Çay içməyə gedib".

Əsəbiləşdim və çığırdım:

- Camaatı burda qoyub çay içməyə gedib? Allah bəlasını versin onun.

Konduktor üstümə bozardı:

- Özünü ağıllı apar. Dilini fərağat qoy! Biz də sizin kimi adamıq da.

- Adamsınızsa, vicdanınız hanı bəs?

Konduktor üstümə hücum çəkib məni itələdi.

Hay-küy başladı, hamı qışqırırdı. Sərnişinlər mənim tərəfimdə idi. Dəli oldum, fikirləşdim ki, indi vurhavur başlayacaq, bu isə mənə sərf eləmirdi. Tezliklə özümü Ratibənin yanına çatdırmaq istəyirdim. Çıxış yolu kimi konduktora bir daha yaxınlaşıb dedim:

- Səhv elədim, bağışla! Məsələ bundadır ki, arvadım xəstəxanada yatır.

- Bu ki "təcili tibbi yardım maşını" deyil, - deyən konduktor əl-qolunu yelləyib məndən aralandı. Özümü güclə saxlayırdım.

Axır ki, çayını içib qurtaran sürücü "gül üzünü" bizə göstərdi. Sərnişinlər bir kənara çəkilib, "əlahəzrət"ə yol verdilər. Sükan arxasına keçib göstərişlər verməyə başladı:

- Dostum, bir kənara çəkil! Sən də, dostum, bir az sıxlaşın! Mənim yanıma yığışmayın!

Bayaqkı kimi bir ayağım üstə dayanıb dözürdüm.

Nəhayət, avtobus yerindən tərpəndi. Düşündüm ki, iyirmi dəqiqədən sonra mənzilbaşına çataram. Lakin meydanı dövrələməmiş sürücü siqaret köşkü qarşısında əyləci basdı, yanında dayanmış sərnişinlərin arasından özünə yer eləyib, başını avtobusdan azacıq çıxardı və köşkün satıcısına sarı qışqırdı:

- Mənə beş dənə Belmon ver.

Bilə-bilə ki, Ratibənin halı indi pisdir, bu vəziyyətə dözürdüm. Sürücü siqaretini alan kimi dedim:

- Sən əzizlərinin canı, bir az cəld ol.

Başladı üstümə hürməyə, guya onu təhqir eləmişəm:

- İstəyirsən, bu camaatı qırım?! Bədbəxt hadisə baş versə, sən cavab verəcəksən, yoxsa mən?

Hirsimi boğub sakitcə dilləndim:

- Mən də sürücüyəm. Yük maşını sürürəm. Adım da Fəhmidir.

- Sən də müqayisə elədin də! Səndən fərqli olaraq mən çəllək deyil, adam daşıyıram...

Axır ki, tərpəndik.

Birdən sürücü qabaqda başqa bir avtobusu görüb, onu keçmək qərarına gəldi. Həmin avtobusun sürücüsü sürəti bir az da artırdı. Avtobus yarışı başladı. Sevinirdim ki, xəstəxanaya tez çatarıq, amma digər tərəfdən, avtobus hər dəfə atlanıb-düşəndə, az qalırdı, əlim qapıdan qopsun.

Birdən bizim arxayın sürücü əyləci basdı. Sən demə, qarşıdan gələn həmkarı onun tanışı imiş. Həmin avtobus da yolun düz ortasında dayandı. Küçədə gediş-gəliş iflic vəziyyətə düşmüşdü. Sürücümüz başını pəncərədən çıxarıb qışqırdı:

- Sabahın xeyir, Mahmud! Yadından çıxarma, bu gün Xəmis müəllimin yanında görüşürük! De görüm, Hüseynin dalınca gedəcəksən, yoxsa mən gedim? Özün bilirsən də, əgər ikimizdən birimiz getməsək, görüşməyimiz müşkül olacaq.

Bir neçə dəqiqə söhbətləşdilər. Mən isə yerimdə dayana bilmirdim... "Ratibənin halı indi pisdir, bəlkə də, ölüm ayağındadır... Yəni o öləcək?!.. Aman Allah!.. Uşaqlarımın halı bundan sonra necə olacaq?.. Ratibəsiz mən necə yaşayacam" - qara fikirlər məni boğmağa başlamışdı.

Avtobus yerindən tərpəndi.

On beş dəqiqə keçmişdi, amma yolun heç yarısı qət olunmamışdı. Mən isə iyirmi dəqiqəyə oraya çatmağı düşünürdüm... Fikrim dolanıb yenə xəstə arvadımın yanına qayıdırdı. Həmin an ancaq arvadım haqqında düşünmək istəyirdim, çünki əsəbdən artıq özümü ələ ala bilmirdim, əlimdən bir xəta çıxacağından qorxurdum...

On beş dəqiqə sürünə-sürünə getdikdən sonra, gəlib kiçik bir dükanın qarşısında dayandıq. Burada avtobusdan nə düşən var idi, nə də ona minmək istəyən. Bizim sürücü sərnişinlərin sakit baxışları altında onların arasından sivişib, buterbrod almaq üçün özünü dükana saldı.

Həmin an sürücünü boğub öldürmək istədim. Möhtərəm hakim, əgər insanları cinayət törətdiklərinə görə deyil, cinayət törətmək niyyətlərinə görə mühakimə etsəydilər, onda mən sizinlə razı olardım. Həqiqətən, həmin an mən onu öldürmək istəyirdim. Səbrim o qədər daraldı ki, keçib sürücünün yerində əyləşdim. Qazı basdım, sürücü isə dükanın qabağında buterbrod yeməyində idi.

Avtobusdakılar məni alqışlamağa başladılar:

- Afərin, usta Fəhmi! Allah köməyin olsun!

Heç özüm də bilmədim, onlar mənim adımı haradan öyrənmişdilər. Konduktor mənə mane olmaq istəsə də, sərnişinlər imkan vermədilər. O, avtobusdan cəld tullanaraq polisə xəbər verməyə getdi. Avtobusdakılar əl çalır, mənə təriflər, dualar yağdırırdılar. Minik maşınımız ağzına kimi dolu olduğundan, dayanacaqlarda kiminsə minməsinə ehtiyac qalmırdı. Sərnişinlərdən düşmək istəyəni olanda, əlbəttə, avtobusu saxlayırdım. Oğruya çevrilməyim həmin an heç ağlıma da gəlməzdi. Əksinə, elə bilirdim ki, camaat özü sükan arxasına keçməyi üzərimə öhdəlik kimi qoyub. Axı sərnişinləri mənzilbaşına çatdırmaq, dükanın qarşısında buterbrodunu axıradək yeməyi özünə borc bilən sürücünün də üzərində bir öhdəlik idi. Əgər ona həvalə olunmuş işi vicdanla yerinə yetirmək iqtidarında deyilsə, həmin halda vətəndaşın borcu onu əvəz etməkdir. Müharibədə olduğu kimi; hansısa əsgər xidməti borcunu yerinə yetirə bilmirsə, başqa bir əsgər əmr gözləmədən onu əvəz eləyir. Burada yanlış nə var ki?! Prokuror isə mənim oğru olduğumu deyir. Hanı burada məntiq?..

İnandırım sizi, cənab hakim, həmin vaxt mən xəstə arvadımı belə unutmuşdum. Mənə elə gəlirdi, vətəndaşlıq borcumu yerinə yetirirəm.

...Beşcə dəqiqəyə xəstəxanaya çatdıq. Özü də bir dəfə də olsun, qaydanı pozmamışdım.

Xəstəxananın yanında avtobusu saxladım və üzümü sərnişinlərə tutub dedim:

- Aranızda sürücülük vəsiqəsi olan varsa, qoy avtobusu sürsün. Cənab hakim, vəziyyəti mən belə qiymətləndirirdim: sürücülük vəsiqəsi olan sərnişin sükan arxasına keçəcək, ona lazım olan yerə qədər gedəcək, daha sonra onu başqası əvəz edəcək və beləliklə, hər kəs mənzilbaşına çatacaq. Amma mən balaca səhvə yol vermişdim. Məlum oldu ki, avtobusda sürcülük vəsiqəsi olan elə tək özüməm.

Təsəvvür edirsiniz, onlar mənim üstümə necə qışqırmağa başladılar. Bir neçə dəqiqə əvvəl mənə təriflər yağdırırdılar, indi isə ağızlarına gələni deyirdilər. Özümü xəstəxanaya yetirmişdim ki, məni qapı ağzında yaxaladılar. Məcbur olub təzədən sükan arxasına keçdim. Onları lazım olan yerə çatdırıb avtobusdan çıxmaq istədim, yenə qışqırıq qopdu. Bu dəfə avtobusa təzə minənlər qışqırmağa başladılar:

- Qizaya sür!!!

Mən onlara deyirdim:

- Qardaşlar, Ratibənin halı pisdir. Ölüm ayağındadır. Başa düşün! İcazə verin, gedim!

Onlar məni tərpənməyə qoymadılar. Biri hətta məni itələdi də. Elə bu an əsəblərim dözmədi, həmin adama bir şillə ilişdirdim. Onda hamısı üstümə tökülüşdü. Başladılar məni təpikləməyə. Bir az bundan öncə canıma dua eləyənlər indi məni vururdular.

Cənab hakim, bilsəydiniz, məni necə döyürdülər! Məni ağlamaq tutdu. Hirsimdən, əlacsızlıqdan, ağrıdan ağlayırdım. Sonra polis gəlib məni məntəqəyə apardı.

Ratibə isə həmin vaxt xəstəxanada keçinmişdi. Arvadımı son mənzilə belə, yola salmaq imkanım olmadı: o gün-bu gün dəmir barmaqlıqlar arxasındayam... Yenə usta Avvad sağ olsun: dəfn xərclərini öz üzərinə götürdü...

Hər şey əslində belə olub, cənab hakim!

İndi siz deyin, məgər mən oğruyam? Məgər mən cinayətkaram?

Cənab hakim, hər şeydən əvvəl vicdanınızın səsinə qulaq asın! Mən bəraət istəyirəm. Bir də cənab hakim, sizdən artıq dərəcədə xahiş edirəm: hökm çıxarmamışdan əvvəl, heç olmasa, bircə dəfə avtobusa minin!..

**Ərəbcədən tərcümə edən:**
**Elif YUSİF**

**İhsan Abdul-Quddus**

***Çağdaş Misir novellasının yaşı elə də çox deyil. Bu janrın Misirdə yaranma tarixi XIX əsrin sonu, XX əsrin əvvəllərinə - xalqın siyasi təfəkkürünün formalaşdığı dövrə təsadüf edir. Bütün ədəbi janrlarda, xüsusilə də kiçik hekayə və novellalarda real həyat hadisələrini əks etdirənlər arasında Nobel mükafatı laureatı Nəcib Məhfuz, habelə Taha Hüseyn, Tofiq əl-Həkim, Mahmud Teymur və İhsan Abdul-Quddus kimi dünyaşöhrətli yazıçılar var.***

***“Avtobus oğrusu” hekayəsinin müəllifi yazıçı İhsan Abdul-Quddus (1919-1990) onlarca roman və hekayələr toplusunu qələmə alıb.***

# "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu

### Beynəlxalq Simpoziumun iştirakçıları Fəxri xiyabanda

11 iyul 2019-cu il tarixdə Azərbaycan İlahiyyat İnstitutu (Aİİ), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu öz işinə başlayıb.

Öncə Simpozium iştirakçıları Fəxri xiyabana gələrək, Ümummilli Lider, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül çələngləri düzüblər. Eyni zamanda, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da ruhu anılıb, məzarı üzərinə tər çiçəklər qoyulub.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər çiçəklər düzüblər.

Məlumat üçün bildirək ki, "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu 11-12 iyul 2019-cu il tarixdə keçirilib. İkigünlük Simpozium açılış mərasimi və panellərlə davam etdirilib. Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Moldova, ABŞ, Avstraliya, Misir, Səudiyyə Ərəbistanı və Qafqazda İslam sivilizasiyası mövzusu üzrə fəaliyyət göstərən alim, tədqiqatçı və ekspertlər Simpoziumda məruzələrlə çıxış ediblər.

"İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumu Ulu Öndər Heydər Əliyevin 22 fevral 1998-ci il 755 nömrəli Sərəncamına əsasən, 9-11 dekabr 1998-ci il tarixdə Bakıda keçirilib.



"İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunda 100-dən çox iştirakçının məruzəsi 11 paneldə - "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri"; "Qafqazda İslam elmlərinin inkişafı"; "Qafqazda İslam memarlığı, incəsənəti və ədəbiyyatı"; "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu"; "Qafqazda İslamın yayılması"; "Qafqazda multikulturalizm"; "İslam Sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər; tarixi mənbələr; sənədlər və artefaktlar; mövzu üzrə akademik əməkdaşlıq"; "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu"; "Çar Rusiyasının Qafqazda İslam siyasəti"; "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" mövzularında dinlənilib.

### Azərbaycan İlahiyyat İnstitutunu ziyarət

"İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçıları Azərbaycan İlahiyyat İnstitutunu (Aİİ) ziyarət ediblər.

Aİİ rektoru Ceyhun Məmmədov qonaqları salamlayaraq, onları ali tədris müəssisəsində görməkdən məmnunluğunu ifadə edib. İnstitut rəhbəri ümummilli lider Heydər Əliyevin ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində gördüyü misilsiz işlər haqqında məlumat verib.

C.Məmmədov Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında həyata keçirdiyi din siyasətini hazırda Prezident İlham Əliyevin böyük uzaqgörənliklə davam etdirdiyini nəzərə çatdırıb. Qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutunun yaradılması da bu siyasətin uğurlarının məntiqi davamıdır.

Ali təhsil müəssisəsi haq-



qında məlumat verən rektor vurğulayıb ki, İnstitutda təhsil tam ödənişsizdir. Belə ki, AİI-də təhsil alanlar dərslik, yemək, geyim, yataqxana xərcləri ilə təmin olunurlar.

C.Məmmədov bildirib ki, İnstitutda bütün dinlərin tarixi, inanc və ibadət sistemi tədris olunur. Eyni zamanda, ingilis və ərəb dilləri müasir metodlar əsasında - 4 dil bacarığının (oxuma, dinləmə, danışma, yazma) inkişafı istiqamətində tədris edilir.

AİI rektoru qeyd edib ki, İnstitut xarici ölkə universitetləri ilə əlaqələrin qurulmasında maraqlıdır. İlahiyyat sahəsində ixtisaslaşmış bir çox xarici ölkə universitetləri ilə əməkdaşlıq protokollarının imzalandığını vurğulayan rektor diqqətə çatdırıb ki, əsas məqsəd qarşılıqlı mübadilə proqramları vasitəsilə tədris metodunun və təcrübənin öyrənilməsidir.

Simpozium iştirakçıları səmimi qarşılanmaya görə, AİI rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Həmçinin Azərbaycanda mövcud tolerant mühitin canlı şahidi olduqlarını qeyd ediblər. Vurğulanıb ki, Azərbaycanda mövcud dini tolerantlıq və mədəniyyətlərarası dialoq mühiti istiqamətində həyata keçirilən ardıcıl siyasətin hazırda bütün dünyada örnək kimi qəbul edilməsi təsadüfi deyil. Azərbaycan İlahiyyat İnstitutunun açılmasını, həmçinin burada bütün dinlərin tədris olunmasını yüksək qiymətləndiriblər.

Daha sonra qonaqlar Azərbaycan İlahiyyat İnstitutu ilə tanış olublar. AİI-nin fəaliyyət istiqamətləri, məqsədləri haqqında geniş məlumat verilib. Dərslərin müasir avadanlıqlarla tədris olunduğu diqqətə çatdırılıb. AİI-nin kitabxanasını ziyarət edən Simpozium iştirakçılarına fondda 16000-dən çox kitabın olması barədə məlumat verilib.

Görüşdə əməkdaşlıq əlaqələrinin qurulması, qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi aparılıb.

### Beynəlxalq Simpoziumun açılışı

11 iyul 2019-cu il tarixdə Bakı daha bir möhtəşəm tədbirə ev sahibliyi etdi. Dünyanın və ölkəmizin müxtəlif guşələrindən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunda iştirak etmək üçün şəhərimizə xeyli qonaq dəvət olunmuşdu. Onlar öncə Azərbaycanın tarixi, dini abidələrinin fotolarından ibarət sərgi ilə tanış oldular.

Daha sonra "Park inn Otel"in böyük zalında Simpozium öz işinə başlayıb. Azərbaycan Respublikası Prezidenti Administrasiyası Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Simpozium iştirakçılarına Prezident cənab İlham Əliyevin ünvanladığı Müraciəti oxudu.

Giriş nitqi ilə AİI rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov çıxış edib. İslamın Qafqaz xalqlarının həyatında tutduğu əhəmiyyətli mövqeyə, həmçinin qafqazlı alim və mütəfəkkirlərin İslam sivilizasiyasına bəxş etdikləri töhfələrə toxunub. İslama dərindən bələd olan ümummilli lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə 9-11 dekabr 1998-ci il tarixdə Bakıda "İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun keçirildiyini nəzərə çatdırıb. Qeyd edib ki, təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dini dəyərlərə hörmət və qayğını, həmçinin dinlərarası tolerantlıq və multikultural ənənələrin təbliğinə əsaslanan bu nəcib siyasəti hazırda Respublika Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

C.Məmmədov Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ideyalarını təbliğ və tətbiq edən nümunəvi bir ölkə kimi tanındığını vurğulayıb. Bildirib ki, bu ideyaların təbliğində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri xüsusi olaraq qeyd edilməlidir.

Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin mövcud olduğunu bildirən C.Məmmədov ölkəmizdə çox sayda məscid, kilsə və sinaqoqun dövlət vəsaiti hesabına tikilib təmir edildiyini diqqətə çatdırıb: "Qafqazın ən böyük məscidi olan "Heydər Məscidi"nin inşa edilib inanclı insanların istifadəsinə verilməsi, din sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması, dini-mənəvi sferaya dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması bunun ən bariz nü-




munələrindəndir".

C.Məmmədov İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus yerini vurğulayaraq, məşhur İslam alimləri haqqında bəhs edib.

On bir ölkədən gələn alim və tədqiqatçıların iştirak etdiyi tədbirin Qafqazda İslam sivilizasiyasının tədqiqinə öz töhfəsini verəcəyini vurğulayan Aİİ rektoru Simpoziumun işinə uğurlar arzulayıb.

İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (İRCICA) Baş direktoru Halit Eren qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan, Azərbaycanın rolu xüsusi vurğulanmalıdır.

Halit Eren daha sonra bildirib ki, Azərbaycan İslam dünyasının bir parçası olduğundan, onun mədəniyyətində ərəb, İslam rəmzləri daha gözəçarpandır. Ona görə də İslam sivilizasiyasının Qafqazda yayılması, ilk növbədə, Azərbaycanla bağlı olduğundan, belə bir tədbirin burada reallaşması çox məqsədəuyğundur.

H.Eren "İslam Sivilizasiyası Qafqazda" mövzusunda ikinci dəfə keçirilən Beynəlxalq Simpoziumun təşkilatçısı olmaqdan xüsusi qürur duyduğunu nəzərə çatdırıb.

Millət vəkili, AzMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib. Qeyd edib ki, İslam dini Azərbaycanda yayılmağa başlandığı andan etibarən dərin kök salıb, insanların davranışına, düşüncəsinə, mənəviyyat və mədəniyyətinə müəyyənedici təsir göstərib.

Qafqazın nadir bölgə olduğunu vurğulayan G.Baxşəliyeva bildirib ki, bu region öz təbiətinə, coğrafi quruluşuna və qədim zamanlardan məskunlaşmış, minillər boyu yaşamış insanlarının xüsusiyyətlərinə görə xarakterizə oluna bilər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonaqları salamlayaraq, konfrans iştirakçılarına uğurlar arzulayıb. Bildirib ki, Qafqazda İslamın yayılması və inkişaf etməsi bölgə xalqlarının tarixinin böyük bir hissəsini təşkil edir.

M.Qurbanlı İslam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələri xüsusi vurğulayıb. Qeyd edib ki, Qafqaz xalqlarının, demək olar ki, əksəriyyəti İslam dininə ibadət edir. Daha sonra bildirib ki, İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik, inkişaf, islami dəyərlər bəxş edib. İslamın dini-mənəvi dəyərlərinin Qafqaz xalqlarının həyatında mühüm rol oynadığını diqqətə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini Salman Musayev vurğulayıb ki, ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədədir. Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və təbliği, dini radikalizmə qarşı mübarizə istiqamətində aparılan işlər, əldə olunan uğurlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanları İdarəsinin birgə əməkdaşlığı və fəaliyyəti nəticəsində mümkün olub. S.Musayev dini konfessiyalara ulu öndər Heydər Əliyevin diqqət və qayğısından danışaraq bildirib ki, müstəqil Azərbaycanda tolerantlığın və dinlərarası dialoqun əsasları məhz Ümummilli Lider tərəfindən müəyyənləşdirilib. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

Daha sonra çıxış edən "29 Mayıs" Universiteti Himayəçilər Şurasının sədri Tayyar Altıkulaç, "İzmir Katip Çelebi" Universitetinin rektoru, professor Saffet Köse, Rusiyanın Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov II Beynəlxalq Simpoziumun Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması istiqamətində xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıblar.

Qonaqlar, həmçinin Simpoziumun keçirilməsini aktual hesab edib və təşkilatçılara öz minnətdarlıqlarını bildiriblər.

## Beynəlxalq Simpozium panellərlə davam edib

12 iyul 2019-cu il tarixdə "Qafqazda multikulturalizm" mövzusunda təşkil edilən panel Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov və Qriffis Universiteti Mədəniyyət və Dinlərarası Dialoq Mərkəzinin direktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Brian J. Adamsın moderatorluğu ilə keçirilib.

Paneldə "Müasir dövrdə - XIX-XX əsrin I rübündə Müsəlman dünyasında həyata keçirilən islahatlarda Qafqazın müsəlman türklərinin və Rusiyanın Avropa hissəsinin rolu"; "Udi xristian icmasının timsalında Azərbaycan multikulturalizmi: tarix və müasirlik"; "Qafqaz regionunda dialoq: müəyyənedicilər, müdafiəçilər və inkişaf etdirənlər"; "İslam dünyası və Qərb dünyası arasında dialoqun xüsusiyyətləri"; "Sülhün təmin olunmasında din-düşüncə əlaqələrinin aktuallığı"; "Ənənələr və islam prizmasından baxıldıqda, Şimal-Qərbi Qafqaz gənclərinin dəyər oriyentasiyaları"; "Qafqaz: xalqların və dinlərin mozaikası"; "Ünsiyyət fəlsəfi problem kimi"; "Müqəddəs Cərcic ziyarətgahı multikulturalizm nümunəsi kimi"; "Orta əsrlərdə Azərbaycanda dini dözümlülük Avropa missionerlərinin əsərlərində" mövzularında məruzələr dinlənilib.

"İslam Sivilizasiyası Qafqazda" araşdırma və təlim sahəsi kimi: metodoloji məsələlər; tarixi mənbələr; sənədlər və artefaktlar; mövzu üzrə akademik əməkdaşlıq" mövzusunda baş tutan ikinci paneldə moderatorluğu millət vəkili, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva və "əl-Fərabi" Qazax Milli Universitetinin professoru Orazgul Muxatova edib.



Məruzəçilər "AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunda son iki onillikdə islamşünaslıq tədqiqatlarına dair"; "Alaniya-Osetiyada İslamın tarixi: əsas mərhələlər"; "Orta əsrlər azərbaycanlı müdərrislərin yetişməsində yerli və İslam dünyasının digər elm xadimlərinin rolu"; "SSRİ-nin dağılmasından sonra, Şimali Qafqazda İslamın yayılması: yeni reallıqlar"; "Nadir şahın din siyasətinə Osmanlı Dövlətinin münasibəti"; "Protestan diplomasisi'nin Kafkasya sahnesinden bir kesit: 1919-1920, Türkiye-Azerbaycan gizli antlaşmaları hakkındaki iddialar üzerine"; "İslam mədəniyyətində millilik və dünyəvilik məsələləri"; "Nadir şah Əfşarın İslam dininə münasibətdə baxışlarına dair"; "Sovet hakimiyyətinin 1920-1940-cı illərində İslam dininə və onun komponentlərinə münasibət (Şəki qəzasının timsalında)" mövzularında çıxışlar ediblər.

"Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu" mövzusunda təşkil olunan üçüncü paneldə REA Dağıstan Mərkəzi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu Şərq əlyazmaları şöbəsinin müdiri, professor Murtezali Hacıyev və REA Dağıstan Elmi Mərkəzi Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Şamil Şıxəliyev moderatorluq ediblər.

Günün birinci hissəsində baş tutan sonuncu paneldə "Elxanilər dövründə Naxçıvan şəhər mədrəsələri"; "İnquşetiyada müsəlman təhsil sistemi"; "Güney Kafkasya'dan Balkanlara ve arap topraklarına yayılan bir sufi gelenek: halvetiyye'nin Ramazaniyye ve Şa'baniyye kolları"; "Orta əsrlərin Azərbaycan şəhərlərində fəaliyyət göstərən mədrəsələr"; "XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda təhsil islahatları: "Üsuli-cədid və Azərbaycan-rus məktəbləri"; "Azərbaycanın tarixi Zəngəzur qəzasında dini və dünyəvi təhsil (XIX əsrin sonu XX əsrin 20-ci illəri)"; "Ənənəvi ərəb dili qrammatikasının tədrisində Abdulqahir əl-Curcaninin "Avamil əl-Miə" əsəri mötəbər mənbə kimi (Qafqaz İslam təhsil müəssisələri nümunəsində)"; "Qafqazda dini təhsil sahəsində İrəvan məktəbinin rolu: İrəvanilər süləsinin nümunəsində" mövzularında məruzələr dinlənilib.

Qeyd edək ki, II Beynəlxalq Simpoziumda 100-dən artıq məruzəçinin çıxışları 11 paneldə dinlənilib.

Konfransın məqalələrinin xülasələri "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq

Simpoziumunun materialları (Tezislər)" başlığı altında kitab şəklində Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərinə tərcümə olunaraq dərc edilib.

"Çar Rusiyasının Qafqazda İslam siyasəti" mövzusunda təşkil edilən panel 12 iyul 2019-cu il tarixdə Gürcüstan İliya Dövlət Universitetinin müəllimi, G.Sereteli adına Şərqşünaslıq İnstitutunun direktoru, professor George Sanikidze və Azərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri dosent Elnurə Əzizovanın moderatorluğu ilə keçirilib.

Paneldə "XX əsrin əvvəllərində müsəlman cəmiyyəti və onun Qafqazda və Avropa Rusiyasındakı islahatlar planı"; "Rus çarizminin Azərbaycanda müsəlman ruhaniliyinin təşkili istiqamətində strateji planları"; "Şimali Azərbaycanda Çar Rusiyasının din siyasətinin sosial-psixoloji aspektləri"; "Çar Rusiyasının Azərbaycan türklərinin assimilyasiyasına yönələn anti-İslam siyasəti"; "1801-1917-ci illərdə çarizmin Cənubi Qafqazda İslam siyasəti (arxiv materialları əsasında)"; "XIX-XX əsrin əvvəllərində Azərbaycanda İslam dininin vəziyyəti haqqında" mövzularında məruzələr dinlənilib.

"Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu" mövzusunda baş tutan ikinci paneldə moderatorluğu Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov və İstanbul Sabahattin Zaim Universiteti Tarix fakültəsinin müəllimi, professor Muhammed Harb edib.

Məruzəçilər "Həsən Məlik Zərdabinin İslama dair görüşləri"; "Hikmətli mütəaliyə fəlsəfi cərəyanının azərbaycanlı nümayəndələri"; "İslam sivilizasiyasının inkişafında Azərbaycanın rolu"; "Orta əsrlər müsəlman Şərqində hürufilik təliminin ideya-siyasi və fəlsəfi aspektlərinə yenidən baxış"; "Əbdürrəşid İbrahim və Azərbaycan mətbuatı (1903 - 1905)"; "Məhəmməd Əmin Sədrəddin Şirvani və əxlaq fəlsəfəsi"; "Azərbaycan maarifçilik hərəkatında maarifçi qadınlar"; "Qafqaz alimlərinin İslam dünyasında dəqiq, təbiət və humanitar elmlərin inkişafında rolu"; "Azərbaycan İslam fəlsəfəsinin bir bölgəsi kimi" mövzularında çıxışlar ediblər.



Qeyd edək ki, II Beynəlxalq Simpoziumda 100-dən çox məruzəçinin çıxışları 11 paneldə dinlənilib.

## Beynəlxalq Simpozium başa çatdı

12 iyul 2019-cu il tarixdə bağlanış mərasimində çıxış edən AİI rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçılarını təbrik edib. Qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən Beynəlxalq Simpozium öz işini uğurla yekunlaşdırıb.

C.Məmmədov bildirib ki, Simpoziumda Qafqazda İslam sivilizasiyasının yayılması tarixinin elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemləri araşdırıldı. Eyni zamanda, ölkəmizin çoxəsrlik tarixə malik qarşılıqlı hörmətə əsaslanan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti haqqında məruzələr dinlənildi. Məruzəçilər, həmçinin müsəlman ölkələri ilə əlaqələrin inkişafında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən, bu siyasətin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə mövcud olan tolerant və multikultural mühitin dünyada tanıdılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş məruzələrlə çıxış etdilər.

C.Məmmədov, eyni zamanda, Simpoziumda İslam sivilizasiyasının inkişafında qafqazlı, xüsusən də azərbaycanlı alimlərin özünəməxsus mövqeyindən bəhs edərək, məşhur İslam alimləri haqqında məruzələrin də dinlənildiyini diqqətə çatdırıb.

Daha sonra AİI rəhbəri, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış Müraciətini oxuyub.

**Müraciətdən deyilir:**

"Möhtərəm cənab Prezident!

11-12 iyul 2019-cu il tarixdə Bakı şəhərində Azərbaycan İlahiyyat İnstitutu (AİI), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilmiş "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumuna göstərdiyiniz hərtərəfli diqqətə, eləcə də tədbir iştirakçılarına ünvanladığınız Müraciətə görə Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk!

İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan tarixən müsəlman sivilizasiyasının yaranması və tərəqqisində mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Bəhmənyar Azərbaycani, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Seyid Yəhya Şirvani, Məhəmməd Füzuli və yüzlərlə başqa azərbaycanlı mütəfəkkirlər müsəlman aləmində elmi, fəlsəfi və ədəbi düşüncənin inkişafında müstəsna xidmətlər göstərmişlər. İslam mədəniyyəti Qafqazın digər bölgələrinə məhz Azərbaycandan yayılmışdır.

Ulu Öndər Heydər Əliyev "Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır" söyləməklə İslam sivilizasiyasının Qafqazda bərqərar olmasında Azərbaycanın oynadığı əhəmiyyətli rola diqqət çəkmişdir. İslamın Qafqazda yaşayan xalqların həyatındakı tarixi rolu və əhəmiyyətinə dərindən bələd olan Ümummilli Liderin birbaşa təşəbbüsü və iştirakı ilə 9-11 dekabr 1998-ci il tarixdə Bakıda "İslam Sivilizasiyası Qafqazda" Beynəlxalq Simpoziumu keçirilmişdir.

11-12 iyul 2019-cu il tarixdə Bakıda keçirilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpozium da məhz Heydər Əliyevin misilsiz ideyalarının həyata keçirilməsinə xidmət edir. Bu Simpoziumun keçirilməsi Azərbaycan Dövlətinin və şəxsən Sizin İslam mədəniyyətinə verdiyiniz qiymətin əyani təzahürüdür.




Müasir dövrdə Sizin rəhbərliyinizlə sosial-iqtisadi baxımdan sürətlə inkişaf edən Azərbaycan elm və mədəniyyət sahəsində də çoxsaylı nailiyyətlərə imza atır. Azərbaycan, artıq multikultural dəyərlərin xalq və dövlət səviyyəsində dəstəkləndiyi və beynəlxalq miqyasda təbliğ olunduğu ölkə kimi tanınır. 2016-cı ili "Multikulturalizm İli" elan etməyiniz Sizin bu ali dəyərlərə yüksək münasibətinizin bariz nümunəsidir. Həqiqətən də qloballaşan dünyada monokultural mədəniyyət anlayışının multikultural düşüncə ilə əvəzlənməsi, mədəniyyətlərin öz "getto"larından çıxması bir zərurətə çevrilmişdir. Bu baxımdan, Azərbaycan Dövlətinin sivilizasiyalararası və mədəniyyətlərarası əlaqələrdə multikulturalizmi önə çəkməsi zamanın çağırışları ilə səsləşir.

2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında 10 yanvar 2017-ci il tarixli Sərəncamınız İslam dünyasının ən böyük ehtiyacını çox dəqiqliklə müəyyənləşdirdiyinizi göstərir. Bu Sərəncam dünyada getdikcə güclənən ksenofob və islamofob qüvvələrə tutarlı cavabdır, eyni zamanda, 2016-cı ilin "Multikulturalizm İli" elan olunması barədə 11 yanvar 2016-cı il tarixli Sərəncamınızın məntiqi davamıdır. Azərbaycan həm multikultural dəyərlərin tətbiqi və təbliği, həm də müsəlman aləmində vəhdət və qardaşlıq ideyalarının yayılması baxımından nümunəvi ölkədir.

Dünyada sülh, əmin-amanlıq və tolerantlığın carçısı olan Azərbaycan təəssüf ki, bu dəyərləri heçə sayan Ermənistanın təcavüzü ilə üz-üzə qalmış, torpaqlarının 20 faizi işğal edilmiş, bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvalarından didərgin salınmışdır. İşğal altındakı torpaqlarda yüzlərlə İslam mədəniyyəti nümunəsi məhv edilmiş, məscid və türbələr dağıdılmışdır. Simpozium iştirakçıları olaraq, dünya ictimaiyyətinin bu vandalizmə biganə qalmayacağına, Azərbaycanın haqlı səsinə səs verəcəyinə ümidvarlığımızı bildiririk. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəkdir.

**Möhtərəm cənab Prezident!**

Biz, "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştirakçıları bu beynəlxalq tədbirə göstərdiyiniz qayğı və diqqətə görə, Sizə bir daha öz dərin minnətdarlığımızı bildirir, Azərbaycanda və dünyada sülh və əmin-amanlığın qorunması, ölkəmizin inkişafı və çiçəklənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayırıq".

Tədbirin sonunda Simpo-



zium iştirakçılarına sertifikatlar təqdim olunub.

### Beynəlxalq Simpoziumun təşkilatçıları mətbuat konfransı keçiriblər

11-12 iyul 2019-cu il tarixdə ölkəmizin paytaxtında təşkil olunan "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun yekun mətbuat konfransı keçirilib.

Mətbuat konfransında Azərbaycan İlahiyyat İnstitutu, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi və AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən Beynəlxalq Simpoziumun məqsədləri barədə məlumat verilib. Simpozium Qafqazda İslam sivilizasiyasının yayılması dövrünün elmi şəkildə öyrənilməsi və bu tarixin aktual problemlərinin obyektiv araşdırılması, eyni zamanda, ölkəmizin çoxəsrlik tarixi keçmişə malik qarşılıqlı hörmətə əsaslanan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühitinin dünyaya tanıtdırılması məqsədi daşıyır.

Qeyd olunub ki, "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu nəinki Azərbaycan, eyni zamanda, bütün region üçün əlamətdar hadisədir. Simpoziumda dəyərli alimlərin Qafqazda İslam mədəniyyəti, tarixi, dini abidələri, din təhsili mövzularında məruzələri dinlənilib.

"İslam Sivilizasiyası Qafqazda" I Beynəlxalq Simpoziumunun 9-11 dekabr 1998-ci il tarixdə Bakı şəhərində keçirildiyini vurğulayan təşkilatçılar bu tədbirin Ulu Öndər Heydər Əliyevin birbaşa təşəbbüsü və dəstəyi ilə baş tutduğunu nəzərə çatdırıblar.

Ümumilikdə, on iki ölkədən - Türkiyə, Rusiya, Gürcüstan, İran, Ukrayna, Qazaxıstan, Özbəkistan, Moldova, ABŞ, Avstraliya, Misir, Səudiyyə Ərəbistanı kimi xarici ölkə universitetlərindən Qafqazda İslam sivilizasiyası mövzusu üzrə çalışan alim, tədqiqatçı və ekspertlərin 12 paneldə 100-dən çox məruzəsi dinlənilib.

Tədbirdə Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərinə tərcümə olunaraq dərc edilən "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun materialları (Tezislər)" başlıqlı kitab təqdim olunub. Qeyd olunub ki, Simpoziumun materialları da qısa zaman kəsiyində qeyd olunan dillərə tərcümə olunaraq nəşr ediləcək.

Sonda KİV nümayəndələrinin çoxsaylı sualları cavablandırılıb.

### Heydər məscidini ziyarət

12 iyul 2019-cu il tarixdə "İslam Sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumunun iştırakçıları Heydər məscidini ziyarət ediblər.

Qonaqlara məlumat verilib ki, 2014-cü ilin dekabrında açılışı keçirilən dini ibadət müəssisəsi Qafqazın ən böyük məscididir. Milli-mənəvi irsə böyük diqqət və qayğı ilə yanaşan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahəni əhatə edir. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, ornamentlərin zənginliyi fasadda arxitektura harmoniyası yaradıb, həmçinin 95 metr hündürlüyündə 4 minarə inşa olunub. Məscidin daxili xüsusi bəzək elementləri ilə dizayn edilib, günbəzin kənarlarına Quran ayələri yazılıb. Əlli beş metr ucalığında olan baş günbəz, o cümlədən, hündürlüyü 35 metrə çatan ikinci günbəz məscidə xüsusi gözəllik verir.

Ziyarət zamanı vurğulanıb ki, Prezident İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat



işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi gələrək görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib, məscidin açılışında ailəsi ilə bərabər iştirak edib. Həmin mərasimdə Şimali Qafqazın müftiləri fəxri qonaq qismində iştirak ediblər.

Qonaqlara, eyni zamanda, məsciddə qılınan Vəhdət namazları barədə məlumat verilib. Heydər məscidində Vəhdət namazının ənənə halı aldığı, dini dözümsüzlüyün, irqi ayrı-seçkiliyin və islamofobiyanın geniş yayıldığı müasir dövrümüzdə bunun dünyaya həmrəylik və sülh mesajı olduğu nəzərə çatdırılıb.

### “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunda

“İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumunun iştirakçıları 13 iyul 2019-cu il tarixdə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olublar.

Qoşa Qala küçəsindən başlayan gəzinti zamanı qonaqlara tarixi heykəltəraşlıq binaları, meydan və Qala divarları barədə məlumat verilib. Qonaqlar Sıratağlı Dini-Memarlıq Kompleksi (“Bazar Meydanı”) ərazisindəki müxtəlif dövrlərə aid bədii daşyonma sənət nümunələrini müşahidə ediblər. Karvansara ilə tanışlıq zamanı bu abidələrin Azərbaycanın şərq ölkələri ilə zəngin tarixi, iqtisadi-mədəni əlaqələrinin göstəricisi olduğu bildirilib.




II Beynəlxalq Simpozium iştirakçıları İçərişəhərin məscidlərindən biri, 1169-cu ildə usta Nəcəf Aşur İbrahim oğlu tərəfindən inşa edilmiş Aşur məscidi və yaxınlıqdakı Cümə məscidini ziyarət ediblər. Qeyd olunub ki, 2016-cı ildə Cümə məscidinin XV əsrə aid olan Abşeron əhəng daşından tikilmiş minarəsi bərpa və konservasiya edilib.

İçərişəhərin dini mədəniyyətini əks etdirən tarixi-memarlıq abidələri vaxtilə xalqın ictimai inkişafına təsir göstərmişdir. Belə ki, Orta əsrlərdə elm və təhsil sisteminin inkişafında məscidlər mühüm rol oynamışdır. Ərazidə yerləşən dini abidələr memarlıq quruluşuna görə fərqlənir.

Sonda Beynəlxalq Simpozium iştirakçıları “Qız qalası”nın önündə xatirə şəkli çəkdiriblər.

Qeyd edək ki, “İslam Sivilizasiyası Qafqazda” II Beynəlxalq Simpoziumu 11-12 iyul 2019-cu il tarixdə ölkəmizin paytaxtında keçirilib.

Simpoziumda dünyanın qabaqcıl müəssisələrində çalışan alim, tədqiqatçı və ekspertlərin 100-dən artıq məruzəsi dinlənilib.

Simpoziumun materialları kitab şəklində çap olunacaq.

# TƏLƏBƏLƏRİMİZ BÖLGƏLƏRDƏ

## NƏZƏRİYYƏ İLƏ TƏCRÜBƏNİN VƏHDƏTİ

Azərbaycan İlahiyyat İnstitutu fəaliyyətə başladığı dövrdən etibarən, tədrisi müasir standartlara uyğunlaşdıraraq, işini günün tələbləri səviyyəsində qurmağa çalışır. Rəhbərliyin məqsədi mütərəqqi dünyagörüşlü, yüksək səviyyəli, müasir ilahiyyatçılar yetişdirməkdir. Bu məqsədlə, dünya müsəlman dövlətlərinin qabaqcıl təcrübəsini öyrənib tətbiq edən ali tədris müəssisəsi savadlı, işini peşəkar səviyyədə qurmağı bacaran, dövlətə, dövlətçiliyimizə əməli işi ilə töhfə verməyə çalışan kontingent toplamağa nail olub.

Dünya praktikasından yararlanaraq, tələbələrin dünyagörüşündə az müddət ərzində xeyli dəyişiklik olduğunun şahidiyik. İnstitutda tez-tez ilahiyyatçı alimlər, tanınmış ziyalılar, elm adamları, deputatlar, Azərbaycanda fəaliyyət göstərən müxtəlif ölkələrin səfirləri, iş adamları ilə görüşlər keçirilir. Gənclər qonaqların fəaliyyəti ilə tanış olur, onları maraqlandıran suallar verirlər. Nəzəriyyə ilə praktikanın vəhdəti mənəvi zənginliyə səbəb olur. Bu məqsədlə də AİI rəhbərliyi tələbələrin müxtəlif bölgələrə səyahətlərini təşkil edir. Ali tədris müəssisəsinin ilk səfəri işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə oldu.

Bu görüş İnstitutumuzun həm də bir ilkə imza atması demək idi. Altmışnəfərlik bir heyətlə Cocuq Mərcanlını ziyarətə yola düşdük.

...Yanaşmalar müxtəlif idi. Müharibə, şəhidlərimiz, itirilmiş torpaqlarımız haqqında yalnız mətbuat və Kütləvi İnformasiya Vasitələrindən eşidənlərimiz az deyildi, qorxu və təlatüm içində olan, düşüncələrində "birdən...", - deyə fikirləşənlər də vardı.




Səyahət çox maraqlı oldu. Tələbələr müstəqil Azərbaycanın Dövlət Himnini ifa edib avtobusa əyləşdilər. Bu səyahətdə avtobus bir auditoriya, seminar, dialoqlar, çıxışlar, sanki canlı dərs idi. Tələbələrlə həm müəllim, həm də valideyn kimi davranan rektor gənclərə söz verir, onların Qarabağ, işğalda olan və azad edilən torpaqlarımız haqqında bilgilərini yoxlayırdı. Həmçinin istedadlarını üzə çıxarmaq üçün suallar verir, müxtəlif təkliflərini səsləndirirdi. Tələbələrdən İsgəndər İsgəndərov, Aytac Mustafalı, Fərid Qasımzadə, Aydan Babazadə, Səminə Məmmədova, Aysel Abdullayeva, Aytac Əhmədzadə və başqaları xüsusi qabiliyyət nümayiş etdirdilər. Ceyhun Məmmədov tələbələrə "Azərbaycan dünyanın cənnət ölkəsidir. Sevin, uğrunda hər şeyə hazır olun bu ölkənin, bu torpağın. Unutmayın ki, Azərbaycan Prezidenti və Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə biz bütün qələbələrə imza atacağıq", - deyərək tövsiyələrini edirdi.

...Nəhayət, Cocuq Mərcanlıya gəlib çatırıq. Kəndin girəcəyində Aprel şəhidlərinin xatirəsinə inşa edilmiş Abidə-Kompleksin önünə müəllim və tələbə heyəti əklil qoyub, şəhidlərimizin ruhu qarşısında baş əyirik. Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Tapdıq Nəsirov, 25 ildir qorxmadan, çəkinmədən Cocuq Mərcanlıda yaşayan Oqtay Həziyev, kənd icra nümayəndəsi Atakişi Atakişiyev, şəhid Novruz Aslanov adına tam orta məktəbin direktoru Zamin Həziyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ağcabədi rayon şöbəsinin müdiri Əlizadə Nəcəfov çıxış edərək, şəhidlərimizin cahana sığmayan qəhrəmanlıqlarından bəhs etdilər. "İlk dəfədir ki, böyük heyətlə ali təhsil müəssisəsi bölgəmizə gəlir və gördüyünüz kimi, sakinlərin sevinci hədsizdir", - deyə vurğulayan Tapdıq Nəsirov bildirir ki, gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsində, həmçinin yeniyetmə və məktəblilərin formalaşmasında bu ziyarət böyük əhəmiyyətə

malikdir. Sonra isə İnstitut heyətinə təşəkkürünü bildirir.

...Şəhid Novruz Aslanov adına tam orta məktəbin həyətində əllərində gül-çiçək dəstələri tutmuş körpə fidanlar sülh göyərçinlərinə bənzəyirdilər. Hələ müharibənin nə olduğunu dərk etməyən, 700 metr məsafədə, qatı düşmənlə üz-üzə, bir addımlıqda yaşamağın, təhlükənin nə olduğunu bilməyən Azərbaycan məktəbliləri Dövlət Himnini xor ilə ifa etdilər. Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov məktəbin girişində ümummilli lider Heydər Əliyevin büstü önünə tər çiçəklər və əklil düzdü. Məktəbin direktoru Zamin Həziyev qonaqların qarşısında çıxış etdi. O, bu gəlişin tarixi hadisə olduğunu söylədi: “Azərbaycan İlahiyyat İnstitutu bölgəyə ilk səfər edən ali təhsil ocağıdır və bunu heç vaxt yadımızdan çıxmayacağıq”.

Məktəbin pedaqoji kollektivini və şagirdləri salamlayan rektor Ceyhun Məmmədov vurğuladı ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din siyasətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla və böyük uzaqgörənliklə davam etdirir. İnstitutun yaradılması bu diqqət və qayğının təzahürüdür. Bildirdi ki, əməli işimizlə bu diqqətə layiq fəaliyyət göstərməyə, böyüməkdə olan nəslə, yeniyetmə və gənclərə dində və ilahi baxışlarda tövsiyə edildiyi kimi yanaşmağa çalışırıq.

Sonra məktəblilər Vətənə, anaya, ordumuza, şəhidlərə, əsgərlərə aid şeirlər söylədilər. Onların mələk simalarını seyr etdikcə, Tanrıdan yeganə diləyimiz bu oldu ki, balalarımız müharibə görməsinlər. Onların məsum sifətlərindəki gülüş, sevinc donmasın... Acı göz yaşları axıtmasınlar.

AİI-nin məktəblilərə gətir-




diyi sovqat təqdim olundu. İnstitutun rektoru məktəbli balaları balaca qəhrəmanlar adlandıraraq, onlara hər zaman dayaq duracağına və belə görüşləri vaxtaşırı təşkil edəcəyinə söz verdi.

Müəllim Gülnarə Seyidəliyeva məktəblilərin sevimlisidir. Onlara tariximizi öyrədir, qəhrəmanlarımız haqqında bilgilər verir, torpağı, Vətəni sevməyi aşılayır. Deyir ki, yuxarı siniflərdə oxuyanlar vəziyyəti başa düşürlər. Balacalarla ehtiyatla, fərdi söhbətlər aparmaqla məşğul oluram.

İyirmi beş il əvvəl bundan əvvəl tankların, topların gurultusu, minaatanların mərmilərinin qulaqbatıran səsləri bizi təşvişə saldı, qocalar, qadınlar, körpələr al-qana qərq edildi. Düşmən həmləsinə məruz qalan bu kənddə evlər xarabalığa çevrildi, ocaqlar odsuz, bacalar tüstüsüz, nənnilər uşaqsız, məktəblər şagirdsiz, təndirlər çörəksiz, damlar örtüksüz qaldı. Bizi məcburi köçkün saldılar. Kəndə keşik çəkən daşları da güllələdilər. Müharibə od-alovdur, qan-qadadır, talanmış yurddur, ər, oğul itkisidir, Vətən həsrətidir, ağrıdır, acıdır. Ürəkləri torpaqlarına qayıtmaq həsrəti ilə korun-korun tüstülənən cəbrayıllılar heç yerdə rahatlıq tapmırlar. “Cocuq Mərcanlıda rahat olduğumuz qədər heç yerdə rahat ola bilmədik”, - deyə Gülnarə müəllim sözünə davam etdi. İndi burada qəşəng ev-eşiyimiz var, sağ olsun Prezidentimiz, bizə hər cür şərait yaradıb. Özümüz də tikirik, artırırıq, düzəldirik.

Müasir standartlara cavab verən məktəbdə şagirdlər üçün hər cür şərait yaradılıb. Laboratoriyalar, linqafon kabinələri, kitabxana, idman kompleksi, bufet, sanitar qovşağı, geniş və işıqlı sinif otaqları şagirdlərin istifadəsindədir.

2016-cı ilin aprel ayında Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi ilə Cocuq Mərcanlıda həyat bərpa olundu. 23 il idi ki, yollardan ayaqlar yığılmışdı. 1 500 nəfərə qədər sakin kəndə köçdü. Abadlıq və quruculuq işləri davam etməyə başladı.

Prezident İlham Əliyev kəndin sosial inkişafı üçün bu günə qədər altı Sərəncam imzalayıb. Hazırda kənddə 100 şagird yerlik məktəb binası ilə yanaşı, müasir infrastruktur yaradılıb, suvenir fabrikinin tikintisi aparılır. Bu layihə qardaş Türkiyənin Beynəlxalq Əməkdaşlıq və İnkişaf Agentliyinin təşəbbüsü ilə həyata keçirilir. İstixanalar və arıçılıq təsərrüfatları yaradılıb. Azərbaycan Maliyyə Nazirliyi və Türkiyənin ölkəmizdəki səfirliyinin birgə



layihələri çərçivəsində Cocuq Mərcanlıda 15 istixana inşa edilib, 10 təsərrüfatçıya arı ailəsi və lazımi avadanlıqlar verilib. Bir sözlə, iş bulaq kimi qaynayır.

Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamı ilə işğaldan azad edilmiş kəndə 9 kilometrlik yolun tikintisi üçün 4,3 milyon manat vəsait ayrılıb. Təmir-tikinti işlərini "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti həyata keçirib. Əhalinin öz doğma yurduna dönməsi bütün xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Müxtəlif zümrələrdən olan insanlar, idarə, müəssisə və təşkilatların nümayəndələri, xarici qonaqlar işğaldan azad edilmiş Cocuq Mərcanlını ziyarət etməyə tələsdi.

Qan və göz yaşı ilə suvarılmış qara torpaq üzərində gözəl bağlar, parklar salınıb.

Şuşanın Gövhər ağa Məscidinin eyni olan kənd məscidinin tikintisi Cocuq Mərcanlının şöhrətini bütün bölgəyə yaydı. Bu gün geniş ibadət zalı, namaz və dəstəmaz otaqları ilə seçilən məscid yerli əhalinin etiqad yeri, məbədgahıdır. Xalq burada dini bayramlarını qeyd edir, namaz qılır, Tanıya dua edir. Məscidin axundu Elman Piriyev Respublika Prezidentinə inanclı insanlara yaratdığı şəraitə görə minnətdarlıq ünvanladı. İnstitut kollektivi yerli sakinlərlə birlikdə namaz qılıb, dualar etdi.

Maraqlı və yaddaqalan məqamlardan biri də Oqtay Həziyevlə görüşümüz oldu. Həmin Oqtay Həziyev ki, 23 il kənddən heç yerə çıxmayıb, düşmənlə üz-üzə yaşayıb. Həyat yoldaşı, əziz balaları Ülvi və Sahilə ilə illəri yola salıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev onun bu fədakarlığını yüksək dəyərləndirib. O deyib: "Cocuq Mərcanlı kəndi erməni vəhşiliyinin canlı şahididir. 1993-cü ilin dekabrında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilmiş uğurlu Horadiz hərbi əməliyyatı nəticəsində, 20-dən çox kənd, o cümlədən, Cocuq Mərcanlı, Horadiz qəsəbəsi - bu gün Horadiz şəhəridir, işğaldan azad olunsa da, ancaq burada yaşamaq təhlükəli idi. Buna baxmayaraq, Həziyevlər ailəsi burada yaşayıb. Lələtəpə yüksəkliyinin qaytarılması nəticəsində kənddə həyat qaydasına düşüb. Horadizdən Cocuq Mərcanlıya təzə, rahat asfalt yol çəkilib.

Yenidən burada həyat qurmusunuz, kəndə nəfəs vermisiniz, böyük təsərrüfat yaratmısınız və öz doğma torpağınızda həyatınızı riskə qoyaraq, təhlükə altında yaşamısınız. Bütün bu çətinliklərə, risklərə baxmayaraq, burada güllə altında, mərmi altında yaşamısınız, qurmusunuz və vətənpərvərlik nümunəsi göstərmisiniz. Göstərmisiniz ki, Azərbaycan xalqı öz torpağına canı, qanı ilə bağlıdır. Göstərmisiniz ki, Azərbaycan vətəndaşı istənilən şəraitdə öz torpağında yaşayır, qurur, yaradır, hətta təhlükə altında olsa da; yəni bir gün yox, bir həftə yox, hər gün gecə-gündüz təhlükə altında 20 ildən çox yaşamısınız. Buna görə sizinlə bütün Azərbaycan xalqı fəxr edir. Siz ən yüksək qiymətə layiqsiniz. Mən sizinlə fəxr edirəm.

Bilirsiniz ki, bir neçə ay bundan əvvəl mənim göstərişimlə Azərbaycanda dövlət ordenləri sırasına yeni orden də əlavə olundu - "Əmək" ordeni. "Əmək" ordeninin üç dərəcəsi var".

Sonra Prezident yeni təsis edilmiş 1-ci dərəcəli "Əmək" ordenini Oqtay Həziyevə təqdim edib.

Qəhrəman Oqtay Həziyev heç nədən qorxmadan bu gün gəlib yaşamaq arzusunda olan Vətən oğullarını Cocuq Mərcanlıya dəvət etdi. Zəngin proqramı olan tədbirimiz başa çatdı. Geri döndük.

...Kənddən əliboş gəlmədik. Çoxlarının həsrəti ilə dünyadan köçdüyü Cəbrayıl torpağı gətirdik. Cocuq Mərcanlıya getmək planımızı biləndə yalvarıb bir ovuc torpaq gətirməyi xahiş edən qonşumuz Çərəkən kənd sakini Flora Ərşad qızı Əliyevanın arzusu ilə. Flora bacısı Sveta ilə torpağı öpərək, ürəklərinin başına qoyanda axıtdıqları göz yaşları ruhumu yandırdı.

Cocuq Mərcanlı səfəri hər kəsin yadında ömürlük qalacaq, Vətən torpağının bir parçasını ziyarət etməyimizi daim şirin xatirələrlə yad edəcəyik...

## Qəbələ - antik dövrün yadigarı...

Azərbaycan İlahiyyat İnstitutu kollektivinin növbəti səfəri qədim məbədlər və muzeylər diyarı olan Nic qəsəbəsinə idi.

Kollektiv Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Absalam Hüseynov və İnformasiya təminatı və təhlil sektorunun müdiri Zahir Kərimovla birlikdə şəhərin mərkəzindəki Heydər Əliyev parkına gedərək, dahi rəhbərin xatirəsini ehtiramla yad etdi, abidəsi önünə tər çiçək dəstələri düzdü.

Sonra Qəbələ şəhər məscidini ziyarət etdik. Dini məbədgahda ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizə qayğısını əks etdirən fotoguşə ilə tanış olduq. Qəbələ Şəhər Yeni Məscidinin imamı Laçın Ağalarov məlumat verdi ki, burada eyni vaxtda 450 kişi, 150 qadın olmaqla, ümumilikdə 600 mömin ibadət edə bilir. Məscidin divarlarına müqəddəs "Qurani-Kərim"dən surələr yazılmış, sütunları isə Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq arxitekturasının nadir nümunələrindən istifadə olunmaqla dini rəmzlərlə bəzədilmişdir. Məscidin həyətində axund otağı, dərs, kitabxana, mərasim, qadın və kişilər üçün dəstəmaz otaqları, digər köməkçi tikililər inşa olunub.

Öyrəndik ki, qəsəbədə iki məscid, üç kilsə var.

Dünyada yaşayan udilərin sayı on minə yaxındır. Altı mindən çox əhalisi olan Nic qəsəbəsində dörd mindən artıq udi yaşayır. Qəsəbədə udilər öz dillərini, dinlərini, adət-ənənələrini 2500 ildir qoruyub saxlayırlar. Udi dili Qafqaz dil ailəsinə mənsubdur.

Daha sonra qəsəbədə yerləşən "Cotari" Alban-Udi Kilsəsini ziyarət etdik. Kilsə qədim tarixə malikdir. Onun haqqında bizə Alban-Udi Xristian İcmasının sədri Robert Mobili məlumat verdi. Dedi ki, burada udilər xaç suyuna salınır sonra xristian elan olunurlar. İbadət zalında dini ayinlər icra edliir, şam yandırırlar.

Sonra Alban Udi Ocağını ziyarət etdik. Ocağın həyətində qədim əl işləri olan məişət əşyaları, qonaq qalmaq üçün otaqlar, dini kitablardan ibarət kitabxana var. Kilsənin yerləşdiyi binanın ilk sakinlərinin mum heykəlləri o qədər sənətkarlıqla hazırlanıb ki, ilk baxışda düşünürsən ki, canlıdır. Hətta bilmədən salam verənlər də oldu.

Nic qəsəbəsində "Orayın" Udi Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Dünyanın etnik xəritəsində udi adlı etnos yalnız Azərbaycan ərazisində mövcuddur.

Rayonun Nic qəsəbəsi ilə tanışlıqdan sonra, Qəbələ Rayon Mədəniyyət Mərkəzində "dəyirmi masa" təşkil olundu. Giriş sözü ilə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova qonaqları salamladı. Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov çıxış edərək vurğuladı ki, Azərbaycanda tolerantlığın və dinlərarası dialoqun əsasları məhz Ümummilli Lider tərəfindən müəyyən olunub. Hazırda bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan İlahiyyat İnstitutu haqqında ümumi məlumat verən rektor təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını qeyd etdi. Natiq bildirdi ki, İnstitut keyfiyyətli tədrislə yanaşı, tələbələrin inkişafına, uğurlu gələcəklərinin qurulmasına, hərtərəfli şəxsiyyət kimi yetişmələrinə xüsusi önəm verir. Təhsil müəssisəsində keçirilən bütün tədbirlərin başlıca məqsədi tələbələrin intellektual və mənəvi baxımdan inkişafını hədəfləməkdir. Nic qəsəbəsinə ziyarət də bu baxımdan xüsusi önəm daşıyır. Gənclərimiz Azərbaycanda yaşayan bütün azsaylı xalqlar kimi, udilərin də mədəniyyətinin, adət və ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi üçün böyük tədbirlərin həyata keçirildiyinin canlı şahidi olurlar. Nic qəsəbəsi dünyada udilərin kompakt şəkildə qərarlaşdığı yeganə yaşayış məskənidir. Ona görə də bu gün tələbələrimizi buraya tariximizlə əyani tanış olmağa gətirmişik. Nic



qəsəbəsi tolerantlığın kiçik modelidir.

Qəbələ Rayon Təhsil Şöbəsinin müdiri Arifə Bayramova, jurnalist Qüdrət Səmədov çıxış edərək, bu ekskursiyanın məhz Azərbaycanın qədim şəhərinə təşkil olunmasını müsbət qiymətləndirdilər. Rayonda multikulturalizm və tolerantlığın yüksək səviyyədə olmasından, bunun əyani sübutu kimi, Nic qəsəbəsində gördüklərimizi nümunə gətirdilər. Zaman-zaman formalaşan birgəyaşayış udi, ləzgi, avar, saxur və digər azsaylı xalqların azərbaycanlılarla qohumluq əlaqələrinə də səbəb olub, bir-birlərinə qız verib, qız alırlar. Dini bayramlarda qaynayıb-qarışır, bayramlaşırlar.

Tələbələrdən Fərid Qasımzadə, Tural İbrahimli, Ayşən Cəbrayılova, Nərmin Allahverdiyeva, Bəhmən Əsədli, Fəridə Hüseynova, Aytac Mustafalı, Cavid Ərəbov, Dünya Yolçuyeva, Toğrul Nadirov, İlahə Qaragözova, Nəbi Məmmədov, Məhəmməd Qurbanov, Səminə Məmmədova, Mirhakim Sadıqov, Mehrab Dəmirzadə çıxış edərək, bu şəraiti yaradanlara minnətdarlıq etdilər. Gənclər Nicdə gördüklərindən heyrətləndiklərini, tarixə səyahət etdiklərini və bu səfərin onların dünyagörüşündə böyük iz buraxacağını vurğuladılar.

Bu da növbəti uğurumuz kimi yadda qaldı. Rektor Ceyhun Məmmədov tələbələri tariximizə səyahət etməklə sual-cavab edir, biliklərini üzə çıxarırdı. Çox maraqlı nüanslar vardı: Aytac Əhmədzadə, Fərid Qasımzadə, Ayşən Cəbrayılova Qəbələ rayonu, alban məbədləri, Nic qəsəbəsinin tarixi, udilər haqqında maraqlı tarixi faktlar söylədilər. Əlavə etdilər ki, səfəröncəsi araşdırma aparıb çoxlu mütaliə ediblər. Deməli, atılan addımlar doğrudur, effektini verir və İnstitutumuz yeni olsa da, işini müasir səviyyədə qura bilib.

## Şamaxı, ey mənim sevimli yurdum!

Səyyah alman Adam Oleari və türk övliya Çələbinin verdiyi məlumatlara görə, 1643-1650-ci illərdə Şamaxıda 70 məscid, 44 karvansara, 40 mədrəsə, 7 hamam, onlarca meydan və bazar mövcud olub. Keçən əsrin 30-cu illərindən sonra Şamaxı rayon kimi fəaliyyət göstərməyə başlayıb. Şamaxının bir rayon kimi fəaliyyətinin əsl intibah dövrü 1970-1980-ci illərə təsadüf edir. Şübhəsiz ki, bu, müstəqil Azərbaycan Respublikasının yaradıcısı və qurucusu Heydər Əliyev tərəfindən Şamaxıya göstərilən böyük diqqət və qayğı nəticəsində mümkün olub. 1978-ci il yanvarın 21-də Azərbaycan Respublikası başçısının şəxsi tapşırığı və göstərişi ilə "Şamaxı rayonunun iqtisadiyyatını və mədəniyyətini daha da inkişaf etdirmək tədbirləri haqqında" mühüm qərar qəbul edilib. Əslində müasir Şamaxı məhz bu qərardan sonra yenidən tikilib qurulub, infrastrukturu möhkəmlənib, iqtisadi və mədəni inkişafı təmin edilib.



2019-cu il cənab Prezident İlham Əliyevin Sərəncamları ilə "Nəsimi ili" və Şamaxının "Gənclər paytaxtı" elan edilməsi eyni vaxta təsadüf etdiyindən əlamətdar hadisə kimi tarixin yaddaşına yazılacaq.

Azərbaycan İlahiyyat İnstitutu tələbələrinin bölgəyə səfəri də məhz bu tarixi dövrə təsadüf etdi. Bu il qış imtahan sessiyasından sonra "Din, mədəniyyət və cəmiyyət" mövzusunda "Qış məktəbi" layihəsi Şamaxıda təşkil olundu. Bu layihə tələbələrimizin düşüncəsində, dünyagörüşündə xeyli yeniliklər etdi. Layihə çərçivəsində gənclərimiz müxtəlif səpkidə məruzələr və çıxışlar dinlədilər. Azərbaycanımızın qədim və zəngin şəhəri Şamaxının tarixi-mədəni abidələri ilə tanış oldular. Ölkə rəhbərliyi tərəfindən dəyərlərimizə göstərilən hörmət və qayğının canlı şahidi oldular.

"Qış məktəbi" İnstitut kollektivinin Şamaxı şəhərinin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzüb, dahi rəhbərin xatirəsini ehtiramla yad etməklə başladı.

"Qış məktəbi"ndə müxtəlif istiqamətlər üzrə təlim və seminarlar keçirildi. Bu mühazirələr tələbələr üçün tarixə bir səyahət oldu. Layihə çərçivəsində tələbələrin mütaliə vərdişlərinin, özünəgüvənin, nitq qabiliyyətinin daha da zənginləşdirilməsi üçün idarəçi, biznes məsləhətçisi Fəxri Ağayevin iki təlimi baş tutdu.



Məruzəçi F.Ağayev çıxışında insanın şəxsiyyət kimi formalaşmasında mütaliənin əvəzsiz rolundan danışdı. "Şəxsi inkişaf və karyera" mövzusunda keçirilən digər təlimdə qeyd etdi ki, yeniyetmə və gənclərin fərdi bacarıqlarını inkişaf etdirmək onlara karyera imkanlarını dəyərləndirməkdə köməklik edə bilər.

"Qış məktəbi"ndə tələbələr AİI Dillər və ictimai fənlər kafedrasının müdiri f.f.d. İlkin Əlimuradovun təqdimatında "Azərbaycanlı İslam alimləri", MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi İdarə Heyətinin sədri Fariz Xəlillinin təqdimatında isə "Şirvanın maddi-mədəni irsi" mövzularında seminarları dinləməklə Azərbaycan xalqının tarixi, onun mədəni irsi haqqında geniş məlumat əldə ediblər.

"Qış məktəbi"nin sonuncu seminarı AİI-nin rektoru Ceyhun Məmmədovun təqdimatında "Azərbaycan multikulturalizmi: reallıqlar və perspektivlər" mövzusunda keçirildi. İnstitut rəhbəri qeyd etdi ki, ölkəmiz müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin, konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. C.Məmmədov ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi kursun hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirildiyini vurğuladı.

Şamaxı tarixi abidələrlə də zəngindir. Şəhərdə baş verən çoxsaylı zəlzələlər və müharibələr bu abidələrin bir çoxunu məhv edib. Biz də tarixin dərinliklərindən süzülüb gələn qədim Şamaxı torpağında tolerantlığımızı, dini inanclarımızı özündə əks etdirən abidələrlə tanış olduq. İlk səfərimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə bərpa edilən, yaşı əsrlərlə ölçülən Dəmirçi məscidinə oldu. Qeyd edim ki, bu məscid 755-ci ildə tikilib, ölkəmizin və müsəlman aləminin ən qədim məscidlərindən biridir.

İnstitut rəhbərliyi gələcəyin din alimlərinin İlahiyyat elmi haqqında dərin biliklər əldə etmələri, əyani olaraq İslam dini haqqında biliklərə yiyələnmələri üçün "Qış məktəbi" layihəsi çərçivəsində məbədlərə, muzeylərə ziyarətlər təşkil etdi.

Şamaxı rayonunun Avaxıl kəndində yerləşən Pir Ömər türbəsini ziyarət də bu səciyyəni daşıyır. Burada tarixçi, tədqiqatçı Fariz Xəlilli tələbələrə türbə, Pir Ömər Avaxılın kim olduğu haqqında və Sufi məktəblərindən biri olan xəlvətilik barədə geniş məlumat verdi.

Şamaxı Tarix-Diyarşünaslıq Muzeyini ziyarət edən tələbələr Şamaxının ən qədim dövrlərindən başlamış son zamanlaradək olan tarixi haqqında geniş məlumat əldə etdilər. Muzey əməkdaşları bildirdilər ki, hazırda muzeyin 7 mindən çox eksponatı var. Burada arxeoloji tapıntı nümunələri, maddi-mədəniyyət abidələri, etnoqrafik, epiqrafik, numizmatik nümunələr öz əksini tapır.

Şamaxı Astrofizika Rəsədxanasına ekskursiya zamanı tələbələr astronomik muzey və teleskoplarla yaxından tanış oldular. Onlara Azərbaycan astronomiya elminin inkişafında əhəmiyyətli rol oynayan Şamaxı Astrofizika Rəsədxanasının tarixi barədə ətraflı məlumat verildi.

"Qış məktəbi"nin sonuncu günü isə tələbələrə Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan, əsrlərin yadigarı Şamaxı Cümə məscidinin bərpadan sonrakı halını görmək nəsib oldu.

Məscidi ziyarət zamanı imam Mərəhmət Mustafayev tələbələrə məscid haqqında geniş məlumat verdi. O qeyd etdi ki, Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi Xəlifə Xalid ibn Vəliyədin dövründə onun qardaşı Müslüm ibn Vəliyədin Azərbaycana gəlməsinin şərəfinə 743-cü ildə inşa olunub.

1918-ci ildə silahlı erməni daşnak dəstələri tərəfindən törədilən Mart qırğınları za-

manı Şamaxıda da soyqırımı aktı həyata keçirilib. Ən böyük qırğın Cümə məscidində baş verilib. Şamaxılıların Allah evi kimi məscidə sığındığını görən ermənilər burada yanğın törədərək, təqribən, 1 700 günahsız insanı qətlə yetiriblər.

Prezident İlham Əliyev 2009-cu ilin noyabrında Şamaxıya səfəri çərçivəsində Cümə məscidində olub, böyük tarixi dəyəri və xalqımızın mənəvi dünyasında xüsusi yeri olan bu abidənin bərpasına qərar verib. Bununla əlaqədar Azərbaycan Prezidentinin 2009-cu ilin dekabrında və 2013-cü ilin fevralında imzaladığı sərəncamlarla müvafiq maliyyə vəsaiti ayrılıb. Bundan sonra məsciddə əsaslı bərpa və yenidənqurma işlərinə başlanılıb. Azərbaycan tarixinin mühüm mərhələsini təşkil edən Şirvanşahlar paytaxtının memarlıq nümunəsinin yenidən xalqımızın mənəvi dünyasına qaytarılması istiqamətində yüksək təəssübkeşlik missiyası həyata keçirilib. Dövlətimizin başçısı milli-mənəvi dəyərlərimizin qorunmasına, dini memarlıq abidələrinin bərpasına böyük diqqət göstərən Heydər Əliyev Fondunun təşəbbüsünə dəstək olub, Azərbaycan-Şərq memarlığının incisi olan bu abidəyə ikinci həyat bəxş edib.



Bu soyqırımın izlərinə məscidin bərpasından sonra da rast gəlmək mümkündür. O qanlı hadisə məscidin divarlarına həkk olunub.

Bu qədim abidənin yerləşdiyi ərazidə ikimərtəbəli inzibati və məişət binaları, məscidə gedən körpücük yenidən tikilib, həmçinin konfrans zalları, kitabxana, dəstəmaz və digər otaqlar təmir edilib.

Dini icma nümayəndələri ilə Şamaxı Cümə Məscidində görüş zamanı tələbələrə geniş məlumat verildi. Məscidin imamı Mərəhmət Mustafayev Gənclər Günü ilə bağlı tələbələri təbrik etdi, onlara ilahiyyat sahəsində biliklərini zənginləşdirməyi tövsiyə etdi. Cəmiyyətimizi xurafatdan, mövhumatdan uzaq, saf, düzgün dini biliklərlə maarifləndirməyin önəminə toxundu.

Görüşdə rektor Ceyhun Məmmədov ölkəmizdə aparılan uğurlu dövlət-din siyasəti sayəsində xalqımızın əsrlərin sınağından çıxan milli adət-ənənələrinin yaşadılması üçün lazımi şəraitin yaradıldığını qeyd etdi. C.Məmmədov Ümummilli Liderin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanın dünya ölkələri sırasında öz layiqli yerini tutması, milli-mənəvi dəyərlərimizin qorunmasında, xüsusilə, tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilərək dünyaya çatdırılmasında xüsusi xidmətlərini vurğuladı. İnstitut rəhbəri Aİİ-nin yaradılmasını dövlətdin münasibətlərinə göstərilən qayğının bariz nümunəsi adlandırdı.

Dini icma nümayəndələri tələbələrə Şamaxının tarixi, adət-ənənələri haqqında ətraflı məlumat veriblər. 2019-cu ilin "Nəsimi İli" və Şamaxının "Gənclər Paytaxtı" elan olunması haqqında danışan din xadimləri qeyd ediblər ki, ölkə Prezidenti İlham Əliyevin sözə, sənətkara, yaradıcılığa, ədəbiyyata və ümumilikdə, Azərbaycan mədəniyyətinə verdiyi misilsiz dəyər təqdirəlayiqdir.

Qış məktəbi çərçivəsində sonuncu səfər "Yeddi günbəz" türbələr kompleksinə oldu. Tələbələr burada XVII - XVIII əsrlərdə Şamaxı xanı Mustafanın ailə üzvləri üçün salınan məzarlığı ziyarət etdilər. Burada xan nəslinə aid olan 7 qədim türbə mövcuddur. Səkkizguşəli formada tikilmiş türbələrdən, sadəcə, birinin üzərindəki yazılı daş kitabə salamat qalıb.

Qədim Şamaxıya gəlib böyük Azərbaycan şairi Mirzə Ələkbər Sabirin qəbrini ziyarət etmək də nəsibimiz oldu.

"Qış məktəbi" layihəsi çərçivəsində keçirilən dərslər, Şamaxının qədim tarixi haqqında zəngin məlumatlar tələbələrdə böyük təəssürat yaratdı. Onlar keçmiş nəsillərin əmanət olaraq qoyub getdiyi tarixi, nadir memarlıq nümunələrini gələcək üçün qorumağa borclu olduqlarını vurğuladılar.

Azərbaycan İlahiyyat İnstitutunun tarixi yerlərə səfərlərinin davamı olaraq, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü kollektiv Qubada oldu.





Erməni vandalizminin Quba izləri...

Quba 101 il əvvəl erməni vəhşiləri tərəfindən törədilən qanlı qırğınlara, insanlığa qənim kəsilən dəhşətli cinayətlərə şahidlik edib.

***Günahsız ruhlar məkanı***

Ümummilli lider Heydər Əliyevin 1998-ci il 26 Mart tarixli Sərəncamı ilə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Bu Sərəncamla 1918-ci ildə ermənilərin Azərbaycan ərazilərində törətdiyi vəhşiliklərə hüquqi-siyasi qiymət verilib. 2018-ci ildə Prezident İlham Əliyev Azərbaycanlıların soyqırımının 100 illiyinin qeyd edilməsi ilə əlaqədar Sərəncam imzalayıb.

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) müəllim və tələbə kollektivi ermənilər tərəfindən soyqırımına məruz qoyulmuş azərbaycanlıların xatirəsini yad etmək məqsədilə 31 mart 2019-cu il tarixdə Quba rayonunda olub. İnstitutun rəhbərliyi və kollektiv öncə ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçək dəstələri düzüblər.

Dahi rəhbərin xatirəsini ehtiramla yad etdikdən sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayev ilə birlikdə rayondakı dini məbədlərdə və məscidlərdə olduq. “Səkinə xanım”, “Cümə məscidi”, “Hacı Cəfər” və “Ərdəbil” məscidlərinin axund və imamları bu tarixi abidələr haqqında məlumat verdilər, tələbələri maraqlandıran sualları cavablandırdılar.

Həmin gün Qubada bütün insanların üzündə bir hüzn vardı. Mərkəzi küçələrdən dəstə-dəstə məktəblilər, hərbçilər, hüquq-mühafizə orqanlarının işçiləri, ağsaqqallar, sadə adamlar keçirdilər. Hamı məzarlığı ziyarətdən gəlirdi. İnstitutumuzun kollektivi Soyqırımı Memorial Kompleksində oldu. Məlumat üçün bildirək ki, bu məzarlıq 2007-ci ildə Quba rayonunda tikinti işləri aparılarkən təsadüfən aşkar edilib.

Tarixdən bilirik ki, 1918-ci ilin mart-aprel aylarında Hamazasp adlı başkəsən erməni polkovnik komandirlik etdiyi “cəza dəstəsi” ilə burada saysız-hesabsız cinayətlər törədərək, kütləvi qırğınlara rəvac verib, 167 kənd dağıdılıb. Qubadakı kütləvi məzarlıq da onun qanlı əməllərinin izidir. Məzarlığa baxanda adamın damarlarında qanı donur. İnsanlıqla bir araya sığmayan vəhşilik heyrət doğurur. Orta əsrlərə məxsus işgəncələrlə qətlə yetirilmiş bu insanların günahı azərbaycanlı olmalarında imiş! Xəstə erməni təxəyyülünə görə, guya ermənilər dünyanın sivil xalqlarından biridir, ancaq tötətdikləri qətliamlar tamamilə bunun əksini açıq sübut edir. Bu sübutlardan biri də gördüyümüz dəhşətli mənzərədir. Hamazaspın yaxşı silahlanmış quldur dəstəsi əliyalın dinc əhalini güllələmiş, qılınc və xəncərlə doğramış, nizəyə keçirmişlər. Minlərlə insan - qocalar, qadınlar, uşaqlar, xəstələr xüsusi amansızlıqla məhv edilmişlər. Barbar ermənilər bu cinayətlərinin izini itirmək üçün qırdıqları azərbaycanlıları, burada yaşayan tatları, yəhudiləri, ləzgiləri və digər etnik qrupların nümayəndələrinin cəsədlərini quyulara və yarğanlara tökərək, gizli formada basdırmışlar. İnsan kəllələrində, sinə sümüklərində sınıqlar, deşiklər göstərir ki, ermənilər onları ən vəhşi metodlarla işgəncəyə məruz qoyublar. Bir çox ailələr tamamilə qırılaraq nəsilləri kəsilib. Ümumiyyətlə, erməni daşnakları burada qısa müddətdə 12 min nəfəri qətlə yetiriblər. Bu soyqırımı kompleksi insanı dəhşətə gətirən bir muzeydir. Muzeyin ekspozisiyası rus və ingilis dillərində tərtib olunub.

Quba Soyqırımı Memorial Kompleksi Heydər Əliyev Fondunun dəstəyi ilə 2013-cü il sentyabrın 18-də bərpa olunaraq, istifadəyə verilib. O vaxtdan istər xarici vətəndaşlar, istərsə də yerlilər buraya axınla gəlir, erməni vandalizminin izlərini öz gözləri ilə

görür, sanki tariximizin bir parçasında yaşayırlar...

Memorial kompleksi ziyarətdən sonra, Qubanın bəzi dini və tarixi yerlərinə də səyahət etdik.

***"Qırmızı qəsəbə"də gördüklərimiz***

"Qırmızı qəsəbə" Quba rayonunda, Qusar rayonuna gedən yolun üzərində, Qudyalçayın sol sahilində yerləşir. Buraya ətraf ərazilərdə yaşayan yəhudilər XVIII əsrin ortalarında Abbasqulu ağa Bakıxanovun dəstəyi ilə köçürülüb. Həmin vaxt salınan məhəllələrdə 10-dan artıq sinaqoq inşa olunub. Uzun illərdir ki, burada yəhudilər azərbaycanlılarla birlikdə, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Qəsəbə yarananda "Qafqazın Yerusəlimi" kimi tanınırdı.

İkinci dünya müharibəsindən sonra yaşayış massivində yəhudi əsilli əhalinin sayı daha da artdı. Azərbaycan müstəqillik əldə etdikdən sonra, İsrail burada yaşayan yəhudilərə humanitar köməklik edir.

Kollektivimiz "Qırmızı qəsəbə"də də oldu. Dağ Yəhudiləri İcmasının sədri Melih Yevdayevlə Bakıdan Qubayadək həmsöhbət olduq. Geniş dünyagörüşlü ağsaqqal, Azərbaycan poeziyasının vurğunu olan Melih müəllim bizə qəsəbə və dağ yəhudilərinin tarixi haqqında xeyli məlumat verdi. Onların dili, dini, məşğuliyyəti, milli ənənələri ilə tanış olduq.

Quba Rayon İcra Hakimiyyəti başçısının "Qırmızı qəsəbə" inzibati ərazi dairəsi üzrə nümayəndəsi Pisax İsakov İnstitut kollektivinin gəlişindən məmnun olduqlarını söylədi və dedi:

- Biz burada mehriban qonşuluq şəraitində yaşayırıq. Yerləşdiyimiz ərazidə heç kəsə torpaq iddiamız yoxdur, gur tonqal işığının ətrafına yığışıb isinən ailəyə bənzəyirik. Bu, dövlətimizin, Prezidentimizin apardığı siyasətin nəticəsidir. Məhz bizə yaratdığı bu şəraitə görə, Prezident İlham Əliyevə minnətdarıq.



"Qırmızı qəsəbə" dünyada İsraildən sonra yəhudilərin kompakt yaşadıqları nadir məkandır. Qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir, öz adət-ənənələrini qoruyub saxlayırlar. Burada onların dini icması və milli mədəniyyət mərkəzi fəaliyyət göstərir. "Giləki", "Altı günbəz" və digər sinaqoqlarda olduq.

P.İsakov bildirib ki, sovet dövründə məscidlər, kilsələr kimi sinaqoqlar da bağlanmışdı. Həmin vaxt dindarlar, ravvinlər, mollalar repressiya qurbanı olublar. Amma Azərbaycan müstəqilliyini bərpa edəndən sonra bütün respublikada olduğu kimi, "Qırmızı qəsəbə"də də dirçəliş, bərpa və quruculuq dövrü davam edir. Xüsusilə, ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bütün dini icmaların əmlakını özlərinə qaytardı. Sinaqoqlar təmir edildi, yenidən müqəddəs ocaqlarda dini ayinlər sərbəst şəkildə yerinə yetirilməyə başlandı.

"Qırmızı qəsəbə"dəki sinaqoqların birində Yəhudi Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Burada uşaqlar məktəbdənkənar vaxtlarda yəhudilərin adət-ənənələrini öyrənirlər. Dağ yəhudilərinin danışdığı dil fars dilinin bir dialektidir. Amma bu mədəniyyət mərkəzində uşaqlar ivrit dilini öyrənirlər. Bunu da Melih Yevdayev dedi.

Şagirdlər dərnəklərdə yəhudi xalqının adət-ənənələri, milli mətbəxi və başqa dəyərləri barədə məlumatlandırılırlar.

Dağ yəhudiləri Quba rayonunun, eləcə də respublikamızın ictimai həyatında fəal iştirak edirlər. "Qırmızı qəsəbə"də böyüyüb boya-başa çatan Yevda Abramov Azərbaycan Milli Məclisinin deputatıdır. Dağ yəhudisi olan Albert Aqarunov isə torpaqlarımızın müdafiəsi uğrunda canından keçib və Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Dünyaca məşhur sahibkar, tanınmış xeyriyyəçi Qod Nisanov da bu qəsəbənin sakinidir.

Etnik və dini tolerantlıq Azərbaycanda dövlət səviyyəsində təbliğ edilir və hökumət bütün dini və etnik azlıqlar üçün bərabər imkanları və hüquqları, o cümlədən, dinc və rahat yaşamaq şəraitini təmin edir.

Qısaca desək, Quba səfərindən bir kitaba sığmayan zəngin təəssüratlarla qayıtdıq. Biz bu təəssüratları hamı ilə bölüşürük və həmişə bölüşəcəyik, qoy gələcək nəsillərimiz yurdumuzu və onun tarixini yaxşı tanısınlar.

**Rəhilə Misirxanlı**

GÜCLÜ TƏHSİLİN YENİ ÜNVANI!

# Abituriyentlərlə görüş

**LƏNKƏRAN**




Savadlı gənclərin ali təhsilə cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri həyata keçirir. İnstitutun ilk səfəri 5 aprel 2019-cu il tarixdə Lənkəran rayonuna olub.

Kollektiv əvvəlcə Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri ilə birlikdə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, dahi rəhbərin xatirəsini ehtiramla yad edib.

Daha sonra İnstitutun rektoru Ceyhun Məmmədov Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən muzeyi ziyarət edib. Muzeydə görkəmli dövlət xadiminin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərinə aid maraqlı sənədlər və fotolarla tanış olub.

Tədbiri giriş sözü ilə açan Lənkəran Şəhər İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Asif İmanlı qeyd edib ki, ölkə başçısının rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. O bildirib ki, təhsillə bağlı dövlət proqramlarının hazırlanıb həyata keçirilməsi, yeni təhsil müəssisələrinin açılması, onların müasir avadanlıqlarla təchiz edilməsi Azərbaycanın gələcək inkişafı üçün atılan mühüm addımlardandır.

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdir müavini Güloğlan Bağırov çıxışında ölkəmizdə şagirdlərin hərtərəfli inkişafı, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli təhsil almaları üçün lazımi şəraitin yaradıldığını bildirib.

Rektor Ceyhun Məmmədov ali təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını bildirib. Qeyd edib ki, İnstitut Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə yaradılıb.

AİI-nin İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, mövcud ixtisaslar, həmçinin ali təhsil müəssisəsinin tədris prosesi haqqında geniş məlumat verib. O qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. M.Mürsəlov tələbələrin pulsuz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarının təşkili və digər üstünlüklərə sahib olacaqlarını bildirib.

AİI-nin birinci kurs tələbəsi Fərid Qasımzadə tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şərait haqqında məlumat verib. F.Qasımzadə onların bacarıqlı kadr kimi yetişmələri məqsədilə görülən işlərdən, tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün həyata keçirilən yeniliklərdən danışıb.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.



## LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİNDƏ GÖRÜŞ

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov və institutun bir qrup əməkdaşı Lənkəran Dövlət Universitetində (LDU) olub.

LDU-nun rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov qonaqlara universitetdə təhsilin səviyyəsinin yüksəldilməsi, tədrisin səmərəliliyinin artırılması istiqamətində görülən işlərdən, əldə edilən uğurlardan danışıb. Universitet rəsmisi yeni yaradılan AİI ilə LDU arasında qarşılıqlı əlaqələrin hər iki tərəf üçün səmərəli olacağını bildirib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov cənub bölgəsində yeganə ali təhsil ocağı Lənkəran Dövlət Universitetində olmaqdan məmnunluğunu ifadə edərək, bu ali təhsil müəssisəsi ilə AİI arasında qarşılıqlı əlaqələrin yaradılmasında maraqlı olduğunu bildirib. İlahiyyat İnstitutunun fəaliyyəti haqqında məlumat verən C.Məmmədov xarici universitetlərlə yanaşı, yerli təhsil müəssisələri ilə də əlaqələrin qurulması istiqamətində səylərini davam etdirdiklərini bildirib.

Görüşdə elm və tədqiqat sahəsində ikitərəfli əməkdaşlıq; maraq doğuran mövzularda təcrübələrdən qarşılıqlı faydalanma; birgə elmi konfrans, seminar, elmi-tədqiqat işləri və mühazirələrin təşkil olunması; iki ali təhsil müəssisəsi arasında müştərək fənlər üzrə müəllim mübadiləsinin formaları; yay məktəbi çərçivəsində ikitərəfli görüşlərin təşkili barədə müzakirələr aparılıb.

## GƏNCƏ



İnstitutun növbəti səfəri 11 aprel 2019-cu il tarixdə Gəncə şəhərinə olub.

Kollektiv öncə Gəncə Şəhər İcra Hakimiyyətinin məsul işçiləri ilə birlikdə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, dahi rəhbərin xatirəsini ehtiramla yad edib.

Gəncə Şəhər Təhsil İdarəsində təşkil olunan görüşdə qurumun müdir müavini İsmayıl İsmayılov qeyd edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. O bildirib ki, respublikamızın təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə mühüm işlər görülüb və proses hazırda da davam etməkdədir.

Sonra AİI rektoru Ceyhun Məmmədov qeyd edib ki, ulu öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər sistemini ehtiva edən ənənələr Prezident cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Bildirib ki, dövlət başçısının yüksək diqqət və qayğısı ilə icra olunan dövlət proqramları təhsil sisteminin inkişafına, uğurlu nəticələrin qazanılmasına xidmət edir.

İnstitut haqqında məlumat verən C.Məmmədov ali təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını qeyd edib. Vurğulayıb ki, ali tədris ocağı Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və döv-

lət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə yaradılıb.

Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğunu və mövcud ixtisaslar haqqında geniş məlumat verib. O qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. F.Yusifova tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini bildirib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

## AĞCABƏDİ



İnstitut kollektivi 18 aprel 2019-cu il tarixdə Ağcabədi rayonuna səfər edib.

Kollektiv öncə Ağcabədi Rayon İcra Hakimiyyətinin məsul işçiləri ilə birlikdə şəhərin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, dahi rəhbərin xatirəsini ehtiramla yad edib.

Ağcabədi Bayraq Muzeyində təşkil olunan görüşdə Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Naibə Mustafayeva qeyd edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilində sistemli islahatlar aparılaraq, Ulu Öndərin təhsil siyasəti uğurla davam etdirilir. Cənab Prezidentin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar bu sektorun inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunun bariz nümunəsidir.

Sonra AİI rektoru Ceyhun Məmmədov qeyd edib ki, ulu öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər sistemini ehtiva edən ənənələr Prezident cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən təhsil islahatlarının başlıca qayəsi təhsil sisteminin inkişafı, uğurlu nəticələrin qazanılmasıdır. Rektor bildirib ki, respublikada təhsilin inkişafına göstərilən diqqət və qayğı ölkəmizin gələcəyi hesab olunan bugünkü gənclərin sağlamruhlu, dövlətçiliyimizə sədaqətli, vətənpərvər şəxsiyyətlər kimi formalaşacağına böyük ümidlər yaradır.

C.Məmmədov qeyd edib ki, ali təhsil müəssisəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradılıb. İnstitut Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə təsis edilib.

AİI-nin İlahiyyat fakültəsinin dekan müavini Kövsər Tağıyev çıxışında ali təhsil müəssisəsinin tədris prosesi haqqında məlumat verib. K.Tağıyev tələbələrə dəstək xidmətləri, məzunlar üçün iş imkanları haqqında ətraflı məlumat verib.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Ceyhun Məmmədov və İnstitutun bir qrup əməkdaşı səfər zamanı Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Ağcabədi filialında və Ağcabədi Pedaqoji Kollecində tələbələrlə görüş keçiriblər.

Ağcabədi Pedaqoji Kollecində tələbələrlə görüşdə rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Naibə Mustafa-

yeva Azərbaycanda təhsil sahəsində aparılan islahatlardan danışıb. O qeyd edib ki, Prezident cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində təhsil sisteminin inkişafı ilə bağlı görülən işlər bu sektorun inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunun bariz nümunəsidir.

Aİİ rektoru Ceyhun Məmmədov Azərbaycanda yüksək dini-mənəvi mühitin mövcud olduğunu, dövlət-din siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın uğurla davam etdirdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verilir.

Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova və İnstitutun İlahiyyat fakültəsinin dekan müavini Kövsər Tağıyev ali təhsil müəssisəsində qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat veriblər.

Daha sonra Aİİ heyəti ADPU-nun Ağcabədi filialında müəllim heyəti və tələbələrlə görüşüb.

Görüşdə ADPU-nun Ağcabədi filialının direktoru, dosent Mətanət xanım Fərzəliyeva Aİİ heyətini tədris ocağında görməkdən məmnunluğunu ifadə edib.

Aİİ rektoru Ceyhun Məmmədov vurğulayıb ki, hazırda ölkə başçısı cənab İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir.

Rektor ali tədris müəssisəsinin gənclərdə vətənpərvərlik ruhunun, milli-mənəvi dəyərlərə bağlılığın aşılanması istiqamətində İnstitutda ardıcıl müxtəlif tədbirlər, görüşlər, “dəyirmi masa”lar, seminarların təşkil olunduğunu da diqqətə çatdırıb.



## BƏRDƏ

Növbəti səfər 19 aprel 2019-cu il tarixdə Bərdə rayonuna olub. Bərdə Rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Asif Abbasov görüş iştirakçılarını salamladıqdan sonra bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. O vurğulayıb ki, təhsillə bağlı dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi Azərbaycanın gələcək inkişafı üçün atılan mühüm addımlardandır.

İnstitut haqqında məlumat verən Aİİ İlahiyyat fakültəsinin dekan müavini Kövsər Tağıyev ali təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını qeyd edib. O, çıxışında ali təhsil müəssisəsinin tədris prosesi, tələbələrə dəstək xidmətləri, məzunlar üçün iş imkanları haqqında geniş məruzə edib.

Aİİ-nin Magistratura və Doktorantura şöbəsinin müdiri Fidan Yusifova çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə Aİİ-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

## QUBA

23 aprel 2019-cu il tarixdə Azərbaycan İlahiyyat İnstitutunun növbəti səfəri Quba rayonuna olub.

Quba Rayon İcra Hakimiyyəti aparatının İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Tariyel İbrahimov görüş iştirakçılarını salamladıqdan sonra bildirib ki, müasir dövrdə cəmiyyətimizin tələbatına cavab verən təhsil sisteminin inkişafı və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi bu sahənin yenilənməsinə gətirib çıxarır.

İnstitut haqqında məlumat verən Aİİ İlahiyyat fakültəsinin dekan müavini Kövsər Tağıyev ali təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını qeyd edib. Kövsər Tağıyev çıxışında ali təhsil müəssisəsinin tədris prosesi, tələbələrə dəstək xidmətləri, məzunlar



üçün iş imkanları haqqında geniş məruzə ilə çıxış edib.

Bildirib ki, AİI-də qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətləri hökm sürür. Tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şəraitdən söhbət açan K.Tağıyev gənclərin bacarıqlı kadr kimi yetişmələri istiqamətində görülən işlərdən danışıb.

AİI-nin Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradov tədris olunan fənlər haqqında məlumat verib. O, ali təhsil müəssisəsinin keyfiyyətli tədrisi təmin edəcək kadr potensialına malik olduğunu bildirib. Natiq qeyd edib ki, dərslər ingilis və ərəb dillərində sərbəst şəkildə mühazirə oxuya bilən, öz sahələrində dərin biliyə malik olan alimlər tərəfindən aparılır.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

## QAZAX

Azərbaycan İlahiyyat İnstitutu (AİI) 2019-2020-ci tədris ili üzrə İnstituta yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. İnstitutun növbəti səfəri 8 may 2019-cu il tarixdə Qazax rayonuna olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülərək, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Qazax Gənclər Mərkəzində keçirilən görüşdə abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək, Respublika Prezidenti İlham Əliyevin təhsil sahəsinə göstərdiyi diqqət və qayğıdan bəhs edib. Rayon rəhbəri Azərbaycan elminin, təhsilinin inkişafında ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olduğunu bildirib. Hazırda Ümummilli Liderin layiqli davamçısı İlham Əliyevin ölkədə təhsil siyasətini uğurla davam etdirərək, onun inkişafına böyük önəm verdiyini vurğulayıb.

AİI rektoru Ceyhun Məmmədov qeyd edib ki, ulu öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər sistemini ehtiva edən ənənələri Prezident İlham Əliyev uğurla davam etdirir. Bildirib ki, dövlət başçısının yüksək diqqət və himayəsi ilə icra olunan dövlət proqramları təhsil sisteminin inkişafına, uğurlu nəticələrin qazanılmasına xidmət göstərir.

İnstitut haqqında məlumat verən C.Məmmədov ali təhsil müəssisəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradıldığını bildirib. Qeyd edib ki, İnstitut Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə yaradılıb. Təhsil müəssisəsinin fəaliyyətindən bəhs edən C.Məmmədov tələbələrə dəs-



tək xidmətləri, məzunlar üçün iş imkanları haqqında ətraflı məlumat verib.

Aİİ-nin İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Aİİ-də qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətlərinin hökm sürdüyünü vurğulayan M.Mürsəlov tələbələrin yaxşı təhsil almaları üçün yaradılan şəraitdən söhbət açıb. O, ali təhsil müəssisəsinin keyfiyyətli tədrisi təmin edəcək kadr potensialına malik olduğunu bildirib. Qeyd edib ki, dərslər ingilis və ərəb dillərində sərbəst şəkildə mühazirə oxuya bilən, öz sahələrində dərin biliyə malik olan alimlər tərəfindən aparılır.

Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) kollektivi mayın 10-da orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri çərçivəsində Qazax rayonuna səfər zamanı Bakı Dövlət Universitetinin (BDU) Qazax filialında müəllim və tələbələrlə görüşüb.

BDU-nun Qazax filialında görüşdə rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qeyd edib ki, müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Bildirib ki, ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər gələcəyimizi daha etibarlı və daha inamlı görmək əzmində olduğumuzun bariz nümunəsidir. Ən əsası, Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdır




ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin vacib prinsipləri sırasına daxil edilib.

BDU Qazax filialının rəhbəri Arif Rüstəmov Aİİ heyətini ali təhsil müəssisəsində görməkdən məmnunluğunu ifadə edib. O, Azərbaycanda dövlət-din münasibətlərindən bəhs edərək, bu sahənin ölkə rəhbərinin daim diqqət mərkəzində olduğunu bildirib. Ölkəmizdə ekstremizmə, fanatizmə, radikalizmə və digər dini cərəyanlara qarşı məqsədyönlü işlərin görüldüyünü qeyd edib. Respublika Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında 9 fevral 2018-ci il tarixli Sərəncamla Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını bu sahədə atılan ən uğurlu addım kimi dəyərləndirib.

Aİİ rektoru Ceyhun Məmmədov müəllim və tələbələri salamlayaraq, ölkəmizin ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin Qazax filialında olmaqdan məmnunluğunu ifadə edib. Bildirib ki, görüşün əsas məqsədi İnstitut haqqında məlumat vermək, eyni zamanda, 2019-2020-ci tədris ili üçün ali təhsil ocağına yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə maarifləndirici məlumatlar çatdırmaqdır. Rektor Azərbaycanda yüksək dini-mənəvi mühitin mövcud olduğunu, dövlət-din siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verilir. Bunun ən bariz nümunəsinin Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması olduğunu bildirib. Hazırda tələbələrə tədrislə yanaşı, təlim və tərbiyənin verilməsinin böyük önəm daşıdığını qeyd edən rektor bu sahədə İnstitut kollektivi tərəfindən mühüm işlər görüldüyünü diqqətə çatdırıb. Rektor çıxışının sonunda İnstitutla filial arasında dostluq əlaqələrinin bundan sonra da davam etdiriləcəyini, belə görüşlərin İlahiyyat İnstitutunda da təşkil olunacağını bildirib.

Aİİ-nin İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Ən gənc ali təhsil ocağı olmasına baxmayaraq, İnstitutda 100-dən çox tələbənin təhsil aldığını nəzərə çatdırıb. Bir yaşını qeyd edən ali təhsil ocağında tələbələrin bilikli, savadlı, intellektli, peşəkar mütəxəssis kimi yetişmələri üçün lazımi şəraitin yaradıldığını bildirib.

Aİİ-nin Magistratura və

doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin, mövcud ixtisaslar haqqında geniş məlumat verib.

## QƏBƏLƏ

İnstitut kollektivinin növbəti səfəri mayın 14-də Qəbələ rayonuna olub.

Ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Qəbələ şəhər 5 saylı tam orta məktəbdə keçirilən görüşdə İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova bildirib ki, ölkəmizdə təhsil sahəsində davamlı olaraq islahatlar həyata keçirilməkdədir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq inkişaf edir.

Ə.Osmanova yeniyetmə və gənclərin mütərəqqi dünyagörüşə malik şəxsiyyət kimi formalaşması, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər ruhda böyüməsi istiqamətində görülən işlərə diqqət çəkib.

AİI rektoru Ceyhun Məmmədov qeyd edib ki, Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ulu öndər Heydər Əliyevin təhsilin inkişafına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini qeyd edən rektor vurğulayıb ki, hazırda həmin siyasi xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dövlət başçısının rəhbərliyi ilə təhsil sahəsində dərin islahatlar həyata keçirilir.

İnstitut haqqında məlumat verən C.Məmmədov AİI-nin yaranması, fəaliyyət istiqamətləri, beynəlxalq əlaqələri haqqında danışıb.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib.

Sonda abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Səfər çərçivəsində İnstitutun kollektivi Qəbələ şəhər Yeni və Qəbələ Mərkəzi Cümə məscidlərini ziyarət edib. Ziyarət zamanı məscidlər haqqında geniş məlumat verilib. Bildirilib ki, Qəbələ şəhər məscidi Heydər Əliyev Fondunun dəstəyi ilə 2013-cü ildə, Qəbələ Mərkəzi Cümə Məscidi isə 1898-ci ildə tikilib. Sovet hakimiyyəti dövründə Qəbələ Mərkəzi Cümə Məscidindən başqa məqsədlə istifadə olunub. 2005-ci ildə məscidin binası əsaslı təmir olunaraq dindarların istifadəsinə verilib.



## ZAQATALA

İnstsitut nümayəndələrinin növbəti səfəri 17 may 2019-cu il tarixdə Zaqatala rayonunda olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Zaqatala Rayon İcra Hakimiyyəti Başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Vəfa Süleymanova müasir dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyevin elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşdığını, Ulu Öndərin bu siyasətini hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyini vurğulayıb. Qeyd edib ki, cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir.

AİI rektoru Ceyhun Məmmədov ulu öndər Heydər Əliyev strateji kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin təhsil sahəsində apardığı islahatlar haqqında danışıb. Qeyd edib ki, bu istiqamətdə atılan addımlar Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Bu sahədə görülən genişmiqyaslı işlər ölkəmizdə savadlı, istedadlı gənc nəslin yetişməsinə, təhsilin böyük nailiyyətlər əldə etməsinə gətirib çıxarır.

C.Məmmədov Azərbaycan İlahiyyat İnstitutu haqqında geniş məruzə edib. İnstitutun yaranma tarixi, fəaliyyət istiqamətləri, həyata keçirdiyi layihələr və beynəlxalq

əlaqələri haqqında məlumat verib. Tələbə-müəllim münasibətlərindən bəhs edən rektor gənclərin hərtərəfli inkişafı, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli təhsil almaları üçün ali təhsil müəssisəsində lazımi şərait yaradıldığını nəzərə çatdırıb.

Aİİ-nin İslamşünaslıq kafedrasının müdiri Əhməd Niyazov tədris olunan fənlər və ixtisaslar haqqında məlumat verib. İnstituta qəbul olunan abituriyentlərin bütün dinlər haqqında, xüsusilə İslam dini haqqında dərin biliklərə sahib olacaqlarını bildirib. Qeyd edib ki, ali təhsil müəssisəsində dərslər ingilis və ərəb dillərində sərbəst şəkildə mühazirə oxuya bilən, öz sahələrində dərin biliyə malik alimlər tərəfindən aparılır.

Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. Qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. F.Yusifova tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini bildirib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə Aİİ-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun heyəti orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri çərçivəsində Zaqatala rayonuna səfər zamanı Bakı İslam Universitetinin (BİU) Zaqatala filialında və Əliabad İslam Kollecində müəllim və tələbə kollektivi ilə görüşüb.

18 may 2019-cu il tarixdə keçirilən görüşdə BİU-nun Zaqatala filialının direktoru Malik Bilalov İnstitutun heyətini salamlayaraq, onları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Filial haqqında geniş məlumat verən M.Bilalov tədris prosesi, keçirilən fənlər barədə danışıb. Sonra İnstitut heyəti dərs prosesi ilə tanış olub, tələbələrlə söhbətlər aparıb.

Əliabad İslam Kollecində müəllim və tələbə heyəti ilə görüş zamanı təhsil müəssisəsinin direktor müavini Səməd Vahabov tələbələrə Aİİ haqqında məlumat verib. Vurğulayıb ki, dini radikalizmlə mübarizədə və sağlam dini düşüncənin formalaşmasında dini maarifləndirmə böyük əhəmiyyət kəsb edir.

Aİİ rektoru Ceyhun Məmmədov müəllim və tələbələri salamlayıb, kollecdə olmaqdan məmnunluğunu ifadə edib. Rektor Azərbaycanda yüksək dini-mənəvi mühitin mövcud olduğunu, dövlət-din siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verilir. Bunun ən bariz nümunəsinin Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması olduğunu bildirib.

Ali təhsil müəssisəsi haqqında bəhs edən rektor İnstitutun yaradılma məqsədi, fəaliyyət istiqamətləri, beynəlxalq əlaqələri haqqında danışıb.

Aİİ-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, kollec tələbələrinə instituta qəbul şərtləri barədə məlumat verib. Bildirib ki, ali təhsil müəssisəsində magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. İnstituta qəbul olunmuş hər bir abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını bildirib. F.Yusifova xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil imkanları; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında ətraflı məlumat verib.

Sonda kollec tələbələrini maraqlandıran suallar cavablandırılıb.

İnstitutun nümayəndə heyəti səfər zamanı Zaqatala şəhər, Car, Tala və Əliabad məscidlərini ziyarət edib. Dini ibadət müəssisələri haqqında Aİİ kollektivinə məlumatlar verilib.

* * *

## ŞİRVAN

Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) 2019-2020-ci tədris ili üzrə İnstituta yüksəkintellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərini davam etdirir. İnstitutun növbəti səfəri 29 may 2019-cu il tarixdə Şirvan rayonuna olub.

Öncə ümummilli lider Hey-

dər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Şirvan Gənclər Evində təşkil olunan görüşdə Şirvan Şəhər İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Adəm Hüseynov çıxış edərək, ümummilli lider Heydər Əliyevin elm və təhsilin inkişafına xüsusi diqqətindən, bu istiqamətdə həyata keçirilən işlərdən danışıb. Qeyd edib ki, gənclərimizə elm, bilik, təhsil verməklə yanaşı, milli dəyərləri onlara uşaq yaşlarından təlqin etməli, bu məsələdə ailənin və məktəbin rolunu gücləndirməliyik. A.Hüseynov ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə təhsilin davamlı inkişafına, istedadlı gənclərin yetişdirilməsinə yönəlmiş əsaslı tədbirlərin həyata keçirildiyini bildirib.

AİI rektoru Ceyhun Məmmədov İnstitutun məqsədləri, fəaliyyət istiqamətləri və hədəfləri barədə məlumat verib. Rektor İnstitutda maarifləndirmə işinə xüsusi əhəmiyyət verildiyini, bu məqsədlə mütəmadi olaraq müxtəlif seminarların, “dəyirmi masa”ların təşkil edildiyini söyləyib. Bildirib ki, müasir dövrdə elm və təhsilin rolu, təsir dairəsi genişlənir və dünyada bu sahəyə xüsusi diqqət yetirilir. Ali tədris müəssisələrində güclü elmi mühitin yaradılmasına xüsusi önəm verildiyini vurğulayan C.Məmmədov dövlətimizin bu sahəyə daim diqqət və qayğı ilə yanaşdığını bildirib. Təhsilin inkişafında ümummilli lider Heydər Əliyevin apardığı dövlət siyasətinin hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

C.Məmmədov daha sonra deyib: “Bu gün qarşımızda bir vəzifə durur: yüksək mənəviyyatlı, savadlı və milli dəyərlərin daşıyıcısı olan vətənpərvər gənclər yetişdirməliyik. Gənc nəsli xalqımızın milli dəyərlərinə yad elementlərdən qorumalı, gənclərimizi xalqımızın adət-ənənələrinə, dövlətə və Vətənə sədaqət ruhunda tərbiyə etməliyik”.




İnstitutun İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin tədris prosesi, keçirilən fənlər, ixtisaslar haqqında məlumat verib. Qeyd edib ki, AİI-də qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətləri hökm sürür. Tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şəraitdən söhbət açan dekan ali təhsil ocağında tələbələrin bilikli, savadlı, intellektli, ən əsası, peşəkar mütəxəssis kimi yetişmələri istiqamətində görülən işlərdən danışıb.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. Qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. F.Yusifova tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini də nəzərə çatdırıb.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

* * *

## BİLƏSUVAR

Növbəti səfər 30 may 2019-cu il tarixdə Biləsuvar rayonuna olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Biləsuvar Rayon İcra Hakimiyyəti Başçının birinci müavini Xanlar Məmmədov qonaqları salamlayaraq bildirib ki, respublikamızda bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əldə olunan tarixi nailiyyətlər məhz ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı, dövlətimizin müstəqilliyinin qarantı olan cənab Prezidentimiz İlham Əliyevin gərgin əməyinin nəticəsidir. Məhz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Milli Təhsil strategiyasının əldə etdiyi uğurlar Azərbaycan təhsilinin dünyanın inkişaf etmiş təhsil sisteminə inteqrasiyasını təmin etmiş-

dir. X.Məmmədov qeyd edib ki, respublikamızda təhsil sahəsində aparılan islahatlar, bu sahədə yeni qanunvericilik bazasının formalaşdırılması, yeni-yeni fərman və sərəncamların imzalanması, ümumilikdə, dövlətimizin və xalqımızın inkişafına xidmət edir.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov abituriyentləri salamlayaraq, qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün onlara səylə çalışmalarını tövsiyə edib. İnstitut rəhbəri müstəqil Azərbaycanın son illərdə davamlı tərəqqi və yüksəliş dövrü yaşadığını, ümummilli lider Heydər Əliyevin təhsilin inkişafına yönələn dövlət siyasətinin hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Bu gün elmin, təhsilin maddi-texniki bazası sürətlə inkişaf etdirilir, yeniləşir, ən müasir, qabaqcıl texnologiyalarla təmin olunur.

AİI rəhbəri ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. Bunun ən bariz nümunəsinin Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması olduğunu bildirib. Rektor ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında ətraflı məlumat verib.

İnstitutun İlahiyyat fakültəsinin dekanı Mirniyaz Mürsəlov tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şəraitdən söhbət açıb. Qeyd edib ki, ali təhsil ocağında tələbələrin bilikli, savadlı, intellektli, ən əsası, peşəkar mütəxəssis kimi yetişmələri, eyni zamanda, onların dinin mahiyyətini və əsaslarını, milli-mənəvi dəyərlərimizi öyrənmələri istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.



M.Mürsəlov İnstitutda qarşılıqlı etimada əsaslanan şəffaf müəllim-tələbə münasibətlərinin hökm sürməsi üçün tələb olunan bütün zəruri addımların atıldığını və bundan sonra da atılacağını bildirib. Qeyd edib ki, tədrisin keyfiyyətinin artırılmasına, müəllimlərin gündəlik fəaliyyətinə yaradıcı yanaşmalarına, tələbələrin tədrisə marağının artırılmasına, fənlər üzrə bilik və bacarıqlarının inkişafına çalışırıq.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova təqdimatla çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. İnstituta qəbul olunmuş hər bir abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını bildirib. Bundan başqa, tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini qeyd edib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

## MİNGƏÇEVİR

İnstitutun növbəti səfəri 7 iyun 2019-cu il tarixdə Mingəçevir şəhərinə olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Mingəçevir Şəhər İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Sahib Əliyev qonaqları salamlayaraq bildirib ki, hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən islahatlar, baş verən hər bir hadisə Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdır.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov müstəqil Azərbaycan Respublikasında təhsilə, onun inkişafına dövlətimiz tərəfindən xüsusi diqqət yetirildiyini bildirib. Cəmiyyətin həyatında təhsilin oynadığı əhəmiyyətli rolu vurğulayan AİI rəhbəri, həmçinin qeyd edib ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə elmin, təhsilin maddi-texniki bazası inkişaf etdirilir, yeniləşir, ən müasir, qabaqcıl texnologiyalarla təmin olunur.



C.Məmmədov abituriyentlərə qarşıya qoyduqları məqsədlər uğrunda səylə çalışmağı tövsiyə edib. Bildirib ki, gənclərimiz xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinə sədaqət ruhunda tərbiyə olunmalıdırlar. Müstəqil Azərbaycanın gələcəyi bugünkü gənc nəslin düzgün təlim-tərbiyəsindən asılıdır.

AİI rektoru ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. Bunun ən bariz nümunəsinin Prezident cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması olduğunu bildirib. Rektor ali təhsil müəssisəsinin məqsəd və hədəfləri haqqında da ətraflı məlumat verib.

İlahiyyat İnstitutunun Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradov tələbələrin daha yaxşı təhsil almaları üçün İnstitutda yaradılan şəraitdən söhbət açıb. İ.Əlimuradov tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Qeyd edib ki, İnstitut kollektivi gənclərin zəngin dünyagörüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadr kimi yetişmələri istiqamətində səylə çalışır.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova ali təhsil müəssisəsinə qəbul prosesinin təşkili, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. İnstituta qəbul olunmuş hər bir abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını bildirib. Bundan başqa, tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini qeyd edib.

Sonra abituriyentlərə, orta məktəb müəllimlərinə, aidiyyəti dövlət qurumlarının nümayəndələrinə AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

Görüşün sonunda abituriyentləri maraqlandıran suallar cavablandırılıb.

## MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİNDƏ

AİI rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov və İnstitutun əməkdaşları səfər çərçivəsində Mingəçevir Dövlət Universitetində (MDU) və Heydər Məscidində olublar.

C. Məmmədov Mingəçevir Dövlət Universitetinin rektoru Akif Hacıyevlə görüşüb. Rektor A.Hacıyev Universitetdə təhsilin səviyyəsinin yüksəldilməsi, tədrisin səmərəliliyinin artırılması istiqamətində görülən işlərdən, əldə edilən nailiyyətlərdən bəhs edib. Həmçinin AİI ilə MDU arasında qarşılıqlı əlaqələrin hər iki tərəf üçün səmərəli olacağını bildirib.

AİI rəhbəri Mingəçevir Dövlət Universitetində baş tutan görüşdən məmnunluğunu ifadə edib, MDU ilə İlahiyyat İnstitutu arasında qarşılıqlı əlaqələrin yaradılmasında maraqlı olduğunu bildirib. İnstitutun fəaliyyəti haqqında ətraflı məlumat verən C.Məmmədov xarici universitetlərlə yanaşı, yerli təhsil müəssisələri ilə də əlaqələrin qurulması istiqamətində səylərini davam etdirdiklərini vurğulayıb.

Görüşdə elm və tədqiqat sahəsində ikitərəfli əməkdaşlıq; maraq doğuran mövzularda təcrübələrdən qarşılıqlı faydalanma; birgə elmi



konfrans, seminar, elmi-tədqiqat işləri və mühazirələrin təşkil olunması; iki ali təhsil müəssisəsi arasında müştərək fənlər üzrə müəllim mübadilə-

sinin formaları barədə müzakirələr aparılıb.

Daha sonra AİI rektoru və İnstitutun əməkdaşları Heydər Məscidini ziyarət ediblər. İnstitut heyətinə məscid haqqında məlumat verilib. Heydər Məscidi 1998-ci ildə inşa edilərək istifadəyə verilib. İbadət ocağının 2 minarəsi, 3 yardımçı otağı və dəstəmazxanası mövcuddur. Həyətyanı sahəsi 1 hektar olan məsciddə eyni vaxtda 1500 nəfər ibadət edə bilər.

Məsciddə AİI-nin mətbu orqanı "İlahiyyatçı" qəzeti, İnstitutun fəaliyyətini əks etdirən materiallar, "Qurani-Kərim"in Azərbaycan dilində tərcüməsi təqdim edilib.

## İSMAYILLI

İnstitutun növbəti səfəri 4 iyul 2019-cu il tarixdə İsmayıllı rayonuna olub.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzülüb, dahi rəhbərin xatirəsi ehtiramla yad edilib.

Tədbiri giriş sözü ilə açan İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov qonaqları salamlayaraq bildirib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən biridir. M.Sadıqov Prezident İlham Əliyevin rəhbərliyi ilə İsmayıllı rayonunda yaradılan şəraitdən, sürətli inkişafdan, təhsilə göstərilən qayğıdan, İsmayıllı ziyalılarına, ailmlərinə, elm adamlarına verilən qiymətdən bəhs edib. Qeyd edib ki, şagirdlərin vətənpərvərlik, Azərbaycançılıq ruhunda, milli-mənəvi dəyərlər əsasında inkişafına daha ciddi yanaşılmalı, təlim və tərbiyənin uğurları bir-birini tamamlamalıdır.

AİI-nin rektoru Ceyhun Məmmədov bildirib ki, ölkəmizdə təhsil islahatlarının aparılması, təhsil infrastrukturunun əsaslı şəkildə yenilənməsi və Azərbaycan təhsilinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması Prezident cənab İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Bu sahəyə müasir və çevik yanaşmalar sayəsində təhsil müəssisələri istər keyfiyyət göstəriciləri, istərsə də daha sağlam mənəvi-psixoloji mühitin təmin olunması baxımından ciddi uğurlara imza atır.



AİI rektoru abituriyentlərə sevdikləri ixtisası seçməyi tövsiyə edərək bildirib ki, öz sahəsinin peşəkarı olmaq, yüksək dil biliklərinə, nitq qabiliyyətinə yiyələnmək vacibdir.

Ali təhsil müəssisəsinin yaranma tarixi, fəaliyyət istiqamətləri, məqsəd və hədəfləri haqqında bəhs edən Ceyhun Məmmədov Azərbaycan İlahiyyat İnstitutuna qəbulun tam ödənişsiz əsaslarla aparıldığını nəzərə çatdırıb. Vurğulayıb ki, bu, ilahiyyatçı olmaq istəyən, lakin təhsil haqqını ödəyə bilməyən abituriyentlər üçün bu böyük şansdır. Əsas məqsədlərimizdən biri mövhumat və xurafatdan uzaq, yüksək dini və dünyəvi biliklərə malik mütəxəssislərin yetişdirilməsidir.

AİI-nin ərəb dili müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov qeyd edib ki, İlahiyyat İnstitutunun təsis edilməsi ölkəmizin dini və ictimai həyatı üçün mühüm hadisədir və Azərbaycan Dövlətinin dinə, milli-mənəvi dəyərlərə verdiyi əhəmiyyətin göstəricisidir. O bildirib ki, ali təhsil müəssisəsində həm dini, həm də dünyəvi elmləri bilən, müxtəlif dillərə yiyələnən ziyalı ilahiyyatçı kadrlar və din xadimləri hazırlanır. Belə kadrların hazırlanması dinin insanlara doğru şəkildə çatdırılması, həmçinin din sahəsindəki təhlükəli tendensiyaların qarşısının alınması baxımından vacibdir. Azərbaycan İlahiyyat İnstitutu qeyd olunan parametrlərə uyğun gələn kadrların hazırlanması üçün lazımi potensiala malikdir.

AİI-nin Magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova çıxış edərək, ali təhsil müəssisəsinə qəbul prosesinin hansı formada təşkil olunduğu, həmçinin mövcud ixtisaslar haqqında geniş məlumat verib. Qeyd edib ki, İnstituta qəbul olunmuş hər bir abituriyent dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacaq. F.Yusifova tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını və digər üstünlüklərə yiyələnəcəklərini nəzərə çatdırıb.

Sonda tədbir iştirakçılarına AİI-nin tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş olunub.

# Rusiya Federasiyasına səfər




## Beynəlxalq Simpoziumda

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov 20-21 may 2019-cu il tarixdə Rusiya Federasiyası Moskva şəhəri Rusiya Xalqlar Dostluğu Universitetində təşkil olunan "Müasir beynəlxalq təhsil və elmi mühitdə ilahiyyat: subyektlər, kurrikula, səlahiyyətlər" mövzusunda II Beynəlxalq Simpoziumunda iştirak edib. C.Məmmədov "Azərbaycanda din təhsili: reallıqlar və perspektivlər" mövzusunda məruzə ilə çıxış edib. Azərbaycanda din təhsili tarixindən ətraflı danışaraq, qədim dövrlərdən müxtəlif mədrəsələrin fəaliyyəti, alimlərin İslam mədəniyyətinə bəxş etdiyi töhfələr, müasir dövrdə ölkəmizdə din təhsilinə və dini maariflənmə işinə göstərilən diqqət və qayğı barədə məlumat verib. Bildirib ki, bir çox müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da din təhsili və dini tədris müəssisələrinin yaranması İslamın bu bölgədə yayıldığı ilkin dövrlərə təsadüf edir. Bu, İslamın elmə və biliyə verdiyi yüksək dəyərlə bağlı idi.

C.Məmmədov müstəqil Azərbaycanda dövlət-din münasibətlərindən söz açaraq, ümummilli lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışından sonra, sözügedən sahəyə diqqət və qayğının artırılmasından bəhs edib. Vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hazırda bu nəcib missiyanı böyük uzaqgörənliklə və uğurla davam etdirir: "Azərbaycan İlahiyyat İnstitutu da məhz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində yaradılıb".

Rektor C.Məmmədov AİI-nin yaranma məqsədi, fəaliyyət istiqamətləri, tədris prosesi, beynəlxalq əlaqələri haqqında danışıb. Nəzərə çatdırıb ki, İnstitut xarici təcrübənin öyrənilməsinə, qarşılıqlı mübadilənin aparılmasına xüsusi əhəmiyyət verir. Bu məqsədlə müsəlman və qeyri-müsəlman ölkələrinin tədris proqramları öyrənilir, müxtəlif dünya universitetləri ilə əməkdaşlıq qurulur.

AİI rəhbəri səfər çərçivəsində Rusiya Xalqlar Dostluğu Universiteti Humanitar və sosial elmlər fakültəsinin tələbələrinə "Azərbaycanda dinlərin tarixi" mövzusunda mühazirə oxuyub. Müxtəlif vaxtlarda çoxsaylı etnik və dini qrupların Azərbaycanda məskunlaşması, mövcud olan multikultural və tolerant mühit barədə məlumat verib. Bildirib ki, əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə İslam dini ilə yanaşı, fərqli dinlərə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayır. Ölkəmizdə tarixən mövcud olan milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib. Azərbaycanda dövlət-din münasibətlərindən və bu sahəyə göstərilən qayğıdan bəhs edən rektor müstəqillik illərində dini ibadət yerlərinin, məscid, kilsə və sinaqoqların sayının sürətlə artmasını diqqətə çatdırıb. Bu faktlar ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsinə, bütün dinlərin sərbəst fəaliyyət göstərməsinə xüsusi diqqət yetirildiyinin bariz nümunəsidir.

## Rusiya Milli Kitabxanası ilə tanışlıq

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Ceyhun Məmmədov 20-21 may 2019-cu il tarixdə Rusiya Federasiyasına səfəri çərçivəsində Rusiya Milli Kitabxanasını ziyarət edib. Qurumun Azərbaycan bölməsində ədəbiyyatla tanışlıq zamanı rektora məlumat verilib ki, hazırda fondda Azərbaycan dilində 55 000 kitab saxlanılır. Qeyd edək ki, kitablar arasında böyük Azərbaycan alimi Mirməhəmməd Kərim Mircəfər əl-Bakuvinin Hacı Zeynalabdin Tağıyev tərəfindən nəşr etdirilmiş "Kəşfül-haqaiq" kitabı, həmçinin "Molla Nəsrəddin" jurnalı və "Əkinçi" qəzetlərinin orijinal nüsxələri, digər qiymətli əsərlər saxlanılır.

## Şərq Əlyazmaları İnstitutunda görüş

AİI rektoru Ceyhun Məmmədov Rusiya Elmlər Akademiyasının Şərq Əlyazmaları İnstitutunu ziyarət edib. İnstitutun direktoru İrina Popova və tanınmış rusiyalı islamşünas alim Stanislav Prozorovla görüş təşkil olunub.

Görüş zamanı İ.Popova ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu, İnstitutun Azərbaycanın elmi müəssisələri ilə sıx əlaqələr qurduğunu diqqətə çatdırıb. O, AİI ilə əməkdaşlığın qurulmasından məmnunluğunu ifadə edib, qarşılıqlı birgə fəaliyyətin faydalı olacağını diqqətə çatdırıb.



AİI rektoru Ceyhun Məmmədov ölkələrimiz arasında ikitərəfli münasibətlərin, hörmətin və qarşılıqlı etimadın yüksək səviyyəsindən məmnunluğunu, ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib. Azərbaycan İlahiyyat İnstitutu haqqında ətraflı məlumat verən rektor AİI-nin beynəlxalq əlaqələrin qurulmasına, qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsinə önəm verdiyini vurğulayıb.

Görüşdə tərəflər arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb. Eyni zamanda, tədris metodu üzrə elmi məlumatların qarşılıqlı surətdə ötürülməsi, təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı bilikərin bölüşdürülməsi, elmi-tədqiqat proqramları, layihələrin birgə təşkili və digər məsələlər müzakirə olunub.

## Əməkdaşlıq əlaqələri genişlənir

Mayın 22-də Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Ceyhun Məmmədov Rusiya Müsəlmanları Ruhani İdarəsinin, Rusiya Müftilər Şurasının sədri Şeyx Ravil Qaynutdinlə görüşüb. Görüşdə Moskva İslam İnstitutunun rektoru Demir Muxetdinov, Bolqar İslam Akademiyasının rektoru Daniyar Abdraxmanov və Perm Vilayəti Müsəlman Ruhani İdarəsinin nümayəndəsi, Rusiya Federasiyası Jurnalistlər Birliyinin üzvü Səfa Kərimov iştirak ediblər.

Rusiya Müsəlmanları Ruhani İdarəsinin, Rusiya Müftilər Şurasının sədri Şeyx Ravil Qaynutdin qonağı salamlayaraq, ikitərəfli qardaşlıq əlaqələrinin, həmçinin elm, təhsil və maarifləndirmə sahəsində əməkdaşlığın tərəfdarı olduğunu vurğulayıb. Dini lider iki ölkə arasında elmi əlaqələrin və dost münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib. R.Qaynutdin bu yaxınlarda Azərbaycan İlahiyyat İnstitutunda Moskva İslam İnstitutunun rektoru Demir Muxetdinovun "Rusiyada İslam tarixi" monoqrafiyasının təqdimatının təşkil olunmasından razılığını bildirib.



Müfti Qaynutdin Azərbaycanda Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət-din münasibətinin nəticəsi olaraq, ekstremizm və radikalizm ideologiyalarına qarşı mübarizənin yüksək səviyyədə həyata keçirildiyini vurğulayıb. Qeyd edib ki, sülhün, sabitliyin, əmin-amanlığın qorunması və gəncliyimizin ekstremizm və terrorizm ideyalarından qorunması üçün birlikdə çalışmalıyıq.

Rektor Ceyhun Məmmədov görüş üçün müftiyə təşəkkürünü bildirib, Azərbaycanda əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Rektor Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti haqqında geniş bəhs edib. Bildirib ki, İnstitut iki istiqamət üzrə mütəxəssislər hazırlayır: məscidlərdə imam və din xadimləri kimi fəaliyyət göstərəcək İslam alimləri və ölkənin müvafiq dövlət qurumlarında çalışacaq mütəxəssislər.

AİI rəhbəri daha sonra nəzərə çatdırıb ki, ali tədris müəssisəsində dini mövzularla yanaşı, sosiologiya, psixologiya, fəlsəfə, məntiq və digər dünyəvi mövzular da tədris olunur. Hazırda dərslər Azərbaycan dilində keçirilir, gələcəkdə isə ingilis, rus və ərəb dillərində də qrupların açılması planlaşdırılır.

Görüşdə tərəflər arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb.

Eyni zamanda, tədris metodu üzrə elmi məlumatların qarşılıqlı surətdə ötürülməsi, təcrübə və araşdırma, tədris prosesinin təşkili ilə bağlı bilikərin bölüşdürülməsi, elmi-tədqiqat proqramları, layihələrin birgə təşkili və digər məsələlər müzakirə olunub.

Görüşdə yaxın zamanlarda Bolqar İslam Akademiyası ilə əməkdaşlıq müqaviləsinin imzalanması da qərara alınıb.

# “Müasir alman cəmiyyətində İslama münasibət”

**5 iyul 2019-cu il tarixdə “Azad Berlin” Universitetinin məzunu, Avropa İxtisasartırma Mərkəzinin baş müəllimi dr. Rüfət Səttarovun təqdimatında “Müasir alman cəmiyyətində İslama münasibət” mövzusunda seminar təşkil olunub.**





AİI-nin Tədris şöbəsinin müdiri Zərifə Əliyeva seminar iştirakçılarını salamlayaraq, İnstitutun fəaliyyətə başladığı gündən təlim, tərbiyə, tədris işinin təşkili, həyata keçirilməsi ilə yanaşı, maarifləndirmə və təbliğat xarakterli tədbirlərə, görüşlərə də xüsusi önəm verdiyini qeyd edib. Mövzunun əhəmiyyətinə toxunaraq, AİI-nin təhsilin keyfiyyətinə xüsusi önəm verməklə yanaşı, tələbələrin ictimai-mədəni fəaliyyətinin təşkili üçün də səylə çalışdığını bildirib.

“Azad Berlin” Universitetinin məzunu, Avropa İxtisasartırma Mərkəzinin baş müəllimi dr. Rüfət Səttarov “Müasir alman cəmiyyətində İslama münasibət” mövzusunda məruzə ilə çıxış edib.

R. Səttarov müxtəlif mədəniyyətlərə malik alman cəmiyyətində mövcud problemlər və dinlərin bir-birlərinə qarşılıqlı ehtiram göstərmələri barədə məlumat verib. Qeyd edib ki, İslam Almaniyanın modern və dəyişməkdə olan cəmiyyətinin bir parçasıdır.

R.Səttarov bir dövlətin sərhədləri daxilində müxtəlif etnomədəni tərəflərin dinc yanaşı yaşamaq, öz mədəni xüsusiyyətlərini, həyat tərzini rəsmən ifadə etmək hüququna malik olduğunu vurğulayıb. Həmçinin Almaniyada yaşayan müsəlmanların cəmiyyətə inteqrasiyasından, dünyada ekstremizm və dini-ideoloji münaqişələrlə mübarizənin aparılması üçün tolerantlıq və multikultural mühitin hökm sürdüyü ölkələrin təcrübəsindən yararlanmağın əhəmiyyətindən bəhs edib.

Sonda R.Səttarov tələbələrin çoxsaylı suallarını cavablandırıb, seminar iştirakçıları ilə fikir mübadiləsi aparıb.

# ABŞ nümayəndə heyətinin üzvləri ilə görüş

**3 may 2019-cu il tarixdə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ölkəmizdə səfərdə olan ABŞ nümayəndə heyətinin üzvləri ilə Aİİ kollektivi arasında görüş keçirilib.**



Aİİ rektoru Ceyhun Məmmədov qonaqları salamlayaraq bildirib ki, multikulturalizm ənənələrinin qorunması Azərbaycan Dövlətinin ən böyük nailiyyətlərindən biridir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin inkişaf etdirilməsi istiqamətində aparılan işlər, ölkəmizin inkişafında və milli-mənəvi dəyərlərin zənginləşdirilməsində həyata keçirilən tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

C. Məmmədov bildirib ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi Azərbaycanın bu dəyərlərin inkişafına və möhkəmləndirilməsinə verdiyi önəmin göstəricisidir.

Rektor Aİİ haqqında ümumi məlumat verərək, İnstitutun fəaliyyəti, məqsəd və vəzifələri, hədəfləri barədə bəhs edib. İlk dəfə olaraq İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə tələbə qəbulu həyata keçirən Aİİ-də gələcəkdə yəhudilik və xristianlıqla bağlı ixtisasların açılacağını bildirib.

İnstitut rəhbəri qonaqlara məlumat verib ki, qəbul olunan tələbələr müasir sosial elmlərin metodları əsasında İslamla yanaşı, digər dünya dinlərinin inanc, ibadət, əxlaq sistemi, həmçinin dini elmlərlə yanaşı, Fəlsəfə, Sosiologiya, Psixologiya, Multikulturalizm və digər sosial, humanitar elmləri də öyrənmək imkanına malikdirlər.

Aİİ rektoru İnstitutun fəaliyyətində müxtəlif dünya ölkələrinin aparıcı ali təhsil müəssisələrinin təcrübələrindən faydalandıqlarını nəzərə çatdırıb. C.Məmmədov Aİİ-nin fəaliyyətində beynəlxalq əlaqələrə, xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlığın yaradılmasına xüsusi önəm verdiyini bildirib. Qeyd edib ki, Azərbaycan İlahiyyat İnstitutu ötən bir il ərzində müxtəlif ölkələrin universitetləri ilə əlaqələr yaradıb, Türkiyənin Ankara, İstanbul, Marmara, "29 Mayıs", Kırıkkale universitetləri; Rusiyanın Perm Dövlət İncəsənət İnstitutu, Omsk Dövlət Universiteti, Moskva İslam İnstitutu; Malayziyanın Beynəlxalq İslam Universiteti; İndoneziyanın Ahmad Dahlan Universiteti ilə əməkdaşlıq protokolları imzalayıb.

Daha sonra qonaqların suallarını cavablandıran rektor dini tolerantlığın hökm sürdüyü Azərbaycan ərazisində üç səmavi dinin - Yəhudilik, Xristianlıq və İslamın mövcud olduğunu, fərqli dinlərə mənsub olanların sülh və qarşılıqlı anlaşma şəraitində yaşadıqlarını nəzərə çatdırıb. Eyni zamanda, müxtəlif inanclı insanların qarşılıqlı hörmət şəraitində yaşamalarının müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin nəticəsi olduğunu vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Amerika filialının rəhbəri Janna Skot səmimi görüşə görə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan cəmiyyətinə xas olan fərqli mədəniyyət, din və dillərə ehtiram kimi humanist münasibətin dövlət tərəfindən inkişaf etdirilməsi istiqamətində həyata keçirilən çoxşaxəli fəaliyyəti müsbət dəyərləndirir.

Səfir saatı

# Xarici ölkələrin səfirləri İnstitutumuzda

***Azərbaycan İlahiyyat İnstitutu fəaliyyətə başladığı gündən müxtəlif tədbirlər həyata keçirir. Tələbələrin dünyagörüşünün zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsi üçün ölkənin tanınmış simaları - elm xadimləri, ziyalıları ilə yanaşı, xarici ölkələrin Azərbaycandakı səfirləri ilə də görüşlər təşkil edilir.***

İnstitutumuzun ilk qonağı Sudanın Ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri Abbas Mustafa Əhməd Abdallay olub. Daha sonra Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Nasir Əbdül Kərim, İndoneziyanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Hüsnan bəy Fanani, Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Erkan Özoral, İtaliyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Auqusto Massari, Misir Ərəb Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Adel İbrahim Ahmed İbrahim İnstitutumuzu ziyarət ediblər.

Sudanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri Abbas Mustafa Əhməd Abdallayın 2018-ci ilin iyulunda Azərbaycan İlahiyyat İnstitutunu ziyarəti zamanı İnsitutun rektoru Ceyhun Məmmədov iki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib. Rektor Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsəlman ölkələri və İslam Əməkdaşlıq Təşkilatı ilə tərəfdaşlığa böyük önəm verdiyini və 2017-ci ilin ölkəmizdə "İslam həmrəyliyi ili" elan olunduğunu vurğulayıb. Ali təhsil müəssisəsində milli-mənəvi dəyərlərin qorunmasına xüsusi önəm verildiyi, müxtəlif dünya ölkələrinin aparıcı ali təhsil müəssisələrinin təcrübələrindən faydalanacaqları bildirilib.

Səfir Abbas Mustafa Əhməd Abdallay Azərbaycanda çalışmaqdan məmnun olduğunu qeyd edərək, Azərbaycan İlahiyyat İnstitutuna fəaliyyətində uğurlar arzulayıb. O, Sudan Universitetləri ilə Azərbaycan İlahiyyat İnstitutu arasında əməkdaşlığın qurulmasına dəstək verməyə hazır olduğunu bildirib.

İndoneziyanın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Hüsnan Bəy Fanani 2018-ci ilin oktyabrında İnstitutumuzu ziyarət edib.

Səfiri İnstitutda görməkdən məmnunluğunu bildirən AİI rektoru C. Məmmədov ölkələrimizin bir-birinə dost və qardaş münasibətdə olduğunu bildirib. Azərbaycanda yüksək dini-mənəvi mühitin mövcud olduğunu, dövlət-din siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın uğurla davam etdirdiyini diqqətə çatdırıb. Vurğulanıb ki, ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verilir.

Cənab Hüsnan bəy Fanani Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyətə başlamasını böyük məmnunluqla qarşıladığını, məqsəd və hədəflərini yüksək qiymətləndirdiyini bildirib. İndoneziya haqqında məlumat verən səfir ölkənin ali təhsil mərkəzləri, o cümlədən, İslam universitetləri haqqında danışıb. H.Fanani İndoneziya universitetləri ilə AİI arasında əlaqələrin təşkili, təcrübə mübadiləsi məsələlərinə toxunub, əməkdaşlığın yaradılması üçün əlindən gələni əsirgəməyəcəyini söyləyib.

2018-ci ilin oktyabrında Azərbaycan İlahiyyat İnstitutunda (AİI) Fələstinin ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Nasir Əbdül Kərim ilə görüş keçirilib. AİI-nin müəllim-tələbə heyəti və digər qonaqların iştirakı ilə keçirilən görüşdə rektor Ceyhun Məmmədov səfirin dəvəti qəbul etməsindən məmnunluğunu ifadə edib.

Cənab Nasir Əbdül Kərim çıxış edib. O, AİI-nin məqsəd və hədəflərini yüksək qiymətləndirərək instituta fəaliyyətində uğurlar arzulayıb.

Fələstinlə Azərbaycan arasındakı əlaqələrin tarixə söykəndiyini qeyd edən səfir ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, forumlarda bir-birini dəstəklədiyini qeyd edib.

Bildirilib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra, ölkələrimiz bir-birinin müstəqilliyini tanıyıb. Hələ sovet dövründən və Azərbaycan müstəqillik qazandıqdan sonra, Fələstin lideri Yasir Ərəfatla Azərbaycanın ümummilli lideri Heydər Əliyev arasında əməkdaşlıq mövcud olub və daim bir-biri ilə əlaqə saxlayıblar.

Tədbirin sonunda müzakirə aparılıb, cənab səfir müəllimlərin və tələbələrin çoxsaylı suallarını cavablandırıb.

Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Erkan Özoralla Azərbaycan İlahiyyat İnstitutunda görüş maraqlı olub. 2018-ci ilin noyabrında baş tutan görüşdə AİI rəhbəri Ceyhun Məmmədov ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib. Rektor İnstitut haqqında geniş məlumat ve-

rərək, Aİİ-nin beynəlxalq əlaqələrin qurulmasına və Türkiyə universitetləri ilə əməkdaşlığa böyük önəm verdiyini bildirib.

Görüş zamanı səfir Erkan Özoral AİI rəhbərliyinə təşəkkürünü bildirərək, səslənən təklifləri müsbət qarşıladığını söyləyib, əlaqələrin qurulması üçün mühüm addımlar atılmasının vacibliyindən danışıb, münasibətlərin daha yüksək səviyyəyə çatması üçün əlindən gələni etməyə hazır olduğunu vurğulayıb.

AİI-nin tələbələri ilə görüşdə Səfir Türkiyə-Azərbaycan münasibətlərinə toxunaraq, Ulu Öndər Heydər Əliyevin “Bir millət - iki dövlət” sözlərini xatırladıb, iki ölkə arasında münasibətlərin yüksələn xəttlə inkişafından məmnunluğunu ifadə edib. Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişafının böyük əhəmiyyətə malik olduğunu, tarixi köklərə söykəndiyini, eyni millətə, eyni dilə, eyni dinə sahib olan iki xalq arasındakı qardaşlıq münasibətinin əsrlər boyu yaşadığını və bu əlaqələrin hazırda daha da zənginləşdiyini, yeni səviyyəyə yüksəldiyini bildirib.

2018-ci ilin noyabrında İtaliyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Auqusto Massari Azərbaycan İlahiyyat İnstitutunda (AİI) olub.

AİI rektoru Ceyhun Məmmədov Səfiri salamlayaraq, ölkələrimiz arasında ikitərəfli münasibətlərin, hörmətin və qarşılıqlı etimadın yüksək səviyyəsindən məmnunluğunu, qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu ifadə edib. Dünyanın inkişaf etmiş dövlətləri arasında olan İtaliya Respublikasının elm və təhsil mərkəzləri ilə əlaqələrin yaradılmasında maraqlı olduğumuzu bildirən C.Məmmədov xüsusi olaraq vurğulayıb ki, “Azərbaycan multikulturalizmi” fənninin tədris edildiyi qabaqcıl təhsil müəssisələrindən biri də məhz İtaliyanın “La Sapienza” Universitetidir ki, İnstitutumuz bu tədris ocağı ilə əlaqələr qurmaqda maraqlıdır.



**GÜLNAR QULUZADƏ,**
***AİI-nin mətbuatla iş üzrə aparıcı mütəxəssisi***

Səslənən təklifləri müsbət qarşıladığını söyləyən səfir, əlaqələrin qurulması üçün mühüm addımlar atılmasının vacibliyini, qarşılıqlı münasibətlərin daha yüksək səviyyədə inkişaf etməsinə səy göstərməyə hazır olduğunu bildirib.

Sonra səfir Auqusto Massari AİI-nin tələbələri ilə görüşüb. İnstitutun rektoru görüş zamanı Azərbaycan-İtaliya ölkələri arasında siyasi, iqtisadi və mədəni əlaqələrdən, bu sahədə Ulu Öndər Heydər Əliyevin irsinin Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın uğurla davam etdirməsindən söz açıb. C.Məmmədov bildirib ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə İtaliyada Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpa edilməsi, şübhəsiz, böyük hadisədir və tarix durduqca yaşayacaqdır.

Səfir Auqusto Massari bildirib ki, Azərbaycana ilk gəldiyi zaman dini liderlərlə görüşüb, Azərbaycanda mövcud olan multikultural mühitdən məmnundur. Din müxtəlif etiqadlı insanların dinc birgəyaşayışını təmin edən faktorlardan biridir.

2019-cu ilin yanvarında Misir Ərəb Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Adel İbrahim Ahmed İbrahim İnstitutumuzun qonağı olub.

Cənab Ceyhun Məmmədov səfiri salamlayaraq, ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edib. AİI-nin yaranma səbəbi, fəaliyyət istiqamətləri, hədəfləri haqqında danışan rektor islamşünaslıq və dinşünaslıq sahələri üzrə tələbə qəbulu həyata keçirən AİI-də gələcəkdə yəhudilik və xristianlıqla bağlı ixtisasların da açılacağını qeyd edib. Tələbələrin müasir sosial elmlərin metodları əsasında İslamla yanaşı, digər dünya dinlərinin inanc, ibadət, əxlaq sistemi və ictimai strukturları, həmçinin dini elmlərlə yanaşı, fəlsəfə, sosiologiya, psixologiya, multikulturalizm və digər sosial və humanitar elmlərin mənimsənilməsi imkanlarının olması da səfirin diqqətinə çatdırılıb.

AİI-nin Qafqazda, eləcə də dünyada qabaqcıl təhsil müəssisəsi olmağı qarşısına məqsəd qoyduğunu bildirən rektor institutun xarici təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm verdiyini qeyd edib.

Misir Ərəb Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli Səfiri cənab Adel İbrahim Ahmed İbrahim Azərbaycanda belə bir təhsil müəssəsinin fəaliyyətə başlamasını böyük məmnunluqla qarşılayıb. AİI-nin məqsəd və hədəflərini yüksək qiymətləndirən səfir institута fəaliyyətində uğurlar arzulayıb. O, təhsil müəssisəsində islamla yanaşı, digər dünya dinlərinin tədris edilməsini, o cümlədən, fəlsəfə, sosiologiya, məntiq, tarix kimi dünyəvi fənlərin keçirilməsini böyük maraqla qarşılayıb.

Görüşdə gələcək əməkdaşlıqla yanaşı, tələbə-müəllim mübadiləsi, birgə seminarların təşkili və digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Daha sonra Səfir İnstitutun kitabxanasını ziyarət edib. Kitabxana fondunun zənginliyindən heyranlığını ifadə edən səfir ərəb dilində olan ədəbiyyata xüsusi diqqət yetirib. Növbəti tədris ilində görüşlər davam edəcək.

www.ait.edu.az

*Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi*
*Azərbaycan İlahiyyat İnstitutu*

*Ünvan:* ***AZ1141, Bakı şəhəri, Əhməd Cəmil, 41/A***
*Telefon:* ***(+99412) 510-65-45***
*Email:* ***info@ait.edu.az***
*Facebook:* ***ilahiyyatinstitutu***
*İnstagram:* ***ilahiyyatinstitutu***
*Twitter:* ***azeilahiyyat***